# IDEA İctimai Birliyi

(Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA-nın təsisçisi Leyla Əliyevanın ekologiyaya dair çıxışları, müsahibələri və həyata keçirdiyi layihələr)

MÜNDƏRİCAT

- **IDEA haqqında**
- **ÇIXIŞLAR**
- Leyla Əliyevanın Memorandum İmzalama Mərasimindəki çıxışı *(6 fevral 2014-cü il)*
- IDEA-nın təsisçisi Leyla Əliyevanın Bakı Humanitar Forumunda çıxışı *(2 noyabr 2013-cü il)*
- Leyla Əliyevanın "Yer kürəsi uşaqların gözü ilə" fotofestivalı və sərgisində çıxışı *(16 may 2013-cü il)*
- Leyla Əliyevanın Krans Montana forumundakı çıxışı *(2 iyul 2012-ci il)*
- Leyla Əliyevanın "Böyük beşlik" sərgisindəki çıxışı *(21 may 2012-ci il)*
- Leyla Əliyevanın Britaniya parlamentinin Lordlar palatasında çıxışı *(9 aprel 2012-ci il)*
- Leyla Əliyevanın "Bakıya uçuş" sərgisindəki çıxışı *(19 yanvar 2012-ci il)*
- Leyla Əliyevanın Gənc Ekoloqların Qəbələdə təşkil olunmuş Beynəlxalq Düşərgəsindəki çıxışı *(2 dekabr 2011-ci il)*
- IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər" mövzusunda ikinci plenar sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çıxışı *(5 may 2017-ci il)*
- Bakıda Ümumdünya Ərzaq Gününə həsr edilən tədbir keçirilib: Heydər Əliyev Fondunun vitse-prezidenti, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib *(16 oktyabr 2017-ci il)*
- Bakıda "2030 Gündəliyinin ətraf mühit aspektləri" mövzusunda Milli Gənclər Forumu keçirilib: Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai birliyinin təsisçisi, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva Forumun açılış mərasimində çıxış edib *(5 iyun 2018-ci il)*
- FAO-nun Romadakı baş ofisində "Azərbaycan otağı"nın açılışı olub: Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış etmişdir *(25 sentyabr 2018-ci il)*
- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib *(4 dekabr 2023-cü il)*

- **MÜSAHİBƏLƏR**
- "Interview Magazine" jurnalının son nömrəsində xanım Leyla Əliyeva ilə müsahibə dərc edilmişdir *(11 aprel 2014-cü il)*
- Leyla Əliyeva: "Biz hamımız Planetimiz üçün məsuliyyət hiss etməliyik" *(13 yanvar 2012-ci il)*
- **LAYİHƏLƏR**
- Gənc ekoloqların beynəlxalq düşərgəsi *(2011-ci il)*
- "Yaşıl həftə" *(2011-ci il)*
- "IDEA yaşıl Azərbaycan naminə" layihəsi *(2012-ci il)*
- "Green Corps" yay məktəbi *(2012-ci il)*
- Yaşıl söhbət klubu *(2012-ci il)*
- "Təmiz şəhər naminə!" III Yay Məktəbi *(2012-ci il)*
- "Arzuladığın gələcək" layihəsi *(2012-ci il)*
- Bakı Debat Forumu "Yaşıl Düşüncə Kuboku-2012" *(2012-ci il)*
- "Quşlar üçün sığınacaq dizaynı" müsabiqəsi *(2012-ci il)*
- Qız Qalası ətrafında uzunqanad quşlarına alternativ yuvaların qurulması *(2012-ci il)*
- "Ekoloji dərslik" layihəsi *(2012-ci il)*
- "Mesajını Rio+20-yə çatdır" inşa müsabiqəsi *(2012-ci il)*
- Bioloji parçalana bilən paketlərin ictimai istifadəyə verilməsi *(2012-ci il)*
- Tullantıdan incəsənətə *(2012-ci il)*
- Daha yaşıl Azərbaycan üçün Bakı və Gəncə könüllüləri səfərbər oldu *(2013-cü il)*
- Gəncədə eko-velosiped layihəsi *(2013-cü il)*
- "Eko rəsm gündəliyi 2013" *(2013-cü il)*
- Ceyranların Gürcüstan Respublikasına reintroduksiyası *(2013-cü il)*
- Sahilyanı təmizlik aksiyası *(2013-cü il)*
- "Ətraf mühit üçün təkrar istifadə" *(2013-cü il)*
- "Yer kürəsi uşaqların gözü ilə" gənclərin beynəlxalq fotomüsabiqəsi *(2013-cü il)*
- "Ümumrespublika Yaşıllaşdırma" marafonu *(2014-cü il)*
- "Eko Rəsm Gündəliyi 2014" beynəlxalq müsabiqəsi *(2014-cü il)*
- 3D eko qraffiti layihəsi *(2014-cü il)*
- "Ağacların kəsilməsinə yox!" proqramı *(2014-cü il)*
- Qafqaz Biomüxtəlifliyi Sammiti *(2014-cü il)*
- "Məhəbbət ağacı" layihəsi *(2014-cü il)*

- "Eko Ev" *(2014-cü il)*
- Hər kağızı bir yarpağa dəyişək *(2014-cü il)*
- “Uğura gedən yol” *(2015-ci il*)
- "Uşaqlar üçün ekoloji laboratoriya" *(2015-ci il*)
- "Yaşıllıqların artırılması və keyfiyyətinin yaxşılaşdırılması" proqramı *(2016-cı il*)
- “Ətraf mühiti birgə qoruyaq” ekoloji tədris proqramı *(2016-cı il*)
- IDEA “Yaşıl söhbət klubu” *(2016-cı il*)
- Elmi mövzularda seminar və məşğələlər *(2016-cı il*)
- "Uşaqlar üçün ekoloji laboratoriya" *(2016-cı il)*
- “Ağacların kəsilməsinə yox!” proqramı *(2016-cı il)*
- “Hər kağızı bir yarpağa dəyişək" *(2016-cı il*)
- **DAVAM EDƏN LAYİHƏLƏR**
- "Uğura gedən yol"
- “Ümumrespublika Yaşıllaşdırma” marafonu
- Ağacların kəsilməsinə yox!
- Uşaqlar üçün ekoloji laboratoriya
- “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- **IDEA haqqında xəbərlər**
- IDEA İctimai Birliyi “Təmiz Kür” şüarı ilə aksiya keçirib
- Leyla Əliyeva Şimali Qafqazda Bəbirlərin Bərpası Mərkəzində olub
- IDEA İctimai Birliyi IUCN-nin Ümumdünya Mühafizə Konqresində
- IDEA İctimai Birliyi IUCN-nin Ümumdünya Mühafizə Konqresində
- IDEA “Yaşıl söhbət klubu” layihəsi çərçivəsində növbəti görüş keçirib
- Heydər Əliyev Mərkəzində Ümumdünya Ərzaq Gününə həsr olunmuş tədbir keçirilib
- IDEA Heyvanlara Qayğı Mərkəzinin açılışı olub
- IDEA İctimai Birliyi və “Qafqaz Təbiəti Mərkəzi” arasında əməkdaşlıq sazişi imzalanıb
- IDEA Heyvanlara Qayğı Mərkəzi rəsmi olaraq fəaliyyətə başlayır
- Leyla Əliyeva “Azərbaycan. Ceyranların xilası” sənədli filminin təqdimatında iştirak edib
- IDEA rəhbəri Leyla Əliyevanın iştirakı ilə “Məktəb bağları” layihəsinə start verilib
- IDEA “Eko-skaut” layihəsinə start verdi
- Leyla Əliyeva Şahdağ Milli Parkında olub
- Leyla Əliyeva BMT-nin Ətraf Mühit Proqramının icraçı direktorunun müavini ilə görüşüb

- IDEA gəncləri beynəlxalq müsabiqədə iştiraka çağırır
- Heydər Əliyev Fondu uşaqları növbəti dəfə sevindirdi
- Salyanda ekoloji yay düşərgəsinə start verilib
- IDEA-nın təşəbbüsü ilə Nəsimi rayonunun Asif Məhərrəmov küçəsində yaşıllıqlar bərpa edildi
- "Ceyranları qoruyaq!" ekoloji yay düşərgəsi uğurla başa çatıb
- IDEA "Eko-skaut" layihəsi uğurla davam edir
- IDEA Heyvanlara Qayğı Mərkəzinin əməkdaşları sahibsiz heyvanların yığılması işini həyata keçiriblər
- "Uşaqlar üçün laboratoriya" layihəsi çərçivəsində növbəti təlim keçirilmişdir
- IDEA Heyvanlara Qayğı Mərkəzində Ümumdünya Heyvanları Müdafiə Gününə həsr edilən "dəyirmi masa" keçirilib
- IDEA İctimai Birliyinin təşəbbüsü çərçivəsində Lənkəranda 2 minədək ağac əkilib
- Məktəblilər IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında 400-dən çox ağac əkiblər
- Aztəminatlı ailələr onlar üçün salınan fındıq bağlarından gəlir əldə edəcəklər
- "Ekoloji problemlər və onların həlli yolları gənclərin gözü ilə"
- Leyla Əliyeva UNICEF-in regional direktoru ilə görüşüb
- IDEA İctimai Birliyi növbəti xeyriyyə aksiyasını Lənkəranda keçirib
- IDEA İctimai Birliyinin aktiv eko-skautlarına sertifikatlar təqdim edilib
- IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib
- IDEA İctimai Birliyinin "Eko-skaut" layihəsi uğurla davam edir
- Azərbaycanda "Yer saatı 2018" ekoloji kampaniyası keçirilib
- "Azərbaycanın 9 möcüzəsi" silsiləsindən "Abşeron Milli Parkı" sənədli filmi təqdim olunub
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib
- Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- "Bəbirləri mühafizə edək!" ekoloji yay düşərgəsi
- "Zubrları təbiətimizə qaytaraq!" ekoloji yay düşərgəsi uğurla başa çatdı
- Azərbaycanda "Dünyanın ən böyük dərsi" layihəsi həyata keçirilir
- Azərbaycanda "Dünyanın ən böyük dərsi" layihəsi reallaşdırılır

- Bakıda "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub
- Lerikdə aztəminatlı ailələr üçün meyvə bağları salınıb
- Leyla Əliyevanın təşəbbüsü paytaxtın abadlaşdırılması prosesinə böyük təkan verir
- "Caspian Ecology" IX Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisi çərçivəsində növbəti konfrans keçirilib
- İDEA-nın təşəbbüsləri: xeyirxahlıq və humanizmə çağırış
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Paytaxtda abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- Təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir
- Təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir
- Leyla Əliyevanın paytaxta növbəti töhfəsi
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Binəqədi rayonunda "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət sakinlərin istifadəsinə verilib
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış daha iki həyətin açılışı olub
- Ağgöl Milli Parkına buraxılmış ceyranların sayı təbii yolla artaraq 60-ı keçib
- Bakıda IDEA İctimai Birliyinin "Şəhər ekologiyası" layihəsi həyata keçirilir
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır
- "Şəhər ekologiyası" layihəsi uğurla davam edir
- "Azərbaycanın 7 möcüzəsi" televiziya layihəsinə start verilib
- IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Novxanı çimərliyində təmizlik aksiyası
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı
- IDEA ilə Ümumdünya Turizm Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb
- Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

- “Bizim həyət” layihəsi çərçivəsində Binəqədidə abadlaşdırılan daha bir həyət sakinlərin istifadəsinə verilib
- IDEA-nın “Bizim həyət” layihəsi çərçivəsində növbəti həyət abadlaşdırılıb
- "Bizim həyət" layihəsi çərçivəsində Bakıda abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- Bakıda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- Binəqədi rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- “Bizim həyət” layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb
- "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- “Bizim həyət” layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb
- “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- IDEA İctimai Birliyi tərəfindən Bakıda tutuquşular məskunlaşdırılır
- “Bizim həyət” layihəsi çərçivəsində Nizami rayonunda daha bir həyət abadlaşdırılıb
- Binəqədi rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- IDEA İctimai Birliyi vətəndaşlara müraciət edib
- “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət
- “Bizim həyət” layihəsi çərçivəsində Səbail rayonunda daha bir həyət abadlaşdırılıb
- “Bizim həyət” layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb
- IDEA təşkilatının “Bizim həyət” layihəsinə Yevlax şəhəri də qoşulub
- Vətəndaşların yerli su sızmaları barədə məlumat verməsi üçün mobil tətbiq istifadəyə veriləcək
- Nizami rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Suraxanı rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti məhəllə sakinlərin istifadəsinə verilib
- Nizami rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Paytaxtın Nəsimi rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

- Paytaxtın Yasamal rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- IDEA İctimai Birliyi Ermənistan tərəfindən ekoloji terrora məruz qalmış ərazilərin yenidən canlandırılması istiqamətində işlər görəcək
- Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- "Yaşıl Marafon" çərçivəsində Qubadlıda ağacəkmə aksiyası keçirilib
- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qızılağac Milli Parkına səfər edib
- Suraxanı rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Nərimanov rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Leyla Əliyeva nərə balıqlarının suya buraxılması mərasimində iştirak edib
- Nərimanov rayonunda növbəti "Bizim həyət" sakinlərin istifadəsinə verilib
- Paytaxtda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- "Zubrları təbiətimizə qaytaraq!" ekoloji yay düşərgəsi uğurla başa çatıb
- Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub
- "Bizim həyət"lə abadlaşan küçələr, sevinən sakinlər: Nəsimi rayonunda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib
- Gənc ekoloqlar işğaldan azad olunmuş ərazilərin ekoloji qiymətləndirilməsi üçün Qarabağa səfər ediblər: Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsi uğurla davam etdirilir
- "Bizim həyət": Təbiətə verilən "yaşıl nəfəs": Paytaxtın Nizami rayonunda növbəti abad həyət istifadəyə verildi
- Nəsimi rayonunda növbəti abad həyət sakinlərin istifadəsinə verilib
- "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib
- Qarabağın ekoloji qiymətləndirilməsi layihəsinin yekun tədbiri keçirilib
- Xətai rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib
- "Yaşıl Marafon 2022" ağacəkmə kampaniyasına start verilib

- “Yaşıl Marafon 2022” ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya keçirilib
- İqlim dəyişikliyi ilə bağlı gənclər konfransı keçirilib
- Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Cenevrədə “Mənim dənizlərim, mənim okeanlarım” sərgisinin açılışında iştirak edib: BMT-nin Cenevrə bölməsinin baş direktoru ilə görüş olub
- "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyət istifadəyə verilib
- “Bizim həyət” layihəsi çərçivəsində Sabunçu rayonunda növbəti həyət abadlaşdırılıb
- Bakıda “Bizim həyət” layihəsi çərçivəsində yeni həyət istifadəyə verilib
- “Bizim həyət” layihəsinin növbəti ünvanı…: IDEA-nın təşəbbüsü ilə Nərimanov rayonunda 700 sakinin yaşadığı həyət yenilənib
- IDEA İctimai Birliyi “Sevincini bölüş” kampaniyasına başlayır
- İDEA “Yaşıl marafon”a start verdi
- “Yanğından yaşıllığa” kampaniyası çərçivəsində yanğına məruz qalmış meşə fondu torpaqlarında meşəbərpa tədbirləri davam edir
- Azərbaycanda nəcib maralların reintroduksiyası həyata keçirilir
- Leyla Əliyevanın təşəbbüsü ilə...
- Bakıda ağacların qeydiyyatı və nömrələnməsi həyata keçirilir: Leyla Əliyevanın iştirakı ilə layihə üzrə ilk ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub
- Leyla Əliyevanın iştirakı ilə növbəti “Bizim həyət”in açılışı olub
- Paytaxtın Nizami rayonunda “Bizim həyət” layihəsi çərçivəsində yeni həyət istifadəyə verildi
- Leyla Əliyevanın iştirakı ilə növbəti "Bizim həyət"in açılışı olub
- “IDEA” paytaxtın Sabunçu rayonunda yeni abad həyətin açılışını edib
- Növbəti mərhələ Qəbələdə keçiriləcək: IDEA İctimai Birliyi “Gənc arıçı” layihəsinə yenidən start verir
- Bizim həyət”: Baxdıqca insanın ürəyi açılır: Layihə çərçivəsində 152 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib
- IDEA “Sevincini bölüş” kampaniyası çərçivəsində uşaqlar üçün növbəti aksiya keçirib

## IDEA haqqında

IDEA gənc nəsli müsbət və davamlı ekoloji dəyişiklik yaratmağa hazırlamaq naminə dialoq, fəaliyyət, liderlik və təhsil kimi başlıca prinsiplərə əsaslanır.

**Dialoq:**
Mütəmadi olaraq keçirilən tədbirlər və yerli qruplar vasitəsilə həm milli, həm də beynəlxalq səviyyədə fikir mübadiləsi.

**Fəaliyyət:**
Gənclər düşərgəsinin, tədbirlərin və xüsusi ekoloji layihələrin təşkili və bu cür tədbirlərdə iştirak.

**Liderlik:**
Ekoloji problemlərlə mübarizədə öz sözünü deyən və digərlərini öz sırasına cəlb edə bilən gənc liderlərin müəyyən edilməsi və dəstəklənməsi.

**Təhsil:**
Məktəblərin, qrupların və icmaların lazımi vəsaitlərlə təmin edilməsi, onlara ətraf mühiti qorumaq üçün daha yaxşı imkanların yaradılması.

**IDEA haqqında:**
Son illərdə Cənubi Qafqaz regionundakı sürətli inkişaf və sənayeləşmə ekoloji qayğıları və bir çox ekoloji məsələləri də gündəmə gətirmişdir. Azərbaycan neft və təbii qaz ehtiyatları ilə zəngin olan və ekoloji cəhətdən gərgin regionda yerləşən bir ölkə kimi, ekoloji problemlərin yaratdığı təhlükələrin aradan qaldırılmasında fəal olmuşdur. Bunun üçün 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdir. Gənc olmasına baxmayaraq, ölkəmiz gənc nəsli maarifləndirmə işlərinə cəlb etmək və bu cəmiyyətin hər bir üzvünə ətraf mühitin qorunması sahəsində işlər görmək üçün liderlik imkanları açmaqla yanaşı ekoloji cəhətdən təmiz sənaye və müəssisələrin yaradılmasına doğru da istiqamət ala bilib.

Cənubi Qafqazda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzi ilk olaraq Azərbaycanda yaradılıb. Azərbaycan, həmçinin dünyada mövcud olan 11 iqlim tipindən 9-nun olduğu ölkə olmaqla yanaşı, cənubda subtropik palma ağaclarına və ananasına, şimalda isə alp buzlaqlarına görə məşhurdur. Bu, Qafqazdakı vəhşi təbiətin flora və faunasının zəngin biomüxtəlifliyini təmin edən əsas amildir. Azərbaycandakı gənc nəsil bu çətinliyi və dövrümüzdəki ekoloji problemlərin aktuallığını anlayır və ətraf mühitə ümumilikdə böyük maraq göstərirlər.

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxaq dialoq) İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 12 İyul 2011-ci ildə fəaliyyətə başlamışdır.

Təşkilatın əsas məqsədi ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün həllər tapmaqdır.

Qısa müddət ərzində təşkilat gənc ekoloqlar və adi tələbələr üçün ağacəkmə fəaliyyətləri, o cümlədən 5 qitə və 90 ölkədən 1200 iştirakçının qatıldığı “Yer Kürəsi uşaqların gözü ilə” uşaqlar üçün beynəlxalq fotomüsabiqə və digər müxtəlif layihələr həyata keçirmişdir.

IDEA, həmçinin 2011-ci ildə Qəbələdə baş tutan konfrans və 2012-ci ildə UNEP-in əməkdaşlığı ilə reallaşdırılan “Yaşıl həftə” konfranslar silsiləsi kimi beynəlxalq mütəxəssislərin iştirak etdiyi çoxsaylı konfrans və görüşləri reallaşdıraraq dünyanın müxtəlif ölkələrindən olan gənc ekoloqların şəbəkələşməsini təmin etmişdir.

IDEA ekoloji maariflənmə işini ailə, cəmiyyət və milli həyatın ən mühüm hissəsinə çevirmək üçün bütün fəaliyyətini gənclər üzərində qurmuşdur. Bizim missiyamız gənclərin regional və beynəlxalq

səviyyədə real və virtual cəmiyyətlərinin yaradılması, ətraf mühitin qorunması ilə bağlı məlumatlar verən və praktik çağırışlar edən açıq dialoqlar vasitəsilə həmin cəmiyyətin inkişaf etdirilməsi, yerlərdə ekoloji maarifləndirmə işlərini həyata keçirmək üçün bu cəmiyyətin hər bir üzvünün lider kimi yetişməsini təmin etməkdir.

**http://ideacampaign.org/az/b%C3%B6y%C3%BCk_idea_n%C9%99dir.html**

## ÇIXIŞLAR

### Leyla Əliyevanın Memorandum İmzalama Mərasimindəki çıxışı

*(6 fevral 2014-cü il)*

Hörmətli Cənab Səfir,
Hörmətli qonaqlar!

Bu gün Sizləri Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Bakı Ofisi ilə Heydər Əliyev Fondu arasında sənədin imzalanma mərasimində salamlamaq mənim üçün xoşdur. Bildiyiniz kimi, bu sənəddə 2012-ci ilin iyun ayında Rio de Janeyro şəhərində keçiriləcək BMT-nin Rio+20 Dayanıqlı İnkişaf Qlobal Konfransı üçün hazırlıq prosesinə BMT sistemindən koordinasiyalı dəstəyi təmin etmək üçün IDEA-nın BMT İnkişaf Proqramı ilə tam əməkdaşlığı nəzərdə tutulur.

"Rio+20" konfransı 1992-ci ildə keçirilmiş ətraf mühit və inkişaf məsələləri üzrə BMT-nin tarixi konfransının 20 illiyini qeyd etmək üçün təşkil olunacaqdır.

Rio de Janeyro şəhərində baş tutacaq bu vacib konfransda biz zəmanəmizin əsas problemlərini, xüsusilə də, ətraf mühitin mühafizəsini, dayanıqlı inkişafı, yoxsulluğun səviyyəsinin azaldılmasını müzakirə edəcəyik. Sözsüz ki, qarşımızda duran çətinliklərlə bağlı müvafiq cavab tədbirlərini də burada müzakirə edəcəyik. Çalışacağıq ki, BMT-yə üzv olan ölkələr tərəfindən müvafiq siyasi iradənin göstərilməsinə nail olaq.

20 il bundan əvvəl Rioda ekspertlər qərara gəldilər ki, dayanıqlı və davamlı inkişaf ümumi və xüsusi qərarların qəbul edilməsi üçün 3 əsas dayağın - sosial, iqtisadi və ekoloji məqsəd və hədəflərin - balanslaşdırılmış ifadəsidir. Ətraf mühitin idarə olunması hər hansı bir ölkədə davamlı inkişafın üçüncü və ən əsas dayağını təşkil edir. Ətraf mühit və inkişaf üzrə Rio Bəyannaməsinin 4-cü prinsipində nəzərdə tutulur ki, "Davamlı inkişafa nail olmaq üçün, ətraf mühitin mühafizəsi bu inkişaf prosesinin ayrılmaz hissəsini təşkil etməli və bundan heç cür ayrılmamalıdır". Azərbaycanda inkişaf etməkdə olan sosial və iqtisadi həyatı nəzərə alsaq, ölkənin ekoloji göstəricilərinin yaxşılaşdırılması ölkəmizdə davamlı inkişafın əldə olunması istiqamətində əhəmiyyətli addımdır. IDEA, bir kampaniya olaraq, həmçinin gənclərin ətraf mühitin idarə olunması sahəsindəki rolunu artırır və "RİO-əvvəl və sonra" adı altında beynəlxalq dialoqları dəstəkləyir.

Bu ilin əvvəlində BMT Baş katibi Ban Ki-Mun BMT iclaslarının, o cümlədən RİO+20 konfrasının nümayəndə heyətlərinə gənclərin daxil edilməli olduğunu bildirmişdi. Baş katibin "gənclərin Rio+20 prosesinə yeni dinamik ideyaların, təzə fikirlərin və enerjinin gətirilməsində mərkəzi rol oynaya bilməsi və oynamalı olması" çağırışı bizləri gənclərin gücünə bel bağlamağa həvəsləndirdi. Bütün dünyada 15-24 yaş aralığında 1.8 milyard insan yaşayır və bu da davamlı inkişafı dünya ölkələrinin yürütdükləri siyasətin tərkib hissəsinə əlavə etmək üçün gözəl imkandır. Bu rəqəmlər – gənclərin sayı- Azərbaycanda təxminən 3 milyona çatır. Əgər bu gəncləri doğru istiqamətdə yönəltsək, bu güclər dünyamızı yaşıl gələcəyə aparar.

Təəssüflər olsun ki, 1992-ci ildə təşkil edilmiş Rio konfransından sonra görülmüş tədbirlərə, atılmış addımlara baxmayaraq, ətraf mühitin durumu aşağı düşməyə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı uyğunsuzluq isə daha da artmağa davam etdi. Əvvəlki illərin təcrübələri göstərdi ki, yeni ekoloji təşkilatların formalaşmasına baxmayaraq onlar ekoloji problemlərin qarşısını almaqda aciz qaldılar. Bu geriləmə onu göstərir ki, ekoloji problemlərin qarşısını beynəlxalq və ətraf mühitin idarə olunması prosesini gücləndirməklə almaq mümkündür. Yeni təşkilat yaratmaqdansa koordinasiyalı dialoq qurmaq və güclü əməkdaşlıq yaratmaq bütün qlobal fəaliyyətlərin əsas diqqət nöqtəsində olmalıdır. Ətraf mühitlə bağlı dialoq və əməkdaşlığın gücləndirilməsi məqsədilə IDEA yaxın və uzaq ölkələrdən olan yüzə yaxın ətraf mühit fəallarını noyabr ayında Qəbələdə bir araya gətirəcək və onlar orda səylərini koordinasiya edərək regionda və regiondan kənarda ekoloji sahədə səhv idarəçiliyin aradan qaldırılma yolları üzərində baş sındıracaqlar.

Qarşımızda duran əsas məqsədlərdən biri də Qəbələdə yaradılacaq düşərgədir ki, biz bununla "Rio+20" konfransını keçirmək üçün daha yaxşı hazırlıq səviyyəsinə nail ola bilək. Bu panellərdə biz Rio+20-nin əsas hədəfi olan bir mövzuda – yaşayış standartlarını yüksəltmək və yoxsulluğun səviyyəsinin aşağı salınması vasitəsi kimi yaşıl iqtisadiyyata müraciət edəcəyik. Yaşıl iqtisadiyyat yoxsulluğun səviyyəsinin azaldılması ilə əsaslı şəkildə əlaqəlidir. Minilliyin Ekosisteminin Qiymətləndirilməsi hesabında qeyd edilir ki, ətraf mühit, iqtisadiyyat və sosial

rifahın durumu arasında birbaşa əlaqə mövcuddur. Təəssüflər olsun ki, dünya iqtisadiyyatı böhranla mübarizə apardığı bir zamanda siyasi kursu müəyyən edən şəxslər tərəfindən davamlı inkişaf siyasətinin təsiri altında hazırlanmış gündəlikdən kənara çıxmaq adi hal alıb. Buna görə də, IDEA kampaniyasının üzvləri yaşıl siyasəti regionun inkişaf prosesinin mərkəzinə gətirmək məsələsinə ciddi yanaşır.

Biz noyabrı "Ekologiya ayı" elan etmişik və bununla bağlı qarşımızda bir sıra təşəbbüslər vardır. Bu, bilavasitə ətraf mühitə dostca yanaşmaqdan ibarətdir. Biz iməciliklər keçirilməsi, kütləvi halda ağacların əkilməsi, parkların yenidən qurulması, şəhər boyu quşlar üçün evlərin quraşdırılması və nəsli kəsilməkdə olan heyvanların yenidən təbiətə qaytarılması, bundan başqa, çirklənmiş torpaqların təmizlənməsi və əyalətlərdə içməli suyun olmasını istəyirik.

Biz "Cavan ruh üçün cavan ağac" kampaniyasına başlamışıq və bu kampaniya çərçivəsində Rio konfransına kimi Azərbaycanda yaşayan 3 milyon gənci təmsil edərək 3 milyon ağac əkməyi planlaşdırırıq. Biz həmçinin Azərbaycan Alpinizm Federasiyası ilə birlikdə Qafqaz dağlarının ən yüksək zirvələrindən birinə ekspedisiya təşkil etməyi planlaşdırmışıq.

Böyük əhəmiyyət kəsb edən bu əməkdaşlıq sazişi, həmçinin BMT-nin dəstəyi və təcrübəsi ilə biz - IDEA kampaniyası yerli və regional olmaqla təhsil, iqtisadiyyat, kənd təsərrüfatı, ekoturizm, enerji, texnologiya, gənclər, səhiyyə və s. kimi müxtəlif cəbhələrdə çalışmağı planlaşdırırıq. Cəmiyyətimizin gənc təbəqəsi arasında məlumatlılığı artırmaq məqsədilə, biz məktəb və universitetlərə üz tutacaq, hər qapını döyəcək, hər bir ətraf mühit fəalları ilə söhbət edəcək və əsrimizin ekoloji problemlərindən xəbəri olmayan şəxslərin maarifləndirilməsi üçün çalışacağıq. Biz, həmçinin uzaq regionlarda yaşayan şəxsləri məlumatlandıracaq, həyatlarında yaşıl dəyişiklik etmək istəyən şəxslər arasında sinerji yaratmaq istəyənlərə təlimlər keçəcəyik. Biz "Bir yer kürəsi - bir gələcək" yaradılmasında öhdəmizə düşən hər bir şeyi edəcəyik.

## IDEA-nın təsisçisi Leyla Əliyevanın Bakı Humanitar Forumunda çıxışı

*(2 noyabr 2013-cü il)*

Hörmətli qonaqlar,

Xanımlar və cənablar,

Əvvəla, Sizlərin hər birini Azərbaycanda salamlamaq istərdim – ölkəmizə xoş gəlmisiniz!

Bu gün bu forumda bu qədər hörmətli ekspertləri görməyə şadam. İldən-ilə Forum iştirakçılarının siyahısı artdıqca forumun qlobal əhəmiyyəti də artır.

Biz strateji yeri və unikal təbii kontrastları ilə zəngin olan gözəl ölkəmiz ilə fəxr edirik.

Bizim xalqımız müxtəlif adət-ənənələr, dillər, xalqlar və dinlərlə əsrlər boyunca təmas və əlaqə sayəsində əldə olunmuş qədim və zəngin mədəniyyətə malikdir.

Avrasiyanın mərkəzində yerləşən Azərbaycan müxtəlif mədəniyyət və sivilizasiyaların dəyərlərini mənimsəyib. Azərbaycan həmişə müxtəlif din, millət və adət-ənənələrin məskəni olub. Tolerantlıq bizim üçün yeni ideya deyil, mədəniyyətimizin və həyatımızın bir hissəsidir.

Multikulturalizm ölkəmizin simasını, Azərbaycan cəmiyyətinin xüsusiyyətini və mənasını, eləcə də Azərbaycanın dünya ilə əlaqələrinin çərçivəsini dəyişməyə yardım etdi.

Məsələn, 2004-cü ildə Heydər Əliyev Fondunun yaradılmasında əsas məqsəd təkcə Azərbaycan milli mədəniyyətini xaricdə təbliğ etmək deyil, həmçinin bütün dünyaya tolerantlıq və harmoniya toxumları səpmək idi. Dünyanın müxtəlif yerlərində Azərbaycan mədəniyyətinə həsr olunmuş tədbirlərin təşkili, Qarabağın ən məşhur və əvəzsiz xəzinəsi olan muğamın təbliği, mədəniyyətlərarası forumlar və eləcə də Avropanın bir sıra aparıcı ölkələrinin paytaxtlarında “Bakıya uçun” adlı incəsənət sərgisindən tutmuş Pakistan, Gürcüstan, Misir, Rusiyada məktəblərin yenidən qurulmasına kimi digər uğurlu layihələr bizim fəaliyyətimizin yalnız bir hissəsini təşkil edir.

Vatikanda Müqəddəs Roma katakombaları və Strasburq Kafedral kilsəsi Heydər Əliyev Fondunun “Tolerantlığınünvanı - Azərbaycan” layihəsi çərçivəsində bərpa olundu.

Heydər Əliyev Fondu, həmçinin Azərbaycanda ekoloji layihələrə də xüsusi diqqət ayırıb. 2010-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə ilk ceyran qrupu təbii yaşayış mühitinə köçürülüb. Daha sonra, 2011-ci ildə Fondun layihəsi çərçivəsində cəmiyyətin diqqətini ekoloji problemlərə cəlb etmək məqsədilə IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) aksiyasına start verdik.

Regionlarda seminarların təşkil edilməsi, ədəbiyyatın paylanması və yerli ekoloqlara dəstək vermək – bütün bunlar sıravi vətəndaşlar arasında ətraf mühitin durumu ilə bağlı məlumatlılığı artırmaq məqsədilə həyata keçirilib.

Azərbaycanda yaşayan üç milyon gənci təmsil edərək əkdiyimiz üç milyon ağac Azərbaycanlıları bir araya gətirmək və ekoloji problemlərə diqqət yetirmək baxımından əhəmiyyətli addım oldu. Nəticədə, IDEA Kampaniyası və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə ölkədə son zamanlar 14 milyon ağac əkilib.

Azərbaycanla yanaşı bütün dünyada gənclər arasında dialoq, təhsil, liderlik və əməkdaşlığı təbliğ etmək məqsədilə dünyanın bir sıra ekoloji təşkilatları ilə əməkdaşlıq münasibətləri qurmuşuq.

İndi IDEA Azərbaycanda ekoloji layihələrin icrası üçün UNEP-in əsas tərəfdaşıdır.

IDEA Gürcüstanda ceyranların reintroduksiyasını nəzərdə tutan layihəyə başlayıb. Bundan başqa, ötən 10 ildə ölkəmiz Qafqaz bəbirlərinin vəziyyətinin qiymətləndirilməsi və onların qorunub saxlaması üçün yanaşmalar işləyib hazırlamaq üçün əhəmiyyətli işlər görüb.

Avropada çox nadir hesab olunan bu gözəl heyvana uzun müddət idi ki, heç yerdə rast gəlinmirdi. Bu gün, bu nadir və nəsli kəsilməkdə olan heyvan növünün yalnız Azərbaycanda mövcud olması sübuta yetirildikdən sonra bizim məqsədimiz onları qorumaq və vəhşi heyvanlar üçün təbii şəraitdə yaşayış şəraitini təmin etməkdir.

Ekoloji problemlər barədə məlumatlılığın artırılması istiqamətində atılmış növbəti uğurlu addım “Yer kürəsi uşaqların gözü ilə” adlı beynəlxalq müsabiqə oldu. “Mən təbiəti sevirəm və Təbiətin çirklənməsindən qorxuram” adlı ilk foto müsabiqədə dünyanın 90-dan çox ölkəsindən 1200 uşaq iştirak etdi.

Növbəti "Su yoxdur - həyat yoxdur" müsabiqəsinə 2014-cü ildə start veriləcək. Bu müsabiqə uşaqların qlobal ekoloji problemlərlə bağlı fikir və narahatlıqlarının ifadə edilməsi üçün növbəti əlavə platformadır.

Bizim təbiətimizin gələcəyi bizim, ailəmizin və cəmiyyətimizin, eləcə də gələcək nəsillərimizin yaşayışını təmin edəcək ekologiya barədə bələdçi olmaq baxımından yaxşı təhsilli cəmiyyətdən asılıdır.

Buna görə də istəyirik ki, insanlar elə erkən yaşlarından özlərində əməkdaşlıq və məsuliyyət dəyərlərini möhkəmləndirsinlər və biz də uşaqları təkcə problem həll edən deyil, həmçinin problem axtaran və həll yolları müəyyən edən şəxslər olmasına həvəsləndirək.

Xanımlar və Cənablar,

Ümid edirəm ki, Azərbaycanın nümunəsi hamımızın ümumi planeti olan Yer kürəsi naminə bir araya gəlmək baxımından dünya ictimaiyyəti üçün yaxşı ssenari olacaq.

İnanıram ki, bizdən gələcəyimizin memarı olmaq tələb olunur, gələcəyimizi itirən yox.

Biz öz yardım əlimizi qonşularımıza uzatdıqca onlara xatırladırıq ki, biz onlarla təkcə sərhədlərimizi deyil, həmçinin eyni regionu bölüşürük.

Düzdür, ola bilsin ki, bunun üçün bizə illər, onilliklər, hətta bir neçə nəsil lazım olsun, lakin əgər biz nə etmək istədiyimizi açıq şəkildə biliriksə, onda biz atalarımızın bizə qoyub getdiyi bünövrə üzərində bunu edə bilər və gerçəkləşmiş arzularımızı uşaqlarımıza ötürə bilərik.

Mən buna şübhə etmirəm. İnanıram ki, burada, Bakı Humanitar Forumunda təmsil olunan ekspertlərin keyfiyyəti, səlahiyyəti və sayları açıq beynəlxalq dialoq üçün bir möhkəm platforma olacaq.

Bir daha, hər kəsi Azərbaycanda salamlayıram və ümid edirəm ki, sizin burada olmağınız Avropanın şərq paytaxtında qonaqpərvərliyin həqiqi mənasını daha yaxşı dərk etmək baxımından sizlərə yardımçı olacaq.

Çox sağ olun!

## Leyla Əliyevanın “Yer kürəsi uşaqların gözü ilə” fotofestivalı və sərgisində çıxışı

*(16 may 2013-cü il)*

Əziz dostlar,
Hörmətli qonaqlar,
Xanımlar və Cənablar!
Azərbaycana xoş gəlmisiniz!

Bu sərgi tanınmış fotoqraf və AİNA təşkilatının qurucusu Reza Deqati ilə IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) Kampaniyası tərəfindən birgə təşkil edilib və onların səyləri, dəyərli töhfələri olmadan festivala belə hərtərəfli beynəlxalq maraq oyada bilməzdik.

Mən şadam ki, bu gün Bakıda öz sahəsində gənclərin birinci ekoloji beynəlxalq foto festivalı və sərgisini açırıq.

Azərbaycan öz əsrarəngiz təbiəti, zəngin heyvanat aləmi ilə məşhurdur və onun biomüxtəlifliyinin qorunub saxlanmasına çox diqqət yetirilib.

Cəmi bir neçə onillik bundan əvvəl ölkəmizdə ekoloji inkişaf üzrə hər hansı ciddi planlar mövcud deyildi və ölkə ekoloji sabitlik baxımından regionun əksər dövlətlərindən geri qalırdı. Keçmişin səhvlərini düzəltmək üçün ekoloji göstəricilərimizi xeyli yaxşılaşdıran və bu sahədə ölkələrlə əməkdaşlığımızı möhkəmləndirən bir sıra layihələr həyata keçirdik.

Bu gün biz regionda ekoloji təşəbbüslər baxımından liderlik edirik və bizim məlumatlılığın artırılması kampaniyalarımız sərhədləri aşaraq bütün dünyaya yayılıb.

Əziz dostlar,

Bu günkü sərginin mövzusu - "Mən təbiəti sevirəm" və "Mən çirklənmədən qorxuram" fotoları təbiət haqqında fikirləri ifadə etmək imkanı yaradır. "Yer kürəsi uşaqların gözü ilə" qlobal təşəbbüsü elə bir platformadır ki, onun köməyi ilə dünya üzrə bütün gənc istedadlar aktual ekoloji problemləri qərar qəbul edən ekspertlərin, insanların, həmçinin ümumilikdə beynəlxalq ictimaiyyətin diqqətinə çatdıra bilərlər.

Bu sərgi və festivalı hər il təşkil etmək barədə qərar qəbul etməyimizi elan etmək mənə əlavə zövq verir. Bunun sayəsində vacib ekoloji problemlərlə bağlı məlumatlılığın artırılması və belə problemlərə diqqət cəlb edilməsi istiqamətində cəhdlərimizi davam etdirəcəyik.

Bu sərgi, həmçinin bütün dünyadan olan uşaqlar və gəncləri ümumi məsələdə bir araya gətirəcək və onları tədbirlər görmək üçün həvəsləndirəcək.

Xanımlar və cənablar,

Zənnimcə, fotoqrafların təbiəti canlandırma formasını dəyişdirmək lazımdır. Biz tez-tez "Facebook" və ya "Instagram" kimi sosial şəbəkələrdə sadəcə gözəl rəsmlər görürük. Mənə bir rəssam kimi elə gəlir ki, yalnız belə gözəl rəsmlərlə təbiətin şəkillərinin məhdudlaşdırılması heç də yaxşı tendensiya deyil.

Bu gün gördüyümüz və dünyanın 90 ölkəsindən gənc müəlliflərin hazırladıqları minlərlə şəkillərin arasından seçilən fotolar kifayət qədər müxtəlifdir. Gənc yaşlarına baxmayaraq, bu şəkillərin müəllifləri planetin sosial və ekoloji problemlərini təsvir etməklə heyrətamiz kreativlik nümayiş etdiriblər.

Təbiət şəkilləri insanlara planetimizi qorumaq üçün stimul verəcək. O, ekoloji problemləri daha geniş auditoriyaya çıxaracaq və bununla da tədbirlər görmək üçün bizə stimul verəcək.

Əziz dostlar,

Bu festival və sərgi gənc iştirakçılara Bakıda bəzi mərasim və seminarların köməyi ilə fotoqrafiya sahəsində öz biliklərini inkişaf etdirməyə unikal imkan verəcək.

Biz bu günlərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 90 illiyini qeyd edirik və ənənəvi Gül bayramı gənc istedadlar üçün paytaxtımızı bütün gözəlliyi ilə görmək baxımından ideal imkan olacaq.

Bu gün burada bizə qabaqcıl fotojurnalların nümayəndələri, həmçinin incəsənət və mədəniyyət sahəsində dünya şöhrətli ekspertlər qoşulublar. Bu, onların əksəriyyətinin Azərbaycana ilk səfəridir.

Bakı mənsubiyyətindən və maraqlarından asılı olmayaraq, öz qonaqlarının ürək və ağlını həmişə fəth edib.

Bu şəhər gizli füsunkarlığa malikdir: bu şəhərin hər kəsə təklif edəcək bir şeyi var.

Tarixi sevənləri İçərişəhərin dar küçələri ilə ahəstə gəzinti əsrlərin dərinliklərindən keçirərək Şirvanşahlar dövlətinin mövcud olduğu dövrə aparır; incəsənət ustaları şəhərin saysız-hesabsız muzeylərini, emalatxanalarını və qalereyalarını ziyarət edə bilərlər, onlar burada mahir sənətkarlarımızın mükəmməl şedevr yaratdıqlarını görə bilərlər; Azərbaycan xalqı milli musiqidən cazadək musiqinin hər bir üslubuna dəyər verir; milli mətbəxlə maraqlananlar isə yerli xörəklərdən ləzzət ala bilərlər. Günün sonunda isə bir qədər sərin Xəzər küləyi - bu, sizə lazım olan hər şeydir. Bir sözlə, evdən uzaqda olduğunuz halda, Bakıda özünüzü evdəki kimi hiss edəcəksiniz.

**Mən bu təşəbbüsə uğurlar arzulayır və göstərdikləri səylərə görə iştirakçıların hamısını təbrik edirəm.**

**Təşəkkür edirəm.**

## Leyla Əliyevanın Krans Montana forumundakı çıxışı
*(2 iyul 2012-ci il)*

Hörmətli qonaqlar,
Xanımlar və cənablar,
Zati-aliləri,

Mənə bu gün burada böyük həvəslə danışmaq istədiyim bir mövzuda, yəni gənc nəsli zamanımızın ən aktual problemi olan ətraf mühitin qorunması istiqamətində addımlar atmağa həvəsləndirmək barədə danışmaq şansı verdiyinizə görə çox şadam. Mən bu xüsusi imkandan yararlanaraq davamlı ətraf mühitin təmin edilməsində gələcək liderlərin rolunun artırılması üzrə perspektivlərimi təklif etmək istərdim.

Şübhəsiz ki, biz bu müzakirəni bəşəriyyət üçün həlledici anda aparırıq. Dünyanın bir çox xalqları üçün ətraf mühiti qorumaqla davamlı inkişaf təxirəsalınmaz tədbirlərin görülməsini labüd edən kritik məsələdir. Bu gün qarşılaşdığımız ekoloji problemlər heç bir sərhəd tanımır və xalqın rifahı ilə yanaşı əhalinin sağlamlığını, hətta təhlükəsizliyini risk altına almış olur. Buna görə də ətraf mühitin deqradasiyası, təbii resursların idarə olunması, iqlim dəyişikliyi və digər kritik məsələlər bütün ölkələrlə əməkdaşlıq şəklində və beynəlxalq ictimaiyyətin hər bir üzvünün öhdəliklərinin yerinə yetirilməsi yolu ilə həll edilməlidir.

21-ci əsrdə bizim dünyamız az, lakin bir-biri ilə əlaqəli şəkildə inkişaf edir. Bütün bu illər ərzində alimlər qloballaşmanın ətraf mühitə təsirini araşdırıb və indi biz əminliklə deyə bilərik ki, qloballaşmanın ətraf mühitə mənfi təsiri nisbətdən daha çoxdur. Biz qloballaşmanın təbii ətraf mühitimizə mümkün birbaşa və dolayısı təsirini aradan qaldırmaq uçün bunu başa düşməli, balanslaşdırmalı və əlimizdən gələni etməliyik. Və dünya ölkələri buna danışıqlar aparmaq, qüvvədə olan saziş və razılaşmaları icra etməklə nail olmaq istəyirsə, gənc nəslin özünün də oynamağa vacib rolu var.

Cəmi bir ildir ki, Azərbaycanda IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) Kampaniyasına start vermişik və bizim missiyamız ekoloji məlumatlılığı artırmaq məqsədilə gənclərlə birgə çalışmaqdır. IDEA pozitiv və davamlı ekoloji dəyişikləri yaratmaqdan ötrü gənc nəsli təmin etmək üçün bütün əsas inqrediyentləri özündə əks etdirən dialoq, fəaliyyət, liderlik və təhsil prinsiplərinə əsaslanır.

Bütün dünyada artmaqda olan ekoloji problemlər regional əməkdaşlıq tələb edir. Azərbaycanda və Cənubi Qafqazda biz zəngin təbiət möcüzəsi və 11 iqlim qurşağından doqquzunun mövcud olduğu bir regionda yaşadığımızı öyrənə-öyrənə fəxrlə böyüyürük. Lakin biz, həmçinin bilirik ki, bu regionda tükənmək təhlükəsi olan növlərdən tutmuş su təchizatı və insan sağlamlığına sənayenin çirklənməsinin təsirinə kimi ciddi ekoloji problemlər mövcuddur.

Azərbaycanda ekoloji durumla bağlı narahatlıq ciddi qəbul olunur. Deməli, IDEA Kampaniyasının missiyalarından biri fikir mübadiləsinə imkan yaratmaq, debatlar təşkil etmək, şəbəkə qurmaq, milli və regional səviyyədə gənclər arasında bu narahatlığı aradan qaldırmaq üçün əqli gücü səfərbər etməkdir. Bu, mənim bir neçə həftə öncə Cenevrədə UNEP rəsmiləri ilə görüşüm zamanı müzakirə etdiyim əsas mövzu oldu. Biz, həmçinin Azərbaycanda və Qafqazda "yaşıl iqtisadiyyat"ın təbliğinə yönələn bir sıra təşəbbüslər barədə danışdıq.

Bizim ətraf mühitlə əlaqəmizi anlamaq üçün çox iş görülməlidir və inanıram ki, başlamaq üçün ən yaxşı yer sinif otağıdır. Bizim uşaqlarımız Yer kürəsinin fiziki və bioloji sistemlərinin quruluşu, onların fəaliyyətinin nəzərdə tutulan və tutulmayan müsbət və mənfi nəticələri, eləcə də insan tərəfindən yaradılmış və təbii sistem arasında qarşılıqlı əlaqə barədə biliklərə malik olmalıdırlar. Təhsil ətraf mühit sahəsində gələcək liderləri zamanımızın ekoloji tələbləri ilə münasibətdə istifadə olunacaq zəruri bilik və alətlərlə təmin edəcək.

Biz mesajımızı aydın və yüksək səslə göndərməliyik – təmiz dünya və təmiz ətraf mühit təmiz cəmiyyət ilə başlayır. Gənclər arasında məlumatlılığın artırılması və onlara yenidən emalın artırılması, tullantıların azaldılması, enerjinin qorunub saxlanması, suyun yenidən istifadəsi və qorunması, ekoloji yaşıl təcrübənin təbliğ edilməsi kimi vasitələrin öyrədilməsi, nəinki onların cəmiyyətinə faydalı olacaq, hətta iqlim dəyişikliyin sürətini azaldacaq və planetimizin gələcəyini müəyyən etmək üçün təhlükə olan ekoloji deqredasiya tendensiyasını tam olaraq dəyişəcək.

Gələcək bizim bu gün necə yaşamağımızdan asılıdır. Bu, bütün dünya gənclərinin anlamalı olduğu reallıqdır. Biz ekologiyamız üçün məsuliyyəti üzərimizə götürməli və qəbul etməliyik ki, bu gün

atdığımız addımlar sabahkı bəhrələrimizin toxumlarıdır. Bu gün Azərbaycanın ekoloji problemləri əsasən onun nəzarətindən kənar yaranan bir sıra problemlərdir. Uzun illər boyunca Sovet imperiyasının səhv ekoloji siyasəti, o cümlədən təbii ehtiyyatlarımızın məsuliyyətsizcəsinə istismarı nəticəsində sahil və dənizin çirklənməsi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi, meşələrin məhv edilməsi və digər ciddi problemlər dövlətimiz tərəfindən həll edilməli məsələlərdir.

Yerindən və səbəbindən asılı olmayaraq, istənilən müharibə təbiətə bərpa olunması mümkün olmayan zərərlər vurur. Sizə sadə bir nümunə gətirəcəyəm: tükənmə riski altında olan Qafqaz bəbiri – bu problem Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlamaqda davam etməsi nəticəsində yaranıb. Sərhədlərində yüksək hərbi təsirin mövcud olduğu regionlarda təhlükəsiz regionlararası vəhşi təbiət dəhlizi ideyası böyük bir problemdir. Buna görə də, ötən il, IDEA yeni layihəyə start verdi. “Böyük Beşlik” layihəsi Qafqazın beş ən vacib heyvanı ətrafında qurulub – bunlar ayı, qartal, canavar, ceyran və bəbirdir. Bu beş heyvanın mövcudluğu regional ekosistemin sağlamlığını simvolizə edir. Biz, həmçinin 2010-cu ili Azərbaycanda Ekologiya İli elan etdikdən sonra 21 milyon ağac əkmişik.

IDEA kampaniyası, həmçinin gənc nəslə görmək istədikləri gələcək barədə təkliflərini verə biləcəkləri platforma vermək üçün bu kreativ layihələrdən yararlanır. Azərbaycan həm də dünyanın ən gənc əhalisinə malik olan ölkələrdən biridir. Bizim üçün bu gəncləri cəlb etmək, onları həvəsləndirmək və onlarla əlaqə saxlamaq, onları inkişafımızı davamlı edən strategiya və siyasətin inkişafında mərkəzi nöqtə olmağa əmin etmək olduqca vacibdir. Foto müsabiqələr, rəsm sərgiləri, inşa, kitab yazma müsabiqələri və digər kreativ vasitələr bizə gənclərə yardım əlimizi uzadaraq onların dünya barədə narahatlıq və rəylərini dinləməyə kömək edir.

**Hörmətli qonaqlar,**

Ötən həftə dünyanın bir sıra ölkələrinin Dövlət və Hökumət başçıları Braziliyanın Rio de Janeyro şəhərində davamlı inkişaf, planetimiz, bu günkü və gələcək nəsillərimiz üçün iqtisadi, sosial və ekoloji cəhətdən davamlı gələcək naminə öhdəliklərini təsdiq etdilər. Onlar, həmçinin təsdiq ediblər ki, davamlı inkişaf təxirəsalınmaz addımlar tələb edir və yalnız qərar qəbul edilməsində iştirak edən və davamlı inkişaf üçün əsas narahatlıqlarını dilə gətirən insanlar arasında əməkdaşlıq vasitəsilə həll edilə bilər. İnanmaq istərdim ki, bu həll yolları və öhdəliklər sadəcə olaraq kağız üzərində qalmayacaq və “yaşıl iqtisadiyyat”, “davamlı inkişaf” və “ətraf mühitin idarə olunması” ideyaları gələcək fəaliyyətimizdə öz əksini tapacaq.

İnanıram ki, gənclər davamlı inkişafa nail olmaq üçün əllərindən gələni edəcəklər. IDEA olaraq əminik ki, dialoq ekologiya ilə bağlı məlumatlılığın artırılmasının mənbəyini təşkil edir. Həmçinin inanırıq ki, effektiv fəaliyyət planları hər hansı konstruktiv dialoqun əsas elementidir. Və ən vacibi, təhsil effektiv fəaliyyət planını qurmaq üçün əsas amildir. Ona görə də, gəlin öyrənək və öyrədək! Gəlin öyrənək və yaradaq! Gəlin əl-ələ verək və bu amal uğrunda birləşək! Ən nəhayət, Yer Kürəsi bizim ümumi və yeganə evimizdir.

Təşəkkür edirəm!

## Leyla Əliyevanın "Böyük beşlik" sərgisindəki çıxışı
*(21 may 2012-ci il)*

**Əziz qonaqlar! Xanımlar və cənablar!**

Hər şeydən əvvəl, sizi gözəl şəhərimiz Bakıda salamlayıram. "Qız qalası" Üçüncü Beynəlxalq İncəsənət Festivalı çərçivəsində keçirilən "Böyük beşlik" sərgisinə xoş gəlmisiniz. Bu tədbiri təşkil etdiklərinə görə Bakı Müasir İncəsənət Muzeyi, "Qız Qalası" Rəsm Qalereyası, İçəri Şəhər Dövlət Tarix və Memarlıq Qoruğu, Bakı Jurnalı və IDEA komandasına xüsusi minnətdarlığımı bildirirəm.

Çox böyük uğur qazanan bu festival Bakı sakinlərinə dünyanın fərqli ölkələrindən müxtəlif rəssamların yaradıcılıq nümunələri ilə tanış olmağa imkan verir. Bu gün biz burada Azərbaycanda və Cənubi Qafqazda ən gözəl, lakin nəsli kəsilmək təhlükəsi ilə üzləşən heyvanlardan biri olan ceyranı nümayiş etdiririk.

Bildiyiniz kimi, keçən il biz Azərbaycan ərazisində məskunlaşan nadir heyvan nümunələrinin qorunmasını nəzərdə tutan layihəyə başlamışıq. "Böyük beşliy"ə daxil olan heyvanlara, o cümlədən ayı, qartal, canavar, ceyran və Qafqaz bəbirinə xüsusi diqqət verilib. Siz burada regionumuzda geniş yayılmış ceyran növləri ilə tanış ola bilərsiniz.

Qafqaz ceyranları Azərbaycanın sehrli nağıllarında və musiqilərində hər zaman zəriflik və gözəllik rəmzi olmuşdur. Təəssüf ki, ceyranlar Cənubi Qafqazda nəsli kəsilmək təhlükəsi ilə qarşı-qarşıyadır. Ötən il Heydər Əliyev Fondu Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ceyranların təbii yaşayış mühitinə köçürülməsi layihəsini reallaşdırmışdır. IDEA olaraq biz bu layihəyə daha çox yaradıcı və bədii yanaşma nümayiş etdirmək qərarına gəldik. Bildiyiniz kimi, IDEA Kampaniyası təxminən bir il əvvəl yaradılmışdır. Bu müddət ərzində biz ətraf mühitin qorunması ilə bağlı xeyli layihələr həyata keçirmiş və çox müsbət nəticələr əldə etmişik. IDEA-nın digər maraqlı bir layihəsi burada, qədim Qız qalasının qarşısında reallaşdırılır. Qız qalası şəhərin dəniz sahilində yerləşdiyindən uzunqanad quşlar Afrikadan Azərbaycana uçub gələrək burada yuva salırdılar. 2008-ci ildə qala üzərində başlanmış restavrasiya işləri nəticəsində bu quş yuvaları məhv ola bilərdi və IDEA Kampaniyası "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə birlikdə qalanın sağ hissəsində bu quşlar üçün alternativ yuvalar tikdi.

**Əziz dostlar,**

Bu gün biz Azərbaycan və 23 müxtəlif ölkəni təmsil edən xarici rəssamlar tərəfindən çəkilmiş ceyran şəkillərinin kolleksiyasını nümayiş etdirəcəyik. Bizim əvvəlki sərgilərimizdə iştirak etmiş peşəkar rəssamlar, eləcə də həvəskar rəssamlar, o cümlədən bəzi ailə üzvlərim rəsm çəkilmə prosesinə öz töhfələrini veriblər. Siz bizim 2010 və 2011-ci illərdə "Qız Qalası" Festivalı çərçivəsində təşkil etdiyimiz Qız Qalası şəkil sərgilərini yaxşı xatırlayarsınız. Əvvəlki sərgilərimizin uğuru bu tədbirlərin mesajlarının geniş ictimaiyyətə çatdırılma imkanlarına malik olmasını təsdiq edir. Bu rəssamların hər biri bu gözəl heyvanların rəsmlərinin çəkilməsində müxtəlif perspektivlərə malik ola bilər, lakin onların hər birinin bir mesajı var – yaşadığımız dünyada sülhün, sevginin və qarşılıqlı anlaşmanın vacibliyi. Bu ideya IDEA-ın əsas devizinə uyğun gəlir: "Gələcək üçün Bir dünya". Xatırlatmaq yerinə düşər ki, bu layihə çərçivəsində ceyran şəkilləri İstanbul, Roma və London kimi dünyanın müxtəlif şəhərlərində nümayiş olunacaq.

Üzümüzə gələn həftələr Bakının mədəni həyatı üçün xüsusi əhəmiyyətə malikdir: paytaxtımız "Eurovision" Mahnı Müsabiqəsinə ev sahibliyi edəcək; iki gün əvvəl Bakı Müasir İncəsənət Muzeyində müasir Afrika incəsənət nümunələri əks olunan sərgi təşkil edilib.

Bu gün, may ayının 19-u, həmçinin IDEA komandasının bütün üzvləri üçün yaddaqalan bir gün oldu. Bir neçə saat öncə, biz Dövlət İdarəçilik Akademiyasında IDEA Resurs mərkəzinin açılış mərasimində iştirak etdik. Yeni mərkəz yaratmaq, qorumaq və qayğısına qalmaq niyyətində olan hər kəs üçün bir məkana çevriləcək. Bu mərkəz vasitəsilə çoxlu sayda kreativ ekoloji ideyalar və təcrübələr yaranacaq və ictimaiyyətə təqdim olunacaq. IDEA Resurs Mərkəzi innovasiya, liderlik və aktiv fəaliyyətlə fərqlilik nümayiş etdirəcək.

Bu pozitiv fikirlərlə, Sizi bu gecədən ləzzət almağa dəvət edirəm. Təşəkkür edirəm!

# Leyla Əliyevanın Britaniya parlamentinin Lordlar palatasında çıxışı
*(9 aprel 2012-ci il)*

**Xanımlar və cənablar!**

Bu gün bu auditoriyada, xüsusilə, parlament ənənələrinin əsasının qoyulduğu möhtəşəm binada, çıxış etmək mənim üçün böyük şərəfdir. Nitqimə başlamazdan əvvəl, məni bura dəvət etdiyinə görə Lord Şeyx Məhəmməd və bu tədbiri təşkil etdiyinə görə EcoMuslim ekoloji təşkilatının icraçı direktoru Ömər Faruka xüsusi təşəkkürümü bildirirəm.

Bu günkü çıxışımda Cənubi Qafqazdakı ekoloji problemlərə toxunmaq və bizim təşkilatımızın fəaliyyəti və gələcək planları barədə danışmaq istərdim.

IDEA 2011-ci ilin iyul ayında yaradılıb və qısa vaxt ərzində biz regionda əhatə dairəmizi genişləndirməyi bacarmışıq. Bizim müxtəlif gənc ekoloqlar təşkilatları və hərəkatları ilə əməkdaşlığımız ötən ilin noyabr ayında dünyanın 35 ölkəsindən olan 85 nümayəndənin IDEA tərəfindən təşkil edilmiş Gənc Ekoloqların Yay Düşərgəsində iştirak etmək üçün Azərbaycanın Qəbələ şəhərində bir araya gəlməsindən sonra daha da gücləndi. Düşərgədə iştirak edən gənclər tərəfindən qəbul olunmuş Qəbələ Bəyannaməsində təhlükəsiz və karbonsuz təmiz gələcək ilə bağlı individual məsuliyyət, geniş anlayış, şəxsi öhdəlik və hüquqlar əks olunurdu. Mən özüm də həmin təşəbbüsün bir hissəsi olduğuma və gənc nəslin 21-ci əsrin ən vacib problemi hesab olunan bir məsələ üzrə təşəbbüsü ələ almalarının şahidi olduğuma görə şadam.

IDEA təkcə Azərbaycanda deyil, həmçinin dünyanın hər yerində gənclər arasında dialoq, təhsil, liderlik və əməkdaşlığı inkişaf etdirmək istiqamətində aktiv şəkildə fəaliyyət göstərir. Biz bir il ərzində Argentinadan tutmuş Cənubi Koreyaya kimi gənc ekoloqlarla əməkdaşlığa başlamışıq.

IDEA həmçinin Azərbaycanlı gəncləri 2012-ci ilin iyun ayında keçiriləcək BMT-nin Dayanıqlı İnkişaf üzrə Rio+20 Konfransına səfərbər etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə əməkdaşlıq barədə saziş imzalayıb.

Bir neçə ay bundan əvvəl “Gənc Ruh üçün Gənc Ağac” şüarı altında kampaniyaya start verdik və bu kampaniyaya əsasən biz 2012-ci ildə Azərbaycanda 300,000 ağac əkməyi planlaşdırırıq.

Bakının İçəri şəhərində 12-ci əsrin gözəl və mədəni abidəsi olan Qız Qalasında bərpa işləri apararkən qalada çoxlu sayda quş yuvalarına rast gəldik. Uzunqanad adlanan quşlar dəstəsi abidədə 200-ə yaxın yuva qurmuşdular. Onların təhlükəsizliyini təmin etmək məqsədilə IDEA üzvləri yeni layihəyə start verərək Qız Qalasında restavrasiya işləri davam etdiyi müddət ərzində həmin quşlar üçün həmin ərazidə alternativ yuvalar qurdular. Bu layihə ilə yanaşı, biz Bakı şəhəri və ətraf ərazilərdə 300 ədəd quş yuvasını qurmağa başladıq. Biz, həmçinin sahibsiz pişik və itlər üçün heyvan sığınacağının inşasına da öz dəstəyimizi verdik.

Bizim irəli sürdüyümüz ən vacib təşəbbüslərdən biri də Azərbaycandakı ceyranların mühafizəsi və onların təbii yaşayış mühitinə qaytarılması kampaniyası oldu. Gün ərzində bir neçə dəfə boyunlarına bərkidilmiş və olduqları yer barədə məlumat ötürən xüsusi ötürücülər vasitəsilə ceyranların hərəkəti haqqında məlumat qəbul edirik.

Biz, həmçinin maarifləndirici sosial reklam kampaniyası, inşa müsabiqələri, dəyirmi masa müzakirələri, universitet debatları və tok-şouları nəzərdə tutan kiçik və genişmiqyaslı layihələri də icra etmişik. Lakin bu istiqamətdə görüləcək hələ çox işimiz var.

Biz inanırıq ki, ekoloji maarifləndirmə uşaqlıq illərindən izah və tədris edilməlidir. Təbiətə sevgi və onun mühafizəsinin əhəmiyyəti ibtidai və orta məktəblərin siniflərində mənimsənilməlidir. Gənclər ekoloji harmoniyanın önəmini anlamalı, təbiətin həyatı necə mühafizə etdiyini öyrənməli və öz gündəlik fəaliyyətlərinin ətraf mühit üzərindəki təsirini uşaq yaşlarından dərk etməlidirlər. Müəllimlər uşaqlara davamlı yaşam üçün önəmli olan bilik, bacarıq və dəyərləri bütün yaş çağlarında aşılaya bilmək imkanına malikdirlər. Mənim kampaniyamın da əsas fəaliyyət istiqaməti insanların ətraf mühitlə iç-içə yaşam üçün düzgün davranış və hərəkətlərini təmin etməkdə erkən təhsilin rolunu önə çəkməkdir.

**Əziz dostlar,**

Cənubi Qafqaz zəngin landşafta, bio və aqromüxtəlifliyə, dünyanın biomüxtəlifliyinin on iki mərkəzindən birinə malik olan unikal regiondur. Bu regionda subtropik meşələrə, Böyük Qafqazın buzlaq və qarla örtülmüş zirvələrinə, aran zonasında çöl və yarımsəhralara rast gəlmək mümkündür. Cənubi Qafqazda demək olar ki, hər növ iqlim qurşağı mövcuddur. Məsələn, 11 iqlim qurşağından Azərbaycanda 9-na rast gəlmək mümkündür. Qafqaz regionu iqlim dəyişikliyinin təsirlərinə çox həssasdır və bu da

istənilən iqtisadi fəaliyyətin planlaşdırılması zamanı nəzərə alınmalıdır. İqlim dəyişikliyinin mənfi nəticələri kənd təsərrüfatından tutmuş turizmə qədər bütün sahələrə, xüsusilə də su sektoruna öz təsirini göstərə bilər.

Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda kəskin ekoloji, səhiyyə və iqtisadi təhlükələr yarada biləcək bir sıra ətraf mühit problemləri üzə çıxmışdır. Qeyri-qanuni ovçuluq, otlaq sahələrinin və meşələrin məhvi, o cümlədən nəzarətsiz urbanizasiya nəticəsində regionun bioloji müxtəlifliyi təhlükə altında qalmışdır. Regionun bütün dövlətləri Bioloji Müxtəliflik haqda Konvensiyanı və digər müvafiq beynəlxalq müqavilələri ratifikasiya etmiş, bununla da, təbiətin qorunması üçün müəyyən öhdəliklər götürmüşlər. Bunu etməklə onlar təbiətin mühafizəsinə sadiqliklərini təsdiq edərək üzərlərinə müvafiq öhdəliklər götürmüşlər. Lakin regiondakı mövcud dondurulmuş və fəal münaqişələr ekosistemə çox mənfi təsir etmişdir. Azərbaycanın işğal olunmuş rayonlarında meşələrin qəsdən yandırılması vəhşi flora və faunanı təhlükə altında qoymuşdur. Qafqaz bəbiri kimi nadir heyvanlar tükənmə riski ilə üzləşmişdir.

Cənubi Qafqazın hər üç ölkəsində bir sıra ekoloji təhlükələr ciddi ekoloji tənəzzülün müşahidə olunduğu ərazilərdə öz əksini tapır. İnsanlara qarşı ekoloji təhlükələrin mənbələri təkcə meşə qırılmaları, təbii sərvətlərin düzgün istifadə edilməməsi, su çirklənməsi və təbii fəlakətlərdə deyil, həmçinin sənaye istehsalı, nüvə və radioaktiv tullantılarda da özünü büruzə verir. Ermənistanın Metsamor şəhəri yaxınlığında Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə blokunun tikilməsi regionun ətraf mühit təhlükəsizliyinə zərbədir. Azərbaycan Cənubi Qafqaz regionu ölkələri arasında UNECE-nin Su Konvensiyasını ratifikasiya etmiş yeganə dövlətdir. Transsərhəd su ehtiyatları ilə bağlı problemlərin həllində əməkdaşlıq istəyinin olmaması yeraltı və yerüstü sərvətlərin çirklənməsinə, çay sularının azalmasına və su çatışmazlığına səbəb olmuşdur. Regionun üzləşdiyi bütün bu ekoloji təhlükələrin fonunda, cəmiyyətin gənc üzvləri arasında əməkdaşlıq ətraf mühitin qorunmasının mühüm elementinə çevrilir. Bu təhlükələr bir daha sübut edir ki, ətraf mühit çağırışları beynəlxalq ekoloji idarəetmənin daha da möhkəmləndirilməsi yolu ilə həll edilməlidir.

**Əziz dostlar,**

Mən ətraf mühitin qorunması və gənclərin bu işə cəlb olunmasını çox arzulayıram. Mən gələcək nəsillərin ətraf mühitləri ilə harmoniya şəklində böyümələrini, onların ekoloji nöqteyi-nəzərindən səhv idarəçilik barədə məlumatlı olmalarını, əməkdaşlıq və dialoqa açıq olmalarını istəyirəm. Mənim ölkəm həm özünün gənc əhalisi, həm də unikal biomüxtəlifliyi və resursları nöqteyi-nəzərindən böyük potensiala malikdir. Bizim məqsədimiz yeni texnologiyalardan istifadə edərək keçmişdən miras qalan ekoloji problemləri aradan qaldırmaqdır. Biz həmçinin çalışırıq ki, ölkəmizlə yanaşı bütün regionda fəaliyyət göstərərək təhsil, iqtisadiyyat, kənd təsərrüfatı, ekoturizm, enerji, texnologiya, gənclər və səhiyyə kimi digər sahələri də əhatə edək.

Azərbaycan ətraf mühitin qorunması və iqlim dəyişikliyinin təsirinin azaldılmasına diqqət yetirməklə ölkə iqtisadiyyatının dayanıqlı inkişaf prinsiplərinə transformasiya edilməsi məsələsinə yüksək önəm verir. Azərbaycanın ÜDM-u son on il ərzində on dəfə artıb. Ətraf mühitin qorunması üçün qoyulan investisiyaların həcmi artır. Genişmiqyaslı içməli su və kanalizasiya sularının idarə olunması layihələrinə də böyük həcmdə investisiyalar yatırılır. Vəhşi heyvanlar üçün geniş və müasir rehabilitasiya mərkəzinin inşasına tezliklə start veriləcək. Xəzər Dənizinin bioresurslarının artırılması üçün son on il ərzində dənizə 5 milyarddan çox körpə balıq, o cümlədən nərə balığı buraxılıb. Ölkədə müasir “Tullantıdan enerjiyə” zavodu inşa olunmaqdadır ki, nəticədə tullantıların idarə olunması sahəsində əhəmiyyətli dəyişiklik qeydə alınacaq. Azərbaycan, həm də ilk günəş panelləri zavodunun inşasını tamamlayıb, bu zavod, həmçinin Cənubi Qafqazda günəş batareyası istehsal edən ilk zavoddur.

Bütün bunlar o demək deyil ki, artıq hər şey edilib. Hələ atılmalı çox addım, öyrənməli çox dərs var. Gənc IDEA üzvləri və ümumilikdə cəmiyyətin öz məsuliyyətlərini qəbul edərək addımlar atmağa can atmalarını görmək məni motivasiya edir. IDEA şəxsi nümunə göstərmək istəyən şəxslər üçün stimul mənbəyi olmağa davam edəcək. Əminəm ki, gələcək bir neçə il ərzində biz regionda effektiv ekoloji cəmiyyət yarada və bununla da real dəyişiklik edə biləcəyik.

Azərbaycan bütün digər ölkələr kimi, qorunmalıdır. Bu sözün hər mənasında gözəldir. Ölkəyə gələn hər bir turist ölkənin təbiəti, insanların qonaqpərvərliyi və mədəniyyətinin zənginliyinə heyran qalır. Onun qədim tarixi və unikal adət-ənənələrinə biganə qalmaq olmur.

Mən Şərqdə ilk parlamentli demokratiya qurmuş, 1918-ci ildə qadınlara kişilərlə bərabər siyasi hüquqlar vermiş və qabaqcıl Qərb dəyərlərini mənimsəmiş ilk müsəlman ölkəsində doğulduğum üçün

qürur duyuram. Azərbaycan Şərq dünyasında ilk operanın, ilk musiqili komediyanın, ilk Qərb üslublu teatrın və ilk baletin vətənidir. Burada həm də müsəlman dünyasında ilk dəfə olaraq qadınlar üçün orta məktəb tikilmişdir. Mənim vətənim "ilklər" diyarıdır və hər zaman dözümlülüyü, dini və mədəni müxtəlifliyi, adət ənənələri ilə tanınmışdır. Azərbaycan kəsişmələr məkanıdır: Avropa və Asiya, Şərq və Qərb.

**Zati - aliləri,**

Mən Azərbaycanın gözəlliyi barədə saatlarla danışa bilərəm, lakin bir atalar sözündə deyildiyi kimi "Min dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır." Ona görə də mən sizləri Azərbaycana dəvət edirəm. Azərbayacana gələrək bu gənc ölkənin potensialını ölkəmizin gənc nəslinin gözlərində və ruhunda görərək hiss edin.

Mənə söz verdiyinizə görə, sizə təşəkkür edir və sizləri tezlikdə Bakıda salamlamağı səbirsizliklə gözləyirəm.

## Leyla Əliyevanın “Bakıya uçuş” sərgisindəki çıxışı
*(19 yanvar 2012-ci il)*

Xanımlar və cənablar!

Bu axşam “Bakıya uçuş” adlı sərgiyə gəldiyiniz üçün sizə təşəkkür edirəm. Gördüyünüz kimi, biz həqiqətən də bizi heyrətləndirən və ilhamlandıran sənət əsərlərinin əhatəsindəyik. Burada sərgilənən dinamizm və yaradıcılıq bu gün mənim vətənim Azərbaycanda baş verənlərin böyük bir hissəsini əks etdirir. Mənim ölkəm misli görünməmiş inkişaf dövrü yaşayır və bu, özünü müasir incəsənət sahəsində daha da qabarıq göstərir.

Müstəqil Azərbaycan nisbətən gənc ölkədir. Keçən il biz müstəqilliyimizin bərpa olunmasının 20 illiyini qeyd etdik. Bu qədər gənc olmağımıza baxmayaraq, bizim qədim tariximiz vardır. Azərbaycan müsəlman Şərqində ilk ölkədir ki, burada 1918-ci ildə qadınlar səsvermə hüququ qazanmış, 1901-ci ildə müsəlman qızlar üçün ilk məktəb tikilmişdir. Azərbaycan, eyni zamanda, Şərqdə ilk opera və baletin səhnələşdirildiyi ölkədir.

Beləliklə, biz bir çox ilklərə imza atmış ölkəyik və bu gün də bu fəlsəfəni davam etdiririk. Keçən il biz “Eurovision” mahnı müsabiqəsində birinci olduq. Bu il müsabiqənin keçiriləcəyi Bakıda Avropanı qəbul etməyi səbirsizliklə gözləyirik.

Lakin müasir Bakı xalq mədəniyyətini təkcə musiqi vasitəsilə nümayiş etdirmir. Bakını gəzərkən siz küçələr boyu ətrafınızda sürətli inkişaf görə bilərsiniz – Zaha Hadidin şah əsərindən tutmuş yeni mağazalar, restoranlar və mehmanxanalar düzülmüş prospektlərədək, Xəzər dənizinin sahilindəki bulvaradək! Bu, gözünüzün önündə dəyişən şəhərdir. Bakının memarlığı özündə təkcə IX əsrə aid Qız Qalasında əksini tapan köhnə ilə yenini birləşdirmir, həmçinin Şərq ilə Qərbi, Zərdüşt məbədləri ilə müasir binaları və XX əsrin əvvəllərinin neft bumu dövrünə aid fransız şəhərsalma mədəniyyətini özündə təcəssüm etdirir.

Bildiyiniz kimi, incəsənət mənim böyük həvəslə yanaşdığım bir sahədir. Ömrüm boyu mən müasir incəsənəti tədqiq etməkdən zövq almışam - istər vaxtı ilə Londondakı Teyt muzeyini gəzərək, istər indi Bakıda Müasir İncəsənət Muzeyində sərgilənən əsərləri təhlil edərək. Mən də rəsm çəkməyi sevirəm və həmişə ürəklərini, ruhlarını yaratdıqları əsərlərə qoyan rəssamlara pərəstiş etmişəm.

Buna görə də mən bu möhtəşəm əsərlərin yanvarın sonunadək Londonda, daha sonra isə bütün Avropada beynəlxalq auditoriyaya sərgilənməsinin bir hissəsi olmağımdan çox həyəcanlıyam. Burada görəcəyiniz əsərlərin bir çoxu həm gənc və eyni zamanda, məşhur rəssamların işləridir, çoxu məhz bu sərgi üçün yaradılıb, buna görə də ilk dəfə sərgilənir.

Azərbaycanın hər bir tərəfindən 21 rəssamın yüzlərlə əsərinin burada sərgilənməsindən dərin qürur hissi keçirirəm. Düşünürəm, razılaşarsınız ki, bu gün Bakıda necə də canlı müasir incəsənət dünyası mövcuddur.

Bu tədbiri bu cür gözəl şəraitdə təşkil etdiyim üçün özümü çox xoşbəxt hiss edirəm. Bu layihənin ərsəyə gəlməsində Mikayelanın və Simonun böyük dəstəyi olub. Onların buradakı - Hovik Pleysdəki qalereyası fenomenal məkandır. Təqribən il yarım öncə burada təşkil olunmuş bir sərgiyə gəldiyim an mən yəqin etdim ki, bu qalereya bu sərginin keçiriləcəyi yer olacaqdır. Düşünürəm, şübhəsizdir ki, məkan və incəsənət bir-birlərini tamamlayır.

Erve Mikaelof, Emin Məmmədov və onların komandaları rəsmdən tutmuş instalyasiyalar, videolar, fotoşəkillər və ifalaradək müasir incəsənətin bütün formalarını özündə cəmləyən ruhlandırıcı sərgi yaratmaq üçün bu fərqli rəssamları bir araya gətiriblər.

Əziz qonaqlar, bu axşam “Bakıya uçuş” adlı sərgidə iştirakınıza görə sizə təşəkkür edirəm. Bu tədbir mənim üçün böyük əhəmiyyət kəsb edir. Mən şadam ki, bu sərgi bu gün London kimi gözəl bir şəhərdə açılır. Bu tədbirə vaxtlarını və səylərini sərf etmiş bütün bizim təşkilatçılarımıza və əlbəttə ki, parlaq, istedadlı azərbaycanlı rəssamlara təşəkkür etmək istərdim. Ümid edirəm ki, hamınız xoş axşam keçirəcəksiniz.

Çox sağ olun.

# Leyla Əliyevanın Gənc Ekoloqların Qəbələdə təşkil olunmuş Beynəlxalq Düşərgəsindəki çıxışı

*(2 dekabr 2011-ci il)*

Xanımlar və cənablar!

Əziz dostlar!

Sizi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyasının və BMT-nin İnkişaf Proqramının təşkilatçılığı ilə dialoqun təbliğ edilməsi, ətraf mühitin qorunması ilə bağlı vacib məsələlərin müzakirəsi, indiki və gələcək nəsillər arasında əlaqələrin yaradılması məqsədilə təşkil edilmiş gənc ekoloqların beynəlxalq düşərgəsində salamlamağa şadam.

Biz ekoloji çağırışlarla üzləşirik ki, bunlar da bizdən Yer kürəsinin sərvətlərinin necə idarə olunması barədə düşünməyi tələb edir. Biz gənc nəsil hazırki vəziyyəti yenidən dəyərləndirmək üçün çalışmalıyıq. Gənc nəsil iqlim dəyişikliyindən əmələ gələn ekoloji problemlərə, atmosferdə istixana qazlarının toplanmasına, dəniz sularının səviyyəsinin artmasına, quraqlığa və bunların nəticəsində dünyanın müxtəlif ölkələrində humanitar problemlərə laqeyd qala bilməz. Bunlar hamısı bu gün nəzərdən keçirilməlidir.

Son 50-60 ildə insan fəaliyyətinin genişlənməsi dünyada flora və faunanın ekoloji tarazlığını pozmuşdur. 2010-cu ildə atmosferdə karbon qazının konsentrasiyası milyonda 389 hissə olmuşdur ki, bu da 1750-ci il sənaye dövrünün başlanmasından bəri ən yüksək göstəricidir. Maraqlı və eyni zamanda, narahatedici bir haldır ki, bir avtomobil ildə atmosferdən orta hesabla dörd ton oksigen udur, atmosferə təqribən 800 kiloqram dəm qazı, 40 kiloqram azot oksidi və təxminən 200 kiloqram karbon qazı buraxır.

Məhz buna görə bu ilin iyulunda başladığımız Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq Kampaniyasının əsas prioritetlərindən biri Bakı ətrafındakı ərazilərə ağac əkməkdir. Biz kampaniyaya “Cavan ruh üçün cavan ağac” devizi altında başlamışıq. 2012-ci ildə Rio-de Janeyroda keçiriləcək BMT-nin Dayanıqlı İnkişaf üzrə “Rio+20” Konfransına qədər 300 min ağac əkməyi nəzərdə tutmuşuq. Hamımıza xatırladılmalıdır ki, ağaclar və bitkilər planetimizdə oksigenin yeganə mənbəyidir. Günəşli gündə bir ağacın yarpaqlarının 25 faizi bir adamın gün ərzində ehtiyac duyduğu qədər oksigen verir. Ağacların bir akrı bir gündə 18 insana kifayət edəcək qədər oksigen buraxır.

Azərbaycan təkcə 11 iqlim qurşağından 9-nun mövcud olduğu bir ölkə deyil - halbuki bu, özlüyündə nadir fenomendir, - həm də ecazkar landşaft əmələ gətirən palçıq vulkanları, yanar dağ, endemik ağaclar, yüksək dağlıq yaylalar, gözəl sahilyanı ərazilər, sıx meşələr, dərələr, səhralar ölkəsidir. Murovdağın ətəyində yerləşən, dəniz səviyyəsindən 1.556 metr yüksəklikdə yerləşən Göy-Göl regionun təbii ətraf mühiti üçün ilham mənbəyinə çevrilib. Dünyanın ən böyük gölü olan Xəzərə ahəngdarlıqla tökülən gur çaylarımız xəritədə gözəl görüntü yaradır.

Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq Kampaniyası mənim ölkəmdə ətraf mühitin qorunması sahəsində aparılan işin məntiqi davamıdır. 2010-cu il Azərbaycanda “Ekologiya ili” elan olunmuşdu. 2010-cu ildə ölkəmizdə 14 milyon ağac əkilmiş, çoxlu parklar salınmışdır.

Vitse-prezidenti olduğum Heydər Əliyev Fondu Azərbaycan ceyranlarının mühafizəsi və təbii yaşayış mühitinə qaytarılması kampaniyasına start vermişdir. Biz, gün ərzində bir neçə dəfə boyunlarına bərkidilmiş və olduqları yer barədə məlumat ötürən xüsusi ötürücülər vasitəsilə ceyranların hərəkəti haqqında məlumat qəbul edirik. Nəsli kəsilən heyvanların mühafizəsi bizim üçün əsas prioritetlərdəndir. Heyvanların insan tərəfindən ovlanmasının kəskin artması nəticəsində ən iri bəbirlər yarımnövünə aid Qafqaz bəbirinin nəsli kəsilmək təhlükəsi ilə üzləşmişdir. Bu, gözəl və heyranedici heyvandır. Onun varlığı bütöv ekosistemin sağlamlığının göstəricisidir.

Üzərində işlədiyimiz digər layihə Bakıda yerləşən və XII əsrə aid mədəniyyət abidəsi olan Qız qalasının bərpası zamanı başlanmışdır. Biz qeyri-adi hadisə ilə rastlaşdıq. Uzunqanad adlanan quşlar dəstəsi Qız qalasının üzərində 200-ə yaxın yuva tikmişdi. Köçəri quşlar olan qara uzunqanadlar yayın ortalarında Azərbaycana, qışda isə daha uzaqlara - Cənubi Afrikaya köçür. Bu quşların təhlükəsizliyini təmin etmək məqsədi ilə Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq Kampaniyasının üzvləri yeni layihəyə start vermişlər. Onlar Qız qalasında bərpa işlərinin davam etdiyi bir vaxtda bu quşlar üçün alternativ yuvalar düzəldirlər. IDEA Kampaniyası, eyni zamanda, Qafqazın böyük beşliyini də müəyyənləşdirmişdir – ayı, qartal, canavar, bəbir və ceyran. Bu növlərin mühafizəsi bizim əsas vəzifəmiz kimi qəbul edilməlidir.

Azərbaycanın təbii müxtəlifliyi, gölləri və çayları, dağları və düzənlikləri, meşələri və səhraları ölkəmi nadir məkana çevirir. Məhz bu amil bizim komandamızı kampaniya üçün "Bir yer kürəsi - bir gələcək" şüarı seçməyə ilhamlandırmışdır.

Bizim bir planetimiz və bir gələcəyimiz vardır və bu gün biz gənclər necə planetdə yaşamaq istədiyimizə qərar verməliyik. Biz gənclər təxirəsalınmaz vəzifələri, uşaqlarımızın təhlükəsiz və sabit gələcəyini təmin etmək üçün nə ediləcəyimizi müəyyənləşdirməliyik.

Təbiət gecikmələrə dözmür. Buna görə də Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq Kampaniyası təcili fəaliyyətə çağırır. Bu gün burada 35 ölkədən 85 nümayəndə iştirak edir. Bu, dünyanın üçdə biridir. Bu, onu göstərir ki, biz birlikdə qüvvəyik.

Biz mühüm qlobal ekoloji problemləri müzakirə etmək və onların həllini tapmağa çalışmaq üçün Azərbaycanın ən gözəl guşələrinin birində toplaşmışıq. Növbəti iki gün ərzində siz maraqlı məruzələr dinləmək və mənalı müzakirələrin bir hissəsi olmaq imkanı əldə edəcəksiniz. Biz bu düşərgəni illik tədbirə, Qəbələni isə gənclər arasında dialoqun məkanına çevirmək istərdik. Bir-birimizi başa düşməyə çalışmaq, əməkdaşlığın perspektivlərini müzakirə və təsvir etmək qarşımızda duran vəzifələrin yerinə yetirməsini asanlaşdıracaqdır.

Bu iki gün hələ başlanğıcdır - bir missiyanın və bizim bu gün təyin edəcəyimiz bir yolun başlanğıcı. Ətraf mühitin mühafizəsi sərhəd tanımır. Bu, bizim ümumi vəzifəmizdir və ətraf mühitin qorunması üçün atılmış hər bir addım bizim şərikli uğurumuz olacaqdır. Hər hansı işdə uğur yalnız dəstək və əməkdaşlıq şəkilində mümkündür. Bizim uğurlarımız beynəlxalq dialoqla mümkündür və buna görə də biz –IDEA üzvləri – səmimi qəlbdən inanır və ümid edirik ki, siz bütün dünyada bizim IDEA elçilərimiz olacaqsız.

http://ideacampaign.org/az/nitql%C9%99r/

## IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər" mövzusunda ikinci plenar sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çıxışı

*(5 may 2017-ci il)*

### Leyla Əliyeva: Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq daim təşviq olunmalıdır

Mayın 6-da IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər" mövzusunda ikinci plenar sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiyada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş katibi ofisinin attaşesi, moderator Rəşad əl-Xafaci sessiyanın müasir dünya üçün çox əhəmiyyətli bir mövzuya həsr olunduğunu vurğuladı, IV Qlobal Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan rəhbərliyinə təşəkkürünü bildirdi.

**Sonra xoşməramlı səfir Leyla Əliyeva sessiyada çıxış edərək dedi:**

-Dünyanın müxtəlif yerlərindən insanların mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı mühüm məsələləri müzakirə etmək üçün Bakıya toplaşması çox sevindiricidir. Mədəniyyətlər və xalqlar arasında dialoq dünyada sülh və çiçəklənmə üçün əsas şərtdir. Bu dialoqun qəbul edilə biləcək alternativi yoxdur. Aramızda nə qədər az dialoq və anlaşma olarsa, bir o qədər ədavət və savadsızlıq üçün boş yer yaranacaq. Əsrlər boyu Azərbaycan müxtəlif mədəniyyətlərin, dinlərin və sivilizasiyaların qovuşduğu məkan olub. Tarix boyu Azərbaycandakı bütün xalqlar - istər müsəlmanlar, istər yəhudilər, istərsə də xristianlar sülh şəraitində dinc yanaşı yaşayıblar. Faktiki olaraq bunu heç kim "mədəniyyətlərarası dialoq" adlandırmayıb. Bu cür qarşılıqlı əlaqələr sadəcə gündəlik həyatın bir hissəsi olub. Məhz buna görədir ki, doğma şəhərimiz, gözəl Bakı hazırda mədəniyyətlərarası dialoq üzrə mərkəzlərdən birinə çevrilib. Bakı dünyanı daha da kamil etmək üçün planetin bütün yerlərindən gəlmiş müxtəlif mənşəli insanların qovuşduğu məkana çevrilib.

Bu plenar sessiyada çıxış etməkdən olduqca məmnunam, onun mövzusu FAO-nun xoşməramlı səfiri və ətraf mühit carçısı kimi mənim üçün çox əhəmiyyətlidir. Sülh və davamlı inkişaf ilə birbaşa əlaqəsi olan ərzaq təhlükəsizliyi ilə bağlı müzakirələr bu tədbiri bu gün olduqca vacib və zəruri edir. Hamımız bilirik ki, mədəniyyətlərarası dialoq irqçilik və zorakılığın qlobal səviyyədə artmasına qarşı mühüm əks-qüvvədir. Bununla belə, onun miqyası tolerantlıq və birgəyaşayış ideyalarının təşviq olunması ilə yanaşı, digər işlərin də görülməsini ehtiva edir. Mədəniyyətlərarası mübadilələr, həmçinin ümumi məqsədlərimizə nail olmaq üçün yeni innovativ yollar axtarılmasının vacibliyini şərtləndirir.

Dayanıqlı İnkişaf üzrə 2030-cu il gündəliyinin qəbul edilməsi planetimizdə yaşayan xalqların rifahını təmin etmək kimi missiyada dünya əhalisi üçün mühüm hadisə oldu. Təsadüfi deyil ki, gündəliyin ilk iki məqsədi məhz yoxsulluğun və aclığın aradan qaldırılmasına yönəlib. Ümumi mövqeyi əks etdirən bu məqsədlərə nail olmaqla biz sülhsevər, inklüziv və dayanıqlı cəmiyyətləri formalaşdıra bilərik.

Əslində, biz çox məyusuq ki, XXI əsrdə bütün dünyada 870 milyon insan hələ də aclıqdan və azqidalanmadan əziyyət çəkir. Bu, elə vaxtda baş verir ki, ərzağın və ərzaq məhsullarının üçdəbir hissəsi qlobal səviyyədə tullantı kimi atılır. İqlim dəyişikliyi bu vəziyyəti daha da çətinləşdirir. Lakin, eyni zamanda, qloballaşma kənd təsərrüfatı sahəsində biomüxtəlifliyə, ənənəvi biliklərə biganəliklə xarakterizə olunur. Bir-birindən həddindən artıq asılılıq və həmçinin məhsulların əldə edilməsi bizim eko-sistemlərimizə zərbə vurub. Tarix boyu mədəniyyətlər və millətlər öz mətbəxləri, mətbəx mədəniyyətləri üzrə əlaqələr yaratmışlar. Onlar öz ənənələrini qoruyub saxlayırlar. Bunun qorunub-saxlanılması ərzaq təhlükəsizliyinə, sülhə və dayanıqlı inkişafa xidmət edir. Təbii ki, mədəniyyətlərarası dialoqun gücləndirilməsi, əslində, ənənəvi kənd təsərrüfatı biliklərinin yayılmasına, onların qorunub saxlanılmasına xidmət edir. Başqa sözlə desək, biz gərək əminliklə səylərimizi birləşdirək ki, məhsullarımız gələcəyimizin məhsulu olsun. Təbii ki, ərzağın bölüşdürülməsi özü-özlüyündə

mədəniyyətlərarası dialoqun bir formasıdır. Çünki mətbəx mədəniyyəti insanlara bir-biri ilə bir araya gəlmək, həmçinin stereotipləri aradan qaldırmaq və müxtəlif həyat tərzlərini anlamaq üçün bir vasitədir.

Vaxt artıq yetişib. Beynəlxalq ictimaiyyət öz səylərini ərzaq təhlükəsizliyinin və qidalanmanın, mədəniyyətlərarası dialoqun və rifahın daha da yaxşılaşdırılmasına yönəltməlidir. Bu baxımdan mən Azərbaycanın dəstəyi, BMT-nin Sivilizasiyalar Alyansının və digər tərəfdaşların təşkilatçılığı ilə oktyabrda FAO-nun mənzil qərargahında dinlərarası mədəni identikliyin və fərqliliyin ərzaq təhlükəsizliyi vasitəsilə qorunması mövzusunda tədbirin keçirilməsini alqışlayıram. Bu tədbir, əslində, “Bakı prosesi”ndən irəli gəlir. O, məhz ərzağın tolerantlığın yayılmasına, mədəni fərqliliyin aradan qaldırılmasına xidmət edəcək.

Əziz dostlar, heç bir ölkə və ya təşkilat ərzaq təhlükəsizliyi, ətraf mühitin qorunması, dayanıqlı inkişaf kimi universal məsələlərlə təklikdə məşğul ola bilməz. Dialoq çox vacibdir ki, qlobal inkişafın gündəliyi həyata keçirilsin. Bunu nəzərə alaraq, biz 2011-ci ildə IDEA-nı - “Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq” İctimai Birliyini yaratdıq. Məqsədimiz çox sadədir. İstərdik ki, ətraf mühitə daha uyğun, daha təhlükəsiz, daha sağlam gələcəyi təmin etmək üçün ictimai platformaya çevrilək. Bizim şüarımız belədir: “Vahid Yer kürəsi – vahid gələcək”. IDEA-nın layihələrinin miqyasına gəldikdə, biz təhsil, maarifləndirmə, tullantılarla mübarizə, dayanıqlı inkişaf mövzularında işləyirik. Son beş il ərzində bizim gənc təşkilatımız çox gözəl nəticələr əldə edib. Biz bütün ölkə ərazisində beş milyondan çox ağac əkmişik. Nəinki öz ölkəmizdə, digər ölkələrdə də ağac əkmişik. Biz, həmçinin ceyranları məhvolma təhlükəsindən qorumuşuq. Bununla bağlı bir sıra konservasiya layihələri həyata keçirmişik. Biz, həmçinin digər layihələri də həyata keçiririk ki, onların hamısı bizim hazırkı təşəbbüslərimizdən irəli gəlir. Xüsusən də Qafqaz bəbiri və Qafqazda bizonun yenidən artması. Eyni zamanda, biz bu kontekstdə digər addımlar da atırıq. IDEA ötən il Xəzər dənizində qızıl balığın qorunması ilə əlaqədar Kür çayının deltasının təmizlənməsi üzrə çox mühüm layihəsini irəli sürdü. Bu layihənin məqsədi balıq ehtiyatlarının artırılması, suyun keyfiyyətinin daha da yüksəldilməsi və çayların ətrafında ekologiyanın yaxşılaşdırılmasıdır. Mən, həmçinin qeyd etmək istəyirəm ki, bir neçə həftə əvvəl biz Azərbaycanın aztəminatlı ailələri üçün meyvə bağlarının yaradılması təşəbbüsünü irəli sürmüşük. Biz bu layihəni FAO ilə bir yerdə həyata keçiririk. Biz bu layihə çərçivəsində kənd yerlərində meyvə ağaclarının əkilməsini planlaşdırırıq. Bu, həmin ailələr üçün mənfəət mənbəyi olacaq. Mən FAO-ya dərin təşəkkürümü bildirmək istəyirəm. Bu tərəfdaşlığa, göstərdiyi səylərə görə FAO-nun Azərbaycandakı ofisinin rəhbəri xanım Mələk Çakmaka təşəkkürümü bildirirəm. Biz dinimizdən, irqimizdən, adət-ənənələrimizdən asılı olmayaraq, hamımız eyni planetdə yaşayırıq. Bizim ümumi gələcəyimiz var. Ekologiyanın sərhədləri yoxdur. Əsl reallıq onu göstərir ki, bu gün insanın fəaliyyəti, antropogen amillər təbiətin qanunlarını pozur və bizə böyük fəlakətlər gətirir. İnsanlar sahib olduqları zənginliklərin dəyərinin qədir-qiymətini bilməlidirlər. Bu baxımdan mən məşhur amerikalı rejissor, prodüser və müəllif Tom Şoydakın sözlərindən sitat gətirmək istəyirəm: “Təbiətdə heç nə ehtiyacından artığını götürmür. Qırmızı ağac torpağın bütün nutrientlərini almır, böyümək üçün lazım olan qədərini götürür. Tox aslan ceyranın dalınca qaçıb onu məhv etmir”. İnsanlar da təbiətin bu qanunlarına riayət etməlidir. Hər kəsin həyat tərzi və onun vərdişləri ekologiyaya təsir edir. Biz vahid planetimizin qorunması üçün böyük dəyişikliklər edə bilərik. Bu da bizim dayanıqlı inkişafımızı təmin edə bilər. Odur ki, ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq daim təşviq olunmalıdır.

Hörmətli qonaqlar, əminəm ki, ölkəmizdə olduğunuz bir neçə gün ərzində bizim ləziz yeməklərimizlə tanış olacaqsınız, mədəniyyət abidələrimizi görəcəksiniz, yerli insanlarla tanış olacaqsınız. Əminəm ki, bu təcrübə sizin müxtəliflik potensialınızı daha da artıracaq.

Müxtəliflik və dialoqa meyilli olmaq müxtəlif qruplar arasında anlaşma körpülərinin salınması deməkdir. Biz münaqişələri, gərginlikləri birgə səylərlə azalda bilərik. Belə körpülər rəsmi danışıqlarda, görüşlərdə qurulmur, əksinə, pərdəarxası işlərlə şərtlənir. Bunları nəzərə alaraq, sizləri dialoqa hər zaman açıq olmağa dəvət edirəm.

Mən sizə xoşbəxtlik və sağlamlıq arzulayıram. Çox sağ olun.

**Azərbaycan**.-2017.-7 may.-№97.-S.1,10.

**Bakıda Ümumdünya Ərzaq Gününə həsr edilən tədbir keçirilib: Heydər Əliyev Fondunun vitse-prezidenti, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib**

*(16 oktyabr 2017-ci il)*

Oktyabrın 16-da ADA Universitetində IDEA İctimai Birliyi, Kənd Təsərrüfatı Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO-nun birgə təşkilatçılığı ilə Ümumdünya Ərzaq Gününə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva tədbirdə iştirak edib.

Bu il Ümumdünya Ərzaq Günü "Miqrasiyanın gələcəyini dəyişək: Ərzaq təhlükəsizliyinə və kənd yerlərinin inkişafına sərmayə qoyaq" mövzusuna həsr olunub.

Əvvəlcə Leyla Əliyeva ADA Universitetində Kənd Təsərrüfatı Nazirliyinin elmi-tədqiqat institutlarının fəaliyyət istiqamətlərinə aid nəşrlərin nümunələri, kataloq və bukletlərdən ibarət sərgi ilə tanış olub.

Tədbir Ümumdünya Ərzaq Gününə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

**FAO-nun xoşməramlı səfiri Leyla ƏLİYEVA tədbirdə çıxış edib.**

Ümumdünya Ərzaq Gününün əhəmiyyətini vurğulayan xoşməramlı səfir ərzaq təhlükəsizliyinin və kənd yerlərinin inkişafının dünyada sülhün, sabitliyin və davamlılığın təmin edilməsi üçün vacib amil olduğunu diqqətə çatdırıb, bu sahədə mövcud problemlərin isə münaqişəyə, aclığa və kütləvi miqrasiyaya yol aça biləcəyini bildirib.

"2030-cu il Davamlı İnkişaf üzrə Gündəliyin ilk iki məqsədi məhz yoxsulluq və aclığa son qoyulmasını nəzərdə tutur. Bu, ümumi anlayışı ifadə edir ki, məhz həmin hədəflərə çatmadan biz sülhsevər, inklüziv və davamlı cəmiyyətlər qura bilmərik. Qurduğumuz cəmiyyətlərdə insanlar sağ qalmaq üçün öz evlərini tərk etmək məcburiyyəti qarşısında qalmamalı, bu, onların öz seçimi olmalıdır. Miqrant axını qeyri-bərabər inkişafla sıx şəkildə əlaqəlidir. Dünya əhalisinin demək olar ki, yarısı və dünyadakı yoxsulların 75 faizi kənd yerlərində yaşayır və kənd təsərrüfatından asılıdır. Buna görə də təkcə kəndlərin inkişafına investisiya yatırmaqla biz milyonlarla insanın bu ərazilərdən getməsinin qarşısını ala bilərik. Bununla belə, miqrasiyanın gələcəyini dəyişdirmək o demək deyil ki, biz sadəcə olaraq kənd təsərrüfatının hər hansı formada inkişafına hədəflənməliyik. Yalnız iqlim əsaslı ağıllı kənd təsərrüfatına investisiya yatırmaqla biz kəndlərin inkişafını dəyişdirə və onu daha davamlı edə bilərik", - deyə Heydər Əliyev Fondunun vitse-prezidenti vurğulayıb.

Leyla Əliyeva rəhbərlik etdiyi IDEA İctimai Birliyinin fəaliyyəti, ötən altı ildə görülən işlər, ərzaq təhlükəsizliyi, ətraf mühitin qorunması və davamlı inkişaf üçün xüsusi əhəmiyyət kəsb edən layihələrdən danışaraq deyib: "Son 6 il ərzində biz bir çox layihələr həyata keçirmişik və yaxşı nəticələr əldə etmişik. Bəzi layihələrimizə Azərbaycanda 5 milyon ağac əkilməsi, nəsli kəsilmək təhlükəsi altında olan heyvanların qorunması, elmi laboratoriyaların yaradılması, şagirdlər və tələbələr üçün dərslərin təşkili, kitabların çap edilməsi və ətraf mühitlə bağlı məlumatlılığı artırmaq üçün müxtəlif sərgilərin təşkili daxildir. Əlbəttə ki, biz bütün layihələrimizə çox kreativ şəkildə yanaşmağa çalışmışıq. Lakin biz anlayırıq ki, zaman əleyhimizə işləyir və indi hərəkətə keçmək çox vacibdir.

Bu gün mən sizə IDEA-nın xüsusilə ərzaq təhlükəsizliyi, kəndlərin inkişafı, eyni zamanda, ətraf mühit məsələləri ilə bağlı olan bir neçə layihəsi barədə daha çox məlumat vermək istərdim. Bir neçə ay əvvəl FAO ilə əməkdaşlıq çərçivəsində İsmayıllı rayonunda aztəminatlı Azərbaycan vətəndaşları üçün meyvə bağlarının salınması üzrə birgə layihəyə start verildi. Mən məmnunam ki, təkcə üç gün bundan əvvəl, biz Şəmkir rayonunda bu layihənin həyata keçirilməsinə uğurla başladıq. Yaxın bir neçə həftə ərzində biz Azərbaycanın daha yeddi rayonunda bu layihəyə başlamağı planlaşdırırıq və ümidvarıq ki, gələcəkdə ölkənin digər ərazilərini də əhatə edəcəyik. Məqsəd aztəminatlı ailələrin rifahını yaxşılaşdırmaq və onlara davamlı şəkildə gəlir əldə etməyə kömək göstərməkdir.

Ətraf mühitin vəziyyətinə töhfə vermək, eləcə də ondan asılı olan kənd icmalarına yardım etmək üçün daha bir səy göstərərək ötən il IDEA Kür çayının deltasının təmizlənməsi üzrə çoxaspektli layihənin icrasına başladı. Bu layihə balıq ehtiyatları, suyun keyfiyyəti və bütünlükdə, çayətrafı ərazilərdə ekologiyanın yaxşılaşdırılması məqsədi daşıyır.

Bu gün bizim dünyaya güclü mesaj göndərmək imkanımız var: Miqrasiyanın gələcəyini dəyişin - ərzaq təhlükəsizliyi və kəndlərin inkişafına investisiya yatırın. Mən inanıram ki, birlikdə hərəkət edərək biz böyük dəyişikliyə nail ola, həmçinin özümüzü dəyişdirməklə hər birimiz dünyaya böyük təsir edə bilərik".

Kənd təsərrüfatı naziri Heydər ƏSƏDOV çıxış edərək bildirib ki, belə beynəlxalq tədbirlərin təşəbbüskarı olan Azərbaycanın siyasi rəhbərliyi bu tədbirə də öz töhfəsini verib. Beynəlxalq statistikaya görə, dünya əhalisinin 800 milyondan çoxunun aclıqdan əziyyət çəkdiyini, qeyri-rəsmi statistikada isə bu rəqəmin 2 milyard təşkil etdiyini deyən Heydər Əsədov bildirib ki, bu fakt hər bir ölkənin ərzaq təhlükəsizliyinə xüsusi töhfə verməli olduğunu göstərir. Dünyada miqrasiya sahəsində statistikanın nikbin olmadığını, miqrasiyanın artmasının ərzaq təhlükəsizliyinə mənfi təsir göstərdiyini deyən Heydər Əsədov bu problemin Azərbaycana tanış olduğunu bildirib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə üzləşən ölkəmiz bu problemi demək olar ki, öz daxili gücü hesabına həll edir. Nazir vurğulayıb ki, Azərbaycan hökuməti dünyanın üzləşdiyi bu cür çağırışlarda hər zaman fəal iştirak edir, miqrasiyaya səbəb olan ölkələr isə bu gün miqrantları qəbul etmirlər.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk ÇAKMAK təşkilatın 1945-ci ildə yaranması günü olan 16 oktyabr tarixinin Ümumdünya Ərzaq Günü kimi dünyanın 150-dən çox ölkəsində qeyd edildiyini deyib. O, dünyada artan münaqişə və qeyri-sabitlik səbəbindən bir çox insanların evlərini tərk etmək məcburiyyəti qarşısında qaldıqlarını bildirərək, miqrasiyanın mənfi təsirləri, FAO-nun fəaliyyəti haqqında danışıb. Qeyd edib ki, 2030-cu ildə aclığın sıfıra endirilməsi məqsədinə nail olmaq miqrasiya problemini həll etmədən mümkün deyil. Son 10 ildə aclıqdan əziyyət çəkənlərin sayının yenidən artdığını bildirən Mələk Çakmak 2050-ci ildə sayı 10 milyarda çatacaq dünya əhalisinin qida təhlükəsizliyinin təmin edilməsi məsələsinin gündəmdə olduğunu, bu istiqamətdə strategiyaların hazırlandığını deyib.

Təşkilatın Azərbaycandakı təmsilçisi qurumla məhsuldar tərəfdaşlığa görə Prezident İlham Əliyevə FAO adından təşəkkürünü bildirib. O, təşkilatın mesajlarının dünyaya çatdırılması istiqamətində FAO-nun xoşməramlı səfiri Leyla Əliyevanın səylərini də xüsusi qeyd edib.

"Bu gün bir çox insan qida məhsullarına çıxış əldə etməkdə çətinlik çəkir. Bunun əsas səbəblərindən biri də miqrasiyadır". Bu sözləri isə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan AKTOPRAK deyib. O, miqrasiyanın ərzaq təhlükəsizliyinə, ərzaq təhlükəsizliyinin isə miqrasiyaya təsirindən danışıb. Vurğulayıb ki, bu gün belə problemlərin qarşısını almaq üçün səylər birləşdirilməli, əməkdaşlıq gücləndirilməlidir.

Serhan Aktoprak Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə miqrasiya idarəçiliyində böyük nailiyyətlərin qazanıldığını diqqətə çatdıraraq ölkəmizin digər dövlətlər üçün nümunə olduğunu, bu təcrübənin öyrənilməsinin vacibliyini qeyd edib.

Sonra FAO-nun baş direktoru Joze Qratsiano da Silvanın Ümumdünya Ərzaq Gününə dair videomüraciəti nümayiş olunub.

Daha sonra "Azərbaycanda aztəminatlı ailələr üçün meyvə bağlarının salınması" layihəsinə dair videoçarx təqdim edilib.

Tədbir "Miqrasiyanın iqtisadi və siyasi tərəfləri: kənd təsərrüfatına və ərzağa təsirləri" mövzusunda panel müzakirələri ilə davam edib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun sədrliyi ilə keçən panel müzakirələrində ərzaq təhlükəsizliyi, davamlı kənd təsərrüfatı və kənd yerlərinin inkişafı baxımından miqrasiyanın yaratdığı çağırışlar və imkanlar haqqında məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

**AZƏRTAC**
**2017, 16 oktyabr**

**Bakıda "2030 Gündəliyinin ətraf mühit aspektləri" mövzusunda Milli Gənclər Forumu keçirilib:**
**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai birliyinin təsisçisi, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva Forumun açılış mərasimində çıxış edib**
*(5 iyun 2018-ci il)*

***İyunun 5-də Bakı Konqres Mərkəzində "2030 Gündəliyinin ətraf mühit aspektləri" mövzusunda Milli Gənclər Forumu keçirilib.***

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva Forumda iştirak edib.

Dünya Ətraf Mühit Günündə təşkil edilən tədbirin məqsədi gənclər arasında Dayanıqlı İnkişaf Məqsədləri (DİM), xüsusən onların ekoloji aspektləri haqqında maarifləndirmənin artırılması, eləcə də gəncləri DİM səfirləri olmağa sövq etməklə onların 2030 Gündəliyinin həyata keçirilməsində rolunu gücləndirməkdir.

IDEA İctimai Birliyinin Heyvanlara Qayğı Mərkəzinin direktoru Surxay Şükürov dünya liderləri tərəfindən Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin qəbul edilməsi ilə nəticələnən BMT-nin Dayanıqlı İnkişaf Sammitinin sentyabr ayında üç illiyinin tamam olacağını xatırladaraq, bu sənədin insanlar, planet və rifah naminə fəaliyyət planı olduğunu vurğulayıb.

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai birliyinin təsisçisi, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva Forumun açılış mərasimində çıxış edib.***

Leyla Əliyeva planetimizin və onun təbii ehtiyatlarının mühafizəsi məqsədilə maarifləndirmə və fəaliyyətin təşviqi üçün ən mühüm gün olan Dünya Ətraf Mühit Gününü qeyd etmək üçün Forum iştirakçıları ilə birlikdə olmaqdan məmnunluğunu bildirib. "Bizim tədbirimiz bu günü qeyd etmək və ətraf mühitlə bağlı aktual məsələlər və dayanıqlı inkişaf barədə danışmaq üçün böyük imkandır", - deyən IDEA-nın təsisçisi vurğulayıb ki, biz vaxtın ötüb getdiyini və hərəkətə keçmək üçün yeganə zamanın indiki zaman olduğunu yadda saxlamalıyıq.

"2015-ci ildə dünya liderləri bəşəriyyətin bütün mövcud çağırışlarının həllində irəli aparan ümumbəşəri yol olan Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyini təsdiqlədilər. Gündəlikdə 2030-cu ilədək nail olunması üçün 17 ümumbəşəri dayanıqlı inkişaf məqsədi və 196 hədəf müəyyənləşdirilib. Azərbaycanda dayanıqlı inkişaf hədəflərinin həyata keçirilməsini əlaqələndirmək məqsədilə 2016-cı ilin oktyabrında dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılarkən ölkəmiz 2030-cu il Gündəliyinə nail olmaq öhdəliyini ən yüksək səviyyədə nümayiş etdirdi. Bu gün BMT-nin 18 rezident və qeyri-rezident qurumu Azərbaycanın bu 17 məqsədə nail olmaq üçün göstərdiyi səyləri dəstəkləyir. Sevinc hissilə qeyd edirəm ki, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqinə yönəlmiş bir sıra layihələrdə bizim IDEA təşkilatımız BMT ilə uğurlu əməkdaşlıq edir. Bir çox birgə təşviqat tədbirləri, o cümlədən BMT İnkişaf Proqramı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı -FAO və UNICEF-lə tədbirlərin həyata keçirilməsi 2018-ci ilə planlaşdırılır. Əlbəttə ki, bu böyük forum bizim əməkdaşlığımızın nəticəsidir. Ümidvaram ki, bu, ətraf mühitə dair məsələlərlə bağlı məlumatlılığı artıracaq, qlobal məqsədlərə nail olmaq üçün gənclərin səylərini birləşdirməsinə kömək edəcək. 2030-cu il Gündəliyi əslində gənclər gündəliyidir. Çünki onun inkişaf etdirilməsi üçün əsas iştirakçılar gənclərdir", - deyə Leyla Əliyeva bildirib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev 2016-cı ildə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını xatırladaraq, həmin vaxtdan bəri ölkə üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edildiyini, eyni zamanda, dövlət proqramları və strategiyalarının bu məqsədlərlə uzlaşdırılmasının həyata keçirildiyini söyləyib. Qeyd edib ki, ötən il Azərbaycanda "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar ilkin addımlar haqqında Könüllü Milli Hesabat hazırlanaraq Yüksək Səviyyəli Siyasi Foruma təqdim edilib. "Dayanıqlı inkişaf – gələcək nəsillərin imkanlarını təhlükə altına qoymadan indiki dövrün ehtiyaclarını təmin edən inkişafdır", - deyən Muxtar Babayev bildirib ki, bu inkişafın ekoloji aspektləri okean və dəniz ehtiyatları,

iqlim dəyişmələri, ətraf mühit, tullantıların idarə edilməsi, ekosistemlər və biomüxtəliflik sahələrindəki məqsədləri əhatə edir. Buna nail olunması baxımından insan və təbiət arasında münasibətlərdə balansın təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Burada dövlət və qeyri-hökumət təşkilatlarının, biznes qurumlarının, xüsusilə də gənclərin üzərinə böyük vəzifələr düşür. Ekologiya və təbii sərvətlər naziri bu məqsədlərin həyata keçirilməsində gənclərin rolunu vurğulayıb.

"Hər bir gənc potensial milli sərvətdir", - deyən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin vəzifələrini icra edən Edvard Karvardin iqlim dəyişikliklərinin aradan qaldırılmasında gənclərin rolundan, ətraf mühitin qorunmasının təşviq edilməsinin vacibliyindən danışıb. Bu istiqamətdə Leyla Əliyevanın təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini xüsusi qeyd edib. Diqqətə çatdırıb ki, IDEA-nın gördüyü işlərin sırasına iyunun 9-da daha biri əlavə olunacaq. Belə ki, İctimai Birliyin təşəbbüsü ilə Bakı çimərliyində ənənəvi təmizlik aksiyası keçiriləcək. Ekosistemin gücləndirilməsində, "yaşıl təşəbbüs"lərin təşviqində, ətraf mühitin qorunmasında kollektiv və fərdi iştirakın dəstəklənməsi məsələlərinə toxunan Edvard Karvardin birgə səylər nəticəsində bir çox məsələlərin həllinin mümkünlüyünü söyləyib.

Sonra BMT baş katibinin Dünya Ətraf Mühit Günü münasibətilə videomüraciəti nümayiş olunub.

Panel iclaslarla davam edən forumda "İqlim dəyişikliyi: adaptasiya və təsirlərin azaldılmasında gənclərin rolu" mövzusu ətrafında müzakirələr aparılıb. FAO-nun iqlim və ətraf mühit bölməsinin təbii ehtiyatlar üzrə mütəxəssisi Alaşiya Qordes "Dayanıqlı inkişaf nəsli: dəyişən iqlim şəraitində ərzaq təhlükəsizliyinin qorunması" mövzusu ilə bağlı fikirlərini bildirib. O, aclıqdan əziyyət çəkənlərin sayının artdığını təəssüflə qeyd edərək, bunun səbəblərini müharibə və iqlim dəyişikliyi ilə əlaqələndirib. Vurğulayıb ki, gənclər ərzaq təhlükəsizliyi məsələlərinin həllində daha fəal olmalıdırlar.

UNDP GEF Kür II Layihəsində baş texniki məsləhətçi və regional layihə koordinatoru Meri Mətyus "Su, iqlim dəyişikliyi və gələcəyimiz" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, əslində bu Forum vasitəsilə gənclərə suallar ünvanlanır və məqsəd onları həmin suallara cavab tapmağa yönəltməkdir. Meri Mətyus içməli su qıtlığı, suya qənaət olunması ilə bağlı fikirlərini bölüşüb. O, su ehtiyatları ilə bağlı böyük çağırışlar olduğunu qeyd edərək, gəncləri bu problemlərdən çıxış yolu tapmağa çağırıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Azərbaycan gənclərinin iqlim dəyişikliyi ilə mübarizədə potensial rolundan danışıb. Gənclərin ölkəmizdə çoxluq təşkil etdiyini qeyd edən Fərid Cəfərov onların ətraf mühitin qorunması istiqamətində görə biləcəyi işlərə nəzər salıb, Gənclər Fondunun ekoloji layihələrin dəstəklənməsi ilə bağlı tədbirlərini diqqətə çatdırıb. Bildirib ki, fond bu sahədə iki istiqamət üzrə - gənclərin ekoloji maarifləndirilməsi və onların iştirakı ilə ekoloji problemlərin aradan qaldırılması istiqamətlərində fəaliyyət göstərir.

Forumda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd olunub ki, davamlı inkişaf bir-birinə bağlı üç təməl elementini – iqtisadiyyat, cəmiyyət və ətraf mühiti əhatə edir. 2030 Gündəliyi gənclərin gündəliyidir. Belə ki, dayanıqlı inkişaf anlayışı gələcək nəsillərin sərvətlərinə xələl gətirmədən hazırkı nəslin rifahının yaxşılaşdırılmasını nəzərdə tutur. Eyni zamanda, bu Gündəlik gəncləri inkişafın əsas aparıcı qüvvəsi kimi müəyyənləşdirib. Lakin bunun üçün onlara öz potensialını reallaşdırmaq imkanı yaradılmalıdır.

"Biomüxtəlifliyin qorunması: Azərbaycan üçün əhəmiyyəti nədir?" mövzusunda panel iclasın iştirakçıları flora və fauna növlərinin mühafizəsi üzrə səylərin vacibliyi və Azərbaycanda məhvolma təhlükəsi ilə qarşılaşan növlərlə bağlı vəziyyət haqqında danışıblar. Dünya Vəhşi Təbiət Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov "Təbii dəyərlər. Azərbaycanda təbiəti mühafizənin tarixi və WWF-in töhfəsi", Ekologiya və Təbii Sərvətlər Nazirliyinin biomüxtəliflik departamentinin baş məsləhətçisi Rəşad Allahverdiyev "Azərbaycanda xüsusi mühafizə edilən təbiət əraziləri şəbəkəsinin inkişaf etdirilməsi üzrə səylər", IDEA İctimai Birliyinin baş layihə koordinatoru Afaq Rizayeva "IDEA-nın Qafqaz regionunda biomüxtəlifliyin qorunması üzrə səyləri" mövzularında məruzələrlə çıxış ediblər.

"Davamlı enerji: insanları, iqtisadiyyatı və planeti transformasiya edərkən" mövzusunda panel iclasda Dünya Resurslar İnstitutunun (WRI) Dayanıqlı şəhərlər üzrə Türkiyə ofisinin səmərəli şəhər və iqlim bölməsinin rəhbəri Məltəm Bayraktarın "Enerji, cəmiyyət və davamlılıq", Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin texniki tənzimləmə şöbəsinin müdiri Sənan Abbasovun "Azərbaycanda bərpa olunan enerji mənbələri: nailiyyətlər və perspektivlər", UNDP

Azərbaycan, NAMA layihəsinin rəhbəri Nazim Məmmədovun "Binalarda enerji səmərəliliyi" mövzularında məruzələri dinlənilib.

**Xalq qəzeti**. - 2018.- 6 iyun. - № 126. - S. 8.

## FAO-nun Romadakı baş ofisində “Azərbaycan otağı”nın açılışı olub: Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış etmişdir

*(25 sentyabr 2018-ci il)*

Roma, 25 sentyabr, AZƏRTAC

Sentyabrın 25-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Romadakı baş ofisində “Azərbaycan otağı”nın açılışı olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyeva açılışda iştirak edib.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı qarşıladı.

Əvvəlcə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas ilə görüşü oldu.

Görüşdə Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə əməkdaşlığı yüksək qiymətləndirildi, əlaqələrin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparıldı.

Baş direktorun müavininə IDEA, FAO və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdiyi layihə çərçivəsində Azərbaycanın 11 rayonunda aztəminatlı ailələr üçün salınmış meyvə bağları barədə məlumat verildi.

Söhbət zamanı “Sıfır aclıq” Konsepsiyasının icra vəziyyəti ilə bağlı, həmçinin münaqişədən əziyyət çəkən ölkələrdə və Afrika ölkələrində aclığın aradan qaldırılması üçün mümkün əməkdaşlığa dair fikir mübadiləsi aparıldı. Dünyada 870 milyon insanın hələ də aclıq və azqidalanmadan əziyyət çəkdiyi bir vaxtda ərzaq məhsullarının üçdəbir hissəsinin tullantıya getməsinin qəbuledilməz olduğu vurğulandı.

Sonra “Azərbaycan otağı”nın açılışı oldu.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun müavini Laurent Tomas otağın rəmzi açılışını bildirən lenti kəsdilər.

FAO ilə Azərbaycanın birgə layihəsi olan bu gözəl otaqda təşkilatın fəaliyyəti üçün bütün şəraitin mövcud olduğunu deyən Laurent Tomas bildirdi ki, burada təşkilatın əməkdaşları ən müasir imkanlardan istifadə edə biləcəklər. “Otaqda ən qabaqcıl texnoloji avadanlıqla yanaşı, Azərbaycanın qədim mədəniyyətini əks etdirən əşyalar da var. Bu mənada otağın alov formalı divarları Odlar diyarını təcəssüm etdirir”, - deyən Laurent Tomas otaqda buta naxışını xatırladan dizaynı da qeyd etdi. İclas otaqlarından gözəl mənzərənin açıldığını, mədəni və bədii nöqteyi-nəzərdən otağın çox cəlbedici olmaqla yanaşı, həm də çox praktiki olduğunu söyləyən Laurent Tomas vurğuladı ki, otaq BMT binaları üçün tətbiq olunan ən yüksək təhlükəsizlik tədbirlərinə cavab verir. Laurent Tomas FAO-nun baş direktoru adından təşkilatın öz əhəmiyyətli məqsədlərinə çatması istiqamətində səmərəli fəaliyyət göstərməsi üçün bu faydalı töhfəyə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirdi.

***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla ƏLİYEVA dedi:***

- Hörmətli baş direktorun müavini Laurent Tomas.

Yaratdığınız bu fürsətə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Biz açılış lentini kəsəndə mən bunun yeni və xüsusi bir başlanğıc olduğunu düşündüm. İnanıram ki, bu açılış FAO ilə münasibətlərimizin yeni mərhələyə qədəm qoymasını təcəssüm edir. FAO-nun baş ofisində bir parça Azərbaycanın olması, burada Azərbaycanın mədəniyyətinin və milli ruhunun əks etdirilməsi, şübhəsiz, buraya gələn insanları bizim gözəl ölkəmizi, qonaqpərvər xalqımızı ziyarət etməyə sövq edəcək. Əminəm ki, bu ofis dünyamıza çoxlu müsbət dəyişikliklər gətirəcəkdir. Çox sağ olun.

**X X X**

Məlumat verildi ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Romadakı baş ofisində “Azərbaycan otağı” Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə təsis edilib. FAO-nun ofisində müxtəlif ölkələrin otaqları mövcuddur. Burada MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanın adını daşıyan otaq yaradılıb. Otağın tərtibatında Azərbaycanın milli ornamentlərindən, musiqi alətlərindən, xalçalarından istifadə olunub. Qədim tariximizin, zəngin mədəni irsimizin, ümumilikdə, ölkəmizin təbliği baxımından bu cür layihələr mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Azərbaycan 1995-ci ildən FAO-nun üzvüdür. Ölkəmizdə qurumun layihə əlaqələndirmə ofisi 2007-ci ildən fəaliyyət göstərir. Azərbaycanda təşkilatın ilk əlaqələndirmə və tərəfdaşlıq ofisi də var.

Xatırladaq ki, Leyla Əliyeva humanitar və ekologiya sahəsindəki fəaliyyətinə görə FAO-nun xoşməramlı səfiri adına layiq görülüb. Bu qurum dünyada aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərini yaratmaq kimi vəzifələri qarşısına məqsəd qoyub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fəaliyyəti isə bu məqsədlərə nail olmağa töhfə verir.

Sonda xatirə şəkli çəkdirildi.

**Xalq qəzeti**. - 2018.- 26 sentyabr. - № 215. - S. .

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib**
*(4 dekabr 2023-cü il)*

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP28 çərçivəsində dekabrın 4-də Ümumi Qadınlar Birliyinin sədri Şeyxa Fatimə Bint Mübarəkin himayəsi altında "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclas təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumi Qadınlar Birliyinin və İsveçrə Qadınlar və Gücləndirmə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən iclasda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Almheiri iştirak ediblər.

İclasda bildirilib ki, iştirakçılar BMT Baş Assambleyasının təhlükəsiz və təmiz içməli su hüququnu başlıca insan hüquqlarından biri kimi təsbit edən qətnaməsinə uyğun olaraq, su idarəçiliyi ilə bağlı aktual problemi həll etmək, onun icmalara və ekosistemlərə təsirlərini araşdırmağa yönəlmiş səyləri əlaqələndirməyə və gücləndirməyə çalışacaqlar.

Müzakirələrdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: "Biz görürük ki, iqlim dəyişikliklərinə görə Kür, Samur, Araz çaylarında suyun səviyyəsi aşağı düşür. Volqa çayında suyun səviyyəsi enir və bu, Xəzər dənizinə də təsir edir. Biz ötən 7-8 ildə Azərbaycanda quraqlığa şahid olmuşuq və bu da aqrar sahəyə təsirini göstərir. Hökumət ölkədə 10 su rezervuarı yaratmağı planlaşdırır və bununla problem həll olunacaq. Digər məsələ isə odur ki, təəssüf, biz ölkəmizin ərazisinin 20 faizinin 30 il ərzində işğal altında qaldığı dövrdə həmin torpaqlardakı su ehtiyatlarımızdan məhrum olmuşduq".

Çıxışlar zamanı su problemlərinin həlli ilə bağlı qarşılıqlı məlumatlılığın artırılmasının, davamlı su idarəçiliyi üçün inklüziv və məlumatlı həllərin təşviq edilməsinin, Dayanıqlı İnkişaf Məqsədlərinə və gender bərabərliyinə nail olmağın əhəmiyyəti xüsusi vurğulanıb. Panel iştirakçıları, həmçinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olunmasını sürətləndirmək baxımından dünya miqyasında icmaların rifahına, sağlamlığına və bərabərliyinə müsbət təsir göstərə biləcək daha yaxşı su idarəçiliyi üçün qabaqcıl təcrübə və mümkün həll mexanizmlərini, eləcə də iqlim məsələlərini müzakirə ediblər.

Xəlifə Universitetinin professoru Mariam Rashed Al Shehihi bildirib: "Biz BƏƏ-də su ilə bağlı vəziyyət haqqında ən yeni məlumata sahib olmalıyıq. Bununla da problemləri daha yaxşı anlayıb su ehtiyatlarının daha səmərəli idarə edilməsinə nail ola bilərik. Biz anlamalıyıq ki, məsələn, BƏƏ-də hansı sahələrdə nə qədər su sərf edilir. Bununla da biz problemləri, indiki və gələcəkdə yarana biləcək vəziyyəti daha yaxşı başa düşə bilərik".

Panel iclasından sonra iştirakçılar COP28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda olublar. Məlumat verilib ki, dekabrın 12-dək davam edəcək COP28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlılığı üçün davamlı həlləri rəhbər tutaq" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub. İnteraktiv formatda qurulan pavilyonda ölkəmizin iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir. Bildirilib ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. Bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.

Dekabrın 4-də, həmçinin Azərbaycan pavilyonunda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun təşkilatçılığı ilə "İqlim dəyişməsi və ekosistemlərin bərpası" mövzusunda tədbir keçirilib.

Ümumdünya Təbiəti Mühafizə Fondunun Qafqaz ofisinin mühafizə meneceri Maka Bitsadze, layihə meneceri Yerney Strith, Fondun Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əskərov və IDEA təşkilatının nümayəndəsi Zərxanım Ağayeva regionda təbiətin mühafizəsi və bərpası layihələri barədə məlumat verib, Azərbaycanın bu layihələrdəki xüsusi rolunu vurğulayıblar. Bildirilib ki, ötən əsrin ortalarında nəsli kəsilməkdə olan ceyranların tarixi arealı bərpa olunmaqdadır və yeni ərazilərə 350 başa

yaxın ceyran köçürülüb. O cümlədən işğaldan azad olunmuş ərazilərə 33 baş ceyran reintroduksiya edilib və bu proses davam etdiriləcək.

**AZƏRTAC**
**2023, 4 dekabr**

## MÜSAHİBƏLƏR

### "Interview Magazine" jurnalının son nömrəsində xanım Leyla Əliyeva ilə müsahibə dərc edilmişdir

*(11 aprel 2014-cü il)*

Keçən əsrin 60-cı illərinin sonlarında ABŞ-da təsis edilmiş "İnterview Magazine" jurnalının son nömrəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva ilə müsahibə dərc edilmişdir. Bu nəşr incəsənət aləminin ulduzları – rəssamlar, musiqiçilər və mütəfəkkirlərlə söhbətlər dərc etməsi ilə məşhurdur.

Leyla Əliyeva ilə Simon de Püri arasında söhbət müasir dövrdə Azərbaycanın inkişafının bütün səciyyəvi xüsusiyyətlərinə - incəsənət əsərləri sərgiləri, memarlıq bumunun yeni dalğası, habelə ekologiya hərəkatı mövzularına həsr edilmişdir.

Müsahibənin qısaldılmış tərcüməsini təqdim edirik.

Müəllif - Simon de Püri ("Phillips De Pury & Company" şirkətinin sədri və baş auksionçusu, BRAVO TV-nin "Sənət əsəri" serialında iştirak etmişdir)

Azərbaycan avanqard rəssamlar, moda və incəsənət, ekoloji hərəkat və qlobal memarlığın növbəti dalğası ilə əlamətdar olan ölkədir. Bu, qismən Şərqi Avropada, qismən də Asiyada yerləşən keçmiş sovet respublikasının adı çəkiləndə Qərbdə yaranan stereotiplərə bəlkə də uyğun gəlmir. Lakin söhbətdən məlum olur ki, 26 yaşlı redaktor, rəssam, aktivist və Prezident İlham Əliyevin böyük qızı Leyla Əliyeva istəyir ki, onun ölkəsi, o cümlədən paytaxt Bakı tezliklə dünyanın mədəni episentri adlanmaq hüququ uğrunda Nyu-York, Berlin və Tokio ilə rəqabət aparsın.

Leyla Əliyevanın layihələri həqiqətən çoxdur - filmlər, xeyriyyə tədbirləri, heyvanların hüquqlarını müdafiə kampaniyaları, gənclərlə bağlı aksiyalar ... Buna görə bəzən bir məsələni anlamaq çətin olur -iki uşaq anası bu qədər çoxşaxəli fəaliyyətin öhdəsindən necə gələ bilir?

Əvvəlcə, Əliyevanın 2007-ci ildə Moskvada nəşr etməyə başladığı "Baku" jurnalının beynəlxalq miqyasda təqdimatı keçirilmişdir. Bu jurnal vasitəsilə o, Azərbaycan paytaxtının mədəni həyatında baş verən hadisələr haqqında oxucuların məlumatını artırmaq, habelə mədəniyyət və incəsənət sahəsində xüsusi layihələr üçün platforma yaratmaq niyyətindədir. Keçən ilin oktyabr ayında Leyla Əliyeva "Baku" jurnalının baş redaktoru kimi, jurnalın ingilisdilli beynəlxalq versiyasının nəşr edilməsi üçün "Konde Nast" nəşrlər evi ilə əlaqə yaratmışdır. O, yaxın vaxtlarda jurnalın aprel nömrəsinin Amerika qəzet köşklərinə daxil olması ilə əlaqədar Nyu-Yorkda təqdimat mərasimi keçirməyi planlaşdırır.

Sonra Əliyevanın köməyi ilə təşkil edilmiş "Bakıya uçuş" adlı müasir incəsənət sərgisi - Xəzər dənizindən başlamış Bruklinə qədər geniş bir məkanda fəaliyyət göstərən 21 azərbaycanlı heykəltəraş, rəssam, videoqrafik və fotoqrafın əsərlərindən ibarət möhtəşəm eklektrik şou-ekspozisiya keçirilməsi nəzərdə tutulur. Yanvar ayında Londonda "Fillips de Püri" qalereyasında start götürmüş bu sərgini bütün dünyada nümayiş etdirmək planlaşdırılır. Əgər həmin işlər arasında Leyla Əliyevanın özünün çəkdiyi rəsmləri də görsəniz, təəccüblənməyin. O, gərgin qrafikinə baxmayaraq, ölkəsinin mənafelərini irəlilətməklə yanaşı, fərdi yaradıcılıq maraqlarını da reallaşdırmağa vaxt tapır.

Azərbaycanın dünya üzrə növbəti mədəni mərkəz olmaq şansı nə dərəcədədir? Əlbəttə, Leyla Əliyeva son illərdə incəsənət dünyasının diqqətini öz ölkələrində müxtəlif layihələrə cəlb etməyə nail olmuş başqa istedadlı və təşəbbüskar gənclərin güclü kampaniyasındadır.

Keçən il Ell/Nikki Azərbaycan dueti "Eurovision"-da "Running Scared" mahnısı ilə qalib olmuşdur. Bu, həmin müsabiqədə cəmi dörd il bundan əvvəl çıxış etməyə başlamış ölkə üçün çox yaxşı nəticədir. "Eurovision" mahnı müsabiqəsi bu il may ayında Bakıda keçiriləcəkdir. Bu tədbir həm şəhərə, həm də təbliğ edilməsini Əliyevanın öz missiyasına çevirdiyi bədii abu-havaya diqqəti cəlb edəcəkdir.

Leyla Əliyeva onun təşəbbüsü ilə həyata keçirilən layihələrin bugünkü vəziyyətini və gələcəyini müzakirə etmək üçün Londonda Simon de Püri ilə görüşmüşdür.

**SİMON DE PÜRİ:** "Bakıya uçuş" sərgisinin açılışı ilə əlaqədar Sizi görmək çox xoşdur. Yadımdadır, keçən il yayda mən xanımım Mikaela ilə bərabər Sizin dəvətinizlə Bakıda olduq. Əvvəllər heç vaxt Bakıda olmamışdıq. Orada cəmi 36 saat olduq və bu müddətdə bir neçə rəssamın studiyasına baş çəkdik. Bu, bizi çox sevindirdi, çünki müasir Azərbaycan incəsənəti haqqında məlumat çox azdır. Buna

görə, bu sərginin keçirilməsi mühüm qərar oldu. Sərginin kuratoru Erve Mikaeloff həqiqətən çox uzaqgörən adamdır.

**LEYLA ƏLİYEVA:** Elədir, bu sərgidə 21 rəssamın 100-dən çox işi təqdim ediləcəkdir. Həmin rəssamların bəziləri böyük sənətdə hələ ilk addımlarını atır, bəziləri isə kifayət qədər məşhurdur. Lakin maraqlıdır ki, həmin işlərin əksəriyyəti məxsusi bu sərgi üçün hazırlanmışdır, yəni onlar ilk dəfə nümayiş etdirilir.

**SİMON DE PÜRİ:** Siz bu sərgini Londondan sonra başqa yerlərdə də nümayiş etdirmək niyyətindəsiniz, elədirmi?

**LEYLA ƏLİYEVA:** Bəli, biz bu sərgini Parisdə, Berlində, Romada, Moskvada və ümidvaram ki, Nyu-Yorkda da nümayiş etdirməyi planlaşdırırıq. Sonra sərgini Bakıda tamamlamaq, onu evə, çox ehtimal ki, 2009-cu ildə açılmış Müasir İncəsənət Muzeyinə gətirmək fikrindəyik.

**SİMON DE PÜRİ:** Necə düşünürsünüz, bu müxtəlif rəssamların hamısının Azərbaycandan olmasından başqa onların arasında daha hansı ümumi cəhətlər var?

**LEYLA ƏLİYEVA:** Onların hər birinin fərdi dəsti-xətti var. Lakin onlar hamısı Azərbaycandan olduğuna görə, hər halda onların işləri Azərbaycanın paytaxtı Bakı ilə bağlıdır. Azərbaycanda incəsənətin qədim ənənələri var, ona görə bu rəssamlar böyük bir mədəni irs çərçivəsində ünsiyyət saxlayırlar. Əgər siz nə vaxtsa Qobustanda olmusunuzsa, yəqin ki, orada yaşı minilliklərlə ölçülən qayaüstü rəsmləri görmüsünüz. Beləliklə, Azərbaycan hələ dünyanın incəsənət paytaxtı hesab edilməsə də, onun ən qədim dövrlərdən başlanan çox zəngin tarixi keçmişi vardır.

Azərbaycan mədəniyyətlərin, dinlərin və ənənələrin qaynayıb-qarışdığı məkandır və bu fakt incəsənətdə də öz əksini tapmışdır. Şərq ilə Qərbin qaynayıb-qarışması sərgidə nümayiş etdirilən incəsənət əsərlərində də özünü göstərir

**SİMON DE PÜRİ:** Sərgidə şəxsən Sizin üstünlük verdiyiniz əsərlər varmı?

**LEYLA ƏLİYEVA:** (gülür) Bu işlərin hamısı xoşuma gəlir. Lakin əgər bir əsər məni həqiqətən valeh edirsə, bu, dərhal baş verir və mənim həyatımda iki dəfə belə hadisə olmuşdur. Bir dəfə Bakıda, Müasir İncəsənət Muzeyində Niyazi Nəcəfovun işinə tamaşa edəndə belə hissləri keçirmişəm. O vaxt hələ muzey açılmamışdı. Həmin əsərdən aldığım təəssürat indi də yadımdadır. İkinci dəfə buna oxşar hissləri azərbaycanlı olmayan bir rəssamın işi ilə bağlı, Sizin qalereyada Corc Kondonun əsərini görəndə yaşadım.

**SİMON DE PÜRİ:** Siz onun işlərini Bakıda nümayiş etdirmək istərdinizmi?

**LEYLA ƏLİYEVA:** Bəli, mən bunu istərdim. Bu iki insan hazırda yaşayıb yaradan rəssamlar arasında mənim ən çox sevdiyim sənətkarlardır.

**SİMON DE PÜRİ:** Bu müsahibəni beynəlxalq auditoriya oxuyacaqdır. Bununla əlaqədar, Siz necə hesab edirsiniz, həmin oxucuların Azərbaycan haqqında bilmədikləri və Sizin onlara demək istədiyiniz məsələlər varmı? Biz bu söhbəti burada, Londonda aparırıq və deməliyəm ki, mən Sizinlə görüşmək şərəfinə nail olana qədər Azərbaycan mənə uzaq gəlirdi, halbuki, Londondan Bakıya təyyarə ilə cəmi bir neçə saatlıq məsafə varmış...

**LEYLA ƏLİYEVA:** Bizim ölkə coğrafi baxımdan Xəzər dənizinin sahilində, Şərq ilə Qərbin, Asiya ilə Avropanın düz sərhəddində yerləşir və buna görə Azərbaycan çox maraqlı bir məkandır. Biz tarixi dövlətçilik ənənələri olan gənc ölkəyik. Müstəqilliyimizin bərpa olunmasının iyirmi illiyini keçən il qeyd etdik. Bununla bərabər, ölkəmiz çox qədim və zəngin tarixə malikdir. Çoxları bilmir ki, Azərbaycanda qadınlar səsvermə hüququnu 1918-ci ildə qazanmışlar. Bu, İngiltərədən və ABŞ-dan əvvəl olmuşdur.

**SİMON DE PÜRİ:** Bəs İsveçrə? Bu, İsveçrədəkindən xeyli əvvəl olmuşdur (gülür).

**LEYLA ƏLİYEVA:** Bəli, üstəlik, Azərbaycanda qızlar üçün ilk dünyəvi məktəb 1901-ci ildə açılmışdır. Şərqdə ilk opera və balet də məhz bizdə yaranmışdır. Şərqdə ilk demokratik respublika da məhz Azərbaycanda qurulmuşdur.

Azərbaycan həm Qərbdə, həm də Şərqdə yerləşdiyinə görə o, həqiqətən özünün açıqlığı və tolerantlığı ilə məşhurdur. Burada məscidlərin, sinaqoqların və kilsələrin yanaşı yerləşdiyini görmək olar. Bizim qarşılıqlı münasibətlərdə heç vaxt heç bir problem olmamışdır. Bizə başqa mədəniyyətlərə bu ehtiram və səmimi münasibət doğulduğumuz andan aşılanır. Mənim fikrimcə, bu məqamlar bu gün burada sərgilənən incəsənət əsərlərində də öz əksini tapır.

**SİMON DE PÜRİ:** Mən Bakıya gələndə gördüm ki, Siz özünüz də rəssamsınız. Bu, mənim üçün bir surpriz oldu. Erve Mikaeloff mənə dedi ki, o, Sizin rəsmlərinizi görəndə qərara almışdır ki, həmin işlər bu sərginin tərkib hissəsi olmalıdır.

**LEYLA ƏLİYEVA:** Özümü tanıdığım vaxtdan rəsm çəkirəm. Mən incəsənəti məktəbdə də öyrənmişəm, fərdi dərs də almışam, lakin heç vaxt ənənəvi mənada rəssamlıq təhsilim olmayıb. Rəsm çəkmək heç vaxt bitməyən öyrənmə prosesidir, çünki nə qədər çox rəsm çəksən, bunu necə etmək və hansı yolla daha yaxşı etmək olduğunu bir o qədər çox anlayırsan. Adətən, mən rəsm çəkməyə başlayanda dayana bilmirəm, bəzən isə rəsmi tamamlamayınca gözümə yuxu getmir. Ona görə ki, bütün fikirlərim həmin rəsmlə bağlı olur. Mən məxsusi bu sərgi üçün dörd iş hazırlamışam. Özümü peşəkar rəssamlarla müqayisə etmək fikrində deyiləm, lakin var gücümlə çalışmışam.

**SİMON DE PÜRİ:** Sizin əsərlərinizdən birini bu sərgidə gördüm, bu iş məni heyran etdi. Bu, Azərbaycanda çox geniş yayılmış böyük bir meyvə təsvir edilmiş natürmortdur.

**LEYLA ƏLİYEVA:** Bu, nardır. Sərgi "Bakıya uçuş" adlandığına görə mən Bakı ilə assosiasiya doğuran bir iş görmək istədim, nar isə çox məşhur və dadlı meyvədir. Başqa yerdə belə dadlı nar tapa bilməzsiniz. Bu səbəbdən mən nar rəsmi çəkməyi qərara aldım.

**SİMON DE PÜRİ:** Özünüzün rəssam olmağınız yəqin ki, başqalarının işlərini qiymətləndirməkdə Sizə kömək edir.

**LEYLA ƏLİYEVA:** Mən belə düşünürəm. Bunun rəssam üçün necə vacib olduğunu bilirəm. Əsərin yaranması üçün nə qədər qüvvə sərf edildiyini biləndə həmin əsəri satmağın necə çətin olduğunu başa düşürsən. İnsan öz əməyinin məhsulundan ayrılmaq istəmir.

**SİMON DE PÜRİ:** Muzeylər və art-bazar dünyasında adamların çoxu, o cümlədən mən də rəssam kimi fəaliyyətə başlamışam. Həmin rəssamların çoxu bunu etiraf etmir. Mən düşünürəm ki, rəssamlıq insana dünyanı görməyi öyrədir.

**LEYLA ƏLİYEVA:** Mən rəsm qalereyalarında və muzeylərdə saatlarla ola bilərəm. Teyt Muzeyində, Milli Qalereyada eyni şəklə saatlarla baxa bilərəm.

**SİMON DE PÜRİ:** Eşitmişəm, Sizin şairliyiniz də var?

**LEYLA ƏLİYEVA:** Düzdür, şeir yazıram, amma mən şair deyiləm. Sadəcə olaraq, uşaq yaşlarımdan elə-belə, özüm üçün şeirlər yazıram. Amma Siz mənim şeirlərimi oxumamısınız, elə deyilmi?

**SİMON DE PÜRİ:** Təəssüflə etiraf etməliyəm ki, oxumamışam. Amma onu da eşitmişəm ki, Siz musiqini çox sevirsiniz.

**LEYLA ƏLİYEVA:** Mən müxtəlif janrlara aid musiqini dinləməyi xoşlayıram. Azərbaycanda musiqi sənətinə həmişə məxsusi rəğbət olmuşdur, bu gün də belədir. Bizim muğamlarımız dərin fəlsəfəsi, ənənələri və tarixi olan xalq musiqisidir.

Digər tərəfdən, yəqin ki, Siz bilirsiniz, biz "Eurovision" mahnı müsabiqəsində qalib gəlmişik. Bu, bizim üçün böyük qələbədir. Növbəti müsabiqəni may ayında biz keçirəcəyik. Mən həmin müsabiqəni səbirsizliklə gözləyirəm və biz ona hazırıq.

Bakının memarlığı Azərbaycan paytaxtının zəngin tarixinin və daxili mənəviyyatının təcəssümüdür. Bununla əlaqədar, memarlıqda insanı heyran edən yeni dalğanı da qeyd etmək istərdim. Bu il Bakıda bir neçə beşulduzlu otelin, o cümlədən postsovet ölkəsində ilk "Four Seasons" otelinin açılması planlaşdırılır. Bu memarlıq ansamblı çox cəlbedici harmoniyası ilə seçiləcəkdir. Zahi Hadidin layihələndirdiyi mədəniyyət mərkəzi isə hələ tikinti mərhələsində olduğuna baxmayaraq, onun adı indidən əsl memarlıq şedevri kimi dünya tarixinə düşmüşdür. Beləliklə, bu il bizim üçün həqiqətən çox həyəcanlı dövrdür.

**SİMON DE PÜRİ:** İncəsənətin bu müxtəlif formaları – təsviri incəsənət, memarlıq, musiqi, ədəbiyyat, hətta moda - bütün bunlar Sizin "Baku" jurnalında cəmlənir. Müxtəlif sahələr arasında bütün süni hədlər aradan qalxır və Sizin jurnalınız bu ruhu əks etdirir.

**LEYLA ƏLİYEVA:** Biz bu jurnalı dörd il bundan əvvəl Moskvada nəşr etməyə başlamışıq. Belə bir jurnal yaratmaq mənim arzum idi və nəticə etibarilə o, böyük uğur qazandı. Jurnalda mədəniyyət, musiqi, incəsənət, tarix və insanlar barədə - təkcə Azərbaycanda tanınmış adamlar barədə deyil, həm də maraqlı həyat tarixçələri olan adi insanlar haqqında söhbət açılır. Bu nəşr çox adamın xoşuna gəldi, ona görə də mən jurnalın ingilisdilli versiyasını yaratmağı qərara aldım.

Biz jurnalın ingilisdilli versiyasını "Konde Nast" ilə birgə nəşr edirik, çünki onlar bu ideyanı dərhal başa düşdülər. Jurnal "Baku" adlansa da, təkcə Bakı haqda deyil. Səmimi deyirəm, onun hər buraxılışı bir

növ incəsənət əsəridir. Biz jurnalın hər buraxılışında müxtəlif rəssamları oxuculara təqdim etməyə, həmin rəssamların istedadını göstərməyə, oxucuları onların işləri ilə tanış etməyə çalışırıq. Jurnalın bir nömrəsində biz cənab Breynuoşa jurnal üçün xüsusi illüstrasiya hazırlamağı təklif etdik. Başqa bir nömrə üçün qraffiti – yaradıcı küçə rəssamı Riç Simmonsu Bakıya dəvət etmişik. Bu rəssam Bakıda çox maraqlı əsərlər yaratmışdır.

**SİMON DE PÜRİ:** Bu, müasir mədəniyyətə çox maraqlı baxışdır. Dəqiq deyə bilərəm ki, bu, turistlər üçün Azərbaycana aid soraq kitabçasına oxşamır.

**LEYLA ƏLİYEVA:** Mən istəyirəm ki, bu jurnal heç vaxt Bakıda olmamış və onun barəsində az bilən adamlar üçün maraqlı olsun.

**SİMON DE PÜRİ:** Yəqin deyə bilərəm ki, bu, Bakıya getmək arzusunu artırır. Siz buna necə nail olursunuz? Sizin bu qədər müxtəlif layihələriniz var. Yaxşı ideyaları olmaq bir məsələdir, əsas məsələ isə bütün bu ideyaların necə gerçəkləşdiyini görməkdir. Siz çox işləyirsiniz?

**LEYLA ƏLİYEVA:** Mən tez-tez uçmalı oluram, əsasən də Bakı, Moskva və London arasında, eləcə də başqa şəhərlərə. İki övladım var, vaxtımın çoxunu onların yanında keçirməyə çalışıram, ona görə bəzən yoruluram. Lakin xoşladığım məşğuliyyətdən duyduğum məmnunluq bunun əvəzini çıxır. Bu gün buraya gəlib sərgini görəndə də belə oldu – başa düşürəm ki, çəkdiyim əziyyətə dəyərmiş, ona görə sadəcə olaraq daha çox iş görmək istəyirəm. Bu, adamı o qədər xoşbəxt edir, ona o qədər enerji verir ki, dayanmaq istəmirsən.

**SİMON DE PÜRİ:** Uşaqlarınızın neçə yaşı var?

**LEYLA ƏLİYEVA:** Mənim əkizlərimin üç yaşı təzəcə tamam olub.

**SİMON DE PÜRİ:** Ən böyük arzunuz nədir? Mən bilirəm ki, arzularınızın çoxunu artıq həyata keçirmisiniz. Lakin elə bir şey varmı ki, qarşıdakı beş ildə ona nail olmaq istərdiniz?

**LEYLA ƏLİYEVA:** Bizim layihələrimiz və ideyalarımız çoxdur. Biz IDEA adlanan ətraf mühitin qorunması naminə beynəlxalq dialoq kampaniyasına başlamışıq. Əsas məqsəd Azərbaycanın regionlarında ətraf mühitin qorunması, gənclərin, o cümlədən uşaqların maarifləndirilməsidir. Bu layihənin maraqlı olması üçün biz ətraf mühitə yaradıcı şəkildə yanaşmağı qərara almışıq. Məsələn, may ayında “böyük beşlik” ilə bağlı maraqlı tədbir keçirməyi planlaşdırırıq. “Böyük beşlik” Qafqazda yox olmaq həddinə çatmış heyvan növləridir – bəbir, qartal, ayı, canavar və ceyran. Bu ideya Londonda fillərin paradından sonra yaranmışdır. Biz təkcə Azərbaycanda deyil, bütün dünyada yaşayıb-yaradan müxtəlif rəssamlardan həmin “böyük beşliyi” özlərinin gördükləri kimi təsvir etmələrini xahiş etməyə hazırlaşırıq. Ümidvarıq ki, bu, yox olmaq təhlükəsi qarşısında olan həmin heyvan növləri barədə təsəvvür yaradacaqdır. Bizim daha bir layihə çox qədimlərdə Bakıda, İçərişəhərdə ucaldılmış Qız qalası ilə bağlıdır. Qalada təmir işləri başlayanda məlum oldu ki, orada “uzunqanad” deyilən quşların 200 yuvası vardır. Biz Bakıda yaşayan, yayda isə Cənubi Afrikaya köçən bu quşlar üçün xüsusi yuvalar yaratdıq, əks halda, təmir işləri ilə əlaqədar, onlar öz yuvalarını itirərdilər. İşə yaradıcı şəkildə yanaşmaq üçün rəssamları dəvət etdik ki, həmin yuvaları bir növ memarlıq ekvivalentinə çevirək. Beləliklə, bu layihə ətraf mühit və incəsənət mövzularını birləşdirir. Bundan əlavə, indi biz Azərbaycanda çox məşhur olan “Əli və Nino” romanı üzərində işləyirik. Biz həmin roman əsasında film çəkməyi planlaşdırırıq, lakin kino sənayesi mənim üçün tamamilə yeni fəaliyyət sahəsidir. Əgər biz bu işi görsək, bu, Azərbaycan üçün böyük irəliləyiş olacaqdır. Roman özü çox maraqlıdır, ona görə ki, bu əsərdə Azərbaycanın müxtəlif mədəniyyətlərin, dinlərin və ənənələrin qovuşduğu məkan olduğu göstərilir.

Gördüyünüz kimi, Siz məndən yaxın beş il üçün hansı arzularımın olduğunu soruşanda bu suala həqiqətən cavab verə bilmirəm.

**SİMON DE PÜRİ:** Biz tez-tez deyirik: “Əgər bir işi tamamlamaq istəyirsinizsə, onu işi başdan aşan adama tapşırın”.

**LEYLA ƏLİYEVA:** Mənim fikrimcə, insan hansı işlə məşğul olmasından asılı olmayaraq, ona ürəklə yanaşmalı və uğur qazanacağına inanmalıdır.

# Leyla Əliyeva: "Biz hamımız Planetimiz üçün məsuliyyət hiss etməliyik"

*(13 yanvar 2012-ci il)*

Yanvarın 17-də Londonda "Bakıda uçuş. Müasir Azərbaycan incəsənəti" sərgisinin açılışı olacaqdır. Bu ərəfədə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA kampaniyasının təsisçisi, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının rəhbəri Leyla Əliyeva bir sıra milli onlayn resurslarının nümayəndələri ilə görüşmüşdür. Yeni media nümayəndələri ilə bir neçə saatlıq söhbət maraqlı və açıq müsahibə götürməyə imkan vermişdir.

*Salam, Leyla xanım. Bu görüşə və ötən ilin yekunlarını sizinlə müzakirə etmək, cari ildə planlaşdırılan işlər barədə söhbət etmək imkanına görə sağ olun. Ona görə də söhbətə birbaşa başlayacağam. 2012-ci ilin əvvəlində ilk növbədə bilmək istərdik, siz 2011-ci ildə Heydər Əliyev Fondunun fəaliyyətinin yekunlarını necə qiymətləndirirsiniz?*

-İlk növbədə qeyd etmək istəyirəm ki, 2011-ci il bizim üçün tarixi baxımdan mühüm il olmuşdur. Özü də təkcə ona görə yox ki, keçən il yaddaşda "Eurovision"da bizim qələbə və Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ili kimi qalacaqdır. Həm də 2011-ci ildə ölkəmiz dövlət müstəqilliyinin bərpa olunmasının 20 illiyini qeyd etmişdir. Bu əlamətdar tarix geriyə nəzər salmağa, keçilmiş yolu təhlil etməyə və təbii ki, gələcək barədə düşünməyə imkan verir. Bununla əlaqədar Heydər Əliyev Fondu Avropa ölkələrinin paytaxtlarında sözün əsl mənasında unudulmaz tədbirlər keçirmişdir. Londonda, Parisdə, Moskvada, Berlində, Romada və Vatikanda silsilə konsertlər, sərgilər, qədim Azərbaycanın tarixinə və mədəniyyətinə, Azərbaycan xalqının müasir incəsənətinə və bənzərsizliyinə həsr edilmiş təqdimat mərasimləri təşkil olunmuşdur. Azərbaycanın dünyada daha geniş tanınması və təqdim edilməsi məqsədilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr bizim milli mədəniyyətimizin uğurla təbliği üçün şərait yaratmışdır.

Onu da qeyd etmək lazımdır ki, son illərdə Heydər Əliyev Fondu musiqi festivallarının keçirilməsi sahəsində zəngin təcrübə toplamışdır. Dünya şöhrətli musiqiçilərin iştirak etdikləri bu festivallar klassik musiqi və muğam sənətinin gələcək ulduzlarının parladığı məkana çevrilir. Qəbələdə hər il keçirilən beynəlxalq musiqi festivalı, Bakıda beynəlxalq muğam festivalı, M.Rostropoviç adına beynəlxalq festival və bir sıra başqa tədbirlər dünya ulduzlarının böyüməkdə olan nəsil ilə ənənəvi görüş yerinə çevrilmişdir və bütün dünyadan ən yüksək zövqlü musiqisevərləri cəlb edir.

Fondun fəaliyyətinin mühüm istiqamətlərindən biri təhsil sahəsidir. Vətənimizin gələcəkdə uğurlu inkişafını məhz bu sahə təmin edir, idarəetmə kadrlarının yeni nəslini formalaşdırır. Bizim Fond fəaliyyətə başladığı ilk ildən etibarən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını həyata keçirir. 2011-ci ildə uğurla davam etdirilmiş bu proqram çərçivəsində biz Azərbaycanın ən müxtəlif guşələrində 400-dək məktəb binasını tikməyə və tam təmir etməyə nail olmuşuq.

Keçən il Fond "İçərişəhər" idarəsi ilə birlikdə İkinci Beynəlxalq "Qız qalası" incəsənət festivalını təşkil etmişdir. Bu festivalda dünyanın 20 ölkəsindən 25 tanınmış rəssam iştirak etmişdir. Bu festival Azərbaycanın ən qədim abidələrindən biri olan Qız qalasını populyarlaşdırmağa, tariximiz, mədəniyyətimiz barədə söhbət açmağa kömək edir və təbii ki, gənc istedadların özlərini göstərməsinə imkan yaradır.

Gördüyünüz kimi, Heydər Əliyev Fondunun layihələrinin sayı yalnız artır. Müvafiq olaraq bizim təşkilatın ən müxtəlif sahələrdə müxtəlif layihələr həyata keçirmək təcrübəsi və ustalığı da artır. Buna görə biz fəaliyyətimizin coğrafiyasını daha da genişləndirmək, milli mədəniyyəti və ənənələri, Azərbaycanı bütün dünyada təbliğ etməkdə davam etmək əzmindəyik. Bu bizim prioritet vəzifəmizdir.

## Ekoloji fəaliyyət

*Bu yaxınlarda Siz gənclərin yeni qlobal ekoloji kampaniyasına – IDEA-ya start vermisiniz. Bu kampaniya çərçivəsində artıq ilk addımlar atılmışdır – BMT İnkişaf Proqramı ilə saziş imzalanmış, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilmişdir. Siz ictimaiyyətin bu tədbirlərə marağını necə qiymətləndirirsiniz? Sizin ideya gənclər arasında nə dərəcədə əks-səda doğurmuşdur?*

-IDEA müasir dövrün çağırışlarına cavab təşəbbüsüdür. İndi ekologiya və ətraf mühitin qorunması barədə hamı danışır. Bizim təşəbbüs isə dəb xatirinə deyildir, bu, nə isə real və hissolunan işlər görmək istəyidir. Mənim fikrimcə, bugünkü gəncləri bir məsələ narahat etməlidir: Sabah biz necə dünyada

yaşayacağıq?! Bizi nələr gözləyir, ekoloji problemlərin nə kimi nəticələri ola bilər?! Biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanmasına birgə töhfə verməliyik.

Biz bunu nəzərə alaraq IDEA qlobal gənclik ekoloji kampaniyasına başladıq. Deyə bilərəm ki, bu kampaniyanın nəticələri mənim gözlədiyimdən də artıq oldu. Biz qısa müddətdə gələcək fəaliyyət üçün daha genişmiqyaslı zəmin yarada bildik.

Belə ki, 2011-ci il oktyabrın 21-də Heydər Əliyev Fondu Azərbaycan gənclərinin "Rio+20" sammitinin məqsədlərinə hazırlıq üçün səfərbər edilməsi barədə BMT İnkişaf Proqramı ilə saziş imzalamışdır. Bu il birinci "Yer Sammiti" keçirilməsinin 20 illiyi tamam olur. Bu sammit davamlı inkişafın və dünyanın ekoloji təhlükəsizliyinin təməlini qoymuşdur. İmzalanmış sənəd bir il ərzində BMT ilə əməkdaşlığı nəzərdə tutur. Bu layihə çərçivəsində "Rio+20" sammitinin məqsədləri barədə gəncləri məlumatlandırmaq üçün çoxlu tədbirlər keçiriləcəkdir. İyul ayına qədər biz orta və ali məktəblərdə işləyəcək, vətəndaş cəmiyyəti ilə "dəyirmi masa"-lar keçirəcəyik. Bir sözlə, bu gün ətraf mühitin yaxşılaşdırılması naminə bizim hamımızı narahat etməli olan bütün məsələlər barədə danışacağıq.

Xüsusi qeyd etmək istəyirəm ki, IDEA kampaniyası artıq bir sıra ekoloji təşkilatlar tərəfindən dəstəklənmişdir. IDEA xətti ilə həyata keçirilən tədbirlərdə gənclərin və tələbələrin demək olar ki, bütün iri təşkilatları iştirak edir. Bu, bizim "Bir planet – bir gələcək" devizimizi bir daha təsdiq edir. Bununla əlaqədar, planetimizi daha da yaşıllaşdırmağa çalışaraq iyun ayında Rio–de-Janeyroda keçiriləcək sammitə qədər Azərbaycanda təqribən 300 min ağac əkməyi planlaşdırırıq. IDEA artıq bu aksiyanı həyata keçirməyə başlamışdır. Hazırda bizim volonterlər Zığ şosesi boyunca təqribən 20 min ağacın əkilməsini davam etdirirlər.

İnformasiya-kommunikasiya sahəsində də geri qalmırıq. Çünki müasir dünyada internetdən fəal istifadə etməmək mümkün deyildir. Kampaniyanın www.ideacampaign.org saytı artıq işləyir. Dünyanın hər yerindən yüzlərlə gənc ekoloq bu sayt vasitəsilə bizə müraciət edir, bizi dəstəklədiklərini bildirən məktublar yazır, çoxsaylı təşəbbüslər irəli sürürlər. Qeyd etməliyəm ki, IDEA müxtəlif təşəbbüslərin və layihələrin təbliğ edilməsi üçün sosial şəbəkələrdə çox fəal iş aparır. Yeri gəlmişkən, bizim komandamız aldığımız məktublara əsasən sahibsiz heyvanlar üçün xüsusi sığınacaq yaradılması layihəsi üzərində işə başlamışdır. Bu aktual problem bəzən milli KİV-lərdə də işıqlandırılır. Buna görə biz bu məsələnin həllinə öz töhfəmizi verməyi qərara aldıq.

Bundan əlavə, IDEA Azərbaycanda "böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən etmişdir. Bunlar ayı, qartal, canavar, ceyran və Qafqaz bəbiridir. Biz bu problem barəsində Azərbaycan və dünya ictimaiyyətini maksimum məlumatlandırmağı və yox olmaq təhlükəsi qarşısında olan növlərin qorunub saxlanması üçün konkret layihələr həyata keçirməyi məqsəd seçmişik. Məsələn, Heydər Əliyev Fondu Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycan ceyranlarının qorunması və onların təbii yaşayış mühitinə köçürülməsi layihəsini reallaşdırmışdır. Xüsusi sensor qurğular bu gözəl heyvanların yerdəyişməsini izləməyə, ceyranların qanunsuz ovlanması hallarını qeyd etməyə və onların qorunub saxlanması üzrə qabaqlayıcı tədbirlər görməyə imkan verir. Nadir heyvanlar və onların Azərbaycanda yaşadığı mühitlə bağlı daha bir maraqlı proses barədə danışmaya bilmərəm.

Yəqin çoxları bilir ki, Bakının rəmzi olan Qız qalası həm də uzunqanadların yaşadığı yerdir. Qaranquşlar kimi, uzunqanadlar da köçəri quşlardır və qış dövründə Cənubi Afrika istiqamətində köç edirlər. Yayda isə onlar Bakıya qayıdır və qədim Qız qalasının divarlarında onların 200-ə yaxın yuvası vardır. Qız qalasının konservasiya edilməsi prosesinə başlanarkən bu yuvalar üçün təhlükə yaranmışdır. Buna görə də "İçərişəhər" Tarix-Memarlıq Qoruğu və IDEA kampaniyası xətti ilə bilavasitə tarixi abidənin yaxınlığında məhz uzunqanadlar üçün xüsusi yuvalar qurulmuşdur ki, onlar yay vaxtı özlərinin ənənəvi yaşayış yerlərini dəyişməsinlər.

Sizin haqlı olaraq qeyd etdiyiniz kimi, IDEA layihəsi çərçivəsində ən mühüm tədbir gənc ekoloqlar üçün Qəbələdə beynəlxalq düşərgə təşkil edilməsi olmuşdur. Bu düşərgə IDEA-nın məqsədlərini daha qlobal səviyyədə yaymağa və Azərbaycanın ən qədim guşələrindən biri olan Qəbələni ətraf mühitin qorunması məsələləri üzrə regional diskussiyalar mərkəzinə çevirməyə imkan vermişdir. Keçən il təşkil edilmiş düşərgədə dünyanın 35 ölkəsindən 85 ekoloq iştirak edirdi. Yeni layihə gənc ekoloqları o qədər ruhlandırmışdır ki, onlar xüsusi Qəbələ deklarasiyası qəbul etmişlər. Bu deklarasiya dünyada ekoloji vəziyyət üçün hər kəsi şəxsi məsuliyyət daşımağa çağırır. Biz bu il yenə bütün dünyadan olan gənc

ekoloqları bir yerə toplamağı, planetimizin qorunması üçün zəruri tədbirləri müzakirə etməyi planlaşdırırıq.

*IDEA kampaniyası çərçivəsində bu ilə üçün əsas planlarınız necədir? Bilavasitə Bakıda Azərbaycan ictimaiyyətinin çoxsaylı nümayəndələrini əhatə edə biləcək tədbirlər keçirilməsi planlaşdırılırmı?*

- Etiraf etməliyəm ki, IDEA-nın 2012-ci il və növbəti illər üçün geniş planları vardır. Qlobal miqyaslı əsas layihələr arasında yuxarıda adlarını çəkdiyim tədbirlərlə yanaşı, Avropanın müxtəlif ölkələrində "böyük Qafqaz beşliyi"-nə həsr edilmiş fotosərgi təşkil etməyi nəzərdə tuturuq. Bu sərginin əsas məqsədi dünya ictimaiyyətinin diqqətini Qafqazda və Azərbaycanda yox olmaq həddinə çatmış növlər probleminə cəlb etməkdir.

Bir neçə ilə "National Geographic" jurnalı ilə əməkdaşlıq etmiş dünya şöhrətli fotojurnalist Reza Deqati ilə birlikdə uşaqlar üçün rübdə bir dəfə ekoloji jurnal nəşr etməyi planlaşdırırıq. Bu jurnal bizim uşaq təfəkkürünə istiqamətlənmiş ideya və məqsədlərimizi yayacaqdır. Jurnal Azərbaycan və ingilis dillərində nəşr ediləcəkdir. Reza Deqati yaxın gələcəkdə start götürəcək "EYE DEA" beynəlxalq foto müsabiqəsinin də əsas hərəkətverici qüvvəsi olacaqdır. Müsabiqəyə təqdim edilmiş işlər Avropa şəhərlərində, sonra isə "Rio+20" qlobal sammiti çərçivəsində Rio-de-Janeyro küçələrində açıq havada sərgiləmnəcəkdir.

Bu günlərdə biz Azərbaycan tələbələri üçün yeni bir layihə - "Rio+20-yə öz mesajını çatdır" mövzusunda esselər müsabiqəsinə başlayacağıq. Bu, gənclər üçün qlobal sammitin məqsədləri barədə daha çox bilmək, davamlı inkişafın problemlərini və çağırışlarını öyrənmək üçün əlavə siqnal olacaqdır. Gördüyünüz kimi, iş çoxdur və biz ümid edirik ki, bu müsabiqə sıralarımıza yeni qüvvələr cəlb edəcək, IDEA-nın gənclər arasında mövqelərini xeyli möhkəmlədəcəkdir.

**Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı**

*Leyla xanım, siz yenicə başa çatmış ili rəhbəri olduğunuz Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) fəaliyyəti baxımından necə qiymələndirirsiniz?*

-Bu il RAGT-nin 5 yaşı tamam olur. RAGT artıq yetkin və çox fəal təşkilatdır. Bu gün bizim təşkilatın coğrafiyası Rusiyanın 70-dən çox regionunu əhatə edir. Moskvanın 25-dən çox ali məktəbində azərbaycanlı tələbə klubları yaradılmışdır. Təşkilatın qarşısında qoyulmuş əsas vəzifə Rusiyanın azərbaycanlı gənclərini və onların dostlarını sıx birləşdirməkdir. İnamla deyə bilərəm ki, RAGT bu missiyanın öhdəsindən uğurla gəlir və bu gün Rusiyanın azərbaycanlı gənclərinin hərəkətverici qüvvəsidir.

Son üç ildə biz təbabətlə bağlı aksiyalar keçiririk – "Qanın milləti yoxdur!", "Sağlam olduğunu yəqin et, xəstəliyə "yox" de!", pulsuz müayinə aksiyası. Məsələn, pulsuz qanvermə aksiyasında hər il gənclərin yüzlərlə nümayəndəsi iştirak edir, toplanmış vəsait isə onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqların müalicəsinə sərf edilir.

2011-ci ildən RAGT çoxsaylı aksiyalar keçirmişdir, o cümlədən futbol turniri, Sankt-Peterburqda bizim təşkilatın növbəti konfransı, RAGT-nin jurnalının buraxılması, bir sıra elmi konfranslar, fleş-moblar, tələbələrlə görüşlər.

Bununla yanaşı, 2011-ci ildə Heydər Əliyev Fondu Moskvada Azərbaycan Mədəniyyəti Mərkəzi açmışdır. M.İ.Rudomino adına dövlət ümumrusiya xarici ədəbiyyat kitabxanasında yerləşən bu mərkəzdə biz Azərbaycan haqqında kitablar, filmlər, disklər, bir sözlə, bütün informasiyanı toplamışıq. Orada Azərbaycanın böyük yazıçı, şair, rəssam və bəstəkarlarının yaradıcılığı ilə tanış olmaq, ölkəmizin təbii gözəlliklərini, Bakı şəhərinin nadir memarlıq nümunələrini görmək olar. Biz həmin mərkəzdə yaradıcılıq gecələri, sərgilər, seminarlar, maraqlı və məşhur azərbaycanlılarla görüşlər keçirməyi planlaşdırırıq. Əlbəttə, biz həmin mərkəzdə həm də Azərbaycan dili, tarixi və ədəbiyyatı dərsləri də təşkil edəcəyik. Bu dərsləri Bakıdan dəvət edilmiş, Azərbaycan dilinin daşıyıcıları olan müəllimlər keçəcəklər.

**İƏT Gənclər Forumu**

*Siz İslam Əməkdaşlıq Təşkilatının mədəniyyətlərarası dialoq üzrə gənclər forumunun baş əlaqələndiricisisiniz və həmin təşkilatın üzvləri olan ölkələrin gənclərini sıx birləşdirmək məqsədi güdən müxtəlif təşəbbüsləri kifayət qədər fəal şəkildə irəli sürürsünüz. Elə yuxarıda haqqında danışdığınız*

*kampaniyalar buna sübutdur. Bu il yeni kampaniyaların və aksiyaların başlanması gözlənilirmi? Sizin fikrinizcə, yaxın gələcəkdə əsas, ən aktual fəaliyyət istiqamətləri nədən ibarət olacaqdır?*

-Gənclər Forumunun baş əlaqələndiricisi kimi mənim fəaliyyətim 2007-ci ildən davam edir. Bu illər ərzində biz forumun strukturunu möhkəmlətməklə bərabər, bir sıra iri tədbirlər və çoxsaylı layihələr həyata keçirməyə nail olmuşuq.

Qeyd etməliyəm ki, Azərbaycan gəncləri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında coğrafi əhatəsinə görə ən fəal gənclərdir. Azərbaycanda çoxsaylı etnoslar və dinlər dinc yanaşı yaşayır və bizim ölkədəki tolerantlıq mühiti qürur duymağa və təqdir edilməyə layiq nümunədir.

Gənclər Forumundakı fəaliyyət kontekstində 2011-ci il aprel ayında Bakıda Sivilizasiyaların Alyansı uğrunda Qlobal Gənclər Hərəkatının birinci qurultayının keçirilməsi ilə yadda qalmışdır. Dörd illik iş nəticəsində biz Qlobal Gənclər Hərəkatını təsis etməyə və onu institusionallaşdırmağa nail olmuşuq. Bu, çox mühüm məsələdir, çünki qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması üçün ardıcıl iş aparılmasını nəzərdə tutur.

İlin sonunda, noyabrın 22-23-də Bakıda İƏT üzvü olan ölkələrin Gənc Sahibkarlar Şəbəkəsi təsis edilmişdir. Bu Şəbəkənin əsas məqsədi müsəlman dünyasında gənc sahibkarların əməkdaşlığını inkişaf etdirməkdir. Həmin Şəbəkə təcrübə mübadiləsi və yeni əlaqələr yaradılması üçün bir məkandır. Gənc sahibkarlar hər bir ölkədə əhalinin ən fəal təbəqəsidir və məhz bu sosial təbəqəyə istiqamətlənmək forum çərçivəsində daha səmərəli konsolidasiya üçün əlverişli şərait yaradacaqdır. Əlamətdar haldır ki, bu təşəbbüsün paytaxtı məhz Bakı olmuşdur.

Ümumiyyətlə, Gənclər Forumu dünyada ən fəal gənclik qurumlarından biridir və şübhəsiz, qlobal ekoloji təşəbbüslərdə, o cümlədən IDEA layihəsində çox fəal iştirak edir. Yeri gəlmişkən, biz forum çərçivəsində "10 gənc müsəlman" mükafatını təsis etmişik. Bu mükafat gənc nəslin yaradıcı və maraqlı ideyalarının populyarlaşdırılmasına real töhfə olacaq və İslam dünyasının gəncləri arasında fəallığı stimullaşdıracaqdır. 2012-ci il həm də İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu çərçivəsində tələbə mübadiləsi proqramının həyata keçirilməsinin ilk ili olacaqdır. Bu proqram təşkilata dinamizm gətirəcək, yaxın illərdə onun fasiləsiz inkişafını təmin edəcəkdir.

**"Baku" jurnalı**

*Bu yaxınlarda "Baku" jurnalının ingilisdilli versiyası çapdan çıxmışdır. Sirr deyildir ki, jurnalın rusdilli versiyası Rusiya auditoriyasında və təkcə orada deyil, çox populyardır. Sizin fikrinizcə, ingilisdilli versiyanın perspektivləri necədir?*

- Jurnalın ingilis dilində nəşri ideyası məni çoxdan düşündürürdü. Bu barədə ilk dəfə jurnalın rus versiyasının təqdimatından sonra fikirləşmişəm, o vaxt çox adam bu nəşrin ingilisdilli versiyasının olub-olmaması ilə maraqlanırdı.

"Baku" jurnalının rus versiyası təqribən dörd il ərzində öz oxucu auditoriyasını getdikcə genişləndirmişdir. Bu müddətdə bizim komanda bazarları öyrənir, bu işdə bizə kömək edə biləcək müxtəlif şirkətlərlə məsləhətləşmələr aparırdı. Təbii ki, mən özüm də hazırlaşırdım, çünki bütün bunlar həm vaxt, həm də özünü fiziki və intellektual baxımdan bu işə tam həsr etməyi tələb edir.

2011-ci il başlanğıc nöqtəsi oldu. Biz jurnalı ingilis dilində nəşr etməyə başladıq. Bu gün "Baku" jurnalını artıq təkcə Böyük Britaniyada deyil, digər Avropa ölkələrində də alırlar. Satışın nəticəsi barədə danışmaq hələ tezdir, lakin yaxın vaxtlarda bu barədə məlumat alandan sonra sizinlə bölüşəcəyimi vəd edirəm.

Bu il biz jurnalın ABŞ-da təqdimatını keçirməyi planlaşdırırıq. Gələcəkdə isə bizim jurnalın köməyi ilə Azərbaycanı təkcə orada deyil, Azərbaycan səfirlikləri və bizim diasporun nümayəndələri olan hər yerdə təbliğ etməyi planlaşdırırıq. Bu jurnal bizim qədim tariximizi, mədəniyyətimizi, ənənələrimizi, musiqimizi və ədəbiyyatımızı fəal təbliğ etmək, onları dünya ictimaiyyətinə çatdırmaq üçün daha bir imkandır.

*Jurnalın başqa dillərdə nəşr edilməsi planlaşdırılırmı?*

- Hazırda məqsədimiz ingilis versiyasını maksimum təkmilləşdirməkdir. Buna görə hələlik onun başqa dillərdə nəşri barədə fikirləşmirik. Ola bilsin ki, gələcəkdə, ingilis versiyası da, rus versiyası kimi populyar olanda bu barədə fikirləşməyə dəyər.

- 2012-ci il yanvarın 17-dən 29-dək Londonda çoxlu sayda müasir rəssamların iştirakı ilə "Bakıda uçuş. Müasir Azərbaycan incəsənəti" mövzusunda sərgi keçiriləcəkdir. Əlamətdar haldır ki, sərginin iştirakçıları arasında sizin də adınız göstərilmişdir. Bu ideyanın müəllifi kimdir? Bu tədbirin keçirilməsinin əsas məqsədi və vəzifəsi nədən ibarətdir?

- Belə bir sərgi keçirilməsi barədə mən bir neçə il düşünmüşəm. Deməliyəm ki, son illərdə Azərbaycanda çox istedadlı gənclər yetişmişdir. Rəssam, heykəltəraş və musiqiçilərin əvvəlki nəsilləri kimi, bu gənclər də dünya incəsənət xəzinəsinə öz töhfələrini verə bilərlər. Bu gün Bakıda mövcud vəziyyət müasir incəsənətin inkişafı üçün hər cür şərait yaradır və dünya səviyyəsində dolğun sərgilər hazırlamağa imkan verir.

**"Bakıda uçuş"**

*"Bakıda uçuş. Müasir Azərbaycan incəsənəti" sərgisində 21 müəllifin təsviri incəsənət, qrafika, heykəltəraşlıq, fotoqrafiya, video kimi müxtəlif istiqamətlərdə yüzlərlə işi təqdim ediləcəkdir.*

Sərginin rəhbərləri və baş məsləhətçiləri incəsənət aləmindən yaxşı baş çıxaran insanlar – kurator Erve Mikaelof və təşkilatçı Simon de Püridir. Buna görə onlara ayrıca təşəkkür edirəm! Yanvarın 17-də Londonda açılacaq sərginin əsas ideyası və konsepsiyası onlara məxsusdur.

Biz ümid edirik ki, azərbaycanlı müəlliflərin işləri öz tamaşaçısını tapacaq və bu sərgi istedadlı gənc azərbaycanlıların dünya sənət meydanlarına çıxması üçün zəmin yaradacaqdır. Bu sərgi bizim mədəniyyətimizi və milli bənzərsizliyimizi nümayiş etdirmək üçün daha bir imkandır.

*Gənc rəssamlarla yanaşı, Azərbaycanın ustad sənətkarlarının da işlərinin nümayiş etdiriləcəyi bu cür sərgilərin başqa ölkələrdə və şəhərlərdə, habelə Bakıda da keçirilməsi planlaşdırılırmı?*

- İndiki mərhələdə biz Londonda keçiriləcək sərgiyə ciddi hazırlaşırıq. Çünki bu, belə genişmiqyaslı və müxtəlif istiqamətli ilk sərgi olacaqdır. Azərbaycanı belə bir nüfuzlu məkanda təmsil etmək çox məsuliyyətli işdir.

Şübhə yoxdur ki, Londonda sərgi uğurla başa çatandan sonra biz həmin işləri Berlin, Paris, Roma, ola bilsin ki, Nyu-York və Moskvada, habelə müasir incəsənət mərkəzləri sayılan başqa şəhərlərdə də nümayiş etdirməyi planlaşdırırıq. Əlbəttə, biz Bakıda da sərgi keçirməyə hazırlaşırıq, lakin bunu lap axırda etmək istəyirik. Bizim üçün Bakı layihələrimizin, məqsədlərimizin həm əvvəli, həm də sonudur.

*Leyla xanım, rəsmi suallardan bir qədər uzaqlaşmaq istərdim. Siz həmişə məşğulsunuz, çoxlu layihələriniz, müxtəlif təşəbbüsləriniz vardır və buna baxmayaraq, siz rəsm çəkirsiniz. İcazə verin, soruşaq, siz bunun üçün necə vaxt tapırsınız və boyakarlıq sizin üçün nə deməkdir?*

- Rəsm çəkmək həqiqətən çox böyük ləzzətdir. Ona görə ki, bu iş insanı çox sakitləşdirir, deyərdim ki, onu ipə-sapa yatırır və nəticə ya alınır, ya da yox. Bəzən yarım il rəsm çəkməyə bilərəm, amma bir ayda beş-altı rəsm də çəkə bilərəm. Rəsm çəkməyə başlayanda bu işdən ayrılmaq sadəcə qeyri-mümkündür və nə isə başqa işlə məşğul olmaq çox çətindir. Yəqin ki, rəsm çəkənlərin hamısı bu hissləri keçirir. Bir sözlə, bu, böyük ləzzətdir, lakin uğurlu alınmayanda ilham pərisini gözləmək lazım gəlir.

Məsələn, hazırda mən uşaqlar üçün milli nağıllar kitabının illüstrasiyası üzərində işləyirəm. "Biri var idi, biri yox idi" adlanan bu kitab rus dilində çıxacaqdır. Bu ideya mənim üçün çox maraqlı və yaxındır, başqa işlərlə yanaşı xeyli vaxt aparır. Lakin istəyirəm ki, uşaqlar üçün nə isə məxsusi və çox maraqlı bir iş görüm.

Son həftələrdə mən Londonda keçiriləcək sərgiyə fəal hazırlaşmışam. Orada digər azərbaycanlı rəssamlarla bərabər mən də ola bilsin ki, beş-altı iş təqdim edəcəyəm.

*Leyla xanım, çox adam bilir və çoxları şahiddir ki, siz şeir yazırsınız. Şeir yazmaqda davam edirsinizmi?*

- Bəli, davam edirəm, mənim şeirlərim çoxdur, sadəcə olaraq, daha onları çap etdirmirəm. Əlbəttə, kitab nəşr etmək ideyası var, lakin yəqin ki, bu, gələcəkdə olacaqdır. Şeir yazmaq da rəssamlıq kimidir, bir il yazmamaq, sonra isə bütöv həftəni yazmaq olar.

*Leyla xanım, siz həmişə formadasınız. Özünüzdən eşitmək istərdik, siz idmanla nə dərəcədə məşğul olursunuz?*

- Yəqin ki, həddən artıq (gülümsəyir). İdman insanın özünü həm fiziki, həm də mənəvi baxımdan daha yaxşı hiss etməsinə imkan verir. Buna görə mən hər gün idmanla məşğul oluram.

Yeri gəlmişkən, hazırda qayayadırmanma idmanı barədə düşünürəm. Mənim üçün bu nə isə yeni, çox maraqlı işdir. Çünki bu, təkcə cəsarət və mərdliklə deyil, həm də daha bir yüksəkliyi fəth etmək imkanı ilə bağlıdır.

Həyatda elə olur ki, bir layihə üzərində işə başlayandan sonra həmişə onu bir sıra başqa layihələrlə yanaşı davam etdirmək lazım gəlir. Beləcə, ətraf mühitin qorunması üzrə kampaniyanı başlayandan sonra dağa qalxmaq barədə düşündüm. Qayaya dırmaşmağı öyrənməyə başladım. Bu il yayda bizim ekologiya kampaniyasının volonterləri ilə birlikdə milli zirvələrdən birinə qalxmağı planlaşdırıram.

*Müsahibə üçün sağ olun.*

- Siz də sağ olun, oxucularınıza ən xoş arzularımı bildirirəm.

http://ideacampaign.org/az/m%C3%BCsahib%C9%99/

# LAYİHƏLƏR

## Gənc ekoloqların beynəlxalq düşərgəsi
*(2011-ci il)*

**Giriş**

2011-ci ilin noyabr ayında Azərbaycanın ən gözəl güşələrindən biri olan Qəbələdə 35 ölkədən 80-dən artıq ekoloqun qatıldığı gənc ekoloqların beynəlxalq düşərgəsi keçirilmişdir.

**Təsvir və Konsepsiya**

Gənc ekoloqların beynəlxalq düşərgəsi 2011-ci ilin noyabr ayında Azərbaycanın Qəbələ şəhərində baş tutmuşdur.

2011-ci ilin noyabr ayında Azərbaycanın ən gözəl güşələrindən biri olan Qəbələdə 35 ölkədən 80-dən artıq ekoloqun qatıldığı gənc ekoloqların beynəlxalq düşərgəsi keçirilmişdir.

Üç gün davam edən gənclər düşərgəsi açılış mərasimi ilə başlayıb, üç müxtəlif mövzudakı seminarlarla davam edib.

Düşərgənin yekunu olaraq "Qəbələ Bəyannaməsini" qəbul edən iştirakçılar insanları ekoloji problemlərin həlli istiqamətində məsuliyyətli davranmağa və ətraf mühitin qayğısına qalmağa çağırıb.

Düşərgənin keçirilməsinin əsas məqsədi gənc ekoloqların təmsil etdikləri regionların ictimai həyatında fəal iştirakını təmin etmək, öz icmalarındakı rolunu gücləndirmək, onları ekoloji maarifləndirmə prosesini həyata keçirmək üçün səfir olmağa təşviq etmək, o cümlədən, açıq dialoq vasitəsilə ekoloji tədqiqatlar sahəsində müstəqil gənc ekspertlərdən ibarət yeni nəsil yetişdirməkdir.

# "Yaşıl həftə"
*(2011-ci il)*

**Giriş**

2011-ci il iyulun 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən başlanılan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası çoxsaylı yerli və beynəlxalq layihələrə imza atır.

**Təsvir və Konsepsiya**

12-16 noyabr tarixlərini əhatə edən "Yaşıl Həftə" layihəsi BMT-nin Ətraf mühit Proqramı - UNEP ilə birgə həyata keçirilmişdir. 4 gün davam edən layihə çərçivəsində panel diskusiyyalar, yerli tələbələrlə görüşlər və TUNZA təşkilatının üzvlərinin təqdimatları baş tutmuşdur

2011-ci il iyulun 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən başlanılan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası çoxsaylı yerli və beynəlxalq layihələrə imza atır. IDEA-nın böyük miqyaslı layihələri bir sıra beynəlxalq təşkilatların marağına səbəb olur. Bunun nəticəsində IDEA kampaniyası beynəlxalq təşkilatlarla əməkdaşlıq yaradaraq, birgə layihələrə start verir. "Yaşıl Həftə" bu layihələrdən biridir.

"Yaşıl həftə" layihəsi IDEA kampaniyası və BMT-nin Ətraf mühit üzrə Proqramı - UNEP-in birgə təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə olaraq baş tutmuşdur. Bu tədbirdə yerli qonaqlarla yanaşı xarici ölkələrdən dəvət olunan bir sıra beynəlxalq təşkilatların, dövlət və qeyri - dövlət təşkilatlarının nümayəndələri, gənc liderlər iştirak ediblər.

Ümumilikdə 4 gün davam edən layihənin 1-ci günü beynəlxalq gənclər forumu təşkil olunub. Forumda əsasən 2012-ci ilin iyun ayında keçirilən RİO+20 sammitinin yekunu ilə bağlı müzakirələr aparılıb. "Yaşıl Həftə" layihəsi noyabr ayının 16-ı yekunlaşmışdır.

## "IDEA yaşıl Azərbaycan naminə" layihəsi
*(2012-ci il)*

**Giriş**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən başladılmış IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası ölkə miqyasında növbəti ekoloji maarifləndirmə layihəsinə start vermişdir.

**Təsvir və Konsepsiya**

Layihənin əsas məqsədi - şagirdləri ekoloji məsələlər haqda maarifləndirmək, onların bu sahə üzrə nəzəri biliklərini gücləndirmək, gələcək fəaliyyətlərində onların təbiətə dost yanaşmalarını təmin etmək, həmçinin IDEA kampaniyasının regionlarda dayanaqlı olaraq ətraf mühit sahəsində “yaşıl könüllülər” komandasını inkişaf etdirməkdir.

24 sentyabr tarixində, saat 12:00-da IDEA beynəlxalq kampaniyası tərəfindən həyata keçirilən “Yaşıl Azərbaycan naminə” layihəsinin iştirakçıları Qız Qalasının yaxınlığında bir araya gələrək rəmzi olaraq xüsusi hazırlanmış “yaşıl avtobus”-ların Azərbaycanın rayon və şəhərlərinə yolasalma mərasimini keçirmişlər. Layihə ərzində Azərbaycanın müxtəlif bölgələrinin və şəhərlərinin orta məktəb şagirdləri üçün maarifləndirici seminarlarda çalışacaq “yaşıl təlimçilər” məhz “yaşıl avtobus”-lar vasitəsilə regionlara çatdırılmışlar. Onlar könüllü şəkildə təlimçi kimi orta məktəb şagirdləri ilə çalışmışlar.

Layihənin əsas məqsədi - şagirdləri ekoloji məsələlər haqda maarifləndirmək, onların bu sahə üzrə nəzəri biliklərini gücləndirmək, gələcək fəaliyyətlərində onların təbiətə dost yanaşmalarını təmin etmək, həmçinin IDEA kampaniyasının regionlarda dayanaqlı olaraq ətraf mühit sahəsində “yaşıl könüllülər” komandasını inkişaf etdirməkdir.

Qeyd edək ki, ekoloji seminarlar sentyabr - oktyabr aylarında ardıcıl olaraq ölkənin 20 şəhərində baş tutmuşdur.

# "Green Corps” yay məktəbi
*(2012-ci il)*

**Giriş**

"Green Corps” yay məktəbi Lənkəran şəhərində IDEA kampaniyası, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi və ATƏT-in Bakı Ofisi tərəfindən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Təmiz Şəhər” ASC -nin dəstəyi ilə təşkil olunub.

**Təsvir və Konsepsiya**

Lənkəranda keçirilmiş yay məktəbi ərzində gənclər ekoloji menecment, ətraf mühitin mühafizəsi və tədqiqatların düzgün aparılması sahəsində ilkin biliklər əldə etmiş, layihələrin yazılması və idarə olunması təlimləri keçmişlər.

"Green Corps” yay məktəbi Lənkəran şəhərində IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi və ATƏT-in Bakı Ofisi tərəfindən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, “Təmiz Şəhər” ASC -nin dəstəyi ilə təşkil olunub.

Yay məktəbinin əsas məqsədi gənclərin ölkəmizin gələcək vətəndaşları olaraq Eko-menecment (Ekoloji menecment), ətraf mühitin mühafizəsi və tədqiqatların düzgün aparılması sahəsində ilkin biliklərin verilməsi, layihələrin düzgün yazılması və idarə edilməsi, dünyagörüşünün genişlənməsi və bu gənclərin gələcəkdə ekoloji aktivistlərə çevrilməsidir.

Yay məktəbinin proqramı iki hissədən - təlim-tədris və mədəni-idman proqramlarından ibarət olub. Təlim-tədris proqramı çərçivəsində yerli və xarici ekspertlər tərəfindən iştirakçılara ekoloji layihələrin yazılması, idarə olunması, bu sahədə xarici təcrübə və metodologiya haqqında bilik və bacarıqlar aşılanıb.

Təlim-tədris proqramının davamı olaraq iştirakçılar komandalara ayrılaraq Azərbaycanın cənub bölgəsində olan mövcud ekoloji problemlərin həllinə istiqamətlənmiş layihələr yazıblar. Komandalar tərəfindən təqdim olunmuş layihələr arasında müsabiqə keçirilib. Müsabiqədən uğurla keçən 3 layihə maliyyələşdirilib və oktyabr-noyabr aylarında reallaşdırılması nəzərdə tutulub.

Həmçinin asudə vaxtlarının səmərəli dəyərləndirilməsi və biliklərinin praktiki məşğələlərlə gücləndirilməsi üçün iştirakçılara müxtəlif komandaqurucu oyunlar, idman oyunları və əyləncəli tədbirləri özündə birləşdirən mədəni idman proqramı təqdim olunub.

## Yaşıl söhbət klubu
*(2012-ci il)*

**Giriş**

Gənclər arasında ətraf mühitin mühafizəsi ilə bağlı irimiqyaslı layihələr həyata keçirən IDEA kampaniyası "Green Conversation Club" (Yaşıl söhbət klubu) layihəsinə 2012-ci ilin iyun ayından etibarən start vermişdir.

**Təsvir və Konsepsiya**

Gənclər arasında ətraf mühitin mühafizəsi ilə bağlı irimiqyaslı layihələr həyata keçirən IDEA (Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq) kampaniyası "Green Conversation Club" (Yaşıl söhbət klubu) layihəsinə 2012-ci ilin iyun ayından etibarən start vermişdir.

Layihənin əsas məqsədi bu sahədə maraqlı olan gənclərin ətraf mühitlə bağlı biliklərini təkmilləşdirməklə yanaşı, onların xarici dil (ingilis dili) səviyyəsinin inkişafına da öz töhfəsini verməkdir.

"Green Conversation Club"un görüşləri hər həftə IDEA kampaniyasının Resurs Mərkəzində təşkil olunur. Klubun əsas mövzuları ətraf mühit problemləri və bu problemlərin həllində gənclərin rolu, dayanıqlı inkişaf, yaşıl iqtisadiyyat və digər yaşıl məsələləri əhatə edir. Söhbətlər yerli və xarici ekspertlər tərəfindən, ingilis dilində aparılır.

Layihədə Bakı şəhərinin müxtəlif ali təhsil müəssisələrində təhsil alan tələbələr də iştirak edirlər.

# “Təmiz şəhər naminə!” III Yay Məktəbi

*(2012-ci il)*

**Giriş**

5-10 iyul 2012-ci il tarixlərində "Təmiz şəhər naminə!" devizi altında Şəki şəhərində III Tələbə Yay Məktəb Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təsis olunan IDEA kampaniyası və "Təmiz Şəhər" ASC-nin ilə birgə təşkilatçılığı ilə keçirilib.

**Təsvir və Konsepsiya**

5 gün davam edən Yay məktəbi ərzində tələbələr tullatıların idarə olunması sahəsində əsas anlayışlar, tullantıların növləri və onların zərərsizləşdirilməsi üsulları haqqında biliklərə yiyələnmişlər.

5-10 iyul 2012-ci il tarixlərində "Təmiz şəhər naminə!" devizi altında Şəki şəhərində III Tələbə Yay Məktəb Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təsis olunan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası və "Təmiz Şəhər" ASC-nin ilə birgə təşkilatçılığı ilə keçirilib.

Təbii resursların qənaətlə və səmərəli istifadə edilməsi baxımından tullantıların idarəolunması sahəsində əhalinin məlumatlandırılması böyük əhəmiyyət kəsb edir. Gələcəyimiz olan gənclərin bu sahədə maarifləndirilməsi isə ətraf mühitin mühafizəsi və tullantıların idarəolunması sahəsində davamlı və ardıcıl inkişaf deməkdir.

III Tələbə Yay Məktəbinin keçirilməsində əsas məqsəd gənclər arasında yaşıl düşüncə tərzinin formalaşdırılması, onların ekologiyanın qorunmasında fəal iştirakını təmin etmək və tullantıların idarəolunması sahəsində aktiv fəaliyyət göstərən gənc mütəxəssislərin yetişdirilməsi olmuşdur.

Yay məktəbi ərzində tələbələr tullantıların idarəolunması sahəsində əsas anlayışlar, tullantı növləri, tullantıların idarəolunması prosesi və zərərsizləşdirilməsi üsulları haqqında biliklərə yiyələnmişlər. "Təmiz Şəhər" ASC-nin mütəxəssisləri Cəmiyyətin fəaliyyəti nəticəsində ölkəmizdə tullantıların idarəolunması sahəsindəki irəliləyişlər və planlaşdırılmış layihələr haqqında məlumat vermişlər.

Əldə olunan biliklər əsasında iqtisadi və ekoloji təhlükəsizlik, alış-verişin ətraf mühitə təsiri, alış-veriş zamanı ətraf mühitə məsuliyyətli davranış mövzularına dair ictimai müzakirələr formasında mərhələli debat turnirləri təşkil edilmiş, həmçinin gənclərin asudə vaxtının dəyərləndirilməsi üçün müxtəlif idman və intelektual oyunlar, viktorinalar keçirilmişdir.

Yay məktəbi zamanı tələbələr "yaşıl düşüncə" konsepsiyasını əyani şəkildə tətbiq edərək yalnız təkrar emal olunmuş materiallardan hazırlanmış bloknot və qələmlərdən istifadə etmişlər.

## "Arzuladığın gələcək" layihəsi
*(2012-ci il)*

**Giriş**

"Arzuladığın gələcək" adlı ekoloji multimedia müsabiqəsi Azərbaycanın ali təhsil müəssisələrində ekologiya və dayanaqlı inkişaf mövzuları üzrə mühazirələrin təşkilini nəzərdə tutan "IDEA mühazirələri" adlı layihəsi çərçivəsində həyata keçirilib.

**Təsvir və Konsepsiya**

May ayında keçirilən müsabiqədə universitet tələbələri Azərbaycanda mövcud ekoloji problemləri araşdırmış, onların həlli yollarını təklif edən layihələr hazırlanmış və təqdimatlar keçirmişlər.

"Arzuladığın gələcək" adlı ekoloji multimedia müsabiqəsi Azərbaycanın ali təhsil müəssisələrində ekologiya və dayanaqlı inkişaf mövzuları üzrə mühazirələrin təşkilini nəzərdə tutan "IDEA mühazirələri" adlı layihəsi çərçivəsində həyata keçirilib.

Ekoloji multimedia müsabiqəsinə may ayında start verilib. Müsabiqə IDEA kampaniyası və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tələbə Gənclər Təşkilatı tərəfindən təşkil edilib.

Müsabiqə özündə Azərbaycanda mövcud ekoloji problemlər və onların həlli yollarını təklif edən layihələrin təqdimatını birləşdirmişdir. Təqdimatlar universitetlər üüzrə qrup şəklində hazırlanmışdır.

Müsabiqənin yekun mərhələsi tələbələrin təqdimatları ilə başlanıb və sonda münsiflər heyəti tərəfindən ən yaxşı 3 layihə seçilib. Qaliblər IDEA kampaniyası tərəfindən hədiyyə və sertifikatlarla təltif olunub.

Layihənin yekunu olaraq IDEA kampaniyasının Dövlət İdarəçilik Akademiyasında yeni istifadəyə verilmiş Resurs Mərkəzində tələbələr üçün "şəbəkələşmə saatı" keçirilib.

## Bakı Debat Forumu ”Yaşıl Düşüncə Kuboku-2012”

*(2012-ci il)*

**Giriş**

Bakı Debat Forumu ”Yaşıl Düşüncə Kuboku-2012” layihəsi IDEA kampaniyasının dəstəyi, “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin təşkilati dəstəyi ilə həyata keçirilib.

**Təsvir və Konsepsiya**

Mart -iyun aylarını əhatə edən forumda gənclər məişət tullantılarının idarə olunması, ətraf mühitin mühafizəsi və “yaşıl” düşüncə tərzi mövzusunda təlimlər, görüşlər, debat yarışlarında iştirak etmişlər.

Bakı Debat Forumu ”Yaşıl Düşüncə Kuboku-2012” layihəsi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyasının dəstəyi, “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin təşkilati dəstəyi ilə həyata keçirilib.

Layihənin əsas məqsədi gənclərin məişət tullantılarının idarə olunması sahəsinə ətraf mühitin mühafizəsi və “yaşıl” düşüncə tərzi (“green thinking”) prizmasından yanaşmanı təbliğ etməkdir. 2012-ci ilin mart-iyul aylarını əhatə edən “Bakı Debat Forumu” özündə təlimlər, debat yarışları, ekspert görüşləri və müxtəlif səviyyəli təbliğat tədbirlərini birləşdirmişdir. Layihə çərçivəsində keçirilən tədbirlər Bakı şəhərinin ali təhsil müəssisələrində təhsil alan 2000-dən artıq gənci əhatə etmişdir.

“Yaşıl Düşüncə” 3R modelinə əsaslanır və cəmiyyəti az istifadəyə, təkrar istifadəyə, çeşidlənməyə çağırır. Bu modelə uyğun olaraq layihə ərzində istifadə edilən bütün sənədlər, təbliğat materiallarının toplanaraq çeşidlənməsi və kağızların təkrar emalı zavoduna təhvil verilməsi qərara alınmışdır.

# "Quşlar üçün sığınacaq dizaynı" müsabiqəsi

*(2012-ci il)*

**Giriş**

Müasir dünyada baş verən antropogen proseslər nəticəsində planetimizdə yaranan qlobal ekoloji problemlərin sürətlə artması ekosistemlərin deqradasiyaya uğramasına, bitki və heyvanat növlərinin məhv olmasına səbəb olmaqdadır.

**Təsvir və Konsepsiya**

"Quşlar üçün sığınacaq dizaynı" köçəri quşların mühafizəsində ictimaiyyətin rolunu artırmaq və insanların təbiətə xüsusi qayğıkeş münasibətini formalaşdırmaq məqsədi ilə həyata keçirilmişdir.

Müasir dünyada baş verən antropogen proseslər nəticəsində planetimizdə yaranan qlobal ekoloji problemlərin sürətlə artması ekosistemlərin deqradasiyaya uğramasına, bitki və heyvanat növlərinin məhv olmasına səbəb olmaqdadır.

Bioloji müxtəlifliyin belə sürətlə azalması təbiətin bütün komponentləri kimi quş növlərindən də yan keçmir.

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası köçəri quşların mühafizəsində ictimaiyyətin rolunu artırmaq və insanların təbiətə xüsusi qayğıkeş münasibətini formalaşdırmaq məqsədi ilə 2012-ci ilin may ayında Beynəlxalq köçəri quşlar günü münasibətilə "Quşlar üçün sığınacaq dizaynı" adı altında müsabiqə elan etmişdir.

Müsabiqə 2013-cü ilə qədər davam etmişdir. Müsabiqəyə 100-dən artıq iş təqdim edilmişdir.

"Quş sığınacağı dizaynı" müsabiqəsinin qalib eskizinə uyğun hazırlanmış quş sığınacaqları 2013-cü ildə Bişkek, Moskva, Minsk, Bakı şəhərləri, eləcə də Azərbaycanın bir sıra regionlarında quraşdırılmışdır.

## Qız Qalası ətrafında uzunqanad quşlarına alternativ yuvaların qurulması
*(2012-ci il)*

**Giriş**

Güclü küləklərin və atmosfer yağıntıların təsiri ilə qədim abidənin fasadındakı daşlar əsrlər ərzində zədələnir, onların arasındakı məhlul isə yuyulurdu. Yaranmış boşluqlarda isə uzunqanad adlı (lat. Apus apus) quşlar yuva salıblar.

**Təsvir və Konsepsiya**

Layihə çərçivəsində Qız Qalasında muzey konservasiya işləri bitdikdən və daşlar arasındakı boşluqlar doldurulduqdan sonra uzunqanad quşlarının burada əvvəlki sayda yuva qurmasının təmin etmək məqsədilə Qiz qalası ətrafında alternativ yuvalar quraşdırılmışdır.

Güclü küləklərin və atmosfer yağıntıların təsiri ilə qədim abidənin fasadındakı daşlar əsrlər ərzində zədələnir, onların arasındakı məhlul isə yuyulurdu. Yaranmış boşluqlarda isə uzunqanad adlı (lat. Apus apus) quşlar yuva salıblar.

Qız Qalasında muzey konservasiya işləri bitdikdən və daşlar arasındakı boşluqlar doldurulduqdan sonra uzunqanad quşlarının burada əvvəlki sayda yuva qurmasının mümkünsüz olacağını nəzərə alaraq Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq (İDEA) kampaniyasının rəhbəri Leyla xanım Əliyevanın təklifi ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən uzunqanad quşlarına Qız Qalası yaxınlığında alternativ yuva qurulmasına qərar verilib.

Prosesi elmi əsaslarla həyata keçirmək və beynəlxalq təcrübəni tətbiq edilməsi üçün bir sıra təşkilatlarla əməkdaşlıq edilib.

"BirdLife" Avstriya Ornitoloqlar Cəmiyyəti ilə aparılmış müvafiq məsləhətləşmələrə əsasən, xüsusilə uzunqanad quşları üçün Avropada hazırlanmış 500-dən artıq yuva alınaraq Qız Qalasının yaxınlığındakı binanın fasadına quraşdırılıb. Qız Qalasında yuva salmış uzunqanadların sayının təqribən 250-300 olmasına baxmayaraq süni yuvaların sayı təxminən iki dəfə artıqdır. Bu, gələcəkdə uzunqanad quşlarının populyasiyasının artırmaq məqsədi ilə həyata keçirilib.

Eyni zamanda quşların alternativ yuvalara köçürülməsi ilə bağlı Böyük Britaniyada yerləşən uzunqanad quşlarının qorunması sahəsində ixtisaslaşmış "Swift Conservartion" (Uzunqanadların qorunması) beynəlxalq təşkilatı ilə əməkdaşlıq qurulub.

Quşları yuvalara cəlb etmək üçün "Swift Conservartion" (Uzunqanadların qorunması) təşkilatı tərəfindən yazılı təlimatlar, uzunqanad quşlarının səs yazılarından ibarət olan CD disklər təqdim edilib.

Səsgücləndiricilər vasitəsi ilə uzunqanadların səsləri gün ərzində quşların ən çox yuva axtardığı zamanlarda səsləndirilir.

Uzunqanad quşları çox mühafizəkar quşlar hesab olunur və yuva quracaqları məkanları bir il əvvəlcədən müəyyənləşdirirlər. Bu səbəbdən "Swift Conservartion" şirkəti bildirib ki, onların süni yuvalara cəlb edilməsi mürəkkəb, eyni zamanda vaxt aparan prosesdir və tam yuvalara cəlb edilmə 2-3 ilə yaxın zaman tələb edə bilər.

Artıq Qız Qalasının uzunqanadlarla vəhdət təşkil edən görüntüsünün dəyişməməsi üçün muzey konservasiyası zamanı Qız Qalasının fasadında abidəyə zərər vurmamaq şərti ilə 80-nə yaxın yuvanın saxlanacağı planlaşdırılır.

Bu quşlar aprelin əvvəllərində Bakıya gəlir, burada bala verir və iyul-avqust aylarında yeni nəsil ilə birlikdə Cənubi Afrikaya köç edirlər.

## "Ekoloji dərslik" layihəsi
*(2012-ci il)*

**Giriş**

Əsası 2011-ci ilin iyul ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən qoyulan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) gənclərin qlobal ekoloji problemlərin həllində fəaliyyətini və dialoqunu qətiyyətlə dəstəkləyən təşəbbüsdür.

**Təsvir və Konsepsiya**

Yerli və xarici müəlliflər, ekspertlər, təbiət elmləri sahəsində təhsil almış insanlar, həmçinin professorlar və aspirantlar Azərbaycanda orta məktəblərdə dərsdənkənar kurslarda istifadə oluna biləcək ətraf mühit haqqında dərslik yazmağa dəvət olunurlar.

Əsası 2011-ci ilin iyul ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən qoyulan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) gənclərin qlobal ekoloji problemlərin həllində fəaliyyətini və dialoqunu qətiyyətlə dəstəkləyən təşəbbüsdür. Onun əsas fəaliyyəti istiqamətlərindən biri insanlarda ətraf mühit dostu davranış və hərəkətlərinin formalaşmasında erkən təhsilin rolunu ictimaiyyətə çatdırmaqdır.

Bu məqsədlə, IDEA dəyirmi masa müzakirələri, ekoloji inşa və dizayn müsabiqələri, ağacəkmə, kütləvi təmizlik, seminarlar və maarifləndirmə kampaniyaları da daxil olmaqla, orta məktəblərdə və universitetlərdə bir çox layihələr həyata keçirmişdir. Bu layihələrin davamı olaraq gənclər arasında həyat davamlılığı, təbiətin tarazlığı, ekosistem, biomüxtəliflilik, iqlim dəyişikliyi və bu kimi digər mühüm ətraf mühit məsələlərinin daha yaxşı dərk olunması məqsədilə IDEA yeni kitab yazı layihəsini elan edir.

Layihənin məqsədi ən mühüm ətraf mühit məsələlərindən və ətraf mühit dayanıqlığının əsas konsepsiyalarından bəhs edən bir kitabın yazılmasıdır.

Təsvir və Konsepsiya

Yerli və xarici müəlliflər, ekspertlər, təbiət elmləri sahəsində təhsil almış insanlar, həmçinin professorlar və aspirantlar Azərbaycanda orta məktəblərdə dərsdənkənar kurslarda istifadə oluna biləcək ətraf mühit haqqında dərslik yazmağa dəvət olunurlar.

Bu məqsədlə IDEA orta məktəblərdə və universitetlərdə, dəyirmi masa müzakirələri, ətraf mühit mövzusunda inşa və dizayn müsabiqələri, ağacəkmə, kütləvi təmizləmə aksiyaları, təlimlər və maarifləndirici seminarlar daxil olmaqla cox saylı layihələr həyata keçirib. Gənclər arasında davamlı inkişafı, təbiətin, ekosistemlərin və biomüxtəlifliyin tarazlığını, iqlim dəyişikliyi və başqa mühüm ətraf mühit məsələlərini daha dərindən analamaları üçün IDEA "Ekoloji dərslik" layihəsini elan edir.

Lahiyənin məqsədi ən mühüm ətraf mühit məsələlərindən və ətraf mühit dayanıqlığının əsas konsepsiyalarından bəhs edən bir kitab ərsəyə gətirməkdir.

Konsept

Yerli və xarici müəlliflər, ekspertlər, təbiət elmləri sahəsində təhsil almış insanlar, həmçinin professorlar və aspirantlar Azərbaycanda orta məktəblərdə dərsdənkənar kurslarda istifadə oluna biləcək ətraf mühit haqqında dərslik yazmağa dəvət olunurlar.

Kitab fərdi şəkildə və ya müştərək yazıla bilər. Lakin kitab bir neçə müəllif tərəfindən yazılarsa, qonorar müəlliflər arasında bölünəcək.

Kitab istər Azərbaycan, istərsə də ingilis dillərində yazıla bilər. İngilis dilində yazıldığı halda, IDEA kitabın Azərbaycan dilinə tam tərcüməsini və redaktəsini öz üzərinə götürəcək.

Müsabiqədə iştirak etmək istəyən müəlliflər kitab üçün istifadə olunacaq elmi materialları, o cümlədən təklif olunan layihənin iş planını, ilkin mövzu və struktur, yazı nümunəsi ilə bərabər qısa təsvirini və xülasəsini (maksimum 1000 söz) info@ideacampaign.org e-mail poçtuna göndərməlidir. Şəxsi məlumat əlyazmaya və ya xülasəyə daxil edilməməlidir.

Hər hansı bir namizəd irəli sürmək istəyən şəxslər IDEA ilə əlaqə saxlamalıdırlar. Xülasə və ərizələr 2012-ci il, sentyabrın 30-dək qəbul olunacaq.

Qəbul olunma barədə bildiriş müəlliflərə 2012-ci il sentyabrın 30-dək göndəriləcək. Qaliblər yazının keyfiyyətinə, yaşa və təklifin orijinallığına görə seçiləcək.

Qalib olan müəlliflər mərhələli şəkildə işləməklə kitab fəsillərinin ilkin variantlarını iş planındaki müəyyən olunmuş vaxtlarda təqdim edəcəklər. Kitabın son variantı tam olaraq 2012-ci ilin dekabr ayından gec olmayaraq təqdim olunmalıdır. Kitabın 2013-cü ilin əvvəlində nəşr olunması nəzərdə tutlur.

Kitabın tam formatı IDEA-ya təqdim olunduqdan sonra, IDEA onun üzərində dəyişikliklər etmək və nəşr etdirmək hüququnu özündə saxlayır. Layihə haqqında əlavə məlumat IDEA-nın rəsmi veb səhifəsində (www.ideacampaign.org) yerləşdiriləcək.

Format:
- Müəllifin icazəsi olmadan materialların yenidən nəşr edilməsi qadağandır.
- Aşağıdakı qaydalardan (yuxarı və aşağı tərəflər-2 sm, sol kənar-3 sm, sağ kənar-1,5 sm) və A4 ölçüsü istifadə olunmalıdır.
- Yalnız MS Word formatında olan yazılar qəbul ediləcək.
- Digər formatda olan fayllar təqdim olunmadan əvvəl MS Word formatına çevrilməlidir.
- Bütün mətn üçün sonluq şərhi də daxil olmaqla Times New Roman-12 şrifti istifadə olunmalıdır.
-Bütün səhifələr hər kənardan 2 sm-lik məsafə ilə sonluq şərhləri (endnotes), başlıqlar (headings) və sərlövhələr (captions) də daxil olmaqla sözlərarası qoşa boşluqla (double-spaced) olmalıdır.
- Səhifə nömrələri sağ kənarın alt hissəsində qeyd olunmalıdır.
- Sətrin sonunda sözü yeni sətrə köçürmək üçün defisdən istifadə olunmalıdır.
- Hər durğu işarəsindən sonra yalnız bir boşluq qoyulmalıdır.
- “The Chicago Manual of Style”-da olan qeyd işarələri (Footnote) MS Word-də sonluq şərhlərinə (Endnote) çevrilməli və "Humanities Style" ilə uzlaşmalıdır. Qeydlər ”The Chicago Manual of Style” tərəfindən tələb olunan biblioqrafik informasiyanı əks etdirməlidir.
- Mətni müşayiət edəcək hər hansı bir təsvir (şəkillər, xəritələr, və ya illüstrasiyalar) nəşr oluna biləcək şəkildə, 300 düymdən (dpi) az olmayaraq, skan edilib təqdim olunmalıdır. Mənbəyinin tanınması üçün istifadə edilən xüsusi sözlər daxil olmaqla, şəklin müəllifi və ya sahibindən icazə məktubu almaq müəllifin öhdəliyidir. Bununla bağlı bütün xərcləri müəllif öz üzərinə götürməlidir.

Qonorar
Qalib gələn müəllif və ya müəlliflər öz işləri üçün 10 min manat (13 min ABŞ dolları) məbləğində qonorar alacaq. Digər bütün xərclər, o cümlədən kitabın tərcüməsi, nəşr edilməsi və paylanması xərcləri isə IDEA tərəfindən ödəniləcək.
Müəllif(lər) qonorarı iki hissəli şəkildə alacaqlar. Kitab tamamlandıqdan və IDEA-ya təhvil verildikdən sonra tam qonorar veriləcək.

Layihə IDEA tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi ilə birgə həyata keçirilir.

## “Mesajını Rio+20-yə çatdır” inşa müsabiqəsi
*(2012-ci il)*

**Giriş**

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası “Mesajını Rio+20-yə çatdır” adlı inşa müsabiqəsini 2012-ci ilin yavnar ayında elan etmişdir.

**Təsvir və Konsepsiya**

Rio+20 sammiti öncəsi keçirilən inşa müsabiqəsi gənclərə dünyada mövcud ekoloji problemlərin həlli istiqamətində gedən proseslərə münasibət bildirmək imkanı vermişdir.

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası “Mesajını Rio+20-yə çatdır” adlı inşa müsabiqəsini 2012-ci ilin yavnar ayında elan etmişdir.

Ekoloji kampaniyanın fəaliyyət istiqamətlərindən biri Azərbaycan gənclərini BMT-nin “Dayanıqlı İnkişaf üzrə Rio+20 sammiti”nə səfərbər edərək, həmin gəncləri təbii resursları həddindən artıq istehlak edilən və yox olma təhlükəsi ilə üzləşən planetimizin gələcək taleyi haqqında düşünməyə sövq etmək olmuşdur.

IDEA kampaniyasının təşkil etdiyi inşa müsabiqəsi Azərbaycan gənci üçün planetin ekoloji tarazlığın qorunub saxlanılmasına dair yeni ideyalarını və gələcəyə baxışını ifadə etməyə yeni bir fürsət olmuşdur.

İnşa müsabiqəsinin keçirilməsində əsas məqsəd Rio+20 sammiti öncəsi, dünyada mövcud ekoloji problemlərin həlli istiqamətində gedən proseslərə gənclərin baxışını öyrənmək və bu istiqamətdə mövcud olan maneələrə gələcək nəsil nümayəndələrinin mövqeyini beynəlxalq ictiamiyyətə çatdırmaq olmuşdur.

Müasir beynəlxalq münasibətlərdə ətraf mühit problemlərinin həlli istiqamətində dünyanın mötəbər siyasi dairələrində ən çox müzakirə edilən 3 sahə inşa müsabiqəsi üçün əsas mövzu kimi götürülmüşdür.

1) Qlobal ətraf mühit problemlərinin həll edilməsində beynəlxalq ətraf mühitin qorunmasına dair saziş və müqavilələrin rolu;

2) Dayanaqlı inkişafa mane olan problemlər;

3) Yaşıl iqtisadiyyata keçidin gələcək nəsillər üçün əhəmiyyəti;

Mqsabiqənin qaydalarına əsasən müsabiqədə Azərbaycanda hal-hazırda təhsil alan bakalavr və magistr gənc tələbələr iştirak edə bilərdi. İnşanın həcmi 2000 sözdən artıq olmamalı idi.

Münsiflər heyəti tərəfindən seçilən ən yaxşı 3 qalib yazı müəllifləri birinci yer iPad, ikinci yer Fotoapparat və üçüncü yer Netbuk hədiyyələri ilə mükafatlandırılmışlar. Müsabiqənin qalibləri Bakıda Hilton hotelində sertifikatlar və hədiyyələr ilə təltif olunmuşlar.

# Bioloji parçalana bilən paketlərin ictimai istifadəyə verilməsi
*(2012-ci il)*

**Giriş**

Azərbaycanda ilk dəfə olaraq bioparçalanan paketlərin istifadəsini Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi reallaşdırmışdır.

**Təsvir və Konsepsiya**

Layihə çərçivəsində bioloji paketlər pulsuz olaraq Bakı şəhərinin böyük market və alış veriş mərkəzlərinə paylanmışdır. Paketlərin ictimai istifadəyə verilməsində məqsəd insanları plastik paketlərin təbiətə vurduğu ziyan haqqında məlumatlandırmaq olmuşdur.

Azərbaycanda ilk dəfə olaraq bioparçalanan paketlərin istifadəsini Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi reallaşdırmışdır.

Adi polietilen paketlərdən fərqli olaraq bioparçalanan paketlər təbiətə atıldığı zaman asanlıqla çürüyür və torpağa qarışır. Plastik və ya polietilen paketlər torpaqda yüz illərlə qaldığı halda, bioloji parçalanan paketlər qısa müddət ərzində torpağa qarışır və ətraf mühitə, demək olar ki, heç bir ziyan vermir.

Ekoloji təmiz paketlər Bakı şəhərinin "Bazarstore", "Grand", "Neptun", "Premium" və "Kontinental" kimi iri marketlərinə və alış-veriş mərkəzlərinə paylanılmışdır.

## Tullantıdan incəsənətə
*(2012-ci il)*

**Giriş**

"Tullantıdan incəsənətə" layihəsi IDEA İctimai Birliyi və "YARAT" Müasir İncəsənət məkanı tərəfindən müştərək olaraq həyata keçirilib.

**Təsvir və Konsepsiya**

Layihə çərçivəsində Bakı şəhərində istifadə olunmuş 3000-dən çox plastik butulka toplanılıb, onlardan paytaxtın Səməd Vurğun küçəsində Yeni İl öncəsi dekorativ şam ağacı hazırlanılıb.

Bu dekorativ şam ağacını tullantılardan incəsənət nümunələri yaratmaqla dünyada məşhurlaşan, ABŞ, Şotlandiya, Niderland, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan və digər ölkələrdə keçirilən sərgilərdə əl işləri böyük marağa səbəb olan ingilis mütəxəssisləri- Nikolas Bleyk Sayers və Qlendon Maykl Keysi qurub.

Şam ağacının hündürlüyü 7 metr, diametri isə 4.2 metrdir. Bu dekorativ sənət nümunəsi Yeni İl ərəfəsində meşə və parklarda əkilmiş şam ağaclarını kəsmədən, ətraf mühitə zərər vermədən, alternativ yollardan istifadə etməklə süni şam ağacları əldə etməyin mümkünlüyünü göstərir.

Qeyd edək ki, ağacın ərsəyə gətirilməsində istifadə olunmuş butulkalar "Pepsi Azərbaycan" şirkəti tərəfindən təmin olunmuşdur.

# Daha yaşıl Azərbaycan üçün Bakı və Gəncə könüllüləri səfərbər oldu
*(2013-cü il)*

**Giriş**

Leyla Əliyeva tərəfindən təsis olunan IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təşəbbüsü, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyilə 1 dekabr 2013-cü il tarixində Gəncə şəhərində ağacəkmə aksiyası həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

"Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" şüarı altında həyata keçirilən aksiyanın əsas məqsədi ağac əkməklə ekoloji mühitin sağlamlaşdırılmasını sürətləndirmək, gənclər arasında ekoloji mədəniyyətin, təbiətə qayğı hissinin formalaşdırılmasına və inkişafına töhfə vermək, onları bu işə sövq etməklə asudə vaxtlarının səmərəli təşkilini təmin etmək, insanlar arasında ekoloji maarifləndirmə işini həyata keçirərək təbiətə qayğıkeş münasibəti aşılamaqdır.

IDEA 17 noyabr tarixində Bakının Zığ qəsəbəsində və 1 dekabr tarixində Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə "Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" şüarı altında ağacəkmə aksiyası həyata keçirdi.

Bakıda 5000-dən çox ağac IDEA hərfləri formasında əkilib. Gəncədə isə 1000-ə yaxın IDEA könüllülərinin iştirak etdiyi aksiya əsası 1979-cu ildə Ulu öndər Heydər Əliyevin təşəbüssü ilə qoyulan və hal-hazırda onun adını daşıyan Parkda baş tutmuşdur. Gənclərin aktiv iştirakı nəticəsində Parkın ərazisində 10000-dən çox Eldar şamı və xan çinarı əkilmişdir.

Gələcəkdə baş verə biləcək təbii və antropogen təsirlərin qarşısını almaq, ərazinin biomüxtəlifliyini qorumaq və ona töhfə vermək məqsədilə təşkil olunan aksiyada könüllülər aktiv iştirak nümayiş etdirməklə digər gənclərə örnək olmağa, onlara ətraf mühitin qorunmasının vacibliyini bu yolla çatdırmağa səy göstərmişlər.

Qeyd edək ki, IDEA İctimai Birliyi mütəmadi olaraq bu cür ekoloji aksiyalar təşkil etməklə insanlar arasında ekoloji təbliğat işini gücləndirmək, gənclərin ətraf mühitin qorunması, atmosferin zərərli qazlardan təmizlənməsi işində iştirakını təmin etmək, "Gələcək nəsillər üçün sağlam dünya" ideyasını yaymaq kimi məqsədləri hədəfləyir.

# Gəncədə eko-velosiped layihəsi

*(2013-cü il)*

**Giriş**

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi paytaxtımızla yanaşı digər regionlarda da müntəzəm olaraq ekoloji layihələr həyata keçirir. Layihələrin həyata keçirildiyi hədəf şəhərlərdən biri də Azərbaycanın ikinci ən böyük şəhəri Gəncədir.

**Təsvir və Konsepsiya**

Azərbaycanın ikinci böyük şəhərində həyata keçirilən layihə özündə insanların yaşıl nəqliyyat vasitələrindən istifadəyə cəlb olunmasını əks etdirir.

IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi paytaxtımızla yanaşı digər regionlarda da müntəzəm olaraq ekoloji layihələr həyata keçirir. Layihələrin həyata keçirildiyi hədəf şəhərlərdən biri də Azərbaycanın ikinci ən böyük şəhəri Gəncədir. Azərbaycanın ən qədim şəhərlərindən biri olan Gəncə, həmçinin gənclər şəhəridir. Şəhər 2013-cü ilin noyabr ayında 2016-cı ilin Avropa Gənclər Mərkəzi elan edilmişdir.

Cənubi Qafqazdakı Heydər Əliyev adına ən böyük park bu şəhərdə salınmışdır. Parkın girişi IDEA İctimai Birliyi tərəfindən "Sevgi təbiəti gözəlləşdirir" şüarı olan xüsusi ağaclarla bəzədilib. Parkın mərkəzində IDEA İctimai Birliyi "ətraf mühit üçün birləşək" şüarını və insan fiqurlarını ifadə edən ağaclar əkilmişdir. IDEA parkdakı bir çox ağaca köçəri quşlar üçün quş sığınacaqları yerləşdirmişdir. Bundan əlavə, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən parkın ərazisində əkilmək üçün bəzi nadir ağac növləri hədiyyə edilmişdir.

Bundan əlavə, Gəncənin mərkəz hissələrində insanları ərazini təmiz saxlamağa, tullantıların azaldılması, təkrar istifadə və çeşidləməyə çağıran etiketlerin yapışdırıldığı zibil qutuları yerləşdirmişdir. IDEA-nın Gəncə şəhərində həyata keçirdiyi toplu layihələr çərçivəsində şəhərdə Azərbaycanda ilk dəfə olaraq velosiped yolu salınmışdır. Layihənin əsas məqsədi insanları ətraf mühitə zərər verməyən nəqliyyat vasitələrindən istifadəyə dəvət etmək, atmosferin çirklənməsinin qarşısını almağa birgə səy göstərməkdir. Bütün bunlarla yanaşı, IDEA İctimai Birliyi yaxın zamanda Gəncə yerləşən Heydər Əliyev Mərkəzində IDEA Resurs Mərkəzi açmağa planlaşdırır. Mərkəzin açılışı 2014-cü ilin əvvəli üçün nəzərdə tutulub.

## "Eko rəsm gündəliyi 2013"
*(2013-cü il)*

**Giriş**

Noyabrın 1-dən 15-dək paytaxt Bakı və Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə keçirilən "Eko rəsm gündəliyi 2013" ekoloji müsabiqəsinin yerli mərhələsi IDEA kampaniyası tərəfindən, YUNESKO-nun himayəsi, Heydər Əliyev Mərkəzi və Panasonic Marketinq MDB-nin dəstəyi ilə təşkil olunub.

**Təsvir və Konsepsiya**

Gənc nəsil arasında ekoloji mədəniyyətin təbliği, flora və faunaya qayğının aşılanması məqsədilə IDEA tərəfindən, YUNESKO-nun himayəsi, Heydər Əliyev Mərkəzi və Panasonic Marketinq MDB-nin (PMCIS) dəstəyilə "Eko Rəsm Gündəliyi 2013" müsabiqəsi keçirilmişdir.

Noyabrın 1-dən 15-dək paytaxt Bakı və Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə keçirilən "Eko rəsm gündəliyi 2013" ekoloji müsabiqəsinin yerli mərhələsi IDEA kampaniyası tərəfindən, YUNESKO-nun himayəsi, Heydər Əliyev Mərkəzi və Panasonic Marketinq MDB-nin dəstəyi ilə təşkil olunub.

"Eko Rəsm Gündəliyi 2013" müsabiqəsinin məqsədi gənc nəsil arasında ekoloji mədəniyyətin təbliği, flora və faunaya qayğının aşılanmasıdır. Layihə, həmçinin ətraf mühit və insan sağlamlığının qorunması üzrə aktiv vətəndaş mövqeyinin formalaşmasına xidmət edir.

Müsabiqədə ümumtəhsil məktəblərinin 6-11 və 12-15 yaş arası şagirdləri iştirak edə bilərlər. İştirakçılar müsabiqə üçün hazırlanan xüsusi "Eko Gündəlik"də ekologiyaya dair rəsm və onun ideyasının qısa təsvirini əks etdirməlidirlər.

Noyabrın 1-dən başlayaraq müəllimlər vasitəsilə paylanacaq "Eko Gündəlik"lər noyabrın 15-dək təhvil verilməlidir.

Təqdim edilən "Eko Gündəlik"lər IDEA, Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, YUNESKO, PMCIS, KİV və QHT nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Münsiflər heyəti final mərhələsinə vəsiqə qazanan 20 iştirakçı arasından bir nəfər milli qalibi müəyyən edəcək.

Müsabiqənin qalibi 1 dekabr tarixinədək elan olunacaq.

# Ceyranların Gürcüstan Respublikasına reintroduksiyası
*(2013-cü il)*

**Giriş**

Ceyran sürüsünün Gürcüstana reintroduksiyası oktyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA kampaniyasının rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

10 başdan ibarət ceyran sürüsünün Gürcüstan Respublikasına reintroduksiyası ceyranların Qafqazda tarixən məskunlaşdığı ərazilərdə yayılması və artması üçün atılan addımlardandır.

Ceyran sürüsünün Gürcüstana reintroduksiyası oktyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyasının rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. "Ceyranların Qafqazda tarixən məskunlaşdığı ərazilərə reintroduksiyası layihəsi" çərçivəsində baş tutan tədbir nəticəsində 10 başdan ibarət ceyran sürüsü Gürcüstan Respublikasının ərazisinə reintroduksiya edilmişdir.

Ceyran sürüsünün reintroduksiyası Gürcüstan Respublikasının Ətraf Mühit və Təbii Sərvətlərin Mühafizəsi Nazirliyinin müraciəti əsasında reallaşmışdır.

Gürcüstana verilən ceyranların üzərinə xüsusi kiçik cihaz bağlanmışdır. Bu cihaz vasitəsilə ceyranın olduğu yer, onun orqanizminin durumu nəzarətdə saxlanacaqdır.

Hazırda Azərbaycanda 9 min baş ceyran vardır. Artıq Ağgöl Milli Parkı, Qobustan-Cəngiçay vadisi, Acınohur-Sarıca düzənliyi ərazilərinə mərhələlərlə ceyranların buraxılması həyata keçirilmiş, 110 başadək ceyran tarixi ərazilərinə qaytarılmışdır. Artıq Azərbaycanda ceyranların bərpası və çoxaldılması istiqamətində aparılan işlər öz nəticələrini verməkdədir.

## Sahilyanı təmizlik aksiyası
*(2013-cü il)*

**Giriş**

Təmizlik aksiyası 7 sentyabr 2013-cü il tarixində hər il dünyada qeyd olunan "Beynəlxalq Təmizlik Həftəsi" ilə əlaqədar IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası tərəfindən Nardaran çimərliyi ərazisində təşkil edilib.

**Təsvir və Konsepsiya**

Hər il "Beynəlxalq Təmizlik Həftəsi"-də keçirilən təmizlik aksiyası gənclərin iştirakı ilə ətraf mühitə töhfə vermək məqsədi daşıyır. Aksiya zamanı yüzlərlə kiloqram tullantı sahilyanı ərazilərdən təmizlənərək təkrar emala göndərilir.

Təmizlik aksiyası 7 sentyabr 2013-cü il tarixində hər il dünyada qeyd olunan "Beynəlxalq Təmizlik Həftəsi" ilə əlaqədar IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası tərəfindən Nardaran çimərliyi ərazisində təşkil edilib. Layihə "Təmizlik həftəsində hamı təbiət üçün" şüarı altında baş tutub.

Aksiya çimərlik ərazisindəki tullantıların toplanması və onların faydalı şəkildə istifadəsi üçün təkrar emala göndərilməsi, habelə gəncləri təbiətin təmiz saxlanılmasına cəlb olunmaları məqsədi ilə həyata keçirilib.

Ümumilikdə, aksiyaya 100-dən çox gənc cəlb olunub. Aksiya zamanı gigiyenik qaydalara əməl etmək məqsədilə iştirakçılara xüsusi əl geyimləri paylanılıb. Toplanılan materiallar qida və qeyri-qida tullantılarına ayırılaraq çeşidlənib. Toplanmış tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna nəql edilib və burada təkrar çeşidlənib.

## **"Ətraf mühit üçün təkrar istifadə"**
*(2013-cü il)*

**Giriş**

"Ətraf mühit üçün təkrar istifadə" gənclərin yay düşərgəsi IDEA kampaniyası,"Göyçay İnkişaf Mərkəzi" İctimai Birliyi, Göyçay rayon İcra Hakimiyyəti, USA Education və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Ekologiya idarəsinin dəstəyi ilə həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

"Ətraf mühit üçün təkrar istifadə" - gənclərin beynəlxalq düşərgəsi 3 günü əhatə etməklə gənclərin ekoloji sahədə maariflənməsi, onların ətraf mühitin qorunması işinə cəlb edilməsi və bu məqsədlə onlar arasında təkrar istifadə texnologiyasının tətbiqi işinin gücləndirilməsini hədəfləmişdir.

"Ətraf mühit üçün təkrar istifadə" gənclərin yay düşərgəsi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) kampaniyası,"Göyçay İnkişaf Mərkəzi" İctimai Birliyi, Göyçay rayon İcra Hakimiyyəti, USA Education və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Ekologiya idarəsinin dəstəyi ilə həyata keçirilmişdir.

Düşərgənin keçirilməsində məqsəd gənclərin yay tətilini səmərəli təşkil edərək yaşadıqları şəhərin təmizliyi üçün məsuliyyətli olmağa həvəsləndirmək, gənclərin ətraf mühitə qarşı məsuliyyətini artırmaq və onlara ekoloji biliklər vermək olmuşdur.

Düşərgə ərzində ətraf mühitə düşən tullantıların miqdarının təbiətin onu parçalaya və zərərləşdirə biləcəyindən çox olmamasının vacibliyi aşılanmışdır. Müsabiqə nəticəsində seçilmiş 30 nəfər gəncə tullantı probleminin ciddiliyini anlatmaq üçün təcrübəli təlimçilər tərəfindən müxtəlif maraqlı öyrənmə metodları istifadə edilmişdir.

Düşərgədə nəzərdə tutulan bütün fəaliyyətlər təmiz ekologiya, tullantısız ətraf mühit və sağlam həyat tərzi istiqamətində aparılmışdır. Bundan əlavə, gənclərə plastik materialların ətraf mühit üçün yaratdığı təhlükələrlə bağlı təqdimatlar edilmişdir.

Qeyd edək ki, düşərgənin sonunda iştirakçılar ARDNŞ-nin Ekologiya idarəsinin Bakı şəhərinin Qala kəndində yerləşən ekoparkına ekskursiyada iştirak edərək ARDNŞ-in ekoloji layihələri ilə tanış olmuş, ekoparkda alternativ enerji və digər müasir texnologiyalar haqqında məlumatlar əldə etmişlər.

# “Yer kürəsi uşaqların gözü ilə” gənclərin beynəlxalq fotomüsabiqəsi
*(2013-cü il)*

**Giriş**

"Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqə IDEA kampaniyasının təşəbbüsü əsasında dünya şöhrətli fotoqraf Reza Deqati ilə sıx əməkdaşlıq edərək, WPO (Dünya Fotoqrafçılıq Təşkilatı) və Böyük Britaniyanın "National Geographic" uşaq jurnalının dəstəyi ilə həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

Gənclər tərəfindən ətraf mühit problemlərini, təbiət gözəlliklərini özündə əks etdirən fotoşəkillərin çəkilməsini təbliğ edən, bununla da ictimaiyyətin diqqətini ətraf mühitin qorunmasına cəlb etməyi hədəfləyən layihə bir ilə yaxın davam etmişdir.

"Yer kürəsi uşaqların gözü ilə" beynəlxalq fotomüsabiqə IDEA kampaniyasının təşəbbüsü əsasında dünya şöhrətli fotoqraf Reza Deqati ilə sıx əməkdaşlıq edərək, WPO (Dünya Fotoqrafçılıq Təşkilatı) və Böyük Britaniyanın "National Geographic" uşaq jurnalının dəstəyi ilə həyata keçirilmişdir. Müsabiqə 1 iyun - Uşaqların beynəlxalq müdafiəsi günü və 5 iyun - Beynəlxalq ətraf mühit günü ilə əlaqədar olaraq uşaqlar və gənclər arasında elan edilmişdir.

“Yer kürəsi uşaqların gözü ilə” gənclərin beynəlxalq fotomüsabiqəsinə 4000 fotoşəkil daxil olmuşdur. “Mən təbiəti sevirəm” və “Mən çirklənmədən qorxuram” devizləri altında keçirilən müsabiqə dünyanın 90 ölkəsindən minlərlə gəncin diqqətini cəlb etmişdir. Fotomüsabiqə sosial və ətraf mühit mövzusunda şəkillərin dili ilə uşaqları məlumatlandıran ilk beynəlxalq layihə hesab olunur.

Beynəlxalq fotomüsabiqə və müsabiqənin sonunda keçirilən festival və sərgi ətraf mühitin bütün nəsillər tərəfindən qorunmasının vacibliyini nümayiş etdirərək dünyada mövcud olan ətraf mühit məsələlərinə ümumi diqqətin cəlb edilməsini nəzərdə tutmuşdur.

Müsabiqəyə təqdim olunmuş şəkillər beynəlxalq münsiflər heyəti və məsləhət şurasının üzvləri tərəfindən qiymətləndirilmişdir. Qaliblər qiymətli hədiyyələrlə təltif edilmiş və Bakıda 2013-ci ilin may ayında baş tutan festival və sərgidə iştirak etmək hüququ qazanmışlar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi və ənənəvi Gül bayramı günlərinə təsadüf edən beynəlxalq festivala Bakının ev sahibliyi etməsi gənc istedadların qədim mədəniyyətin, möhtəşəm memarlığın və bayramların gözəlliklərini fotoaparatın yaddaşına köçürməsi üçün yaxşı imkan yaratmışdır.Festival və sərginin təşkilatçıları IDEA kampaniyası və tanınmış fotoqraf Reza Deqatinin təsis etdiyi AİNA Dünya qeyri-hökumət təşkilatı olmuşdur.

# "Ümumrespublika Yaşıllaşdırma" marafonu
*(2014-cü il)*

**Giriş**

"Ümumrespublika Yaşıllaşdırma" marafonu 5 noyabr 2014-cü il tarixində Heydər Əliyev Fondunun vitse-Prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılmışdır.

**Təsvir və Konsepsiya**

Marafonun əsas məqsədi yaşıllıq sahələrinin azalmasının yarada biləcəyi təhlükələrin qarşısını almaq və ağac əkilməsini təşviq edərək, ətraf mühitin mühafizəsinə töhfə verməkdən ibarətdir.

"Ümumrespublika Yaşıllaşdırma" marafonu 5 noyabr 2014-cü il tarixində Heydər Əliyev Fondunun vitse-Prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılmışdır.

Marafonun əsas məqsədi yaşıllıq sahələrinin azalmasının yarada biləcəyi təhlükələrin qarşısını almaq və ağac əkilməsini təşviq edərək, ətraf mühitin mühafizəsinə töhfə verməkdən ibarətdir.

Layihəyə əsasən ağacların növbəti iki əkin mövsümündə (noyabr ayında və mart ayının sonu – aprel ayının əvvəlində) əkilməsi və marafonun may ayının əvvəlində başa çatdırılması planlaşdırılır.

Layihədə Azərbaycan Respublikasının 76 rayon və şəhər icra hakimiyyətinin iştirakı və ölkə ərazisində ümumilikdə bir milyondan artıq ağacın əkilməsi nəzərdə tutulur.

"Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində keçirilən ağacəkmə aksiyaları ilə bağlı məlumatlar və fotoşəkillərlə layihənin rəsmi veb səhifəsindən tanış ola bilərsiniz.

# "Eko Rəsm Gündəliyi 2014" beynəlxalq müsabiqəsi
*(2014-cü il)*

**Giriş**

"Eko Rəsm Gündəliyi" layihəsi Panasonic Kids School tərəfindən başladılan şagirdlər üçün nəzərdə tutulmuş ekoloji layihədir.

**Təsvir və Konsepsiya**

Layihə bütün ölkələrdən olan şagirdlərin şəkillər vasitəsilə ekoloji problemləri əks etdirməsini nəzərdə tutur.

Oktyabrın 10-da IDEA İctimai Birliyinin təşəbbüsü, UNESCO-nun himayəsi, Heydər Əliyev Mərkəzi və Panasonic şirkətinin təşkilati dəstəyi ilə keçirilən "Eko Rəsm Gündəliyi 2014" beynəlxalq müsabiqəsinin milli mərhələsinin mükafatlandırma mərasimi keçirilib.

Qeyd edək ki, Azərbaycanda ikinci dəfə keçirilən müsabiqə çərçivəsində Bakı və Gəncə şəhərlərindəki məktəblərə 5000 ədəd "Eko Gündəlik" paylanılıb və onlardan 3050 ədədi doldurularaq təşkilatçıya təqdim olunub.

IDEA, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, UNESCO, Panasonic şirkəti, KİV və QHT nümayəndələrindən ibarət münsiflər heyətinin dəyərləndirməsi nəticəsində 20 finalçı seçilib.

Müsabiqənin milli qalibi 160 saylı Klassik Gimnaziyanın şagirdi Aylin Yəhyazadə olub.

Digər finalçılar isə Bakı şəhərindən Bakı Avropa Liseyi, Fizika riyaziyyat və informatika təmayüllü lisey, Bakı Slavyan Universiteti məktəb lisey kompleksi, "Ankara" məktəb liseyi, 269, 283, 304 saylı orta məktəblər, Gəncə şəhərindən isə Xarici dillər təmayüllü gimnaziya, 1, 6, 22, 25, 28, 34 saylı orta ümumtəhsil məktəblərinin şagirdləridir.

Mükafatlandırma mərasimində milli qalib, eləcə də 19 finalçı sertifikat və qiymətli hədiyyələrlə təltif olunub.

Qeyd edək ki, "Eko Rəsm Gündəliyi 2014" müsabiqəsində finalçılar müxtəlif aktual ekoloji problemləri çəkdikləri rəsmlərlə və onları izah edən qısa mətn ilə ifadə edib, problemin həlli istiqamətində öz təkliflərini irəli sürüblər.

Qeyd edək ki, 50-dən çox ölkəni əhatə edən "Eko Rəsm Gündəliyi" beynəlxalq müsabiqəsi 2008-ci ildən keçirilir.

Müsabiqənin məqsədi kiçik yaşlarından uşaqlarda ekoloji düşüncə tərzini, ekoloji məsələlərdə aktiv vətəndaş mövqeyini formalaşdırmaq, onları ətraf mühitin qorunması və bu sahədə problemlərin həllinə səfərbər etməkdən ibarətdir

## 3D eko qraffiti layihəsi
*(2014-cü il)*

**Giriş**

3D qraffiti layihəsi IDEA İctimai Birliyi və YARAT Müasir İncəsənət Məkanının birgə təşəbbüsü ilə 2014-cü ilin sentyabr ayında həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

Layihə çərçivəsində çəkilmiş qraffiti əsər ekoloji problemlər haqqında incəsənət yoluyla ictimaiyyəti məlumatlandırmaq və insanların diqqətini bu problemlərə yönəltmək xarakteri daşıyır.

Qraffiti əsəri 2012-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri xanım Leyla Əliyevanın təşəbbüsü ilə start verilmiş "Qafqazın böyük beşliyi"-ə daxil olan heyvanları və onların qorunmasının vacibliyini özündə əks etdirir.

"Qafqazın böyük beşliyi" layihəsi Azərbaycan ərazisində məskunlaşan və nəsli kəsilmək təhlükəsi ilə qarşılaşan heyvan növlərinin - qonur ayı, imperator qartalı, boz canavar, ceyran və Qafqaz bəbirin mühafizəsini nəzərdə tutur.

Yerüstü qraffiti əsəri İngiltərədən dəvət olunmuş qraffitistlər – Eduard Şiron, Ceyms Titçner və Culiyan Fetin tərəfindən 3D formatında 5 gün ərzində işlənmişdir.

## “Ağacların kəsilməsinə yox!” proqramı

*(2014-cü il)*

**Giriş**

"Ağacların kəsilməsinə yox" proqramı Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi ilə birlikdə həyata keçirilməkdədir.

**Təsvir və Konsepsiya**

Proqram, Azərbaycanda, xüsusilə Bakı şəhərində qeyri-qanuni ağac kəsilmələrinin qarşısının alınmasını nəzərdə tutur.

“Ağacların kəsilməsinə yox!” birgə proqram Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri xanım Leyla Əliyevanın təşəbbüsü ilə başladılıb. Proqram çərçivəsində “Təbiətə təcili yardım” qaynar xətti və mobil qrupu yaradılıb.

Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdığı zaman öz şikayətlərini 1113 qaynar xətti vasitəsilə IDEA İB-yə çatdıra və eləcə də öz şikayətlərini və təkliflərini ideacampaign.org internet səhifəsinə daxil olaraq bildirə bilərlər. Problemi daha dəqiq işıqlandırmaq üçün ağac kəsilən ərazinin fotolarını da veb-səhifəyə yükləmək mümkündür. Proqram çərçivəsində yaradılmış mobil qrup daxil olan şikayətləri yerində araşdıracaq, problemlə bağlı əlavə sübutları, foto və video materialları toplayacaq.

IDEA-ya daxil olan bütün müraciətlər təşkilatın rəsmi veb səhifəsində xüsusi anket formalarda yer alacaq və vətəndaşlar prosesin gedişatını buradan izləyə biləcəklər.

# Qafqaz Biomüxtəlifliyi Sammiti
*(2014-cü il)*

**Giriş**

7 may 2014-cü il tarixində Bakıda IDEA İctimai Birliyi tərəfindən Qafqaz Biomüxtəlifliyi Sammiti (bəbir və digər pişikkimilərin mühafizəsi) təşkil olunub.

**Təsvir və Konsepsiya**

Konfransın məqsədi pişik mütəxəssislərini, tədqiqatçıları və biomüxtəliflik sahəsində çalışan insanları bir araya toplayaraq böyük ikonik heyvanların qorunmasını müzakirə etmək, bilik və təcrübələri bölüşməkdir.

Sammit Bakıda müasir avadanlıqla təchiz edilmiş Heydər Əliyev Mərkəzinin auditoriyasında keçirilmişdir. Zaha Hadidin layihəsi olan bu bina artıq dünyanın ən mühüm müasir binalarından biri hesab olunur.

İştirakçılar dünyanın qabaqcıl pişik mühafizəsi mütəxəssisləri ilə yanaşı, əsas beynəlxalq ekoloji QHT-lərin nümayəndələrindən, Qafqaz regionundakı tərəfdaşlardan və yerli akademiklərdən ibarət olmuşdur.

Sammitdən sonra nümayəndələrin, Azərbaycanın müxtəlif landşaftları və ekosistemləriilə tanış olmaq üçün maraqlı ekspedisiyasında iştirak etmək imkanları olmuşdur.

## "Məhəbbət ağacı" layihəsi

*(2014-cü il)*

**Giriş**

"Məhəbbət ağacı" layihəsi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi, "YARAT" Müasir İncəsənət Məkanı və "Baku" jurnalının birgə layihəsidir.

**Təsvir və Konsepsiya**

"Məhəbbət ağacı" layihəsinin özəlliyi layihə çərçivəsində hazırlanmış "ağacın" istifadə olunmuş metal konstruksiyadan ibarət olmasıdır.

"Məhəbbət ağacı" layihəsi IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi, "YARAT" Müasir İncəsənət Məkanı və "Baku" jurnalının birgə layihəsidir. Sözü gedən ağac istifadə olunmuş metal məhsullarından hazırlanmış, üzərinə istifadə olunmuş qıfıllar vurulmuşdur.

Belə bir inanc vardır ki, üzərində sevgililərin adlarının baş hərfi yazılmış qıfılı körpünün sürahilərinə bağladıqda uğur gətirərək səadət vəd edir. Ənənəyə uyğun olaraq, dünyanın əksər ölkələrində gənclər park və bağlarda ağacların budaqlarına lent bağlayır, üzərində təsirli sözlər yazılmış suvenirlər asırlar.

"Məhəbbət ağacı" layihəsinin təqdimatı fevralın 14-də Dənizkənarı Milli Parkda olmuşdur. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva iştirak etmişdir.

Bakının Milli Parkındakı metal konstruksiyalı "Məhəbbət ağacı" onun budaqlarında öz duyğularının möhkəmliyinin sübutunu qoyub getmək istəyən sevən cütlüklərin və sevgililərin daha çox üz tutduqları məkanın - Dənizkənarı Bulvarın daimi bəzəyi olacaqdır.

# "Eko Ev"

*(2014-cü il)*

**Giriş**

"Eko Ev" adlı layihəyə IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşkilatçılığı və "Day.az" xəbər portalının dəstəyi ilə start verilib.

**Təsvir və Konsepsiya**

"Eko ev" layihəsi enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan, ekoloji cəhətdən təmiz evlərin eskizlərinin hazırlanmasını və onların gələcəkdə istifadəsini nəzərdə tutur.

Layihə çərçivəsində enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan, ekoloji cəhətdən təmiz evlərin eskizləri hazırlanacaq.

Müsabiqə 18-30 yaş arası şəxslər üçün nəzərdə tutulmuşdur. Layihədə iştirak etmək üçün 2014-cü il fevralın 1-dən martın 10-dək idea.day.az saytında qeydiyyatdan keçərək "eko ev" mövzusunda hazırlanmış eskizi ("jpg" formatında) qısa izahı ilə birgə yükləmək lazımdır. Martın 10-dan aprelin 10-dək facebook sosial şəbəkəsində səsvermə yolu ilə 10 ən yaxşı eskiz seçiləcək. Ən çox səs toplamış 10 eskiz müsabiqənin münsiflər heyəti tərəfindən qiymətləndiriləcək.

Seçilən ilk üç eskizin müəllifləri müvafiq olaraq 3000, 2000 və 1000 AZN məbləğində pul ilə mükafatlandırılacaqlar. Bundan əlavə, I yerin sahibi ölkə xaricində, ikinci yerin sahibi isə Azərbaycanda fəaliyyət göstərən böyük tikinti şirkətlərindən birində təcrübə keçmək imkanı əldə edəcək.

## Hər kağızı bir yarpağa dəyişək
*(2014-cü il)*

**Giriş**

"Hər kağızı bir yarpağa dəyişək" layihəsi IDEA İctimai Birliyinin, ASAN xidmət və "Təmiz Şəhər" ASC-nin təşkilatçılığı ilə həyata keçirilmişdir.

**Təsvir və Konsepsiya**

Layihə çərçivəsində "ASAN xidmətin" 1, 2, 3 saylı mərkəzlərində konteynerlər və qəbul olunan kağızların çəkilməsi, o cümlədən qeydiyyata alınması üçün xüsusi masalar yerləşdirilmişdir. Layihə çərçivəsində müxtəlif dövlət və özəl müəssisələrlə əməkdaşlıq həyata keçirilir, beləliklə də motivasiya xarakteri daşıyan rəqabət vasitəsilə yığılan kağızların miqdarının artırılmasına çalışılır.

Layihə çərçivəsində dövlət qurumları, özəl təşkilatlar və ya sadə vətəndaşların istifadə olunmuş kağızları Bakı şəhərindəki ASAN xidmət mərkəzlərinin qarşısında quraşdırılmış məntəqələrə təhvil verməsi nəzərdə tutulub. Burada təhvil verilmiş kağızlar xüsusi konteynerlərdə toplanılır və onların qeydiyyatı aparılır.

Təhvil verilmiş hər 50 kq kağız qarşılığında bir ədəd ağac alınacaq. Ağacların kağız təhvil verən qurumların iştirakı ilə Bakı şəhəri ərazisində əkilməsi planlaşdırılır.

Layihənin həyata keçirilməsində əsas məqsəd cəmiyyətin ekoloji problemlərlə mübarizədə bütün təbəqələrinin iştirakını təmin etmək və onları bu işə cəlb etmək, real ekoloji layihələr vasitəsilə insanlar arasında maarifləndirmə işini effektiv şəkildə artırmaq və ekoloji mühitə dəyən zərəri minimuma endirmək məqsədilə tullantıların düzgün istifadəsini təşkil etməkdir.

İstifadə olunmuş kağızların qəbulu işinə 2014-cü il fevralın 3-dən etibarən start verilmişdir.

## “Uğura gedən yol”
*(2015-ci il)*

**Giriş**

Layihə çərçivəsində ekologiya sahəsində təhsil alan və ya bu sahəyə həvəs göstərən gənclərin ətraf mühit və davamlı inkişaf sahələrində peşəkar səviyyədə uğur əldə etmiş şəxslərlə görüşləri təşkil olunur. IDEA İctimai Birliyi bu üsulla gəncləri müasir dünyada nüfuzlu sayılan ətraf mühit və davamlı inkişaf sahələrinə yönəltməklə, ölkəmizdə ixtisaslaşmış və peşəkar mütəxəssislərin yetişməsinə töhfə vermək niyyətindədir.

**Təsvir və Konsepsiya**

IDEA İctimai Birliyi gəncləri ətraf mühit sahəsində ixtisaslaşmağa və bu sahədə çalışmağa həvəsləndirmək məqsədilə, aprel ayından etibarən “Uğura gedən yol” adlı layihəyə başlamışdır.

IDEA İctimai Birliyi gəncləri ətraf mühit sahəsində ixtisaslaşmağa və bu sahədə çalışmağa həvəsləndirmək məqsədilə, aprel ayından etibarən “Uğura gedən yol” adlı layihəyə başlamışdır.

Layihə çərçivəsində ekologiya sahəsində təhsil alan və ya bu sahəyə həvəs göstərən gənclərin ətraf mühit və davamlı inkişaf sahələrində peşəkar səviyyədə uğur əldə etmiş şəxslərlə görüşləri təşkil olunur. IDEA İctimai Birliyi bu üsulla gəncləri müasir dünyada nüfuzlu sayılan ətraf mühit və davamlı inkişaf sahələrinə yönəltməklə, ölkəmizdə ixtisaslaşmış və peşəkar mütəxəssislərin yetişməsinə töhfə vermək niyyətindədir.

“Uğura gedən yol” layihəsi çərçivəsində ilk görüş “Azərsun Holdinq”ə məxsus Azərbaycan Kağız Karton İstehsalı Kombinatının (AKKİK) baş mütəxəssisi Bəxtiyar İsmayılovun iştirakı ilə aprel ayının 27-i baş tutmuşdur.

Görüş zamanı B.İsmayılov gənclərə davamlı inkişaf, o cümlədən təkrar istehsal sahəsindəki təcrübəsi və peşəkar fəaliyyəti, qazandığı uğurların sirləri və özünü inkişaf etdirməyin yolları haqqında geniş məlumat vermişdir. Qeyd olunmuşdur ki, sözügedən sahədə çalışmaq maddi baxımdan əlverişli olmaqla yanaşı, ölkəmizin ətraf mühitinin mühafizəsi üçün faydalı hesab olunur. Görüşün sonunda qonaq ekspert gəncləri maraqlandıran sualları cavablandırmışdır.

“Uğura gedən yol” layihəsi çərçivəsində ayda bir dəfə IDEA İctimai Birliyinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində ətraf mühit və oxşar sahələrdə uğurlu karyera qurmuş insanlarla gənclərin görüşü təşkil olunacaqdır.

Növbəti görüşlər barədə elanlar IDEA İctimai Birliyinin rəsmi internet səhifəsində və sosial mediada yerləşdiriləcək. Layihə haqqında əlavə məlumat əldə etmək istəyən şəxslər 4976316 şəhər nömrəsi və ya info@ideacampaign.org elektron poçt ünvanı vasitəsilə IDEA İB ilə əlaqə saxlaya bilərlər.

# "Uşaqlar üçün ekoloji laboratoriya"

*(2015-ci il)*

**Giriş**

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" yanvar ayından etibarən 5-12 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

**Təsvir və Konsepsiya**

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" yanvar ayından etibarən 5-12 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

"Kiçik ekoloqların" ətraf mühitin mühafizəsinə marağını daha da artırmaq və bu prosesi əyləncəli etmək məqsədilə, təlimlərin gedişində laboratoriya tədqiqatları aparılır, müxtəlif bilik yarışmaları və maraqlı oyunlar təşkil olunur, həmçinin kiçik incəsənət nümunələri yaratmaq üçün şərait yaradılır.

"Uşaqlar üçün ekoloji laboratoriya"nın ilk təlimi cari ilin yanvar ayının 17-də keçirilmiş və qlobal istiləşmə kontekstində buzlaqların əriməsi, dəniz suyunun səviyyəsinin qalxması, heyvanların miqrasiyası və bu hadisələrin təbiətə mənfi təsirinin qarşısının alınması yollarına həsr olunmuşdur.

"Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində təlimlər IDEA İctimai Birliyinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində təşkil olunur.

Təlimlər barədə elanlar mütəmadi olaraq, mətbuatda verilir.

# "Yaşıllıqların artırılması və keyfiyyətinin yaxşılaşdırılması" proqramı
*(2016-cı il)*

**Giriş**

Yaz əkin mövsümü ilə əlaqədar, IDEA İctimai Birliyi Bakı şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyi ilə birgə paytaxt ərazisində yaşıllıqların artırılması və keyfiyyətinin yaxşılaşdırılması proqramı çərçivəsində davamlı ağacəkmə aksiyalarına başlamışdır.

**Təsvir və Konsepsiya**

Proqram çərçivəsində təşkil edilən aksiyalarda ETSN Dövlət Ekspertiza İdarəsi tərəfindən təhlükəli hesab edilərək kəsilməsi haqqında rəy verilmiş və ya artıq kəsilmiş qovaq ağaclarının yerinə Abşeron və Bakı şəhərinin torpaq və iqlim şəraitinə uyğun digər ağacların əkilməsi nəzərdə tutulub.

Yaz əkin mövsümü ilə əlaqədar, IDEA İctimai Birliyi Bakı şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyi ilə birgə paytaxt ərazisində yaşıllıqların artırılması və keyfiyyətinin yaxşılaşdırılması proqramı çərçivəsində davamlı ağacəkmə aksiyalarına başlamışdır.

Aksiyalar çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsi tərəfindən təhlükəli hesab edilərək kəsilməsi haqqında rəy verilmiş və ya artıq kəsilmiş qovaq ağaclarının yerinə Abşeron və Bakı şəhərinin torpaq və iqlim şəraitinə uyğun şam, sərv, zeytun, yapon saforası, göyrüş muşmulla, dağdağan ağacları əkilməkdədir.

Məlum olduğu kimi, qovaq ağaclarının bir çox fəsadları vardır. Onların bəziləri, yay aylarında çiçəkləyən zaman öz toxumlarını pambığa bənzəyən liflərə bürünmüş formada yayırlar, bu isə çox hallarda nəfəs yollarına dolaraq öskürəyin yaranmasına və ya allergik reaksiyalara səbəb olur. Təəssüflər olsun ki, vaxtilə şəhər əkinlərində, xüsusilə də məhəlləarası əkinlərdə xeyli istifadə edilən piramidal qovaq hazırda ən çox təhlükə törədən ağac kimi tanınır. Çünki bu ağacın oduncağı yumşaq olduğu üçün tez zədələnir və zədə yerinə su düşdükdə ağac az müddətdən sonra həmin yerdən çürüyür. Digər tərəfdən onların kök sistemi də tez çürüyür və küləkli havalarda hündür gövdəsini saxlaya bilməyərək aşır və müəyyən itkilərə səbəb olur.

Beləliklə də, bu ağac növlərinin şəhər şəraitində əkilib-becərilməsi həm dekorativlik baxımından, həm də sanitar-gigiyenik baxımdan məqbul hesab edilmir.

Hətta, paytaxtımızda qovaq ağacı ölümlə nəticələnən qəzalara da səbəb olmuşdur. Belə ki, 2013-cü ildə qovaq ağacı aşaraq ana və uşağın üstünə düşmüş, nəticədə hər ikisi həyatını itirmişdir. Eyni tipli hadisə 2011-ci ildə baş vermiş və Əzizov Elçin adlı Bakı sakini vəfat etmişdir. Əslində hər iki halda da qovaq ağacları xarici görünüş etibarı ilə sağlam olmuşdur, sadəcə güclü külək nəticəsində zəif kök sistemi iri gövdəni saxlaya bilməmiş və bədbəxt hadisələr baş vermişdir.

Qovaq ağacları, çox hallarda avtomobillərin, evlərin, eyvanların, elektrik naqilləri və qaz xəttlərinin üzərinə düşərək qəzalı vəziyyətə səbəb olur və insanların əmlaklarına ziyan yetirə bilir. Təkcə 2015-ci il ərzində qəzalı durumda olan qovaq ağacları haqqında qeydiyyatdan keçmiş müraciətlərin sayı 660-dan çoxdur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, IDEA İctimai Birliyi və Bakı şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Təsərrüfatı Birliyi layihənin icrasına qovaq ağaclarının ən çox əkildiyi və qəzaların daha çox olduğu Nizami rayonundan başlamışdır.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən həyata keçirilən qovaq ağaclarının yerinə digər ağacların əkilməsi aksiyası növbəli şəkildə Elşən Süleymanov, Q.Qarayev, Naxçivani, Əliağa Kürçaylı, Şərifli, Nəsimi, B.Nuriyev, İ.İsmayılov, K.Balakişiyev və Ş.Mirzəyev küçələrində, o cümlədən Babək prospekti ərazisində də təşkil ediləcəkdir. Ümumilikdə Nizami rayonundakı qəzalı ağacların yerləşdiyi ərazilərdə fevral-aprel ayları ərzində 1500-ə yaxın ağacın əkilməsi nəzərdə tutulub. Nizami rayonunun ardından Bakı şəhərinin digər rayonlarında da eyni aksiyalar təşkil olunacaqdır. Bütün tədbirlər mütəmadi olaraq, mətbuatda işıqlandırılmaqdadır.

IDEA İctimai Birliyi yaşıllıqların artırılması və qorunmasına xüsusi həssaslıqla yanaşır və təsis edildiyi dövrdən etibarən IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən genişmiqyaslı ağacəkmə aksiyaları çərçivəsində ölkə ərazisində 5 milyondan artıq ağacın əkilməsinə nail olmuşdur.

## “Ətraf mühiti birgə qoruyaq” ekoloji tədris proqramı
## *(2016-cı il)*

**Giriş**

Artıq uzun müddətdir gənclərin həm peşəkar, həm də həvəskar səviyyədə ekoloji maarifləndirilməsi üzrə mütəmadi layihələr həyata keçirən IDEA İctimai Birliyi və Təhsil Nazirliyi bu ilin fevral ayından etibarən məktəblilər üçün “Ətraf mühiti birgə qoruyaq” mövzusunda ekoloji tədris proqramına başlamışdır.

**Təsvir və Konsepsiya**

Proqramın məqsədi gənc nəsildə təbiətə qayğıkeş münasibətin aşılanması, ekoloji maarifləndirilmənin daha da gücləndirilməsi və ətraf mühit problemlərinin həllinə gənclərin cəlb edilməsindən ibarətdir.

Son dövrlərdə iqlim dəyişikliyi və qlobal istiləşmənin ciddi beynəlxalq təhlükəyə çevrilməsi fonunda yaşından asılı olmayaraq, hər bir şəxsin ətraf mühitin keşiyində durması artıq zərurətə çevrilmişdir. Məlumdur ki, ekoloji problemlər sərhəd tanımır və heç bir dövlət iqlim dəyişikliyinin fəsadlarından sığortalanmayıb. Aparıcı beynəlxalq mütəxəssislərin qənaətinə görə iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması və ona uyğunlaşmanın əsas amillərindən biri ekoloji maarifləndirmənin artırılmasıdır. Bununla belə, ekoloji tədris proqramlarının mütləq surətdə ən erkən yaş qruplarını da əhatə etməsi xüsusi əhəmiyyət daşıyır.

Yuxarıdakıları nəzərə alaraq, artıq uzun müddətdir gənclərin həm peşəkar, həm də həvəskar səviyyədə ekoloji maarifləndirilməsi üzrə mütəmadi layihələr həyata keçirən IDEA İctimai Birliyi və Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi bu ilin fevral ayından etibarən məktəblilər üçün “Ətraf mühiti birgə qoruyaq” mövzusunda ekoloji tədris proqramına başlamışdır. Proqramın məqsədi gənc nəsildə təbiətə qayğıkeş münasibətin aşılanması, ekoloji maarifləndirilmənin daha da gücləndirilməsi və ətraf mühit problemlərinin həllinə gənclərin cəlb edilməsindən ibarətdir.

Ekoloji tədris proqramı Bakı şəhəri üzrə pilot orta məktəblərdə fəaliyyət göstərən "Ekoklub" üzvlərini əhatə edir. Qeyd olunamalıdır ki, Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi 2015-ci ilin sentyabrından etibarən orta məktəblərdə eko-klubların yaradılması prosesinə başlamışdır. Hazırda Bakı şəhərində fəaliyyət göstərən 25 ümumtəhsil müəssisəsində bu cür eko-klub təsis edilmişdir və eko-klub şəbəkəsinin gələcəkdə daha da genişləndirilməsi nəzərdə tutulur.

IDEA İctimai Birliyi və Təhsil Nazirliyinin birgə həyata keçirdiyi “Ətraf mühiti birgə qoruyaq” proqramı çərçivəsində hər ay şagirdlər üçün ekologiyanın əsasları, bitkilərin və heyvanların ekologiyası, insan ekologiyası, urboekologiya və ya gələcəyin şəhərləri, iqlim dəyişmələri, alternativ enerji, tullantıların idarə olunması, biomüxtəliflik və onun qorunması, meşə ekologiyası, ekoloji yaşıl turizm və s. ekoloji mövzuları əhatə edən təlimlər təşkil edilir

“Ətraf mühiti birgə qoruyaq” proqramının təlimləri barədə mütəmadi olaraq, mətbuatda və IDEA İctimai Birliyinin internet resurslarında məlumat verilir.

# IDEA "Yaşıl söhbət klubu"
## *(2016-cı il)*

**Giriş**

Gənclərin ekoloji məsələlərə cəlb edilməsi və onların ətraf mühitin mühafizəsinə töhfə verməlêri, ekoloji problemlərlə mübarizəyə qoşulmaları naminə irimiqyaslı layihələr həyata keçirən IDEA İctimai Birliyi "Yaşıl söhbət klubu" (Green Conversation Club) layihəsi çərçivəsində görüşlərə davam edir.

**Təsvir və Konsepsiya**

Adətən 1 saatdan çox davam edən Klubda gənclər ətraf mühitlə bağlı qısa videoçarxlar izləyərək təəssüratlarını bölüşür, ekoloji mövzularda aparılan söhbətlərdə və interaktiv oyunlarda iştirak edirlər.

Gənclərin ekoloji məsələlərə cəlb edilməsi və onların ətraf mühitin mühafizəsinə töhfə vermələri, ekoloji problemlərlə mübarizəyə qoşulmaları naminə irimiqyaslı layihələr həyata keçirən IDEA İctimai Birliyi "Yaşıl söhbət klubu" (Green Conversation Club) layihəsi çərçivəsində görüşlərə davam edir.

Adətən 1 saatdan çox davam edən Klubda gənclər ətraf mühitlə bağlı qısa videoçarxlar izləyərək təəssüratlarını bölüşür, ekoloji mövzularda aparılan söhbətlərdə və interaktiv oyunlarda iştirak edirlər.

IDEA İctimai Birliyi Yaşıl Söhbət klubu layihəsinə gənc ekoloqların ətraf mühitlə bağlı biliklərini və onların xarici dil (ingilis dili) səviyyələrini təkmilləşdirmələri məqsədi ilə 2012-ci ilin iyun ayında start vermişdir. Yaşıl söhbət klubu ilk gündən ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan tələbə və gənc mütəxəssislərin ingilis dilində söhbət etdiyi rahat tədris məkanı olmuşdur.

İştirakçıların müsbət rəylərini nəzərə alaraq, cari ildən də Klubun görüşləri hər ay təşkil edilir.

Həm ekoloji, həm də ingilis dili biliklərini eyni vaxtda inkişaf etdirmək istəyən şəxsləri hər ay ətraf mühitlə bağlı müxtəlif mövzulara həsr ediləcək Yaşıl söhbət klubuna qoşulmağa dəvət edirik. Klubun görüşləri barədə IDEA-nın internet resurslarında
(www.ideacampaign.org, www.instagram.com/idea_public_unionvə https://www.facebook.com/ideacampaign.org) mütəmadi olaraq məlumat verilir.

# Elmi mövzularda seminar və məşğələlər
***(2016-cı il)***

**Giriş**

IDEA mütəmadi olaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan gənclərin ekoloji biliklərini artırmaq, vacib ekoloji mövzulara mütəxəssis yanaşmasını müşahidə etmələrinə kömək etmək məqsədilə hər ay təlimlər, seminarlar, ekoloji mövzulu filmlər və s. təşkil edir.

**Təsvir və Konsepsiya**

IDEA-nın təhsil proqramı ətraf mühit üzrə təhsil alan və bu sahədə fəaliyyət göstərən gənclərin akademik hazırlığına xüsusi diqqət ayırır

IDEA mütəmadi olaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan gənclərin ekoloji biliklərini artırmaq, onların diqqətini ekoloji problemlərin həllinə yönəltmək, vacib ekoloji mövzulara mütəxəssis yanaşmasını müşahidə etmələrinə kömək etmək məqsədilə hər ay təlimlər, seminarlar təşkil edir.

IDEA-nın təhsil proqramı ətraf mühit üzrə təhsil alan və bu sahədə fəaliyyət göstərən gənclərin akademik hazırlığına xüsusi diqqət ayırır və bu məqsədlə mütəmadi olaraq, Azərbaycanda və regionda mövcud ekoloji problemləri əks etdirən mövzuları, eləcə də onların həlli yollarına həsr olunmuş elmi seminar və məşğələləri həyata keçirir.

Kurslar gənc mütəxəssislər üçün mühazirələrdə iştirak etmək və müvafiq sahələrə elmi-praktiki səfərlərdə iştirak etmək imkanı yaradır. Hər il yüzlərlə gənc peşəkar IDEA-nın elmi proqramından faydalanır.

Tədbirlər barədə elanlar ictimaiyyətə IDEA-nın onlayn xidmətləri (www.facebook.com/ideacampaign vəhttp://instagram.com/idea_public_union) vasitəsilə çatdırılır.

# "Uşaqlar üçün ekoloji laboratoriya"
## *(2016-cı il)*

**Giriş**

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" 2015-ci ilin yanvar ayından etibarən 6-11 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

**Təsvir və Konsepsiya**

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" 2015-ci ilin yanvar ayından etibarən 5-12 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

"Kiçik ekoloqların" ətraf mühitin mühafizəsinə marağını daha da artırmaq və bu prosesi əyləncəli etmək məqsədilə, təlimlərin gedişində laboratoriya tədqiqatları aparılır, müxtəlif bilik yarışmaları və maraqlı oyunlar təşkil olunur, həmçinin kiçik incəsənət nümunələri yaratmaq üçün şərait yaradılır.

"Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində təlimlər IDEA İctimai Birliyinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində təşkil olunur.

Təlimlər barədə elanlar mütəmadi olaraq, mətbuatda verilir.

# “Ağacların kəsilməsinə yox!” proqramı
***(2016-cı il)***

**Giriş**

"Ağacların kəsilməsinə yox" proqramı Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi ilə birlikdə həyata keçirilməkdədir.

**Təsvir və Konsepsiya**

Proqram, Azərbaycanda, xüsusilə Bakı şəhərində qeyri-qanuni ağac kəsilmələrinin qarşısının alınmasını nəzərdə tutur.

“Ağacların kəsilməsinə yox!” birgə proqram Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri xanım Leyla Əliyevanın təşəbbüsü ilə başladılıb. Proqram çərçivəsində “Təbiətə təcili yardım” qaynar xətti və mobil qrupu yaradılıb.

Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdığı zaman öz şikayətlərini 1113 qaynar xətti vasitəsilə IDEA İB-yə çatdıra və eləcə də öz şikayətlərini və təkliflərini ideacampaign.org internet səhifəsinə daxil olaraq bildirə bilərlər. Proqram çərçivəsində yaradılmış mobil qrup daxil olan şikayətləri yerində araşdırır, problemlə bağlı əlavə sübutları, foto və video materialları toplayır.

IDEA-ya daxil olan bütün müraciətlər təşkilatın rəsmi veb səhifəsində xüsusi anket formasında yerləşdirilir və vətəndaşlar prosesin gedişatını buradan izləyə bilərlər.

# “Hər kağızı bir yarpağa dəyişək"
## *(2016-cı il)*

**Giriş**

IDEA İctimai Birliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Respublika səviyyəsində kağız məmulatlarının toplanmasına həsr olunmuş “Hər kağızı bir yarpağa dəyişək” layihəsinə 18 mart tarixindən etibarən start verilmişdir.

**Təsvir və Konsepsiya**

Layihənin məqsədi kağız israfını azaltmaq və təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaqdır. Digər tərəfdən, layihə ətraf mühitin çirklənməsinin qarşısını almaq və tullantıların düzgün idarə olunmasını təşviq etməyi hədəfləyir.

IDEA İctimai Birliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Respublika səviyyəsində kağız məmulatlarının toplanmasına həsr olunmuş “Hər kağızı bir yarpağa dəyişək” layihəsinə 18 mart tarixindən etibarən start verilmişdir.

Layihənin məqsədi kağız israfını azaltmaq və təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaqdır. Digər tərəfdən, layihə ətraf mühitin çirklənməsinin qarşısını almaq və tullantıların düzgün idarə olunmasını təşviq etməyi hədəfləyir.

Məlum olduğu kimi, “Hər kağızı bir yarpağa dəyişək” layihəsinin pilot fazası 2014-cü ilin fevral – aprel aylarında Bakı şəhərində həyata keçirmişdir. Pilot mərhələnin uğurlu olduğunu, (3 ay ərzində 79 tona yaxın kağız toplanmış və aidiyyəti təkrar emal müəssisəsinə göndərilmişdir) və əhali tərəfindən layihəyə geniş marağı nəzərə alaraq, IDEA İctimai Birliyi və onun tərəfdaşları bu layihəni Respublika səviyyəsində davamlı şəkildə həyata keçirmək qərarına gəlmişlər.

İstifadə olunmuş kağızların qəbulu işinə ilkin olaraq, 18 mart tarixində 4 saylı Bakı “ASAN xidmət” mərkəzində başlanmışdır, 25 mart tarixindən etibarən isə Respublika üzrə bütün ASAN xidmət mərkəzlərində kağız tullantıların qəbulu reallaşdırılır.

Layihə çərçivəsində, həmçinin “Azersun” şirkəti tərəfindən 300 kq –dan artıq kağız tullantıların ünvanlardan xüsusi nəqliyyat vasitələri ilə toplanması da təşkil edilir. Kağız tullantıların səyyar qaydada təhvil vermək istəyənlərdən IDEA İctimai Birliyi (497-63-16 nömrəsi) və ya ASAN xidmətlə (108 qaynar xətti) əlaqə saxlamaları xahiş olunur.

IDEA İctimai Birliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi dövlət qurumları, özəl sektor nümayəndələrini, qeyri-hökumət təşkilatları və vətəndaşları ətraf mühitin mühafizəsi naminə “Hər kağızı bir yarpağa dəyişək” layihəsində iştirak etməyə dəvət edir!

# DAVAM EDƏN LAYİHƏLƏR

## "Uğura gedən yol"

**Giriş**

Layihə çərçivəsində ekologiya sahəsində təhsil alan və ya bu sahəyə həvəs göstərən gənclərin ətraf mühit və davamlı inkişaf sahələrində peşəkar səviyyədə uğur əldə etmiş şəxslərlə görüşləri təşkil olunur. IDEA İctimai Birliyi bu üsulla gəncləri müasir dünyada nüfuzlu sayılan ətraf mühit və davamlı inkişaf sahələrinə yönəltməklə, ölkəmizdə ixtisaslaşmış və peşəkar mütəxəssislərin yetişməsinə töhfə vermək niyyətindədir.

**Təsvir və Konsepsiya**

IDEA İctimai Birliyi gəncləri ətraf mühit sahəsində ixtisaslaşmağa və bu sahədə çalışmağa həvəsləndirmək məqsədilə, aprel ayından etibarən “Uğura gedən yol” adlı layihəyə başlamışdır.

IDEA İctimai Birliyi gəncləri ətraf mühit sahəsində ixtisaslaşmağa və bu sahədə çalışmağa həvəsləndirmək məqsədilə, aprel ayından etibarən “Uğura gedən yol” adlı layihəyə başlamışdır.

Layihə çərçivəsində ekologiya sahəsində təhsil alan və ya bu sahəyə həvəs göstərən gənclərin ətraf mühit və davamlı inkişaf sahələrində peşəkar səviyyədə uğur əldə etmiş şəxslərlə görüşləri təşkil olunur. IDEA İctimai Birliyi bu üsulla gəncləri müasir dünyada nüfuzlu sayılan ətraf mühit və davamlı inkişaf sahələrinə yönəltməklə, ölkəmizdə ixtisaslaşmış və peşəkar mütəxəssislərin yetişməsinə töhfə vermək niyyətindədir.

“Uğura gedən yol” layihəsi çərçivəsində ilk görüş “Azərsun Holdinq”ə məxsus Azərbaycan Kağız Karton İstehsalı Kombinatının (AKKİK) baş mütəxəssisi Bəxtiyar İsmayılovun iştirakı ilə aprel ayının 27-i baş tutmuşdur.

Görüş zamanı B.İsmayılov gənclərə davamlı inkişaf, o cümlədən təkrar istehsal sahəsindəki təcrübəsi və peşəkar fəaliyyəti, qazandığı uğurların sirləri və özünü inkişaf etdirməyin yolları haqqında geniş məlumat vermişdir. Qeyd olunmuşdur ki, sözügedən sahədə çalışmaq maddi baxımdan əlverişli olmaqla yanaşı, ölkəmizin ətraf mühitinin mühafizəsi üçün faydalı hesab olunur. Görüşün sonunda qonaq ekspert gəncləri maraqlandıran sualları cavablandırmışdır.

“Uğura gedən yol” layihəsi çərçivəsində ayda bir dəfə IDEA İctimai Birliyinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində ətraf mühit və oxşar sahələrdə uğurlu karyera qurmuş insanlarla gənclərin görüşü təşkil olunacaqdır.

Növbəti görüşlər barədə elanlar IDEA İctimai Birliyinin rəsmi internet səhifəsində və sosial mediada yerləşdiriləcək. Layihə haqqında əlavə məlumat əldə etmək istəyən şəxslər 4976316 şəhər nömrəsi və ya info@ideacampaign.org elektron poçt ünvanı vasitəsilə IDEA İB ilə əlaqə saxlaya bilərlər.

# "Ümumrespublika Yaşıllaşdırma" marafonu

**Giriş**

"Ümumrespublika Yaşıllaşdırma" marafonu 5 noyabr 2014-cü il tarixində Heydər Əliyev Fondunun vitse-Prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılmışdır.

**Təsvir və Konsepsiya**

Marafonun əsas məqsədi yaşıllıq sahələrinin azalmasının yarada biləcəyi təhlükələrin qarşısını almaq və ağac əkilməsini təşviq edərək, ətraf mühitin mühafizəsinə töhfə verməkdən ibarətdir.

"Ümumrespublika Yaşıllaşdırma" marafonu 5 noyabr 2014-cü il tarixində Heydər Əliyev Fondunun vitse-Prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılmışdır.

Marafonun əsas məqsədi yaşıllıq sahələrinin azalmasının yarada biləcəyi təhlükələrin qarşısını almaq və ağac əkilməsini təşviq edərək, ətraf mühitin mühafizəsinə töhfə verməkdən ibarətdir.

Layihəyə əsasən ağacların növbəti iki əkin mövsümündə (noyabr ayında və mart ayının sonu – aprel ayının əvvəlində) əkilməsi və marafonun may ayının əvvəlində başa çatdırılması planlaşdırılır.

Layihədə Azərbaycan Respublikasının 76 rayon və şəhər icra hakimiyyətinin iştirakı və ölkə ərazisində ümumilikdə bir milyondan artıq ağacın əkilməsi nəzərdə tutulur.

"Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində keçirilən ağacəkmə aksiyaları ilə bağlı məlumatlar və fotoşəkillərlə layihənin rəsmi veb səhifəsindən tanış ola bilərsiniz.

## Ağacların kəsilməsinə yox!

**Giriş**

"Ağacların kəsilməsinə yox" proqramı Heydər Əliyev fondu və IDEA İctimai Birliyi ilə birlikdə həyata keçirilməkdədir.

**Təsvir və Konsepsiya**

Proqram, Azərbaycanda, xüsusilə Bakı şəhərində qeyri-qanuni ağac kəsilmələrinin qarşısının alınmasını nəzərdə tutur.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin birgə start verdiyi "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində "Təbiətə təcili yardım" qaynar xətti və mobil qrupu yaradılıb.

Beləliklə, vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şəhər və ya mobil telefonlardan **1113** qaynar xətt vasitəsi ilə şikayət və təkliflərini IDEA İB-yə çatdıra bilərlər.

Vətəndaşlara qanunsuz ağac kəsimi ilə bağlı müraciətlərini IDEA İctimai Birliyinin rəsmi internet səhifəsinə daxil olmaqla ünvanlamaq imkanı da verilib. Problemi daha dəqiq işıqlandırmaq üçün ağac kəsilən ərazinin fotolarını da veb-səhifəyə yükləmək mümkündür.

Proqram çərçivəsində yaradılmış mobil qrup daxil olan şikayətləri yerində araşdıracaq, problemlə bağlı əlavə sübutları, foto və video materialları toplayacaq. Şikayət və təkliflər araşdırıldıqdan sonra toplanmış sübut və materiallar hadisə ilə bağlı qərar verilməsi üçün aidiyyatı üzrə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim ediləcək. IDEA göndərilən müraciətlərdə öz əksini tapan problemlərin həlli prossesini izləyəcəkdir.

Qeyd edək ki, IDEA-ya daxil olan bütün müraciətlər təşkilatın rəsmi veb səhifəsində xüsusi anket formalarda yer alacaq. Vətəndaşlar burada daxil olan müraciətlərlə yaxından tanış ola, onların gedişatını izləyə biləcəklər.

# Uşaqlar üçün ekoloji laboratoriya

**Giriş**

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" yanvar ayından etibarən 5-12 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

**Təsvir və Konsepsiya**

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində, IDEA və "Sevimli bala" yanvar ayından etibarən 5-12 yaşlı uşaqlar üçün ətraf mühit üzrə maarifləndirmə xarakterli silsilə tədbirlərdən ibarət olan "Uşaqlar üçün ekoloji laboratoriya" adlı birgə layihəyə start vermişdir.

Layihənin məqsədi uşaqların ətraf mühit və təbiəti daha yaxşı dərk etməsinə yardım etmək və gənc nəslin təbiətə qayğı hissləri ilə yetişməsinə töhfə verməkdən ibarətdir.

"Kiçik ekoloqların" ətraf mühitin mühafizəsinə marağını daha da artırmaq və bu prosesi əyləncəli etmək məqsədilə, təlimlərin gedişində laboratoriya tədqiqatları aparılır, müxtəlif bilik yarışmaları və maraqlı oyunlar təşkil olunur, həmçinin kiçik incəsənət nümunələri yaratmaq üçün şərait yaradılır.

"Uşaqlar üçün ekoloji laboratoriya"nın ilk təlimi cari ilin yanvar ayının 17-də keçirilmiş və qlobal istiləşmə kontekstində buzlaqların əriməsi, dəniz suyunun səviyyəsinin qalxması, heyvanların miqrasiyası və bu hadisələrin təbiətə mənfi təsirinin qarşısının alınması yollarına həsr olunmuşdur.

"Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində təlimlər IDEA İctimai Birliyinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində təşkil olunur.

Təlimlər barədə elanlar mütəmadi olaraq, mətbuatda verilir.

http://ideacampaign.org/az/layih%C9%99l%C9%99r/

# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Bakı, 5 noyabr, AZƏRTAC

IDEA İctimai Birliyinin və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

Noyabrın 5-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənən həyət Binəqədi rayonu, Azadlıq prospektində yerləşən, 3 min sakinin məskunlaşdığı 186, 188 və 194 saylı binaları əhatə edir.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin istifadəyə verilməsi mərasimində, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan, beş min kvadratmetr sahəsi olan həyətdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə xüsusi qurğular yerləşdirilib. Bundan əlavə, burada şahmat və futbol meydançaları, idman alətlərindən ibarət kiçik meydança salınıb, Novruz çərşənbələrinin milli adət-ənənələrə uyğun qeyd edilməsi üçün tonqal sahəsi inşa olunub. Abadlaşdırılan həyətdə yoqa həvəskarları üçün də xüsusi yer ayrılıb.

Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğul olma vərdişlərinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 300-ə yaxın ağac və kol əkilib. Sakinlərin rahatlığının təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" avtomatlaşdırılmış idarəetmə mərkəzinin şəbəkəsinə qoşulub.

Qeyd edək ki, "Bizim həyət" layihəsi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir. Binəqədi rayonunda sakinlərin istifadəsinə verilən bu həyət layihə çərçivəsində abadlaşdırılan altıncı həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2018, 5 noyabr**

## IDEA haqqında xəbərlər

### IDEA İctimai Birliyi "Təmiz Kür" şüarı ilə aksiya keçirib

İyunun 30-da IDEA İctimai Birliyi, dəniz ətraf mühiti üzrə ixtisaslaşmış dünya şöhrətli "Blue Marine Foundation" təşkilatı və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Kür çayının deltasında təmizlik aksiyası təşkil edilib.

AZƏRTAC xəbər verir ki, aksiya Kür çayının Neftçala rayonu Yenikənd kəndi ərazisindən keçən hissəsində keçirilib.

Əsas məqsəd Kür sahillərinin çirkləndirilməsi və zibillənməsinin qarşısının alınması, bu ərazilərdə təmizliyə riayət olunması, xüsusilə atılan məişət tullantılarının Kür çayı və nəticə etibarilə, Xəzər faunasına vurduğu zərərlərlə bağlı ictimaiyyətin maarifləndirilməsi olub.

Tədbir çərçivəsində IDEA İctimai Birliyinin sanitar normalara uyğun ləvazimatlarla təchiz olunmuş 100-ə yaxın (30 nəfəri Neftçaladan olan yerli gənc) könüllüsü tərəfindən Kür çayının məişət tullantılarından təmizlənməsi həyata keçirilib.

Tədqiqatlar göstərir ki, çaylara atılan məişət və sənaye tullantılarının getdikcə çoxalması Kür çayı, o cümlədən Xəzər dənizində balıq artımının kəskin azalma səbəblərindən biridir. Bunu nəzərə alaraq, IDEA İctimai Birliyi tərəfindən mütəmadi olaraq Xəzər dənizinin bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, o cümlədən Kür çayı sahilində bu cür təmizlik aksiyaları təşkil edilir.

IDEA İctimai Birliyi, "Blue Marine Foundation" təşkilatı və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Kür çayı sahillərində keçirilmiş aksiya təbii balansın saxlanılmasında və insan həyatında xüsusi rol oynayan çayların mühafizəsində cəmiyyətin səfərbər edilməsi, ərazinin ekoloji tarazlığının bərpası, ətraf mühitin sağlamlaşdırılmasına töhfə verilməsi, insanlar arasında ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin təbliğ olunması baxımından böyük önəm kəsb edir.

**Xanım Nağıyeva**

**AZƏRTAC**
**2016, 30 iyun,**

## Leyla Əliyeva Şimali Qafqazda Bəbirlərin Bərpası Mərkəzində olub

IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Soçi Milli Parkındakı Qafqazda Bəbirlərin Bərpası Mərkəzində olub.

Leyla Əliyeva yeni doğulmuş bəbirlərin vaksinasiyası prosedurunda iştirak edib və "Qafqaz Təbiəti Mərkəzi" Muxtar Qeyri-Kommersiya Təşkilatının rəhbərliyi ilə işçi görüş keçirib. Görüşdə Ön Asiya bəbirinin tarixi yaşama arealı ərazisində populyasiyasının bərpası perspektivləri müzakirə olunub.

Ön Asiya bəbirinin bir vaxtlar Azərbaycanda vəhşi təbiətdə yaşadığını bildirən IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva deyib: "Bəbirin ayrı-ayrı növlərinə hələ də ölkənin bəzi ucqar dağlıq rayonlarında rast gəlinir. Bu nadir yırtıcının qorunmasının və onun Qafqaz dağlarının vəhşi təbiətinə qaytarılmasının əhəmiyyətini Rusiya Federasiyası kimi, ölkəmiz də dərk edir. Dövlətlərimizi təkcə ümumi sərhədlər deyil, həm də təbiətin mühafizəsi üzrə fəaliyyətdə, o cümlədən bəbirin reintroduksiyası proqramının reallaşdırılmasında ümumi vektor birləşdirir. Ən yaxşı rusiyalı və azərbaycanlı ekoloqları cəlb edərək birgə səylərlə təbii mühitdə bəbirin bioloji davamlı populyasiyasının formalaşmasında əhəmiyyətli nəticələrə nail ola bilərik".

İyunun sonunda Qafqazda Bəbirlərin Bərpası Mərkəzində yeni doğulmuş bəbirlərin vaksinasiyası zamanı baytar həkim və ona kömək edən Mərkəzin əməkdaşları erkək Zadiqanı və dişi Andreanı analarından ayırıblar, onları müayinə ediblər, çəkilərini yoxlayıblar və yoluxucu xəstəliklərdən xüsusi vaksinlə peyvənd ediblər. Mərkəzdə hazırda iki dişi və bir erkək bəbir yaşayır. Bəbirlərin çəkisi 4,4, 4,9 və 4,7 kiloqramdır.

Qafqazda Bəbirlərin Bərpası Mərkəzinin direktoru Umar Semyonov bildirib: "Bu il mərkəzimizdə artıq altı bəbir anadan olub, iki dişinin hərəsi üç bala verib. Belə böyük nəsilvermə bizdə saxlanılan heyvanların yaxşı fiziki və psixoloji vəziyyətindən xəbər verir. Yeni tikilən volyerlər təzə doğulmuş körpələrin təbii mühitə maksimum yaxın olan şəraitdə böyümələrinə imkan verəcək".

"Qafqaz Təbiəti Mərkəzi"nin baş direktoru Renat Şyuşaytenin sözlərinə görə, Ön Asiya bəbirinin populyasiyasının bərpası proqramı artıq beynəlxalq səviyyədə təbiətin mühafizəsi üzrə ən əhəmiyyətli layihə olub. "Təəssüf ki, hazırda Ön Asiya bəbirinin, – həm vəhşi təbiətdə yaşayan, həm də zooparklarda saxlanılan, – populyasiyasının vəziyyəti heç bir yerdə firavan sayıla bilməz. Rusiya da daxil olmaqla dünyanın bir çox yerlərində bu növ təkbaşına bərpa oluna bilməz. Bu baxımdan Azərbaycan Respublikası və IDEA İctimai Birliyi də daxil olmaqla, dünya təbiətin mühafizəsi birlikləri ilə səylərin birləşdirilməsi bizim üçün daha vacibdir. Tərəfdaşlarla birlikdə bəbirin bu növünün daha əvvəl yaşadığı, hazırda rast gəlinən və ya Rusiya ərazisində vəhşi təbiətə buraxılması nəticəsində dünyaya gələ biləcək – tarixən yaşadığı areal ərazisini dəqiq tədqiq etmək lazımdır", – deyə R.Şyuşayte bildirib.

Bununla yanaşı, əməkdaşlıq yerli şərait və lokal populyasiyanın müasir vəziyyəti nəzərə alınmaqla regional strategiyaların yaradılmasını, eləcə də ekoloji maarifləndirmə və yerli əhali ilə işi əhatə etməlidir.

İşçi görüşdə, həmçinin perspektivdə vəhşi təbiətdə növün davamlı populyasiyasının formalaşması ilə bəbirin yeni buraxılma zonalarının müəyyən edilməsi məqsədilə "Qafqaz Təbiəti Mərkəzi"nin dəstəyi ilə Qafqaz Qoruqlar və Milli Parklar Assosiasiyasının apardığı çöl tədqiqatları müzakirə olunub. Artıq cari ilin sonunda qeyd olunan iş başa çatdırılacaq ki, bu da ekoloqlara potensial buraxılma ərazilərinin aşkar edilməsi və yem bazasının vəziyyəti üzrə əldə edilmiş məlumatlar nəzərə alınmaqla bəbirin reintroduksiyası proqramının reallaşdırılmasının gələcək strategiyasını formalaşdırmağa imkan verəcək.

"Şimali Qafqaz təbiətinin qorunması və mühafizəsi mərkəzi" Muxtar Qeyri-Kommersiya Təşkilatı ("Qafqaz Təbiəti Mərkəzi" MQKT) "Şimali Qafqaz Kurortları" Səhmdar Cəmiyyəti tərəfindən yaradılıb. "Qafqaz Təbiəti Mərkəzi" MQKT-nin məqsədi Şimali Qafqaz təbiətinin potensialının qorunmasına, artırılmasına və mühafizəsinə, Şimali Qafqaz Federal Dairəsində ekoloji təşəbbüslərin dəstəklənməsi və irəliləyişinə, Şimali Qafqazın flora və faunasının nadir və yoxolma təhlükəsi ilə üzləşən növlərinin qorunması üzrə təbiətin mühafizəsi layihələrinin reallaşdırılmasına yönəldilmiş layihələri sistemli əsasda həyata keçirməkdir.

IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-də Bakıda təsis edilib. Təşkilatın fəaliyyəti ictimaiyyəti ətraf mühitin problemləri barədə məlumatlandırmağa, gənclərlə əməkdaşlığa, ekoloji problemlər və onların düzgün həllinin axtarışı sahəsində təhsilə istiqamətlənib.

Qafqazda Ön Asiya bəbirinin bərpası (reintroduksiya) üzrə proqram Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təşəbbüsü ilə 2007-ci ildən reallaşdırılır. Proqramın inkişafı məqsədilə Soçi Milli Parkında Qafqazda Bəbirlərin Bərpası Mərkəzi tikilib. Hazırda Mərkəzdə "Qırmızı kitab"a düşmüş heyvanın 13 növü yaşayır, 3 bəbir 2016-cı il iyulun 15-də Qafqaz biosfer qoruğunun vəhşi təbiətinə buraxılıb. Mütəxəssislər cütlüklərin formalaşdırılması, yeni doğulmuş bəbirlərə qulluq və gənc bəbirlərin vəhşi təbiətə buraxılmasına hazırlıq üzrə işləri davam etdirirlər.

**Xalq qəzeti**.-2016.-7 sentyabr.-№196.-S.4.

## IDEA İctimai Birliyi IUCN-nin Ümumdünya Mühafizə Konqresində

IDEA İctimai Birliyi Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (International Union for the Conservation of Nature – IUCN) ABŞ-ın Honolulu şəhərində (Havayi ştatı) sentyabrın 1-11-də təşkil olunmuş Ümumdünya Mühafizə Konqresində iştirak edib.

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, IUCN-nin üzvü qismində IDEA Konqres çərçivəsində keçirilmiş iclaslarda, o cümlədən təşkilatın yeni prezidentinin və regional nümayəndələrinin seçilməsində, növbəti 4 il üçün hədəflərinin müəyyən olunmasında yaxından iştirak edib. IDEA təbiətin mühafizəsi ilə bağlı şüarların təsdiq olunması ilə bağlı müzakirələrdə töhfə verməklə, ölkəmiz və regionumuzun biomüxtəlifliyinin üzləşdiyi təhdidləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Konqresin keçirildiyi məkanda quraşdırılmış IDEA İctimai Birliyinin özünəməxsus pavilyonu tədbir iştirakçılarının geniş marağına səbəb olub.

Sözügedən stendin divarları IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, "Baku Corner"in təşəbbüskarı Leyla Əliyevanın Azərbaycanın nadir fauna növlərini tərənnüm edən rəsmləri ilə bəzədilib. Müəllifin təsvir etdiyi bəbir və ceyran obrazları bu valehedici heyvanların təbiətimiz üçün əhəmiyyətini və onların üzləşdiyi təhdidləri əks etdirir. Pavilyonu ziyarət edən minlərlə insan onun möhtəşəmliyindən zövq almaqla yanaşı, Azərbaycanın təbiət inciləri barədə geniş məlumat alıb. Ziyarətçilər arasında keçirilmiş kiçik müsabiqələrin qaliblərinə "Baku Corner"in müxtəlif qiymətli xatirə hədiyyələri təqdim edilib.

Pavilyonda IDEA İctimai Birliyinin son 5 ildə həyata keçirdiyi biomüxtəlifliyin mühafizəsi layihələri və əldə etdiyi nailiyyətlər əks olunub, Azərbaycanın füsunkar təbiəti ilə bağlı çəkilmiş sənədli filmlər, o cümlədən IDEA-nın təşəbbüsü olan "Azərbaycanın 9 möcüzəsi" layihəsi çərçivəsində Göygöl, Ağgöl və Şirvan Milli Parkları ilə bağlı çəkilmiş filmlər nümayiş etdirilib, ölkəmizin ekosistemi barədə ətraflı məlumat verilib. Ziyarətçilərə IDEA-nın müxtəlif təşviqat-təbliğat materialları və maarifləndirici məhsulları təqdim olunub. IDEA-nın fəaliyyəti Konqres iştirakçıları və yerli ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib.

IUCN-nin İcraçı direktoru xanım İnqer Andersen IDEA-nın Konqresin işində fəal iştirakını və möhtəşəm pavilyonunu təqdir edib. O, həmçinin IUCN tərəfindən təbiətin mühafizəsi ilə bağlı həyata keçirilən layihələrə dəstəyinə və ətraf mühitin qorunması səylərinə görə Leyla Əliyevaya təşəkkürünü bildirib.

"Planetlər yol kəsişməsində" (Planets at the crossroad) şüarı altında keçirilmiş 2016 Ümumdünya Mühafizə Konqresində 192 ölkədən 10 mindən çox nümayəndə iştirak edib. Konqresin ən böyük uğuru təbiətin mühafizəsi üzrə "Havayi öhdəlikləri" kimi tanınan post-2015 gündəliyi və yol xəritəsini qəbul etməsi olub. Sənəddə əks olunan əsas öhdəliklər xüsusi mühafizə olunan ərazilərin sənayeyə bağlanması, açıq dənizin mühafizəsi, meşələrin qorunması və s. kimi məsələləri əhatə edib.

IDEA İctimai Birliyi 2014-cü ildən etibarən IUCN-nin tamhüquqlu üzvüdür. Əsası 1948-ci ildə qoyulan IUCN bu gün dünyada ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən ən böyük və ən qədim qurum olaraq tanınır. Hal-hazırda təşkilatın 200-dən çoxu hökumət, 900-dən çoxu isə qeyri-hökumət təşkilatı olmaqla ümumilikdə 1200 üzvü var. IUCN-nin qlobal "Qırmızı Siyahısı" dünyada nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş fauna növlərinin əks olunduğu ən mükəmməl sənəd hesab olunur.

### "Baku Corner" Beynəlxalq Konqresdə təqdim olunub

Sentyabrın 1-11-də ABŞ-ın Honolulu şəhərində (Havayi ştatı) təşkil olunan, 10 mindən artıq insanın iştirak etdiyi Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (International Union for the Conservation of Nature – IUCN) Ümumdünya Mühafizə Konqresində "Baku Corner"in cazibədar guşəsi quraşdırılıb.

Sözügedən stendin divarları "Baku Corner"in təşəbbüskarı Leyla Əliyevanın Azərbaycanın nadir fauna növlərini tərənnüm edən rəsmləri ilə bəzədilib. Müəllifin təsvir etdiyi bəbir və ceyran obrazları bu valehedici heyvanların təbiətimiz üçün əhəmiyyətini və onların üzləşdiyi təhdidləri əks etdirir. Pavilyonu ziyarət edən yüzlərlə insan onun möhtəşəmliyindən zövq almaqla yanaşı, Azərbaycanın təbiət inciləri barədə geniş məlumat alıb. Ziyarətçilər arasında keçirilmiş kiçik müsabiqələrin qaliblərinə "Baku Corner"in müxtəlif qiymətli xatirə hədiyyələri təqdim edilib.

"Baku Corner" Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə bütün dünyada istedadlı insanların dəstəklənməsinə yönəlmiş qlobal səylərə

töhfə vermək məqsədi daşıyan qeyri-kommersiya layihəsidir. “Baku Corner” yerli və xarici sənətkarlar tərəfindən hazırlanmış məhsulların geniş kolleksiyasını təklif edir. Bu cür unikal xeyriyyə layihəsinin təsis edilməsi təşəbbüsünü üzərinə götürməsi ilə yanaşı, Leyla Əliyeva insan rifahının yaxşılaşdırılması işini dəstəkləmək məqsədilə öz incəsənət əsərlərini də layihə üçün bəxş edib.

**AZƏRTAC**
**2016, 15 sentyabr**

## IDEA İctimai Birliyi IUCN-nin Ümumdünya Mühafizə Konqresində

IDEA İctimai Birliyi Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (International Union for the Conservation of Nature – IUCN) ABŞ-ın Honolulu şəhərində (Havayi ştatı) sentyabrın 1-11-də təşkil olunmuş Ümumdünya Mühafizə Konqresində iştirak edib.

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, IUCN-nin üzvü qismində IDEA Konqres çərçivəsində keçirilmiş iclaslarda, o cümlədən təşkilatın yeni prezidentinin və regional nümayəndələrinin seçilməsində, növbəti 4 il üçün hədəflərinin müəyyən olunmasında yaxından iştirak edib. IDEA təbiətin mühafizəsi ilə bağlı şüarların təsdiq olunması ilə bağlı müzakirələrdə töhfə verməklə, ölkəmiz və regionumuzun biomüxtəlifliyinin üzləşdiyi təhdidləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Konqresin keçirildiyi məkanda quraşdırılmış IDEA İctimai Birliyinin özünəməxsus pavilyonu tədbir iştirakçılarının geniş marağına səbəb olub.

Sözügedən stendin divarları IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, "Baku Corner"in təşəbbüskarı Leyla Əliyevanın Azərbaycanın nadir fauna növlərini tərənnüm edən rəsmləri ilə bəzədilib. Müəllifin təsvir etdiyi bəbir və ceyran obrazları bu valehedici heyvanların təbiətimiz üçün əhəmiyyətini və onların üzləşdiyi təhdidləri əks etdirir. Pavilyonu ziyarət edən minlərlə insan onun möhtəşəmliyindən zövq almaqla yanaşı, Azərbaycanın təbiət inciləri barədə geniş məlumat alıb. Ziyarətçilər arasında keçirilmiş kiçik müsabiqələrin qaliblərinə "Baku Corner"in müxtəlif qiymətli xatirə hədiyyələri təqdim edilib.

Pavilyonda IDEA İctimai Birliyinin son 5 ildə həyata keçirdiyi biomüxtəlifliyin mühafizəsi layihələri və əldə etdiyi nailiyyətlər əks olunub, Azərbaycanın füsunkar təbiəti ilə bağlı çəkilmiş sənədli filmlər, o cümlədən IDEA-nın təşəbbüsü olan "Azərbaycanın 9 möcüzəsi" layihəsi çərçivəsində Göygöl, Ağgöl və Şirvan Milli Parkları ilə bağlı çəkilmiş filmlər nümayiş etdirilib, ölkəmizin ekosistemi barədə ətraflı məlumat verilib. Ziyarətçilərə IDEA-nın müxtəlif təşviqat-təbliğat materialları və maarifləndirici məhsulları təqdim olunub. IDEA-nın fəaliyyəti Konqres iştirakçıları və yerli ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib.

IUCN-nin İcraçı direktoru xanım İnqer Andersen IDEA-nın Konqresin işində fəal iştirakını və möhtəşəm pavilyonunu təqdir edib. O, həmçinin IUCN tərəfindən təbiətin mühafizəsi ilə bağlı həyata keçirilən layihələrə dəstəyinə və ətraf mühitin qorunması səylərinə görə Leyla Əliyevaya təşəkkürünü bildirib.

"Planetlər yol kəsişməsində" (Planets at the crossroad) şüarı altında keçirilmiş 2016 Ümumdünya Mühafizə Konqresində 192 ölkədən 10 mindən çox nümayəndə iştirak edib. Konqresin ən böyük uğuru təbiətin mühafizəsi üzrə "Havayi öhdəlikləri" kimi tanınan post-2015 gündəliyi və yol xəritəsini qəbul etməsi olub. Sənəddə əks olunan əsas öhdəliklər xüsusi mühafizə olunan ərazilərin sənayeyə bağlanması, açıq dənizin mühafizəsi, meşələrin qorunması və s. kimi məsələləri əhatə edib.

IDEA İctimai Birliyi 2014-cü ildən etibarən IUCN-nin tamhüquqlu üzvüdür. Əsası 1948-ci ildə qoyulan IUCN bu gün dünyada ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən ən böyük və ən qədim qurum olaraq tanınır. Hal-hazırda təşkilatın 200-dən çoxu hökumət, 900-dən çoxu isə qeyri-hökumət təşkilatı olmaqla ümumilikdə 1200 üzvü var. IUCN-nin qlobal "Qırmızı Siyahısı" dünyada nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş fauna növlərinin əks olunduğu ən mükəmməl sənəd hesab olunur.

### "Baku Corner" Beynəlxalq Konqresdə təqdim olunub

Sentyabrın 1-11-də ABŞ-ın Honolulu şəhərində (Havayi ştatı) təşkil olunan, 10 mindən artıq insanın iştirak etdiyi Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (International Union for the Conservation of Nature – IUCN) Ümumdünya Mühafizə Konqresində "Baku Corner"in cazibədar guşəsi quraşdırılıb.

Sözügedən stendin divarları "Baku Corner"in təşəbbüskarı Leyla Əliyevanın Azərbaycanın nadir fauna növlərini tərənnüm edən rəsmləri ilə bəzədilib. Müəllifin təsvir etdiyi bəbir və ceyran obrazları bu valehedici heyvanların təbiətimiz üçün əhəmiyyətini və onların üzləşdiyi təhdidləri əks etdirir. Pavilyonu ziyarət edən yüzlərlə insan onun möhtəşəmliyindən zövq almaqla yanaşı, Azərbaycanın təbiət inciləri barədə geniş məlumat alıb. Ziyarətçilər arasında keçirilmiş kiçik müsabiqələrin qaliblərinə "Baku Corner"in müxtəlif qiymətli xatirə hədiyyələri təqdim edilib.

"Baku Corner" Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə bütün dünyada istedadlı insanların dəstəklənməsinə yönəlmiş qlobal səylərə töhfə vermək məqsədi daşıyan qeyri-kommersiya layihəsidir. "Baku Corner" yerli və xarici sənətkarlar tərəfindən hazırlanmış məhsulların geniş kolleksiyasını təklif edir. Bu cür unikal xeyriyyə layihəsinin təsis edilməsi təşəbbüsünü üzərinə götürməsi ilə yanaşı, Leyla Əliyeva insan rifahının yaxşılaşdırılması işini dəstəkləmək məqsədilə öz incəsənət əsərlərini də layihə üçün bəxş edib.

**Azərbaycan.-**2016.-16 sentyabr.-№202.-S.5.

## IDEA "Yaşıl söhbət klubu" layihəsi çərçivəsində növbəti görüş keçirib

Gənclərin ekoloji məsələlərə cəlb edilməsi və onların ətraf mühitin mühafizəsinə töhfə vermələri, ekoloji problemlərlə mübarizəyə qoşulmaları naminə irimiqyaslı layihələr həyata keçirən IDEA İctimai Birliyi (İB) "Yaşıl söhbət klubu" ("Green Conversation Club") layihəsi çərçivəsində növbəti görüş keçirib.

Görüş IDEA İB-nin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən Resurs Mərkəzində 30 nəfərə yaxın könüllünün iştirakı ilə baş tutub.

İB-dən AZƏRTAC-a bildirilib ki, Ümumdünya Ərzaq Günü ilə əlaqədar budəfəki görüşün mövzusu kompostlaşdırmaya həsr olunub və ABŞ-ın Azərbaycandakı səfirliyindən xüsusi qonaq Kelli Tillett tərəfindən bununla bağlı geniş təqdimat keçirilib. Daha sonra gənclər kompostlaşdırma ilə bağlı qısa videoçarxlar izləyərək təəssüratlarını bölüşüblər, ev şəraitində qida tullantılarından istifadə edərək təbii gübrə hazırlamağı öyrəniblər.

IDEA "Yaşıl söhbət klubu" layihəsinə gənc ekoloqların ətraf mühitlə bağlı biliklərinin və onların xarici dil (ingilis dili) səviyyələrinin təkmilləşdirilməsi məqsədilə 2012-ci ilin iyun ayında start verib. "Yaşıl söhbət klubu" ilk gündən ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan tələbə və gənc mütəxəssislərin ingilis dilində söhbət etdiyi rahat tədris məkanı olub.

Həm ekoloji, həm də ingilis dili biliklərini eyni vaxtda inkişaf etdirmək istəyən şəxslər hər ay ətraf mühitlə bağlı müxtəlif mövzularda "Yaşıl söhbət klubu"na gələ bilərlər. Klubun görüşləri barədə IDEA-nın internet resurslarında (www.ideacampaign.org, www.instagram.com/idea_public_union və https://www.facebook.com/ideacampaign.org) mütəmadi olaraq məlumat veriləcək.

**AZƏRTAC**
**2016, 7 oktyabr**

## Heydər Əliyev Mərkəzində Ümumdünya Ərzaq Gününə həsr olunmuş tədbir keçirilib

Oktyabrın 27-də Heydər Əliyev Mərkəzində IDEA İctimai Birliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı – FAO-nun birgə təşkilatçılığı ilə Ümumdünya Ərzaq Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, FAO-nun xoşməramlı səfiri Leyla Əliyeva iştirak edib.

Leyla Əliyeva çıxışında qeyd edib ki, bu tədbir dünyanın diqqətini aclıq və ərzaq təhlükəsizliyi kimi çağırışlara cəlb etmək üçün böyük imkandır. Builki ərzaq gününün mövzusuna toxunan Leyla Əliyeva vurğulayıb ki, FAO-nun xoşməramlı səfiri və ətraf mühitin qorunması sahəsində yorulmaz fəal, ən əsası dünyanın sakini kimi bu məsələyə çox həssas yanaşır. “Dəyişən iqlimin yeni reallığı ilə əlaqədar biz ərzağı istehsal və istehlak etməyimizin tərzini əsaslı şəkildə dəyişməliyik”, - deyən Leyla Əliyeva Paris İqlim Sazişinin və 2030-cu ilə qədər olan dövrdə Davamlı İnkişaf Gündəliyinin əhəmiyyətini vurğulayıb.

“Əgər biz tədricən artan dünya əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək istəyiriksə, kənd təsərrüfatında dayanıqlılıq, məhsuldarlıq və davamlı inkişafa nail olmalıyıq”, - deyən IDEA İctimai Birliyinin rəhbəri iqlim dəyişikliyinin ekosistemə və kənd əhalisinə daha çox təsir etdiyini söyləyib. Bu mənada, kənd təsərrüfatı sistemlərini dəyişdirmək və onlara yeni istiqamət vermək üçün FAO-nun iqlim əsaslı ağıllı kənd təsərrüfatı yanaşmasının bütün dünyada tətbiqinin vacibliyini qeyd edib. Leyla Əliyeva rəhbərlik etdiyi IDEA İctimai Birliyinin fəaliyyətindən, ötən beş ildə görülən tədbirlərdən danışıb, ərzaq təhlükəsizliyi və ətraf mühitin qorunmasında xüsusi əhəmiyyət kəsb edən yeni layihə barədə məlumat verib.

Heydər Əliyev Fondunun vitse-prezidenti deyib: “Dəniz mühitini yaşatmağa və ondan asılı olan kənd icmalarına yardım göstərilməsinə töhfə vermək məqsədilə göstərdiyimiz səylər sayəsində IDEA bu yaxınlarda Kür çayının deltasının çoxtərəfli təmizlənməsi layihəsini irəli sürüb. Bu layihə nəyə görə çox vacibdir? İlk olaraq onu bildirmək istərdim ki, Kür qərb sərhədlərimizdən başlayaraq Xəzər dənizinə qədər təxminən min kilometri qət edir və onun sahillərində yaşayan insanların həyatı üçün böyük əhəmiyyət daşıyır. Bundan əlavə, Kür çayı dünyada ən qədim və nadir balıq növü olan Xəzər nərə balığının artmasının əsas sahəsidir”.

Yeni layihənin ətraf mühit və yerli əhali üçün faydalı olacaq balıq ehtiyatlarının, suyun keyfiyyətinin və bütövlükdə ekologiyanın yaxşılaşdırılması məqsədini güddüyünü bildirən Heydər Əliyev Fondunun vitse-prezidenti ərzaq çatışmazlığından çox sayda insanın əziyyət çəkdiyini, bunun QİÇS, malyariya və vərəm kimi xəstəliklərin ümumi sayından daha çox insanı tələf etdiyini vurğulayıb.

Sonda Leyla Əliyeva deyib: “İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik”.

Tədbirin əhəmiyyətinə toxunan ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və təminatı məsələlərinin indi hamını narahat etdiyini vurğulayıb. Nazir iqlim dəyişikliyindən ən çox kənd təsərrüfatı sahəsinin ziyan gördüyünü, ölkəmizdə son illərdə investisiyalar sayəsində su ehtiyatlarının artdığını deyib, ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq üçün görülən işlərdən danışıb, alternativ enerjidən istifadə və ağacəkmə kampaniyaları nəticəsində Azərbaycanda meşə sahələrinin ərazisinin xeyli artdığını vurğulayıb. Nazir bildirib ki, ölkəmizdə atmosferə atılan zərərli qazların miqdarı xeyli azalıb. Dörd külək, dörd günəş elektrik stansiyası quraşdırılıb. Hədəfimiz gələcəkdə 25 faiz enerjini alternativ mənbələrdən istehsal etməkdir. H.Bağırov son on beş ildə ölkəmizdə 144 min hektarda 100 milyondan çox ağac əkildiyini diqqətə çatdırıb.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak təmsil etdiyi qurumun yaranma tarixi və missiyasından bəhs edib. Vurğulayıb ki, iqlim dəyişikliyini həll etmədən yoxsulluq və aclığa qalib gəlmək olmaz. Bu məsələdə səyləri birləşdirmək vacibdir. O deyib ki, ehtimallara görə, dünya əhalisinin sayı 2050-ci ilə qədər 9,6 milyard nəfərə çatacaq. Bununla əlaqədar olaraq, FAO hesab edir ki, kənd təsərrüfatı məhsullarının istehsalı 2050-ci ilədək 60 faiz artmalıdır. Bu məsələdə ən böyük problemlərdən biri isə iqlim dəyişikliyi ola bilər. Ona görə də builki Ümumdünya Ərzaq Gününün mövzusu “İqlim dəyişir: ərzaq və kənd təsərrüfatı da dəyişməlidir” seçilib. Dünyada artıq 177 dövlət İqlim Dəyişikliyi üzrə Paris Sazişini imzalayıb və 2016-cı il iqlim üçün fəaliyyət ilidir. Eyni zamanda, dünyada aclığın tamam aradan qaldırılmasına nail olmaq məqsədilə hədəf il olaraq 2030-cu il müəyyən edilib.

Sonra FAO-nun baş direktoru Joze Qratsiano da Silvanın Ümumdünya Ərzaq Gününə dair videomesajı nümayiş olunub.

Tədbir "İqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və kiçik ailə təsərrüfatları" mövzusunda panel müzakirələrlə davam edib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbovun sədrliyi ilə keçən panel iclasda Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin, "ADA" Universitetinin və FAO-nun nümayəndələri iştirak ediblər. Müzakirələr iqlim dəyişikliyinin ölkədə ərzaq təhlükəsizliyinə və kiçik ailə təsərrüfatlarına təsiri, iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirləri ilə mübarizədə dövlətin, vətəndaş cəmiyyətinin və digər maraqlı tərəflərin üzləşdiyi çətinliklərin müəyyən edilməsi, FAO və digər əsas maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi üzrə imkanların və mövzuların müəyyənləşdirilməsi və s.

**AZƏRTAC**
**2016, 27 oktyabr**

# IDEA Heyvanlara Qayğı Mərkəzinin açılışı olub

Noyabrın 10-da IDEA Heyvanlara Qayğı Mərkəzinin açılışı olub.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

Leyla Əliyeva mərkəzin tikintisinin müxtəlif mərhələlərini əks etdirən fotostendlə tanış oldu.

Heydər Əliyev Fondunun vitse-prezidenti mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

IDEA Heyvanlara Qayğı Mərkəzinin təməli 2014-cü ilin oktyabrında qoyulub. Mərkəz Bakı şəhərində və ətraf ərazilərdəki sahibsiz heyvanların müayinə və müalicəsi, həmçinin onların qısamüddətli sığınacağı üçün nəzərdə tutulub. Sığınacaq kompleksi Avropa Azərbaycan Cəmiyyətinin dəstəyi ilə, digər dövlətlərin təcrübəsindən istifadə olunmaqla tikilib. Layihə-tikinti işlərinə Böyük Britaniyanın Heyvanlara qarşı Qəddarlığın Aradan Qaldırılması üzrə Kral Cəmiyyətinin mütəxəssisləri cəlb olunub. Burada sahibsiz heyvanlara peyvənd, sterilizə və zəruri hallarda əməliyyat xidmətlərinin göstərilməsi nəzərdə tutulur. Mərkəzdə tikilən 24 sığınacaq eyni vaxtda mindən çox heyvanın yerləşdirilməsinə imkan verir. Hər sığınacağın yanında gəzinti ərazisi də ayrılıb.

Leyla Əliyeva mərkəzlə tanışlıq zamanı xəstə heyvanların müalicə və bərpa komplekslərinə baxdı. Mərkəzdə klinika və laboratoriyada stasionar müayinə-müalicə aparılmaqla yanaşı, mobil təcili tibbi yardım xidməti də var. Bundan əlavə, yaralı və yaxud peyvəndə ehtiyacı olan sahibsiz heyvanların mərkəzə gətirilməsinə məsul xüsusi qrup fəaliyyət göstərəcək. Mərkəzdə müalicə olunmuş sahibsiz heyvanlar fərqləndirici çiplərlə təchiz olunacaq. Burada, həmçinin ölkəmizdə ilk dəfə olaraq sahibsiz heyvanların elektron baza sistemi yaradılacaq. Bu sistem heyvanların izlənilməsi və onların vaxtında peyvənd olunmasına imkan verəcək. Uzunmüddətli müalicəyə ehtiyacı olan heyvanlar xüsusi karantin korpuslarında bərpa prosesi keçəcək. Mərkəzin fəaliyyəti baytarlıq sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanmasına, həmçinin təcrübə mübadiləsinə də imkan verəcək.

Burada yerləşən geniş konfrans zalında peşəkar veterinar hazırlığı kursları və treninqləri təşkil ediləcək, sahibsiz heyvanlara rəhmli münasibəti və onların himayəyə götürülməsini təşviq etmək məqsədilə geniş ictimai maarifləndirmə tədbirləri keçiriləcək. Bu baxımdan məktəblilərin mərkəzə səfərlərinin təşkili, onların maarifləndirilməsi və mərkəzin ictimaiyyətə, xüsusilə də könüllülərə açıq olması nəzərdə tutulur. Burada himayəyə götürülməyə hazır heyvanların nümayiş olunduğu kompleks və kiçik heyvan mehmanxanası da fəaliyyət göstərəcək. Mərkəzin xidmətləri yalnız sahibsiz heyvanlar üçün məhdudlaşmır. Himayədə olan heyvanların müalicə-müayinəsi və qısamüddətli gecələməsi üçün də mərkəzə müraciət etmək olar.

Sonra Leyla Əliyeva müasir yem fabriki ilə tanış oldu. Fabrik Azərbaycanda it və pişik qidasını hazırlayan ilk müəssisədir. Fabrikin məhsulları beynəlxalq keyfiyyət tələblərinə cavab verməklə yanaşı, sağlam qida məhsullarından hazırlanacaq.

**Xalq qəzeti.-**2016.-11 noyabr.-№249.-S.2.

# IDEA İctimai Birliyi və "Qafqaz Təbiəti Mərkəzi" arasında əməkdaşlıq sazişi imzalanıb

Noyabrın 15-də IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Qafqaz Təbiəti Mərkəzi" Muxtar Qeyri-Kommersiya Təşkilatının Moskva şəhərində yerləşən baş qərargahında təşkilatın baş direktoru Renata Şyuşayte ilə görüşüb.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, R.Şyuşayte rəhbərlik etdiyi təşkilatın fəaliyyəti və gələcək planları barədə məlumat verib. Bildirib ki, "Şimali Qafqaz Təbiətinin Qorunması və Mühafizəsi Mərkəzi" Muxtar Qeyri-Kommersiya Təşkilatı ("Qafqaz Təbiəti Mərkəzi" MQKT) "Şimali Qafqaz Kurortları" Səhmdar Cəmiyyəti tərəfindən yaradılıb. "Qafqaz Təbiəti Mərkəzi" MQKT-nin məqsədi Şimali Qafqaz təbiətinin resurslarının qorunmasına, artırılmasına və mühafizəsinə, Şimali Qafqaz Federal Dairəsində ekoloji təşəbbüslərin dəstəklənməsi, Şimali Qafqazın flora və faunasının nadir və yoxolma təhlükəsi ilə üzləşən növlərinin qorunması üzrə təbiətin mühafizəsi layihələrinin reallaşdırılmasına yönələn layihələri sistemli olaraq həyata keçirməkdir.

Mərkəzin başlıca layihələrindən biri – "Qafqazda Ön Asiya bəbirinin bərpası (reintroduksiya) üzrə proqram" Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təşəbbüsü ilə 2007-ci ildən reallaşdırılır. Proqramın inkişafı məqsədilə Soçi Milli Parkında Qafqazda Bəbirlərin Bərpası Mərkəzi inşa olunub.

Leyla Əliyeva, öz növbəsində, IDEA-nın Qafqazın nadir heyvan növlərinin mühafizəsi layihələrindən, o cümlədən "Qafqazın Böyük Beşliyi" proqramı barədə danışıb. O, 2016-cı ilin iyun ayında Soçi Milli Parkına səfərini xatırlayaraq, burada yaradılmış Qafqazda Bəbirlərin Bərpası Mərkəzinin fəaliyyətini müsbət qiymətləndirib. Qeyd olunan Mərkəz Qafqazın nadir heyvan növü olan bəbirlərin populyasiyası üzrə bir təsisatdır. Leyla Əliyeva Qafqaz faunasının mühafizəsinin səmərəliliyinin artırılması baxımından IDEA və "Qafqaz Təbiəti Mərkəzi"nin səylərinin birləşdirilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə IDEA İctimai Birliyi və "Qafqaz Təbiəti Mərkəzi" MQKT arasında əməkdaşlıq sazişi imzalanıb. Sazişə əsasən tərəflər arasında Qafqaz bəbirinin mühafizəsi və sayının artırılması sahəsində birgə fəaliyyət istiqamətləri müəyyən olunub.

Tərəflər aktual regional ekoloji məsələləri, o cümlədən sərhədyanı ərazilərdə təbiətin qorunması və ictimaiyyətin maarifləndirilməsini, zubrların Qafqaza reintroduksiyası və onların sayının artırılması, Xəzər suitisinin mühafizəsi və Qafqazda eko-turizmin təşviqi sahələrində əməkdaşlıq perspektivlərini, həmçinin Rusiyada yaşayan azərbaycanlı gənclərin "2017 – Ekologiya ili" çərçivəsində həyata keçiriləcək ekoloji layihələrdə iştirakını müzakirə ediblər.

**Azərbaycan.-2016.-17 noyabr.-№ 254.-S.7.**

# IDEA Heyvanlara Qayğı Mərkəzi rəsmi olaraq fəaliyyətə başlayır

***Martın 1-dən IDEA Heyvanlara Qayğı Mərkəzi (IACC) rəsmi olaraq fəaliyyətə başlayır.***

IDEA İctimai Birliyindən bildirilib ki, Mərkəzdə heyvanların rifahının təmin edilməsi üçün tələb olunan əsas şəraitin yaradılması üzrə hazırlıq işləri artıq başa çatdırılıb. Mərkəzdə müasir avadanlıqla təchiz olunmuş klinika, it və pişiklər üçün sığınacaq blokları, ayrı karantin blokları, himayə bölməsi, heyvan mehmanxanası və salonu, oyun meydançası, yataqxana, konfrans zalı, kafe və dükan mövcuddur.

Xəbər verdiyimiz kimi, IDEA Heyvanlara Qayğı Mərkəzinin təməli 2014-cü ilin oktyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən qoyulub. Keçən ilin sonunda Mərkəzin inşası başa çatdırılıb, 10 noyabr tarixində isə Leyla Əliyevanın iştirakı ilə kompleksin rəsmi açılışı olub.

Son üç ay ərzində Mərkəzdə hazırlıq işlərinin aparıldığına baxmayaraq, baytarlıq klinikasının qapıları ictimaiyyət üçün açıq olub, heyvanların klinikada qəbul edilməsinin təşkil edilməsi işləri ilə paralel olaraq, Mərkəzin işçi heyəti tərəfindən artıq 200-dən artıq sahibsiz it və pişiklərə tibbi xidmət göstərilib.

IDEA Heyvanlara Qayğı Mərkəzi əlacsız vəziyyətdə olan bəzi heyvanları yerləşdirməklə yanaşı, sahibsiz heyvanlarla bağlı problemin həllində əsas diqqətini sterilizasiya, xəstəliklərin qarşısının alınması, eləcə də himayə, məsuliyyətli heyvan sahibliyi və heyvanlara humanist yanaşmanın təşviqinə yönəldəcəkdir.

Mərkəzin baytarlıq klinikası həm küçə, həm də sahibli heyvanlara xidmət göstərəcəkdir. Küçə heyvanları üçün bütün xidmətlər tamamilə pulsuzdur. Bununla bağlı, IACC bütün heyvansevərləri ətraflarında gördükləri it və pişikləri sterilizasiya, peyvəndləmə, cərrahiyyə və ya müalicə üçün Mərkəzə gətirməklə küçə heyvanları populyasiyalarının idarə edilməsi üzrə səylərə töhfə verməyə çağırır.

IACC-nin CVNR (tut-peyvəndlə-axtala-burax) proqramına gəldikdə, Mərkəzdə heyvanların tutulması üzrə xüsusi təlim keçmiş mobil qrup fəaliyyət göstərəcək, işçilər tərəfindən heyvanlar ən humanist üsullarla tutulacaqdır. Sterilizasiya edilmiş və peyvəndlənmiş itlərin qulaqlarına nömrələnmiş birkalar vurulacaq, pişiklər isə qulağın ucunun kəsilməsi ilə işarələnəcək. Bütün heyvanların profil və tibbi məlumatları IACC-nin xüsusi elektron məlumat bazasına daxil ediləcək.

Himayə bölməsində öz müxtəlif xüsusiyyətlərinə görə himayəyə verilməsi daha mümkün hesab edilən it və pişiklər yerləşdirilir. Bu heyvanlar sterilizasiya edilir, peyvəndlənir, mikroçiplənir və potensial sahibləri üçün tam hazır vəziyyətdə saxlanılır. Himayəyə verilən heyvanların profillərini öz internet səhifəsi və sosial şəbəkələrdə yerləşdiriləcək. IACC saxladığı hər bir heyvanın sağlam, rahat və yaxşı qidalanmış olduğuna baxmayaraq, onlar üçün daimi evin tapılması, insanların sahibsiz heyvanlara rəğbətinin artırılması istiqamətində çalışacaqdır.

Mərkəzin fəaliyyətinin digər bir zəruri sahəsi heyvanlara qarşı humanist davranışın və məsuliyyətli sahibliyin təşviq edilməsi, cəmiyyətdə heyvanların rifahı haqqında maarifləndirmənin artırılması və Azərbaycanda insanların sahibsiz heyvanlara münasibətinin dəyişdirilməsindən ibarətdir. Mərkəzin konfrans zalı və digər hissələri heyvanlarla bağlı müxtəlif tədbirlər, təqdimat və mühazirələrin keçirilməsi üçün istifadə ediləcək. Heyvanlara humanist və məsuliyyətli yanaşmaların bəslənməsi məqsədilə uşaqlar və gənclər üçün sinifdənkənar proqram və tədbirlər təşkil ediləcək. IACC-nin elektron resursları və nəşrləri vasitəsilə əhali arasında müvafiq məlumatlandırma işləri aparılacaq.

Mərkəz heyvanlara qulluq etməkdə kömək göstərməyə hazır olan, sahibsiz heyvanların vəziyyətinə biganə olmayan könüllüləri öz fəaliyyətinə cəlb edəcək. Eyni zamanda, sponsorların ianə və dəstəyindən asılı olan IDEA Heyvanlara Qayğı Mərkəzi fiziki və hüquqi şəxslərdən maliyyə və digər maddi formada ianələr qəbul edir. Mərkəzin sponsoru olmaq istəyənlər öz dəstəyi müqabilində müxtəlif imtiyaz və imkanlar əldə edəcək.

Əlavə məlumat üçün IDEA Heyvanlara Qayğı Mərkəzi ilə telefon (+994 12 565 66 55), elektron poçt (info@ideacares.az) və ya Facebook və Instagram (@ideacares.az) vasitəsilə əlaqə saxlamaq mümkündür.

Xalq qəzeti.-2017.-2 mart.-№47.-S.5.

## Leyla Əliyeva "Azərbaycan. Ceyranların xilası" sənədli filminin təqdimatında iştirak edib

Martın 14-də Nizami Kino Mərkəzində IDEA İctimai Birliyinin "Azərbaycan. Ceyranların xilası" sənədli filminin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təqdimatda iştirak edib.

Təqdimatdan əvvəl Leyla Əliyeva filmin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olub.

Sonra film nümayiş etdirilib.

Azərbaycan faunasının incisi – ceyranlardan bəhs edən film Şirvan, Ağgöl, Abşeron, Korçay və Qobustandakı xüsusi mühafizə olunan təbiət ərazilərində çəkilib. Xronometrajı 40 dəqiqə olan filmdə qeyd edilir ki, Cənubi Qafqazda ceyranlar vaxtilə sıx məskunlaşsa da, ötən əsrdə onların sayında kəskin azalma müşahidə olunurdu. 1961-ci ildə aparılan aviasayğı nəticəsində respublika ərazisində 131 baş ceyran qeydə alınmışdı. Bu nadir növün xilası üçün 1961-ci ildə Bəndovan dövlət təbiət yasaqlığı, 1969-cu ildə Şirvan dövlət qoruğu yaradılıb və 20 il sonra bu ərazilərdə ceyranların sayı 3 minə çatıb. 2003-cü ildə isə ərazidə Şirvan Milli Parkı yaradılıb. Nəticələrə nəzər saldıqda əminliklə söyləmək olar ki, Cənubi Qafqazda ceyranlar Azərbaycanda aparılan işlər sayəsində xilas edilib.

Sənədli filmdə 2010-cu il dekabrın 24-də Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" proqramı çərçivəsində görülən işlər əksini tapıb. Belə ki, Şirvan Milli Parkının ərazisindən ceyranlar Acınohur-Sarıca və Mil düzlərinə, Bozdağ silsiləsinə və Qobustan-Cəngiçay Dövlət Təbiət Yasaqlığının ərazisinə gətirilib. Təsis edildiyi dövrdən etibarən IDEA İctimai Birliyi ceyranların bərpası və mühafizəsi üzrə fəaliyyəti dəstəkləyib və bu işə öz töhfəsini verib.

Filmin təqdimatından sonra rejissor İqor Bışnyov "Azərbaycan. Ceyranların xilası" layihəsinin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirərək çəkiliş prosesi barədə təəssüratlarını bölüşüb. Filmin təqdimatının Novruz bayramı günlərində keçirilməsinin təsadüfi olmadığını qeyd edən rejissor tədbir iştirakçılarını bu münasibətlə təbrik edib. O vurğulayıb ki, Novruzun gəlişi ilə təbiət oyanır.

"Məhz bu gün bizim çəkiliş qrupumuz Azərbaycanda fəaliyyətinin dörd ilini qeyd edir. 2013-cü ildə Novruz ərəfəsində Azərbaycana ilk dəfə gəlmişdik. Biz bu dörd ildə ceyranları çəkdik. İşimizi izləyənlər yəqin bilirlər ki, layihəmizin əsasını "Azərbaycanın 9 möcüzəsi" təşkil edir. Lakin ilk gündən indiyədək kadrda hər zaman ceyran görünüb. Bu, təsadüfi deyil. Çünki ceyran Azərbaycanın rəmzlərindən biridir", - deyə İqor Bışnyov bildirib.

Tamaşaçıların bu filmdən müəyyən məlumat əldə etdiyinə ümidvar olduğunu söyləyən rejissor deyib: "Biz filmdə bu növün ekologiyasından, Azərbaycanda ona tarixən yanaşmadan, ceyranın Azərbaycan xalqına nə dərəcədə vacib olmasından danışdıq. İlk növbədə qeyd etmək istəyirəm ki, məhz Azərbaycanın sayəsində Cənubi Qafqaz ceyranı xilas edilib. Əgər tədbir görülməsəydi, ceyranlar bu yerlərdən yoxa çıxacaqdı. Məhz Azərbaycan rəhbərliyinin qərarı və xalqın bu heyvana bəslədiyi sevgi sayəsində uzun onilliklər ərzində Cənubi Qafqaz ceyranını xilas etmək mümkün olub və o, daha təhlükədə deyil. İkincisi, ceyranların qorunması üçün ərazi vacibdir. Bu baxımdan Azərbaycanda görülən işlərin heç yerdə, o cümlədən keçmiş SSRİ ərazisində analoqu yoxdur. Burada keçən əsrdə yaradılmış təbii qoruqlar nəinki qorunub saxlanılıb, həm də genişləndirilib. Bütün bunlar ceyranın və bütövlükdə Yer kürəsinin rifahı naminə edilib. Üçüncü mühüm amil Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən proqramdır. Bu beynəlxalq proqram çərçivəsində qoruq ərazilərində 100-dən çox heyvan yerləşdirilib. Dünyanın heç bir ölkəsində dövlətin birinci şəxslərinin simasında təbiətə bu cür qayğı göstərilmir. Məhz belə insanların fəaliyyəti başqalarına da nümunədir".

Layihə çərçivəsində çəkilişlərin davam etdiriləcəyinə ümidvar olduğunu bildirən rejissor sonda deyib: "Ceyranları qorumaqla gələcəyimizi qoruyuruq".

Qeyd edək ki, "Azərbaycan. Ceyranların xilası" filmi İqor Bışnyovun rejissorluğu ilə IDEA tərəfindən reallaşdırılan dördüncü filmdir. İlk üç film IDEA İctimai Birliyinin "Azərbaycanın 9 möcüzəsi" adlı layihəsi çərçivəsində çəkilmiş "Şirvan Milli Parkı", "Quşlar cənnəti – Ağgöl Milli Parkı" və "Göygöl Milli Parkı" sənədli filmləridir.

“Azərbaycan. Ceyranların xilası” filmi IDEA-nın təşəbbüsü ilə ölkəmizin ali təhsil müəssisələrində, həmçinin birliyin Bakı və Gəncə şəhərlərindəki resurs mərkəzlərində nümayiş etdiriləcək. Bununla yanaşı, filmin digər ölkələrdə və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də nümayişi nəzərdə tutulur.

Layihənin məqsədi Azərbaycanın təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini ictimaiyyətin diqqətinə çatdırmaqdır.

**Xalq qəzeti.-2017.-15 mart.- № 57.-S.7.**

## IDEA rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Məktəb bağları" layihəsinə start verilib

Martın 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xəşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə "Məktəb bağları" layihəsinə start verilib.

IDEA İctimai Birliyi, FAO və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Məktəb bağları" layihəsi çərçivəsində Azərbaycanın 8 rayonunun (Göyçay, Şəmkir, Haçıqabul, Quba, Masallı, Oğuz, Xəzər, Zaqatala) orta məktəblərinin həyətlərində meyvə ağaclarının əkilməsi nəzərdə tutulub.

Layihənin ilk aksiyası zamanı Leyla Əliyevanın iştirakı ilə Xəzər rayonu 234 nömrəli məktəbdə şagirdlərlə birgə 100 ədəd badam, nar və gavalı ağacları əkilib.

Layihənin həyata keçirilməsində məqsəd şagirdlər arasında ekoloji sağlam qidadan istifadəni təşviq etmək, həmçinin məktəblərin həyətyanı sahələrinin səmərəli istifadəsi və yaşıllaşdırılmasıdır.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva 2015-ci ildən FAO-nun xoşməramlı səfiridir. FAO-nun fəaliyyətində dünyada aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, sağlam ərzaq sistemləri yaradılması əsas istiqamətlərdəndir.

Qeyd edək ki, ekoloji təhsil və maarifləndirmə işlərini fəaliyyətində prioritet edən IDEA İctimai Birliyi gənc nəsli təbiətin mühafizəsi üzrə səylərə cəlb etmək, təhsil müəssisələrinin ekoloji vəziyyətinə və təhsil alanların ətraf mühitlə bağlı biliklərinin artırılmasına müsbət təsir göstərmək məqsədilə Təhsil Nazirliyi ilə birgə artıq bir sıra layihələr həyata keçirib.

"Məktəb bağları" layihəsi çərçivəsində Azərbaycanın digər rayonlarında da mərhələli şəkildə təşkil ediləcək ağacəkmə aksiyaları 2017-ci il aprel ayının sonuna qədər davam edəcək. Layihə çərçivəsində hər bir rayonun iqliminə və torpaq örtüyünə uyğun olaraq 40-dan çox məktəbdə 5000-ə yaxın alma, armud, gilas, gavalı, qoz, fındıq, nar, xurma, badam, heyva kimi meyvə ağaclarının əkilməsi planlaşdırılıb.

**AZƏRTAC**
**2017, 17 mart**

## IDEA "Eko-skaut" layihəsinə start verdi

Martın 27-də IDEA İctimai Birliyinin təşəbbüsü ilə start verilən "Eko-skaut" layihəsinin Zirə Mədəniyyət Mərkəzində təqdimatı keçirilib.

Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, onları təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadəyə təşviq etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir.

IDEA eko-skaut layihəsi gənclərə planetimiz üçün təhlükə yaradan ekoloji problemləri dərk etmək və bu problemlərin həllinə digərlərini də cəlb etməklə, bu ictimai hərəkatda iştirak etmək və onun lideri olmaq imkanı yaradır.

Layihənin ilk mərhələsi olaraq Bakı şəhəri üzrə pilot orta məktəblərdə fəaliyyət göstərən fəal "Ekoklub" üzvlərinə Zirə Mədəniyyət Mərkəzində yerləşən IDEA Resurs Mərkəzində layihənin mahiyyəti, eko-skautların öhdəlikləri, onların fəaliyyət prinsipləri, gündəlik eko-skaut qaydaları, eko-skaut klubuna üzv olmağın yolları, üzvlük kartı və yüksək statuslu kartlar almağın yolları, balların toplanma mexanizmi haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, kluba qoşulmaq üçün müraciət edən gənclərə üzvlük kartı və IDEA tərəfindən xüsusi olaraq hazırlanmış papaq, bel çantası, döş nişanı veriləcək. Yeni qoşulan üzvlər "Gənc ekoloq" adlandırılacaq və daha sonra bu statuslarını ətraf mühitə faydalı işlərlə məşğul olaraq və ballar yığaraq artırmaq imkanı əldə edəcəklər. Kifayət qədər bal toplayan eko-skautlar ən yüksək mərhələyə keçmiş sayılacaq və onlara IDEA tərəfindən qiymətli hədiyyələr təqdim olunacaq.

Təqdimat mərasiminin yekununda gənclər könüllü olaraq IDEA eko-skaut layihəsinə qoşulmaq üçün müraciət etmiş, ilk üzvlər olaraq birgə "eko-skaut andı" içiblər. Daha sonra eko-skautlar IDEA İctimai Birliyinin "Azərbaycanın 9 möcüzəsi" layihəsi çərçivəsində çəkilmiş "Şirvan Milli Parkı" sənədli filmini izləmiş və *Zirə Mədəniyyət Mərkəzi* Eko parkın ərazisində güllər əkiblər.

Sözügedən layihə gənclərin ekoloji problemlərin həllində aktiv iştirakı üçün əlverişli platforma yaradacaqdır.

IDEA eko-skaut layihəsi haqqında, o cümlədən qeydiyyat, üzvlük qaydaları, balların toplanması və s. ilə bağlı ətraflı məlumat üçün: http://www.ideacampaign.org/ecoscout/, tel.: 012 497 6316

**AZƏRTAC**
**2017, 77 mart**

## Leyla Əliyeva Şahdağ Milli Parkında olub

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İsmayıllı rayonunda Şahdağ Milli Parkında olub.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva burada zubrların təbiətə reintroduksiyası ilə bağlı IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan tərəfindən həyata keçirilən birgə layihə çərçivəsində inşa ediləcək kompleksin ərazisinə baxış keçirib. Layihə Şahdağ Milli Parkının ərazisində zubrların çoxaldılıb təbiətə buraxılmasını nəzərdə tutur. Bu məqsədlə milli parkın yaxınlığındakı 30 hektar ərazidə yüngül konstruksiyalı tikinti işlərinin həyata keçirilməsi planlaşdırılır.

Zubrlar Azərbaycanın zəngin təbiətində əsrlər boyunca məskunlaşıb. Növün son fərdlərinə keçən əsrin sonlarında Qafqaz dağının ətəyində rast gəlinib. Populyasiya effektiv idarə olunmadığından bu növün Azərbaycanda sayı tükənib. Son illər ərzində regionun və dünyanın aparıcı alimləri tərəfindən aparılan araşdırmaların nəticəsi olaraq, zəngin təbiətimizdə zubrlar üçün əlverişli şəraitin olduğu aşkarlanıb, bu növün populyasiyasının artırılması və qorunması məqsədilə reintroduksiyası layihəsinin keçirilməsinə qərar verilib.

Təsis olunduğu müddətdən IDEA İctimai Birliyi tərəfindən ölkəmizdə biomüxtəlifliyin qorunması və bərpası üzrə bir sıra layihələr həyata keçirilir. Daha əvvəl start verilmiş bu cür uğurlu layihələr arasında "Ceyranların tarixi areallarına reintroduksiyası" və Qafqaz bəbirinin mühafizəsi üzrə layihələri xüsusilə qeyd etmək olar.

**Azərbaycan.-2017.-9 aprel.- № 73.-S.5.**

# Leyla Əliyeva BMT-nin Ətraf Mühit Proqramının icraçı direktorunun müavini ilə görüşüb

Mayın 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktorunun müavini İbrahim Thiau ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ətraf mühitin mühafizəsi və davamlı inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparılıb, yerli və regional səviyyədə görülən işlər, irəli sürülən təşəbbüslər müzakirə edilib. Leyla Əliyeva IDEA-nın son beş ildə əldə etdiyi nailiyyətləri, hazırda həyata keçirilən layihələri və gələcək planları haqqında BMT rəsmisinə məlumat verib.

Leyla Əliyeva qarşıdan gələn BMT Ətraf Mühit Assambleyasının 3-cü görüşünə toxunaraq, tədbirin çirklənmə mövzusuna həsr edilməsinin təqdirəlayiq olduğunu, müasir dünyada bu problemin yaratdığı təhlükənin ciddiliyini qeyd edib. O, rəhbərlik etdiyi IDEA kampaniyası tərəfindən ətraf mühitin çirklənməsinin qarşısının alınması, təkrar emal və tullantıların idarə edilməsi üzrə həyata keçirilən layihə və tədbirlər haqqında danışıb, Azərbaycanda bu istiqamətdə aparılan fəaliyyətdə UNEP-in iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

Bununla yanaşı, Leyla Əliyeva IDEA-nın Azərbaycanda dəniz ətraf mühitinin mühafizəsi, xüsusən də nəsli kəsilmək təhlükəsi altında olan nərə balığının qorunması üzrə səyləri, o cümlədən bu balığın artması üçün vacib olan Kür çayının deltasının təmizlənməsi layihəsi haqqında danışıb.

IDEA-nın təbiətin qorunması istiqamətində gördüyü işləri yüksək qiymətləndirən İbrahim Thiau bildirib ki, UNEP Azərbaycan hökuməti, qeyri-hökumət təşkilatları və digər maraqlı tərəflər ilə sıx əməkdaşlığa önəm verir.

UNEP və IDEA-nın əsas məqsəd və vəzifələrinin üst-üstə düşdüyünü nəzərə alaraq, tərəflər əməkdaşlığı davam etdirmək və genişləndirmək niyyətində olduqlarını vurğuladılar.

Görüşün sonunda Leyla Əliyeva UNEP-in icraçı direktoru Erik Solxeymi Azərbaycana səfərə dəvət edib.

**Xalq qəzeti.-2017.-6 may.- № 96.-S.5.**

## IDEA gəncləri beynəlxalq müsabiqədə iştiraka çağırır

IDEA İctimai Birliyi 18-30 yaşlı təbiətsevər və istedadlı gəncləri BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən həyata keçirilən beynəlxalq müsabiqədə iştirak etməyə çağırır. Müsabiqə ekoloji sahədə bilik və bacarığı olan gənclər üçün nəzərdə tutulub.

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, müsabiqənin şərtlərinə əsasən iştirakçılar daha sağlam planet naminə texnoloji ixtiralar, innovativ və uğurlu biznes-modellər nümayiş etdirməlidirlər. Müsabiqənin nəticəsi olaraq hər il altı nəfər qalib seçilərək “Yer kürəsinin gənc çempionu” adlandırılacaq.

Seçilən qaliblər, ilkin maliyyələşdirilmə üçün 15 000 ABŞ dolları həcmində maliyyə vəsaiti əldə edəcək, 2017-ci ilin dekabrında Keniyanın paytaxtı Nayrobidə keçirilən BMT-nin Ətraf Mühit Assambleyasında, 2018-ci ilin sentyabr ayında isə Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasında iştirak etmək (bütün xərclər ödənilməklə), "Yer kürəsinin gənc çempionları" üçün təşkil ediləcək qala gecəsində şam yeməyinə dəvət alaraq ekologiya nazirləri ilə tanışlıq görüşündə olmaq şansı qazanacaqlar. Həmçinin qaliblər internet və beynəlxalq KİV vasitəsilə açıqlanacaq və nümayiş olunacaq, yüksəkixtisaslı mütəxəssis və təlimçilərlə iş, o cümlədən rabitə, layihə planlaşdırılması, maliyyə idarəetməsi və s. sahələrdə fərdi təlimlərdə iştirak imkanı əldə edəcəklər. “Gənc çempionlar” 2018-ci ilin birinci rübündə Avropada təşkil ediləcək bir həftəlik intensiv sahibkarlıq kursundan da faydalana biləcəklər (ödənişsiz).

"Yer kürəsinin gənc çempionları" müsabiqəsi yalnız mükafat vermək üçün deyil, parlaq gələcəyi olan gənc ekoloqların hədəflərinə doğru daha qətiyyətlə addımlamalarına dəstək olmaq və ekologiya sahəsində yeni liderlər yetişdirmək məqsədilə keçirilir.

Çempionlar, həmçinin BMT ekspertləri, ekoloji sahədə mühüm xidmətləri olmuş şəxsiyyətlərlə görüşmək və ətraf mühit sahəsində yeni startaplarla tanış olmaq fürsəti əldə edəcəklər. Bununla yanaşı, onlar yüksəkixtisaslı “mentor”lardan ibarət ekspert qrupları tərəfindən dəstək alacaqlar.

Qeyd edək ki, 1972-ci ildə BMT Baş Assambleyasının qətnaməsi əsasında yaradılmış UNEP-in məqsədi ətraf mühiti və təbiəti qorumaq, bu istiqamətdə tədbirləri əlaqələndirməkdir. 2014-cü ilin may ayında IDEA İctimai Birliyi UNEP-də akkreditə olunmuş və bu təşkilatda müşahidəçi statusu almışdır. UNEP-də akkreditasiyanın alınması ilə IDEA UNEP-in idarə orqanları, o cümlədən BMT Ətraf Mühit Assambleyası və onun yardımçı qurumlarının işində iştirak etmək imkanı əldə etmişdir.

IDEA bütün yüksək potensiallı gəncləri ən qısa zamanda qeydiyyatdan keçməyə çağırır.

Müraciət müddəti 18 iyun 2017-ci ilə qədərdir. Ərizə forması və ətraflı məlumat üçün: www.unep.org/youngchampions

**Xalq qəzeti.-2017.-23 may.- № 109.-S.13.**

## Heydər Əliyev Fondu uşaqları növbəti dəfə sevindirdi

İyunun 4-də sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbinin sakinləri IDEA Heyvanlara Qayğı Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Tədbirdə uşaqlar ev heyvanları üçün yaradılan şəraitlə və IDEA Heyvanlara Qayğı Mərkəzinin fəaliyyəti ilə tanış olublar. Uşaqlar üçün müxtəlif əyləncəli proqramlar və nahar təşkil edilib, Heydər Əliyev Fondu adından onlara hədiyyələr verilib.

IDEA İctimai Birliyinin “Azərbaycan. Ceyranların xilası” sənədli filminin uşaqlar üçün surdotərcümə ilə nümayişi olub. Filmin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi təşkil edilib.

Tədbirin məqsədi uşaqların maraqlı və əyləncəli gün keçirmələri ilə yanaşı, onlara erkən yaşlarından təbiətimizə, onun sərvətlərinə qayğının, eləcə də ev heyvanlarına rəğbətin və humanist yanaşmanın aşılanmasından ibarətdir.

Qeyd edək ki, gənclərin ekoloji məsələlərə cəlb edilmələri və onların ətraf mühitin mühafizəsinə töhfə vermələri, ekoloji problemlərlə mübarizəyə qoşulmaları naminə irimiqyaslı layihələr həyata keçirən IDEA İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-də fəaliyyətə başlayıb.

**Xalq qəzeti.**-2017.-2 iyun.-№117.-S.4.

## Salyanda ekoloji yay düşərgəsinə start verilib

İyunun 21-də IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondu (WWF) Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramı çərçivəsində "Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsinə start verilib.

AZƏRTAC xəbər verir ki, Neftçala və Salyan rayonlarının Yenikənd, Şəkərli, Kürsəngi, Kürqarağaclı, Tatarməhəllə kəndlərindən 60-dan çox məktəblinin iştirak etdiyi düşərgə Salyan rayonunda təşkil edilib və üç gün davam edəcək.

Düşərgənin açılış mərasimində çıxış edən IDEA İctimai Birliyinin elmi tədqiqat şöbəsinin mütəxəssisi Nəzakət İsayeva bildirib ki, ekoloji yay düşərgəsinin təşkilində əsas məqsəd ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gəncləri bununla bağlı maarifləndirməkdir. Düşərgənin fəaliyyəti dövründə məktəblilər ceyranların həyat tərzi, yayıldığı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə edəcəklər. Uşaqlar, həmçinin müxtəlif kiçik ekoloji tədqiqatların aparılmasında, viktorina və müsabiqələrdə iştirak edəcək, "Azərbaycan. Ceyranların xilası" adlı sənədli filminə baxacaqlar. Ceyranlarla əyani tanış olmaq üçün məktəblilərin Şirvan Milli Parkına ekskursiyası da təşkil olunacaq. Yekunda düşərgə iştirakçılarına sertifikatlar veriləcək.

"Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən başlanıb və hazırda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla davam etdirilir. Bu illər ərzində 150 başdan çox ceyran Şirvan Milli Parkından Azərbaycan və Gürcüstandakı tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya edilib və onların daimi monitorinqi və mühafizə işləri həyata keçirilir.

IDEA İctimai Birliyi, Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi 2014-cü ildən etibarən ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələri mütəmadi olaraq hər il təşkil edir. Ötən müddət ərzində düşərgələrdə Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara rayonlarından ümumilikdə 300-dən çox məktəbli iştirak edib.

**Mahir Babayev**

**AZƏRTAC**
**2017, 21 iyun**

## IDEA-nın təşəbbüsü ilə Nəsimi rayonunun Asif Məhərrəmov küçəsində yaşıllıqlar bərpa edildi

Bakı şəhəri, Nəsimi rayonu, Asif Məhərrəmov 15 ünvanında məhv edilmiş yaşıllıqların yerinə iyunun 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yeni ağaclar əkilib.

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin təşəbbüsü və Nəsimi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə baş tutan ağacəkmə aksiyası zamanı ərazidə yaşıllıqların bərpası ilə yanaşı, abadlıq işləri aparılıb, sağlam həyat tərzinin formalaşdırılması və orada məskunlaşan sakinlərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə idman alətlərindən ibarət kiçik meydança, o cümlədən uşaqlar üçün əyləncə qurğuları yerləşdirilərək istifadəyə verilib.

Qeyd edək ki, 2017-ci il iyunun 14-də IDEA İctimai Birliyinin 1113 nömrəli "Təbiətin təcili yardımı" "qaynar xətti"nə sözügedən yaşıllıqların məhvi ilə bağlı şikayət daxil olub, IDEA-nın mobil qrupu tərəfindən dərhal əraziyə baxış keçirilib və 20 ağacın kəsilməsi faktı qeydə alınıb. Uzun illər həmin ərazidə yaşayan insanların istirahət və sağlamlığına xidmət edən ağacların məhv edilməsi şəhərimizin ətraf mühitinin zədələnməsi və əhalinin sağlamlığına təhdidə çevrilə bilərdi. Bu səbəbdən ekologiya və biomüxtəlifliyin mühafizəsi naminə çalışan və bu sahələrdə uğurlar qazanan IDEA İctimai Birliyinin təşəbbüsü ilə ərazidə yaşıllıqlar bərpa edilib.

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin birgə layihəsi olan "Ağacların kəsilməsinə yox" proqramı tərəfindən Bakı şəhərində qanunsuz ağac kəsilməsi ilə bağlı vətəndaşlardan daxil olmuş 300-ə yaxın şikayətə baxılıb və onların müsbət həlli istiqamətində tədbirlər görülüb. Proqramın uğurlu icrası nəticəsində paytaxtımızda yaşıllıqların məhv edilməsi hallarının əhəmiyyətli dərəcədə azalması müşahidə olunub. Qabaqlayıcı tədbirlərlə yanaşı, təsis edildiyi dövrdən etibarən IDEA İctimai Birliyinin həyata keçirdiyi genişmiqyaslı ağacəkmə aksiyaları nəticəsində ölkə ərazisində 5 milyondan artıq ağac əkilib.

IDEA-nın yaşıllaşdırma layihələrinin məqsədi ekoloji tarazlığı bərpa etmək, yaşıllıq zolaqlarının artırılmasına töhfə vermək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək, eləcə də ətraf mühitin mühafizəsi işində ictimai nəzarəti gücləndirməkdir.

IDEA İctimai Birliyi bütün vətəndaşları Bakı şəhərində yaşıllıqların qorunmasına öz töhfələrini verməyə və üzləşdikləri qanunsuz ağac kəsilməsi halları ilə bağlı dərhal xüsusi yaradılmış "qaynar xətt"ə (bütün mobil operatorlar və şəhər telefonlarından 1113) məlumat verməyə çağırır.

**Yeni Azərbaycan.**-2017.-22 iyun.-№110.-S.5.

## "Ceyranları qoruyaq!" ekoloji yay düşərgəsi uğurla başa çatıb

IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi "Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə reintroduksiyası" proqramı çərçivəsində "Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsi uğurla başa çatıb.

IDEA-dan AZƏRTAC-a bildirilib ki, Salyan rayonunun Yenikənd, Şəkərli, Kürsəngi, Kürqarağaclı və Neftçala rayonunun Tatarməhəllə kəndindən 60-dan çox məktəblinin iştirak etdiyi düşərgə 21-23 iyun tarixlərində Salyan rayonunda təşkil edilib.

"Ceyranları qoruyaq!" adlı ekoloji yay düşərgəsinin əsas məqsədi ceyranların reintroduksiya edildiyi ərazilərdə, o cümlədən onların məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənc nəsli bu növ barədə maarifləndirməkdir. Düşərgənin gedişatında iştirakçılar ceyranların həyat tərzi, yayıldığı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə ediblər. Uşaqlar, həmçinin müxtəlif kiçik ekoloji tədqiqatların aparılmasında, viktorina və müsabiqələrdə iştirak etmiş, İqor Bışnyovun rejissorluğu ilə çəkilən "Azərbaycan. Ceyranların xilası" adlı sənədli filmi izləmiş və ceyranlarla əyani olaraq tanış olmaq üçün onların Şirvan Milli Parkına ekskursiyası təşkil edilib. Yekunda düşərgə iştirakçılarına sertifikatlar və xatirə hədiyyələri təqdim olunub.

"Ceyranların Qafqazda tarixən məskunlaşdıqları ərazilərə qaytarılması" proqramı 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən başlanmış və hal-hazırda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində uğurla icra olunmaqdadır. Bu illər ərzində 150 başdan artıq ceyran Şirvan Milli Parkından Azərbaycan və Gürcüstandakı tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya edilib və onların daimi monitorinqi və mühafizə işləri həyata keçirilməkdədir.

IDEA İctimai Birliyi, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara rayonlarından ümumilikdə 300-dən çox məktəbli iştirak ediblər.

**AZƏRTAC**
**2017, 24 iyun**

# IDEA “Eko-skaut” layihəsi uğurla davam edir

IDEA İctimai Birliyinin təşəbbüsü ilə start verilən və gənclərin böyük marağına səbəb olan “Eko-skaut” layihəsi uğurla davam edir. Qısa müddət ərzində sayları 150-yə çatan IDEA eko-skautlarının yeni üzvləri ilə 26 iyul tarixində IDEA Resurs Mərkəzində görüş keçirilmişdir.

Qeyd edək ki, sözügedən layihəyə martın 27-də start verilmişdir. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, onları təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadəyə təşviq etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir.

IDEA eko-skaut layihəsi gənclərə planetimiz üçün təhlükə yaradan ekoloji problemləri dərk etmək və bu problemlərin həllinə digərlərini də cəlb etməklə, bu ictimai hərəkatda iştirak etmək və onun lideri olmaq imkanı yaradır.

IDEA Eko-skautu olmaq istəyən gənclərə görüş zamanı layihənin mahiyyəti, eko-skautların öhdəlikləri, onların fəaliyyət prinsipləri, gündəlik eko-skaut qaydaları, eko-skaut klubuna üzv olmağın yolları, üzvlük kartı və yüksək statuslu kartlar almağın yolları, balların toplanma mexanizmi haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, kluba qoşulmaq üçün müraciət edən gənclərə üzvlük kartı və IDEA tərəfindən xüsusi olaraq hazırlanmış papaq, bel çantası, döş nişanı verilmişdir. Yeni qoşulan üzvlər “Gənc ekoloq” statusu altında ətraf mühitə faydalı işlərlə məşğul olaraq ballar yığıb statuslarını artırmaq imkanı əldə edəcəklər. Kifayət qədər bal toplayan eko-skautlar ən yüksək mərhələyə keçmiş sayılacaq və onlara IDEA tərəfindən qiymətli hədiyyələr təqdim olunacaq.

Görüşün sonunda IDEA eko-skaut layihəsinə qoşulmaq üçün könüllü olaraq müraciət etmiş yeni üzvlər birgə “eko-skaut andı” içiblər.

IDEA eko-skaut layihəsi haqqında, o cümlədən qeydiyyat, üzvlük qaydaları, balların toplanması və s. ilə bağlı ətraflı məlumat üçün: http://www.ideacampaign.org/ecoscout/, tel.: 012 497 6316

**AZƏRTAC**
**2017, 27 iyul**

# IDEA Heyvanlara Qayğı Mərkəzinin əməkdaşları sahibsiz heyvanların yığılması işini həyata keçiriblər

IDEA Heyvanlara Qayğı Mərkəzinin əməkdaşları Binəqədi rayonundakı 7-ci mikrorayonda Abay Kunanbayev küçəsində sahibsiz heyvanların yığılması işini həyata keçiriblər.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, aksiyanın həyata keçirilməsində 80 nömrəli Mənzil Kommunal İstismar Sahəsinin işçiləri və həmin ərazidə yaşayan sakinlər fəal iştirak ediblər.

Sahibsiz heyvanlar müvafiq sığınacaqda peyvənd ediləndən sonra orada müvafiq bölmədə yerləşdiriləcəklər.

Aksiyanın rayonun digər ərazilərində də keçirilməsi nəzərdə tutulub.

**AZƏRTAC**
**2017, 11 sentyabr**

## "Uşaqlar üçün laboratoriya" layihəsi çərçivəsində növbəti təlim keçirilmişdir

23 sentyabr tarixində IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatının birgə layihəsi olan "Uşaqlar üçün ekoloji laboratoriya" çərçivəsində IDEA İctimai Birliyinin Resurs Mərkəzində 6-11 yaşlarında olan uşaqlar üçün enerji mövzusuna həsr olunmuş növbəti təlim keçirilmişdir.

Təlim zamanı uşaqlara elektrik enerjisi, alternativ enerji mənbələri haqqında ümumi məlumatlar verilmiş, enerjiyə qənaətlə bağlı maraqlı faktlar və məlumatlar çatdırılmışdır. "Kiçik ekoloqlar", həmçinin elektrik təhlükəsizliyi tədbirləri ilə də tanış olmuşlar.

Ekperimentlər zamanı gənc təbiətsevərlər şar və kağız vərəqlərindən istifadə edərək statik elektrik cərəyanının gücünü müşahidə etdilər, həmçinin limon vasitəsilə kimyəvi enerjinin necə elektrik enerjisinə çevrilməsinin şahidi olmuşlar. Daha sonra uşaqlar evlərindəki müxtəlif elektrik avadanlıq və enerjiyə qənaət etmək üçün onlardan necə istifadə edilməsi ilə bağlı əyləncəli bilik yarışmalarında və müxtəlif müsabiqələrdə iştirak etdilər. Təlimin sonunda uşaqlar çərpələng uçurdmaqla külək enerjisinin əsasları haqqında məlumat aldılar.

IDEA İctimai Birliyi və "Sevimli Bala" təşkilatının birgə əməkdaşlığı ilə təşkil olunan Sentyabr laboratoriyası uşaqlara maraqlı və əyləncəli gün bəxş etməklə yanaşı, həm də enerjinin insan həyatındakı rolunu dərk etmələrinə yardım etmişdir.

IDEA İctimai Birliyinin Bakı və Gəncə şəhərlərində hər ay təşkil olunan "Uşaqlar üçün ekoloji laboratoriya"da iştirakla bağlı IDEA ilə (Bakı şəhəri üçün: 012 497-63-16; Gəncə şəhəri üçün: 022 264-01-48 ) əlaqə saxlamaq xahiş olunur.

http://ideacampaign.org/az/ecolab_september2017.html#.Wd9GdGi0OUk
**2017, 23 sentyabr**

# IDEA Heyvanlara Qayğı Mərkəzində Ümumdünya Heyvanları Müdafiə Gününə həsr edilən "dəyirmi masa" keçirilib

Oktyabrın 4-ü Ümumdünya Heyvanları Müdafiə Günüdür.

İnsanlar müxtəlif səbəblərdən – ailə, maliyyə, psixoloji və digər səbəblərdən ev heyvanlarından ayrılırlar. Lakin səbəb nə dərəcədə üzürlü və ciddi olsa da, heyvanları küçəyə atmaq insafsızlıqdır. Əgər bir para adam rəhmsiz davranırsa, onda heyvanların qayğısına qalan, onlara kömək edənlər də olmalıdır.

Son illər Bakı və onun ətraflarında sahibsiz heyvanların sayının kəskin artması və onlara qarşı qeyri-insani rəftar hallarının çoxalması müşahidə edilir. Təbii ki, problemin mürəkkəbliyini nəzərə alsaq, onun istənilən bir şəxs, qrup və ya təşkilat tərəfindən həll edilməsi qeyri-mümkündür. Azərbaycanda bir çox heyvan müdafiəçiləri arasında münasibətlərin gərgin olmasına baxmayaraq, məsələnin birgə müzakirə edilməsinə, həll yollarının tapılmasına ehtiyac var. Bununla əlaqədar IDEA Heyvanlara Qayğı Mərkəzində "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Baytarlıq İdarəsinin, heyvanları müdafiə edən təşkilatların, Bakı Şəhər İcra Hakimiyyətinin mənzil-kommunal təsərrüfatı departamentinin və KİV-in nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Mərkəzin direktoru Surxay Şükürov xatırladıb ki, IDEA Heyvanlara Qayğı Mərkəzinin təməli Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2014-cü il oktyabrın 9-da qoyulub, bu il martın 1-dən isə IDEA Heyvanlara Qayğı Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin yaradılması Azərbaycanda sahibsiz heyvanlara insani münasibət istiqamətində böyük addımdır. Diqqətə çatdırılıb ki, Mərkəzdə pişiklər və itlər üçün klinika, bloklar, ayrı-ayrı karantin blokları yaradılıb. Burada, həmçinin himayə seksiyası, oyun meydançası, konfrans zalı, kafe və mağaza var. Mərkəz bəzi heyvanları yerləşdirməklə yanaşı, sahibsiz heyvanlarla bağlı problemin həllində əsas diqqətini sterilizasiyaya, xəstəliklərin qarşısının alınmasına, eləcə də himayənin və heyvanlara humanist yanaşmanın təşviqinə yönəldir. Məsələn, Mərkəzin baytarlıq klinikası həm küçə, həm də sahibi olan heyvanlara xidmət göstərir. Eyni zamanda, sponsorların dəstək və ianələrindən asılı olan Mərkəz fiziki və hüquqi şəxslərdən də maliyyə və digər yardımlar qəbul edir. Burada, həmçinin sahibsiz heyvanlara peyvənd, sterilizasiya ilə bağlı xidmətlər göstərilir, lazım gəldiyi halda cərrahi əməliyyatlar aparılır ki, bütün bunlar 2007-ci ildə Azərbaycanın qoşulduğu "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasının müddəalarına uyğundur.

Yaranan problemləri birlikdə həll etməyin zəruriliyini vurğulayan S.Şükürov ictimaiyyəti əməkdaşlığa çağırıb.

Heyvanları müdafiə edən təşkilatların nümayəndələri tədbirdə çıxış edərək IDEA İctimai Birliyinin bu xeyirxah təşəbbüsünü və fəaliyyətini yüksək qiymətləndiriblər.

Tədbir zamanı Bakı və onun ətraflarında sahibsiz ev heyvanlarının vəziyyəti, onların sayının tənzimlənməsi və lazımi şərait yaradılması, onlara qarşı insani münasibətin formalaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

"Dəyirmi masa" çərçivəsində Azərbaycanın 2007-ci ildən qoşulduğu "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasına uyğun olaraq, sahibsiz küçə heyvanlarına nəzarət modelinin tətbiq edilməsi, o cümlədən onların sterilizasiyası və sonradan öz areallarına qaytarılması işinin təşkili ilə bağlı təkliflər irəli sürülüb, bu sahədə tərəflər arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

**AZƏRTAC**
**2017, 4 oktyabr**

## IDEA İctimai Birliyinin təşəbbüsü çərçivəsində Lənkəranda 2 minədək ağac əkilib

Lənkəran, 21 oktyabr, Bağır Əliyev, AZƏRTAC

IDEA İctimai Birliyinin ağacəkmə təşəbbüsünə dəstək məqsədilə Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamına əsasən, oktyabrın 15-dən noyabrın 15-dək rayonda yaşıllaşdırma aylığı elan edilib.

AZƏRTAC xəbər verir ki, yaşıllaşdırma aylığı ilə bağlı hazırlanmış tədbirlər planına əsasən, oktyabrın 21-də Lənkəran şəhərində ağacəkmə aksiyası keçirilib.

Heydər Əliyev prospektində, Lənkəran Beynəlxalq Hava Limanının qarşısında və Ələt-Astara magistral yolunun Sütəmurdov kəndindən keçən hissəsində təşkil olunan aksiyada şəhər icra hakimiyyətinin əməkdaşları, idarə, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Aksiya zamanı 2 minədək dəmirağacı, küknar, xan çinarı və Eldar şamı əkilib. Yeni əkilən ağaclara aqrotexniki qulluq göstərilib.

**AZƏRTAC**
**2017, 21 oktyabr**

# Məktəblilər IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında 400-dən çox ağac əkiblər

Noyabrın 14-də "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində səkkiz rayon və bir şəhərin məktəblilərindən ibarət 400-ə yaxın şagirdin Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyası başa çatıb.

AZƏRTAC xəbər verir ki, şimal bölgəsinə ekskursiyada Bərdə, Ağdam, Tərtər, Goranboy, Ağcabədi, Beyləqan, Cəbrayıl, Qubadlı rayonlarını və Naftalan şəhərini təmsil edən ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri iştirak edib.

Səhər saatlarında şagirdlər onlara rəhbərlik edən müəllimlərin iştirakı ilə Quba şəhərində "Hərəmiz bir ağac əkək" devizi altında ağacəkmə aksiyasına qoşulublar. IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında məktəblilər 400-dən çox ağac əkiblər.

Ağacəkmə aksiyasından sonra tur-aksiya iştirakçıları Xaçmaz rayonuna yola düşüblər.

Şagirdləri Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında rayon icra hakimiyyətinin, təhsil, mədəniyyət və turizm şöbələrinin nümayəndələri qarşılayıblar.

Məktəblilər burada ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, Xaçmaz geniş turizm imkanlarına malikdir. Həmçinin parklar və muzeylər şəhəri adlandırılan Xaçmaz ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Məktəblilər şəhərdəki Heydər Əliyev Mərkəzində də olublar. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Mərkəzinin yeni binasının açılışı Prezident İlham Əliyevin Xaçmaza səfəri çərçivəsində həyata keçirilib. Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar, əbədiyaşar liderin həyat və fəaliyyətinə dair tarixi sənədlər nümayiş etdirilir.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Bildirilib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə bu il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsinə dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər muzeyinə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra şagirdlər ekskursiyalarını başa vuraraq, öz rayonlarına yola düşüblər.

**Elxan Yusifli**

**AZƏRTAC**
**2017, 14 noyabr**

# Aztəminatlı ailələr onlar üçün salınan fındıq bağlarından gəlir əldə edəcəklər

Noyabrın 17-də IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşəbbüsü ilə Qaxda aztəminatlı ailələr üçün fındıq bağları salınıb.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Qax rayonunun Əmbərçay kəndi ərazisində keçirilən mərasimdə rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA İctimai Birliyinin həyata keçirdiyi xoşməramlı layihələr barədə məlumat verib.

Bildirilib ki, ekologiyanın qorunması və ətraf mühitin mühafizəsi bu gün Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərini təşkil edir. Bu baxımdan, IDEA İctimai Birliyinin təşəbbüsü ilə Qaxda iki hektarlıq ərazidə salınan fındıq bağı qlobal iqlim dəyişmələrinə, ekoloji tarazlığın qorunmasına az da olsa öz töhfəsini verəcək. Eyni zamanda, bu layihə həm də iqtisadi əhəmiyyət daşıyır. Azərbaycan Prezidentinin tapşırığına əsasən, ixrac potensialı yüksək sahələrdən olan fındıqçılığın inkişaf etdirilməsi məqsədilə şimal-qərb bölgəsi rayonlarında irimiqyaslı tədbirlər həyata keçirilir. Yaxın illərdə Azərbaycanda fındıq bağlarının sahəsinin 2 dəfə artırılması nəzərdə tutulur. Bu istiqamətdə Qax rayonunda da məqsədyönlü iş aparılır. Son iki ildə rayon ərazisində 2 min hektara yaxın sahədə yeni fındıq bağları salınıb.

Bildirilib ki, IDEA İctimai Birliyinin yeni təşəbbüsü ərazi bütövlüyümüz uğrunda sağlamlıqlarını itirən əlillərə, şəhid ailələrinə göstərilən diqqət və qayğının əyani təzahürüdür. Layihə, eyni zamanda, gənclər arasında ekoloji təbliğatın daha da genişlənməsinə xidmət edir.

Fındıq bağının salınması üçün Qax rayonu Əmircan bələdiyyəsinin Əmbərçay kəndi ərazisindəki ehtiyat fondu torpağında iki hektar sahə ayrılıb. Aksiya zamanı 200 könüllü gəncin iştirakı ilə ərazidə 1248 fındıq tingi əkilib. Yeni salınan bağ dörd şəhid ailəsi və bir Qarabağ müharibəsi veteranı arasında bərabər bölünərək, təmənnasız olaraq onların istifadəsinə verilib. Ailələr fındıq bağına qulluq göstərərək məhsul götürməklə gəlir əldə etmək və maddi rifahlarını yaxşılaşdırmaq imkanı qazanıblar.

Aztəminatlı ailələr üçün meyvə bağlarının salınması noyabr ayı ərzində Lənkəran, Sabirabad və Beyləqan rayonlarında, gələcəkdə isə ölkənin digər rayonlarında təşkil ediləcək.

Xatırladaq ki, meyvə ağaclarının əkilməsi üzrə pilot layihəyə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayında başlanılıb.

**Mustafa Dadaşov**

**AZƏRTAC**
**2017, 17 noyabr**

# “Ekoloji problemlər və onların həlli yolları gənclərin gözü ilə”

**Əfsanə Bayramqızı**

***Müasir dövrdə ən böyük qlobal problemlərdən biri ekologiya ilə bağlıdır. Bu gün müxtəif ölkələr və qurumlar dünyamızın xilası naminə ekoloji problemlərin həlli yollarını arayırlar. Elə yaradıcı gənclər də ekoloji problemlərin aradan qaldırılması naminə öz əsərlərini Zirə Mədəniyyət Mərkəzində “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə” mövzusunda sərgidə nümayiş etdirdilər.***

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə baş tutmuş sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, gənclər təşkilatlarının nümayəndələri iştirak edirdilər. Sərgi barədə məlumatlandırılan Leyla Əliyeva nümayiş etdirilən əsərlərlə tanış oldu.

Qeyd edildi ki, sərgidə 14-29 yaşlı gənclərin müxtəlif janrlar üzrə hazırladıqları əsərlər təqdim olunur. Buraya monumental rəngkarlıq, dəzgah rəngkarlığı, ofort, linoqravyura, kvillinq, xəttatlıq, batika, keramika, rəngkarlıq, heykəltəraşlıq, ebru sənəti, qrafika, qravüra, landşaft dizaynı, vitraj, mayolika, ksiloqrafiya, silkoqrafiya, təkəlduz və s. daxildir.

Gənc rəssamların ekoloji mövzuda çəkdikləri rəsmlər, hazırladıqları əsərlər istər üslub, istərsə də mövzu baxımından seçilirdi. Odur ki, ekoloji problemlərin həllinə yönəlmiş və gəncləri təbiəti, ətraf-mühiti qorumağa səsləyən hər bir əsər iştirakçıların marağına səbəb oldu. Sərgi ilə yanaşı, gənc aktyorların iştirakı ilə ekologiya mövzusunda pantomim tamaşa alqışlarla qarşılandı.

Sərgi çərçivəsində gənclər üçün rəngkarlıq və xalçaçılıq sənətləri üzrə ustad dərslərinin təşkili nəzərdə tutulur.

Sərgiyə baxışdan sonra fərqlənən gənclər diplomlarla təltif edildilər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”na əsasən təşkil olunan sərginin məqsədi gənclərin ekoloji sahəyə maraqlarının artırılması, onların bu mövzuda maarifləndirilməsi, yaradıcılıq potensiallarının dəstəklənməsi və sosial təşəbbüskarlıqlarının stimullaşdırılmasıdır.

**Xalq qəzeti.**-2017.-22 noyabr.-№257.-S.5.

## Leyla Əliyeva UNICEF-in regional direktoru ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ölkəmizdə səfərdə olan UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Əfşan Xan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva UNICEF tərəfindən bütün dünyada uşaqların vəziyyətinin yaxşılaşdırılması naminə aparılan fəaliyyəti yüksək qiymətləndirərək, uşaqların rifahı, sağlamlığı və təhsilinin təmin edilməsinin gələcəyimiz üçün ən dəyərli sərmayə olduğunu vurğulayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti bu sahədə Azərbaycanda son illər böyük irəliləyişlərin əldə edildiyini bildirib, bununla bağlı işlərin davam etdiriləcəyinə və daha da genişləndiriləcəyinə əminliyini qeyd edib. Uşaqların ətraf mühitin mühafizəsi sahəsində təhsil almalarının və maarifləndirilməsinin əhəmiyyətinə toxunan Leyla Əliyeva IDEA İctimai Birliyi tərəfindən son 6 ildə uşaqların ekoloji biliklərinin artırılması istiqamətində həyata keçirilən çoxsaylı layihələr, o cümlədən eko laboratoriyalar, düşərgələr, kurslar və nəşrlər haqqında ətraflı məlumat verib.

UNICEF-in regional direktoru Əfşan Xan, öz növbəsində, ətraf mühit və davamlı inkişaf məsələləri üzrə uşaqların məlumatlandırılmasına yönəlmiş fəal səylərinə görə Leyla Əliyevaya öz minnətdarlığını bildirib. O, UNICEF-in iqlim dəyişikliyi, davamlılıq və digər ekoloji mövzuların tədris proqramına daxil edilməsində maraqlı olduğunu, bu barədə IDEA-nın fəaliyyətinin yüksək dəyərləndirdiyini qeyd edib.

Görüş zamanı tərəflər arasında uşaqların ekoloji təhsili üzrə mümkün əməkdaşlıq perspektivləri müzakirə edilib, eləcə də sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların sosial müdafiəsi, reabilitasiyası və təhsili məsələləri üzrə fikir mübadiləsi aparılıb.

**Xalq qəzeti.**-2017.-23 noyabr.-№258.-S.4.

## IDEA İctimai Birliyi növbəti xeyriyyə aksiyasını Lənkəranda keçirib

IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Cavan" Gənclər Hərəkatı ilə birlikdə meyvə bağları salmaq aksiyaları keçirir. Bu məqsədlə ayrı-ayrı rayonlarda aztəminatlı ailələr üçün meyvə bağları salınır.

IDEA İctimai Birliyi növbəti aksiyasını Lənkəranda keçirib. Rayonun Moğonojba kəndi ərazisində aprel döyüşləri zamanı qəhrəmancasına həlak olmuş 2 şəhid ailəsinə və bir üzvü Qarabağ veteranı olan aztəminatlı ailəyə verilən 2 hektar torpaq sahəsində 3 feyxoa bağı salınıb. Bağlarda ümumilikdə məhsuldar növlü 1100 feyxoa ağacı əkilib. Yeni əkilən ağaclar suvarılaraq dayaqlarla bərkidilib.

Bu münasibətlə keçirilən mərasimdə IDEA İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin, "Cavan" Gənclər Hərəkatının könüllüləri, Lənkəran ŞİH-in rəhbərliyi, rəsmi şəxslər, rayon ictimaiyyətinin və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

ŞİH-in başçısı Taleh Qaraşov qeyd edib ki, maarifləndirmə yolu ilə gənclərin və yeniyetmələrin ətraf mühitin və ekologiyanın qorunması işlərinə cəlb olunmasına nail olmağı qarşısına məqsəd qoyan IDEA İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti, tanınmış gənc ictimai xadim Leyla xanım Əliyevanın rəhbərliyi ilə geniş fəaliyyət göstərərək qısa zamanda böyük uğurlar qazanıb. Təşkilatın təşəbbüsü ilə ölkədə ağacəkmə aksiyalarının keçirildiyini, təmizlik işlərinin aparıldığını, tullantıların yığıldığını, nadir heyvan və bitki növlərinin qorunmasına davamlı olaraq qayğı göstərildiyini söyləyən natiq bu tədbirlərdə Lənkəran rayonu ictimaiyyətinin, xüsusilə gənclərin yaxından iştirak etdiyini, minlərlə ağac və gül kollarının əkildiyini, tonlarla kağız tullantısının və istifadə olunmuş plastik qab qalıqlarının yığışdırıldığını diqqətə çatdırıb. Bu tədbirlərin gənclərin və yeniyetmələrin ekoloji tərbiyəsi ilə yanaşı, onlarda vətənə məhəbbət, doğma təbiətə qayğıkeş münasibət formalaşdırdığını da xüsusi vurğulayıb. IDEA İctimai Birliyinin həyata keçirdiyi xeyirxah təşəbbüslərin bundan sonra da rayon gəncləri tərəfindən dəstəklənəcəyini bildirib.

Sonra o, feyxoa ağaclarının əkildiyi torpaq sahələrinin mülkiyyət hüququna dair şəhadətnamələri aprel döyüşləri zamanı şəhid olmuş Rusif Ağayevin atası İbrahim Ağayevə, Əlizamin İslamovun anası Hurinisə Kərimovaya və Qarabağ müharibəsi veteranı Sayyad Ağayevə təqdim edib.

**Azərbaycan.**-2017.- 26 noyabr.- № 261.- S.6.

# IDEA İctimai Birliyinin aktiv eko-skautlarına sertifikatlar təqdim edilib

***IDEA İctimai Birliyinin təşəbbüsü ilə start verilən və gənclərin böyük marağına səbəb olan "Eko-skaut" layihəsi uğurla davam edir.***

İctimai Birlikdən verilən məlumata görə, noyabrın 30-da xüsusi aktivlik göstərərək növbəti mərhələyə keçən eko-skautlara IDEA Heyvanlara Qayğı Mərkəzində sertifikatlar təqdim edilib. Qısa müddət ərzində sayları 150-yə çatan IDEA eko-skautlarının ən aktiv üzvləri müvafiq balı toplayaraq ikinci mərhələyə keçib. Növbəti mərhələyə keçən eko-skautlar ətraf mühitin qorunmasında, təbiətə qarşı qayğıkeş münasibətdə, ekoloji problemlərin həlli yollarını axtarmaqda fəal iştiraklarına və layihənin ilk mərhələsini uğurla keçdiklərinə görə "Təbiətsevər" statusuna layiq görülüb və sertifikatla təltif ediliblər.

Ümumdünya Ev Heyvanları Günündə təşkil edilən tədbir zamanı eko-skautlar üçün IDEA Heyvanlara Qayğı Mərkəzinin ərazisində infotur keçirilib, onlar ev heyvanları üçün yaradılan şəraitlə və mərkəzin fəaliyyəti ilə tanış olublar. Gənclərə ev heyvanları haqqında ətraflı məlumatlar verilib, sahibsiz heyvanlara diqqət və qayğı göstərməyin vacibliyi izah olunub. Daha sonra eko-skautlar mərkəzdə olan sahibsiz it və pişiklərlə əyləncəli vaxt keçiriblər.

Tədbirin sonunda IDEA tərəfindən eko-skautlara xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, "Eko-skaut" layihəsinə martın 27-də start verilib. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, onları təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadəyə təşviq etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir. IDEA "Eko-skaut" layihəsi gənclərə planet üçün təhlükə yaradan ekoloji problemləri dərk etmək və bu problemlərin həllinə digərlərinin də cəlb olunması ilə ictimai hərəkata qoşulmaq və liderlik imkanı yaradır.

IDEA eko-skautlarına qoşulmaq istəyən təbiətsevər gənclər layihə haqqında http://www.ideacampaign.org/ecoscout/ saytına daxil olaraq ətraflı məlumat əldə edə bilərlər (tel.: 012 497 6316).

**Xalq qəzeti.-**2017.-2 dekabr.-№266.-S.5.

# IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib

Dekabrın 23-də IDEA Heyvanlara Qayğı Mərkəzində yoqa üzrə ustad dərsi keçirilib.

AZƏRTAC xəbər verir ki, ustad dərsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva da iştirak edib.

IDEA İctimai Təşkilatı və Klassik Yoqa Məktəbi tərəfindən təşkil olunmuş tədbirdə qonaqlar Xatxa-yoqa dərsində olub, yoqa və düzgün qidalanma haqqında xeyli maraqlı məlumatlar əldə edib, vegeterian mətbəxinin nümunələrindən dadıb, eləcə də mərkəzdə saxlanılan heyvanlarla tanış olublar.

Dərs və söhbətləri beynəlxalq diploma və Yoqa Şiromani tituluna malik Elçin Quliyev keçirib. E.Quliyev 2002-ci ildən yoqa ilə məşğuldur. O, 2009-cu ildə Polşadakı Şivananda Yoqa Mərkəzində təlim keçib.

**AZƏRTAC**
**2017, 24 dekabr**

## IDEA İctimai Birliyinin "Eko-skaut" layihəsi uğurla davam edir

IDEA İctimai Birliyinin təşəbbüsü ilə start verilən və gənclərin böyük marağına səbəb olan "Eko-skaut" layihəsi uğurla davam edir.

İctimai Birlikdən AZƏRTAC-a verilən məlumata görə, qısa müddət ərzində sayları 150-yə çatan IDEA eko-skautlarının yeni üzvləri ilə yanvarın 25-də təşkilatın Zirə Mədəniyyət Mərkəzində yerləşən Resurs Mərkəzində görüş keçirilib.

Qeyd edək ki, həmin layihəyə ötən ilin mart ayında start verilib. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, onları təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadəyə təşviq etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir.

Layihə gənclərə planetimiz üçün təhlükə yaradan ekoloji problemləri dərk etmək və bu problemlərin həllinə digərlərini də cəlb etməklə bu ictimai hərəkatda iştirak etmək və onun lideri olmaq imkanı yaradır.

IDEA eko-skautu olmaq istəyən gənclərə görüş zamanı layihənin mahiyyəti, eko-skautların öhdəlikləri, onların fəaliyyət prinsipləri, gündəlik eko-skaut qaydaları, eko-skaut klubuna üzv olmağın yolları, üzvlük kartı və yüksək statuslu kartlar almağın yolları, balların toplanma mexanizmi haqqında ətraflı məlumat verilib.

Layihəyə qoşulmaq üçün müraciət edən 30 nəfərə yaxın gəncə üzvlük kartı və IDEA tərəfindən xüsusi olaraq hazırlanmış papaq, bel çantası, döş nişanı verilib. Yeni qoşulan üzvlər "Gənc ekoloq" statusu altında ətraf mühitə faydalı işlərlə məşğul olaraq ballar yığıb statuslarını artırmaq imkanı əldə edəcəklər. Kifayət qədər bal toplayan eko-skautlar ən yüksək mərhələyə keçmiş sayılacaq və onlara IDEA tərəfindən sertifikat və qiymətli hədiyyələr təqdim olunacaq.

Görüşün sonunda "Eko-skaut" layihəsinə qoşulmaq üçün könüllü olaraq müraciət etmiş yeni üzvlər birgə "Eko-skaut andı" içiblər.

Layihə haqqında, o cümlədən qeydiyyat, üzvlük qaydaları, balların toplanması və s. ilə bağlı ətraflı məlumatı http://www.ideacampaign.org/ecoscout/ saytında və ya (012) 497 6316 telefon nömrəsinə zəng edərək əldə etmək olar.

**Azərbaycan.**-2018.-27 yanvar.-№18.-S.5.

## Azərbaycanda "Yer saatı 2018" ekoloji kampaniyası keçirilib

Martın 24-də Bakıda "Yer saatı 2018" beynəlxalq kampaniyası çərçivəsində iqlim dəyişikliyi əleyhinə kütləvi tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir kampaniyanın Azərbaycan üzrə rəsmi əlaqələndiricisi olan IDEA İctimai Birliyi, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyi və Dünya Vəhşi Təbiət Fondunun Azərbaycan nümayəndəliyinin (WWF Azərbaycan) birgə təşkilatçılığı ilə keçirilib.

Aksiya iştirakçıları Dənizkənarı Milli Parkda toplaşaraq şəhərin mərkəzi hissəsində yerləşən böyük binaların fasad işıqlarının bir saatlıq söndürülməsi prosesini müşahidə ediblər. Gənclər simvolik "qırmızı düymə"yə basaraq birgə aksiyaya start veriblər. Daha sonra onlar rəmzi gerisayımda kampaniyanın simvolu olan "60+" yazısının şamlarla işıqlandırılmasında və velosiped yürüşündə iştirak ediblər.

Dörd yüz nəfərə yaxın gəncin qoşulduğu "Yer saatı 2018" aksiyası zamanı əyləncəli fləşmoblar, məşhur rəqs qruplarının "Yer saatı" konsepsiyasına uyğun rəqsləri, hədiyyəli müsabiqələr, tədbir müddətində fasiləsiz musiqi və digər sürprizlər gənclərin böyük marağına səbəb olub.

"Yer saatı" dünyada ətraf mühitə həsr olunmuş ən böyük hərəkat olaraq, milyonlarla insanı iqlim dəyişikliyinin dayandırılması uğrunda səfərbər edir. 2007-ci ildə Avstraliyanın Sidney şəhərində sadəcə işıqların kütləvi söndürülməsi aksiyası kimi başlanmış "Yer saatı" kampaniyası 2017-ci ildə 187 ölkə tərəfindən qeyd edilib. Kampaniya ətraf mühitlə bağlı bir sıra konkret nəticələrə, o cümlədən sosial şəbəkələrdə qlobal maarifləndirmənin artırılması və insanların ətraf mühit fəallarına çevrilməsinə gətirib çıxarıb. IDEA İctimai Birliyi tərəfindən ötən il 10 illiyi qeyd edilən "Yer saatı" kampaniyası çərçivəsində ölkəmizdə təşkil edilən genişmiqyaslı aksiyaya 300 nəfərdən çox gənc qoşulub.

Beynəlxalq "Yer saatı 2018" kampaniyasının Azərbaycan üzrə rəsmi əlaqələndiricisi qismində çıxış edən IDEA İctimai Birliyi bu il ölkəmizdə keçirilən "Yer saatı" kampaniyasına qoşulduğuna görə Heydər Əliyev Fonduna, Heydər Əliyev Mərkəzinə, Mədəniyyət və Turizm Nazirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə, Hökumət Evinə, "Hilton Baku", "JW Marriott Absheron", "Bulvar", "Intourist" otellərinə, "Park Bulvar" ticarət mərkəzinə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə, Dənizkənarı Bulvar İdarəsinə, Bakı Olimpiya Stadionuna, "Baku Crystall Hall"a, Milli Gimnastika Arenasına, bütün regionlar üzrə "ASAN xidmət" mərkəzlərinə, ADA Universitetinə və "Alov qüllələri" kompleksinə minnətdarlığını bildirir.

İqlim dəyişikliyi təhlükəsinin ciddiliyini, ona qarşı mübarizənin isə bəşəriyyət üçün vacibliyini nəzərə alaraq, IDEA İctimai Birliyi hər kəsi bu problemin həllinə töhfə verməyə, enerjiyə qənaət etməklə israfçılığa yol verməməyə çağırır.

**AZƏRTAC**
**2018, 24 mart**

# “Azərbaycanın 9 möcüzəsi” silsiləsindən “Abşeron Milli Parkı” sənədli filmi təqdim olunub

Aprelin 3-də Nizami Kino Mərkəzində IDEA İctimai Birliyinin xüsusi layihəsi olan “Azərbaycanın 9 möcüzəsi” silsiləsindən “Abşeron Milli Parkı” sənədli filminin təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Filmin təqdimatından əvvəl Leyla Əliyeva “Abşeron Milli Parkı” filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış oldu. Sərgidəki stendlər “Azərbaycanın zirvələri”, “Azərbaycanın faunası”, “Yırtıcı quşlar”, “Su dünyası”, “Azərbaycanın florası”, “Azərbaycanın Qırmızı Kitabı”, “Köçəri quşlar”, “Çəkiliş zamanı” bölmələrini əhatə edir.

Filmin təqdimat mərasimi IDEA Heyvanlara Qayğı Mərkəzi haqqında videoçarxla başladı.

Tədbirdə çıxış edən rejissor İqor Bışnyov Heyvanlara Qayğı Mərkəzinin əhəmiyyətindən danışdı, burada hər cür şəraitin yaradıldığını vurğuladı və IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür etdi. “Bu və ya digər bu cür 10-20 mərkəz belə daha geniş ərazidə yayılan sahibsiz heyvanlar problemini tam həll edə bilməyəcək. Lakin əsas odur ki, bu Mərkəzin təşkili bizə ətraf mühiti qorumağın vacibliyini xatırladır”, - deyən rejissor bizim özümüzün də təbiətin bir hissəsi olduğumuzu bildirdi.

Beş il əvvəl Azərbaycana Novruz bayramı ərəfəsində gəldiklərini söyləyən İqor Bışnyov görülən işlər barədə də məlumat verdi. Qeyd etdi ki, 5 il ərzində 5 film çəkilib. 2014-cü ildə Şirvan Milli Parkı, 2015-ci ildə Ağgöl Milli Parkı, Göygöl Milli Parkı haqqında filmlər nümayiş etdirilib. Bir il əvvəl “Azərbaycan. Ceyranların xilası” filmi göstərilib. Filmlərdən dördünün milli parklar haqqında olduğunu söyləyən İqor Bışnyov bu il daha bir milli park - Şahdağ Milli Parkı haqqında filmin nümayişinin planlaşdırıldığını qeyd etdi. Bununla yanaşı, sosial şəbəkələrdə də paylaşılan videoçarxların çəkildiyini diqqətə çatdıran İqor Bışnyov süjetlərə 5 milyondan çox baxış olduğunu söylədi. Vurğuladı ki, dünyanın hər yerində Azərbaycanın canlı təbiətinə dair videolar maraqla izlənilir və bu, olduqca böyük əhəmiyyətə malikdir. Filmlər ölkə daxilində və xaricində müxtəlif telekanallarda göstərilib, mükafatlara layiq görülüb. İqor Bışnyov 5 ildir davam edən əməkdaşlığa görə Leyla Əliyevaya təşəkkürünü bildirdi və bu əməkdaşlığın davam edəcəyinə əminliyini bildirdi. O, bu filmlərin canlılar aləminin ciddi problemlərinin həllinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu dedi.

Sonra “Abşeron Milli Parkı” sənədli filmi nümayiş etdirildi. Film Azərbaycanda ən gənc milli park haqqındadır. 2005-ci ildə yaradılmış bu park Bakının təxminən 60 kilometrliyində yerləşir. Ərazisi böyük olmasa da, parkın özünəməxsus xüsusiyyətləri var. Belə ki, buranın zəngin canlı aləmi bir yarımadada cəmləşir. Habelə ərazinin paytaxta yaxın olması buraya gediş-gəlişi asanlaşdırır. Parkın digər xüsusiyyəti isə Xəzər dənizinə yaxın olmasıdır.

“Azərbaycanın 9 möcüzəsi” layihəsinin təşəbbüskarı Leyla Əliyevadır. Layihə çərçivəsində ölkəmizin 9 milli parkı barədə sənədli filmin hazırlanması nəzərdə tutulur. Növbəti filmlərdə Şahdağ, Hirkan, Altıağac, Zəngəzur və Samur-Yalama milli parklarından söhbət açılacaq.

IDEA-nın “Azərbaycanın 9 möcüzəsi” layihəsinin məqsədi ölkəmizin əsrarəngiz təbiət gözəlliklərini təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

**Xalq qəzeti.** - 2018.- 4 aprel. - № 74. - S.4.

# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib

IDEA İctimai Birliyinin təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət aprelin 14-də sakinlərin istifadəsinə verilib. Yenilənmiş növbəti həyət Qaradağ rayonunun Lökbatan qəsəbəsi, İntiqam Nəbiyev küçəsində, 4 mindən çox sakinin yaşadığı məhəllədə yerləşir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Qaradağ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 2 hektar sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə əyləncə qurğuları yerləşdirilib, futbol meydançası və idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Həyətdə, həmçinin heyvanların gəzdirilməsi üçün xüsusi meydança salınıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 500-ə yaxın ağac və kol əkilib.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Lökbatan qəsəbəsində sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.** - 2018.- 15 aprel. - № 84. - S. 3.

## Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Mayın 10-da IDEA İctimai Birliyinin təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Nizami rayonu, Məmməd Xəlil Şərifli və Şirin Mirzəyev küçələrinin kəsişməsində 10 minə yaxın sakinin məskunlaşdığı 7 çoxmərtəbəli binanı əhatə edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Nizami Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 6 min kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə əyləncə qurğuları yerləşdirilib və idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqlarını nəzərə alaraq, çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 150-yə yaxın ağac və kol, 1500-ə yaxın dekorativ gül əkilib.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan dördüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2018, 10 may**

# "Bəbirləri mühafizə edək!" ekoloji yay düşərgəsi

20-22 iyun tarixlərində "Qafqaz bəbirlərinin mühafizəsi" layihəsi çərçivəsində IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Bəbirləri mühafizə edək!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilmişdir. Lerik rayonunun Hamarmeşə, Günəşli, Qosmalian, Çayrud, Vistən, Nuravud və s. kəndlərindən 60-a yaxın məktəblinin iştirak etdiyi düşərgə Lerik rayonunun Qosmalian kəndində keçirilmişdir.

"Bəbirləri mühafizə edək!" yay düşərgəsinin əsas məqsədi Qafqaz bəbirinin məskunlaşdığı təbii areallara yaxın yerlərdə yaşayan gənclərin bu nadir növ haqqında məlumatlandırılması və onun mühafizəsi işinin təbliği, onların məktəb yaşlarından ətraf mühit sahəsində maarifləndirilməsi, təbiətə qarşı rəğbət və qayğı hissinin formalaşdırılmasıdır.

Düşərgənin ilk günü iştirakçılar bəbirlərin həyat tərzi, yayıldığı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə etmiş, bu nadir canlı növünün qorunması mövzusunda seminarlarda, bəbirlərin populyasiyasının azalma səbəbləri ilə bağlı təqdimatda, o cümlədən müxtəlif ekoloji tədqiqat və müsabiqələrdə, biomüxtəliflikla bağlı bilik yarışmalarında iştirak etmişlər.

Düşərgənin ikinci günündə iştirakçıların Zuvand Dövlət Təbiət Yasaqlığına, o cümlədən Günəşli şəlaləsinə ekskursiyası təşkil olunmuşdur. Ekskursiya zamanı uşaqlar təmizlik aksiyasında iştirak edib və tullantıları toplayaraq çeşidləyiblər. Daha sonra, gənclər heyvan izlərinin və bitki növlərinin təyin edilməsi ilə bağlı praktiki işlərə qoşulublar.

Düşərgənin üçüncü günü, məktəblilərə təbiət fotoqrafı və rejissoru Adrian Stern tərəfindən çəkilən "Dünyanın ən çox axtarılan bəbiri" sənədli filmi nümayiş olunub. Daha sonra “bəbirləri qoruyaq” adlı ekoloji oyun keçirilib. Oyun zamanı iştirakçılar komandalara bölünərək bəbirlərin qanunsuz ovlanmadan xilas edilməsi yollarını tapmağa çalışıblar.

Düşərgənin sonunda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, "Qafqaz bəbirlərinin mühafizəsi" layihəsi IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Layihə Qafqaz bəbirlərinin populyasiyasının bərpası və mühafizəsinə yönəlsə də, onun əsas istiqamətlərindən biri də ictimaiyyət arasında maarifləndirilmənin artırılmasıdır. Bu məqsədlə məktəblilər üçün təşkil edilən bu cür yay düşərgələri mühüm əhəmiyyət kəsb edir.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə Salyan, Neftçala, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Göygöl, Lerik rayonlarından ümumilikdə 400-ə yaxın məktəbli iştirak etmişdir.

**http://ideacampaign.org/az/bebir_duserge2018.html#.W0w1LtIzaUk**

## "Zubrları təbiətimizə qaytaraq!" ekoloji yay düşərgəsi uğurla başa çatdı

4-6 iyul tarixlərində "Azərbaycanda zubrların reintroduksiyası" proqramı çərçivəsində IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, İsmayıllı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Zubrları təbiətimizə qaytaraq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilmişdir. Düşərgədə İsmayıllı rayonunun Talıstan, Tircan, Keyvəndi, Cülyan, Topçu və s. kəndlərindən 60-a yaxın məktəbli iştirak etmişdir.

"Zubrları təbiətimizə qaytaraq!" yay düşərgəsinin əsas məqsədi təbiətimizə qaytarılması nəzərdə tutulan zubrlar və onların qorunmasının vacibliyi haqqında gənclərin məlumatlandırılması, onların məktəb yaşlarından ətraf mühit sahəsində maarifləndirilməsi, təbiətə qarşı rəğbət və qayğı hissinin formalaşdırılmasıdır.

Düşərgənin ilk günü iştirakçılar zubrların həyat tərzi, reintroduksiya olunacağı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə etmiş, bu nadir canlı növünün zəngin təbiətimizə qaytarılması məqsədilə həyata keçirilən reintroduksiya layihəsi haqqında seminarlarda, o cümlədən müxtəlif ekoloji tədqiqat və müsabiqələrdə iştirak etmişlər.

Düşərgənin ikinci günündə iştirakçıların Azərbaycanın ən böyük Milli Parkı olan Şahdağ Milli Parkına ekskursiyası təşkil olunmuşdur. Ekskursiya zamanı uşaqlar Milli Parkın zəngin bioloji müxtəlifliyi, eyni zamanda zubrlarla bağlı həyata keçirilən layihə çərçivəsində Şahdağ Milli Parkının ərazisində bu növün təbiətimizə uyğunlaşması üçün inşa edilən kompekslə tanış olublar.

Düşərgənin üçüncü günü, məktəblilərin Cülyan şəlaləsinə ekskursiyası təşkil olunmuşdur. Burada onlar təmizlik aksiyasında iştirak edib və tullantıları toplayaraq çeşidləyiblər. Daha sonra, iştirakçılar İsmayıllı rayonunun Topçu kəndində yerləşən, Azərbaycanın bioloji təbiət abidələrindən biri olan 800 yaşlı qocaman palıd ağacını ziyarət ediblər.

Düşərgənin sonunda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, zubrlar Azərbaycanın zəngin təbiətində əsrlər boyunca məskunlaşıb. Növün son fərdlərinə keçən əsrin sonlarında Qafqaz dağının ətəyində rast gəlinib. Populyasiya effektiv idarə olunmadığından bu növün Azərbaycanda sayı tükənib. Son illər ərzində regionun və dünyanın aparıcı alimləri tərəfindən həyata keçirilən araşdırmaların nəticəsi olaraq, təbiətimizdə zubrlar üçün əlverişli şəraitin olduğu aşkarlanıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF Azərbaycan tərəfindən zubrların reintroduksiyası ilə bağlı birgə layihəyə başlanmışdır. Layihə çərçivəsində Şahdağ Milli Parkının ərazisində zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilməkdədir. Layihə zubrların təbiətimizə qaytarılmasına yönəlsə də, onun əsas istiqamətlərindən biri də ictimaiyyət arasında maarifləndirilmənin artırılmasıdır. Bu məqsədlə məktəblilər üçün təşkil edilən bu cür yay düşərgələri mühüm əhəmiyyət kəsb edir.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə İsmayıllı, Salyan, Neftçala, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Göygöl, Lerik rayonlarından ümumilikdə 450-dən çox məktəbli iştirak etmişdir.

**Trend.az**
**2018, 7 iyul**

## Azərbaycanda "Dünyanın ən böyük dərsi" layihəsi həyata keçirilir

IDEA İctimai Birliyi, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Nümayəndəliyinin və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə ölkəmizin bir sıra orta məktəblərində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliğinə həsr olunmuş "Dünyanın ən böyük dərsi" layihəsi həyata keçirilir.

Məlum olduğu kimi, 25 sentyabr 2015-ci il tarixində dünya liderləri tərəfindən BMT-nin Davamlı İnkişaf üzrə 2030 Gündəliyi qəbul edilmişdir. Bununla bağlı, UNICEF və digər təşkilatların dəstəyi ilə "Dünyanın ən böyük dərsi" (The World's Largest Lesson) layihəsi irəli sürülmüşdü. Layihənin məqsədi hər il sentyabr ayının sonundan başlayaraq bütün dünya üzrə məktəblərdə Qlobal məqsədlər barədə dərslərin keçirilməsindən ibarətdir. Azərbaycanda keçiriləcək dərsin məqsədi isə məktəb şagirdlərinin bir sıra mövzulara, o cümlədən iqlim dəyişmələrinə dair biliklərini artırmaqdır. Bu baxımdan, Dərsin diqqət mərkəzində iqlim dəyişmələrinin təsiri və uşaqların öz yaşadıqları ətraf mühiti qoruma yollarını necə inkişaf etdirə biləcəyi məsələsi dayanır. Dərslər layihə çərçivəsində hazırlanmış tədris materialları əsasında keçirilir.

Dərslərin ölkəmizin məktəblərində keçirilməsi məqsədilə sözügedən materiallar IDEA və UNICEF tərəfindən Azərbaycan dilində hazırlanmış və dərc edilmişdir. Təhsil Nazirliyinin Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun iştirakı ilə sentyabrın 24-dən başlayaraq bir həftə ərzində Bakı və Xaçmazın 20 orta məktəbinin müəllimləri üçün "Dünyanın ən böyük dərsi"nin tədrisi üzrə təlimlər təşkil ediləcəkdir. Daha sonra təlim keçmiş müəllimlər tərəfindən sözügedən dərsin öz şagirdlərinə keçirilməsi nəzərdə tutulur. Sonda layihədə iştirak etmiş məktəblər "World's Largest Lesson" internet səhifəsində yerləşən dünya xəritəsində işarələnir. Təşəbbüs Təhsil Nazirliyi, UNICEF və IDEA-nın yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə keçiriləcək yekun mərasimlə başa çatacaq.

2015-ci ildən başlanmış "Dünyanın ən böyük dərsi" təşəbbüsü üzrə indiyə kimi 130-dan çox ölkədən olan milyonlarla uşaq və gənclər Dayanıqlı İnkişaf Məqsədləri, o cümlədən qarşıya qoyulmuş ekoloji, sosial və iqtisadi çağırış və hədəflər haqqında məlumatlandırılmış, bu məqsədlərə nail olunmasında necə iştirak edə bildiyini öyrənmişlər.

"Dünyanın ən böyük dərsi" layihəsi ilə bağlı ətraflı məlumat IDEA İctimai Birliyi (012 497 63 16) və ya UNICEF-in Azərbaycan Nümayəndəliyindən (412 492 3013) əldə edilə bilər.

**AZƏRTAC**
**2018, 21 sentyabr**

## Azərbaycanda “Dünyanın ən böyük dərsi” layihəsi reallaşdırılır

IDEA İctimai Birliyinin, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə ölkəmizin bir sıra orta məktəblərində Dayanıqlı İnkişaf Məqsədlərinin təbliğinə həsr olunan “Dünyanın ən böyük dərsi” layihəsi həyata keçirilir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutundan (TİPİİ) AZƏRTAC-a bildirilib ki, 2018-ci il sentyabrın 25-də dünya liderləri tərəfindən BMT-nin Davamlı İnkişaf üzrə 2030 Gündəliyi qəbul edilib. Bununla bağlı, UNICEF və digər təşkilatların dəstəyi ilə “Dünyanın ən böyük dərsi” layihəsi irəli sürülüb. Layihənin məqsədi hər il sentyabrın sonundan etibarən bütün dünya üzrə məktəblərdə qlobal məqsədlər barədə dərslərin keçirilməsidir. Azərbaycanda təşkil olunacaq dərslərin məqsədi isə şagirdlərin bir sıra mövzularda, o cümlədən iqlim dəyişmələrinə dair biliklərini artırmaqdır. Bu baxımdan, iqlim dəyişmələrinin təsiri və uşaqların öz yaşadıqları ətraf mühiti qoruma yollarını necə inkişaf etdirə biləcəkləri məsələ dərsin diqqət mərkəzində dayanır. Dərslər layihə çərçivəsində hazırlanmış tədris materialları əsasında keçirilir. Dərslərin ölkəmizin məktəblərində təşkili məqsədilə həmin materiallar IDEA və UNICEF tərəfindən Azərbaycan dilində hazırlanıb və çap olunub.

Sentyabrın 24-dən başlayaraq TİPİİ bir həftə ərzində Bakı və Xaçmazın 20 orta məktəbinin müəllimləri üçün “Dünyanın ən böyük dərsi”nin tədrisi üzrə təlimlər təşkil edir. Təlimləri bitirən müəllimlər tərəfindən həmin dərsin şagirdlərinə keçməsi nəzərdə tutulur. Sonda layihədə iştirak etmiş məktəblər “World’s Largest Lesson” internet səhifəsindəki dünya xəritəsində işarələnir. Bu təşəbbüs Təhsil Nazirliyi, UNICEF və IDEA-nın yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə keçiriləcək yekun mərasimlə başa çatacaq.

Qeyd edək ki, 2015-ci ildən başlanmış “Dünyanın ən böyük dərsi” təşəbbüsü üzrə indiyədək 130-dan çox ölkədən milyonlarla uşaq və gənclər Dayanıqlı İnkişaf Məqsədləri, o cümlədən qarşıya qoyulmuş ekoloji, sosial və iqtisadi çağırış və hədəflər haqqında məlumatlandırılıblar.

"Dünyanın ən böyük dərsi" layihəsi ilə bağlı ətraflı məlumatı IDEA İctimai Birliyi və UNICEF-in Azərbaycan nümayəndəliyindən əldə etmək mümkündür.

**AZƏRTAC**
**2018, 25 sentyabr**

# Bakıda "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub

Oktyabrın 22-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Baku Crystall Hall"da "Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə" mövzusunda II gənclər sərgisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, digər rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Sərginin keçirilməsində məqsəd gənclərin ekoloji sahəyə marağını artırmaq, onları bu sahədə maarifləndirmək, eyni zamanda, yaradıcılıq potensiallarını dəstəkləmək və sosial təşəbbüskarlığı stimullaşdırmaqdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və gənclər və idman naziri Azad Rəhimov sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Sərgidə 14-29 yaşlı 200-dək gəncin dəzgah rəngkarlığı, kvillinq, xəttatlıq, keramika, rəngkarlıq, ebru sənəti, qrafika, qravüra, landşaft dizaynı, batika, vitraj, qravüra üslubları üzrə ekoloji mövzuda çəkdikləri rəsm əsərləri nümayiş etdirilib. Bununla yanaşı, gənclərin ekoloji mövzuda hazırladıqları müxtəlif əsərlər də sərgilənib.

Tədbirdə ustad dərsləri keçirilib, gənclərin iştirakı ilə eko-tamaşa, səhnəciklər, viktorinalar, sağlam həyat tərzinin təbliği məqsədilə idman yarışları təşkil olunub, adı Azərbaycanın "Qırmızı kitabı"na düşən heyvanlar və nadir ağaclar nümayiş etdirilib.

Sonda sərginin qalibləri mükafatlandırılıb.

Qeyd edək ki, sərgi Prezident İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın 5.2.3-cü bəndini (gənclərin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirmək) rəhbər tutaraq və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.6.5-ci (gənclər arasında ətraf mühit və mənfi ekoloji tendensiyaların sağlamlığa zərərli təsiri ilə bağlı maarifləndirmə işlərinin aparılması) bəndinin icrasını təmin etmək məqsədilə keçirilib.

**AZƏRTAC**
**2018, 22 oktyabr**

## Lerikdə aztəminatlı ailələr üçün meyvə bağları salınıb

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə oktyabrın 30-da Lerik rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb.

Ağacəkmə aksiyaları zamanı Lerik rayonunda ayrılan 2 hektar ərazidə 312 ədəd qoz ağacı əkilib. Salınan meyvə bağları Lerik rayonunda yaşayan aztəminatlı ailələr arasında bölünərək, onların təmənnasız istifadəsinə verilib. Aztəminatlı ailələr bu meyvə bağlarına qulluq edib onlardan məhsul alaraq g

Meyvə ağaclarının əkilməsi üzrə pilot layihəyə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayında başlanmışdır. Layihə çərçivəsində ilk meyvə bağı İsmayıllı, daha sonra isə Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi və Bərdə rayonlarında salınaraq aztəminatlı ailələr, o cümlədən Qarabağ müharibəsi veteranı və şəhid ailələrinin istifadəsinə verilmişdir.

Layihənin sosial-iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı mallarının idxalından asılılığının azaldılmasına da töhfə verəcək.

Layihə çərçivəsində fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma növlərindən olmaqla ümumilikdə 15000-ə yaxın meyvə ağacları əkilib və 41 aztəminatlı ailə meyvə bağları ilə təmin edilib.

Aztəminatlı ailələr üçün meyvə bağlarının salınması layihəsi çərçivəsində ağacəkmə aksiyaları oktyabr-noyabr ayları ərzində Quba, İmişli, Qazax, Qəbələ və Göygöl rayonlarında, gələcəkdə isə ölkənin digər rayonlarında da təşkil ediləcəkdir.

Qeyd edək ki, Lerik rayonunda meyvə bağlarının salınması üzrə təşkil edilən aksiyaya ümumilikdə 200 nəfərdən çox yerli gənc könüllü olaraq qoşulmuşdur. IDEA ətraf mühitə laqeyd qalmayaraq, aksiyada iştirak etmiş bütün könüllülərə və tədbirin keçirilməsinə dəstək vermiş qurumlara təşəkkürünü bildirir.

**Bağır Əliyev**

**AZƏRTAC**
**2018, 30 oktyabr**

## Leyla Əliyevanın təşəbbüsü paytaxtın abadlaşdırılması prosesinə böyük təkan verir

**Yasəmən Musayeva**

IDEA İctimai Birliyinin və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri rayonlarının İcra hakimiyyətlərinin dəstəyi ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir. "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan daha bir həyət sakinlərin istifadəsinə verilib.

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xıdmətindən verilən məlumata görə, yenilənən həyət Xətai rayonu, Afiyyəddin Cəlilov küçəsi 11, Fəzail Bayramov küçəsi 5, Firuz Qənbərov küçəsi 6 və Sergey Senyuşkin küçəsi 10 ünvanlarında 600 nəfər sakinin yaşadığı 4 ədəd beş mərtəbəli binaları əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Bakı Şəhər İcra Hakimiyyətinin strukturlarının dəstəyi ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan ümumi sahəsi 6500 kvadratmetr olan həyətdəki binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Binaların girişləri əsaslı təmir edilmiş, giriş qapıları müasir standartlara uyğun yeni kod tipli qapılarla əvəzlənmiş, girişlərdəki köhnə pəncərələr yeniləri ilə dəyişdirilmiş, binaların kürsü hissəsi aqlay üzlük daşı ilə üzlənərək fasadları əsaslı təmir olunmuşdur. Binaların girişlərindəki qeyri-qanuni tikililər sökülərək əvvəlki vəziyyətinə gətirilmişdir. Həyətdə yerləşən xeyir-şər evi əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Həyətdə 680 metr uzunluğunda yeni səki daşları düzülmüş, köhnə asfalt örtüyü qaşınaraq 3500 kvadratmetrə yaxın yeni asfalt örtüyü salınmışdır. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilmiş, 600 kvadratmetrə yaxın ərazidə yaşıllıq zolağı salınmışdır. Sakinlərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə yeni söhbətgah, idman qurğuları, uşaqlar üçün uşaq əyləncə mərkəzi quraşdırılmış və döşəməsi rezin örtüklə örtülmüşdür. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Həyətə yeni müasir tipli oturacaqlar qoyulmuş, müasir işıqlandırma sistemi və təhlükəsizlik kameraları quraşdırılmışdır.

Qeyd edək ki, "Bizim həyət" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilmişdir. Sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan yeddinci həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

**Azərbaycan.** - 2018.- 8 noyabr. - № 252. - S. 6.

# "Caspian Ecology" IX Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisi çərçivəsində növbəti konfrans keçirilib

"Caspian Ecology" IX Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisi çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə "Qafqazda vəhşi təbiətin bərpası üzrə əməkdaşlıq" mövzusunda növbəti beynəlxalq elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Azərbaycanın və Gürcüstanın ekologiya və ətraf mühit nazirləri, Dünya Vəhşi Təbiət Fondunun (WWF), eləcə də Azərbaycan, Rusiya, Türkiyə, Almaniya, Niderland, Belarus, İranın rəsmi nümayəndələri və beynəlxalq mütəxəssislər iştirak ediblər.

Konfransın keçirilməsində məqsəd bioloji müxtəlifliyin qorunması, regionun təbii bərpa sahəsində potensialının inkişafı üçün prioritetlərin müəyyənləşdirilməsi, regionda icra olunan oxşar layihələrin təcrübəsinin öyrənilməsi, məlumat mübadiləsinin aparılması və regional əməkdaşlığın genişləndirilməsi olub.

Konfransda çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bildirib ki, ətraf mühit problemləri sərhəd tanımır. İnsan məskunlaşmaları nəticəsində 40 faiz vəhşi mühit məhv edilib. Ekosistemin deqradasiyası göz önündədir.

Azərbaycanda həm qurudakı, həm də sudakı canlıların reabilitasiyası ilə bağlı mühüm işlərin görüldüyünü qeyd edən Leyla Əliyeva Qafqaz bəbiri, ceyran və nərə balığının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Diqqətə çatdırıb ki, məqsəd bütün təşəbbüsləri dəstəkləmək, təcrübələri bölüşməkdir. Azərbaycanda ceyranların sayı 600-dən 6000-ə qədər artırılıb və bu proses hazırda davam edir. BMT-nin Dayanıqlı İnkişaf Məsələlərinə də toxunan Leyla Əliyeva xeyli sayda insanın təbiətin mühafizəsi ilə bağlı çağırışlara qoşulduğunu deyib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, Azərbaycanda 24 yasaqlıq, 10 milli park, 10 qoruq fəaliyyət göstərir. Qoruqlarda antropogen fəaliyyətə icazə verilmir. Ərazidə olan bütün təbii landşaftlar qorunur və elmi-təcrübə mərkəzi kimi istifadə edilir. Biomüxtəlifliyin qorunması üçün Qızılağac Milli Qoruğu yaradılıb. Zaqatala, Balakən biosferinin yaradılması üçün isə əsaslı işlər görülür.

Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitaşvili qeyd edib ki, ölkəsində 9 faiz ərazi xüsusi mühafizə ərazisi sayılır. Uzun illərdir ki, Gürcüstan Azərbaycan ilə vəhşi təbiətin qorunması və mühafizəsi sahəsində əməkdaşlıq edir. Vəhşi təbiətin qorunması və mühafizəsi sərhəd tanımır. O vurğulayıb ki, Azərbaycan nəsli kəsilməkdə olan heyvanların artımında böyük nailiyyətlər əldə edib.

Dünya Vəhşi Təbiət Fondunun Cənubi Qafqaz üzrə nümayəndəsi Aurel Heydelberq deyib: "Biz vəhşi təbiətin qorunması və mühafizəsi ilə bağlı araşdırmalar aparırıq. Bu, çox mühümdür. Mənim burada yerli mütəxəssislərlə də müzakirələrim olub. Bu konfrans Qafqaz ölkələrinin təcrübələrini bölüşməyə təkan verəcək".

Konfrans mövzu ətrafında müzakirələrlə davam edib.

**AZƏRTAC**
**2018, 16 noyabr**

# İDEA-nın təşəbbüsləri: xeyirxahlıq və humanizmə çağırış

**Xuraman İsmayılqızı**

Elm və texnikanın inkişafı ilə yeni ixtiraların tətbiqi, istehsal sahələrinin yaradılması istər-istəməz insanların "ətraf mühitə müdaxiləsini" qaçılmaz edir. Təbii ki, bu zaman təbiətin sərvətləri olan torpağa , havaya, suya müəyyən mənada zərər də vurulur. Belə halların qarşısının alınması isə sabahımız üçün daim narahatlıq keçirən dünya alimlərini, ekoloqlarını düşündürür, təhlükələrin qarşısının alınması üçün yollar axtarılır, bütün insanları bir araya toplayan çağırışlar səslənir, gələcəyimizin təhlükəsizliyi üçün hamının səfərbər olması tövsiyə edilir.

Prezident İlham Əliyevin "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı , ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su- bütün bunlara biz çox böyük diqqət göstərməliyik. Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkənin ümumi siyasətinin ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Neft-qaz tükənən sərvətdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət, ətraf mühit-bu daimi sərvətdir. Əsrlər boyu minilliklər boyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq" kimi tövsiyələrini dəstəkləyən ölkə vətəndaşları yaşadıqları ərazinin təmiz və abad olması naminə iməciliklərə həvəslə qoşulurlar.

Humanist və xeyirxah layihələri , təşəbbüsləri təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə belə dəstəklənən Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq- İDEA-nın təsisçisi Leyla Əliyeva müasir dövrün çağırışlarına cavab olan qlobal ekoloji kampaniyaların məqsədlərini belə açıqlayır: " Sabah biz necə dünyada yaşayacağıq? Bizi nələr gözləyir, ekoloji problemlərin nə kimi nəticələri ola bilər? Biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanılmasına töhfə verməliyik. Bunu nəzərə alaraq İDEA - qlobal gənclik ekoloji kampaniyasına başladıq."

"Bir planet-bir gələcək" devizi ilə maraqlı layihələr reallaşdıran İDEA-nın təşəbbüsləri beynəlxalq səviyyədə dəstəkləndi, kampaniyaya qoşulanların sayı artdı. BMT-tərəfindən də yüksək dəyərləndirildi. İDEA regional diskussiyalar aparmaqla bəşəriyyəti təhdid edən ən qlobal təhlükələrə qarşı birgə mübarizənin yollarını axtarır, ekoloji tarazlığın qorunması üçün vahid amal naminə birliyi düzgün yol və məqsəq hesab edir.

İDEA-nın rəhbəri Leyla Əliyeva başçılıq etdiyi təşkilat barədə açıqlama verərək bildirir ki, ətraf mühitin müsbət, dayanıqlı inkişafını təmin etmək məqsədilə gənc nəsil üçün vacib olan DİALOQ-un fəaliyyəti, liderlik və məlumatlılıq prinsiplərinə əsaslanır: " İDEA ətraf mühitin qorunması üzrə beynəlxalq təşkilatdır. Biz bir çox layihələrə imza atmışıq. Bunlardan biri Azərbaycanda üç milyon ağacın əkilməsi olub ki, bu da ölkəmizdə 3 milyon gənci ehtiva edir."

İDEA-nın "Hər kağızı, bir yarpağa dəyişək" adlı layihəsi də uğurlu oldu. Aksiya iştirakçılarının topladıqları 78 min 810 kq tullantı müqabilində 576 ədəd ağac alınıb "Təmiz Şəhər" ASC-yə məxsus Balaxanı Tullantıların Zərərsizləşdirilməsi Poliqonunun (5 min hektar) ərazisində əkilmişdir. Məlumat üçün bildirək ki, 1 ton kağızın istehsalı üçün orta hesabla 17 ağac kəsilir ki, bununla da atmosferin çirklənmə riski artır.

İDEA və "Cavan" Gənclər Hərəkatı İctimai birliklərinin təşkilatçılığı və Bakı şəhərinin rayon icra hakimiyyətlərinin dəstəyi ilə paytaxtda ictimai binaların həyətlərinin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir. Nəsimi rayonu, Alı Mustafayev küçəsi, 17-17a ünvanında 1200-dən artın sakinin məskunlaşdığı binaları əhatə edən "Bizim həyət" layihəsi ilk olmadı.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA-nın təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsinin tətbiqi ilə artıq səkkiz ictimai binanın həyətində təmizlik, abadlıq işləri aparılmış, ətraf tullantılardan təmizlənmişdir. Layihənin əsas məqsədi ekoloji cəhətdən təmiz, abad həyətlərin sayını artırmaq, modernləşdirmək, yaşıllıqları qorumaq, uşaqların istirahəti, idmanla məşğul olmaları üçün mini-futbol meydançaları, əyləncə güşələri yaratmaqdır. Layihə çərçivəsində yararsız halda olan bəzi binaların fasadları və giriş hissələri də təmir olunur. Bina sakinlərinin, yaşlı insanların mənəvi istirahəti də unudulmur. Ən əsası odur ki, bu layihənini həyata

keçirilməsində, əlavə ağacların əkilməsində, tullantıların təmizlənməsində bina sakinləri könüllü, ailəliklə iştirak edir, vətəndaşlıq borcunu yerinə yetirirlər.

Bu cür layihələr bütünlükdə paytaxtın simasını dəyişir, insanların yaşadıqları ərazilərin təmizliyi naminə məsuliyyətini artırır, uşaqların sağlamlığının qorunmasına xidmət edir. İctimai fəallıq tələb edən, “Bizim həyət” sözünü fəxrlə demək üçün kollektiv əməyin məhsulu olan bu cür layihələrdə iştirak hər kəsin arzusu, istəyidir.

**İki sahil.** - 2018.- 8 dekabr. - № 233. - S. 20.

## “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

IDEA İctimai Birliyinin və “Cavan” Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə baxımsız həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi uğurla davam edir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 19-da “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonu, Xudu Məmmədov 4-4a ünvanında 400 nəfərə yaxın sakinin məskunlaşdığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 3200 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə uşaq oyun, idman elementləri quraşdırılıb, üç söhbətgah salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ağac və kol əkilib, 500 kvadratmetr ərazidə yaşıllıq salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Qeyd edək ki, “Bizim həyət” layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan doqquzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2018, 19 dekabr**

# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 26-da "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nəsimi rayonu, Alı Mustafayev küçəsi 11 ünvanında 860 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 1000 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə 100 kvadratmetr ərazidə uşaq oyun elementləri, 200 kvadratmetr mini futbol və basketbol, 100 kvadratmetr idman-fitnes və 20 kvadratmetr şahmat meydançaları salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac və kol əkilib, 400 kvadratmetr ərazidə qazon salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Nəsimi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan onuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2018, 27 dekabr**

## Paytaxtda abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, dekabrın 28-də “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nərimanov rayonu, Atatürk prospekti 37, 37A, 39 ünvanında 1500 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 1300 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə ərazidə uşaq oyun elementləri, mini futbol və şahmat meydançaları, həmçinin 500 kvadratmetr velosiped yolu salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac və kol əkilib, 3500 kvadratmetr ərazidə qazon salınıb, 6 söhbətgah və sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Nərimanov rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on ikinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Əziz Məmmədov**

**AZƏRTAC**
**2018, 28 dekabr**

# Təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.***

AZƏRTAC xəbər verir ki, yanvarın 4-də “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Qaradağ rayonu, Sahil qəsəbəsi M.Seyidov küçəsi 13, 16, Ə.Gülbabayev küçəsi 14, 16, 18, 10 ünvanlarında 4000 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 25 600 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə ərazidə 3 ədəd uşaq oyun elementləri, 460 kvadratmetr - mini futbol, 140 kvadratmetr - idman-fitnes, 35 kvadratmetr şahmat meydançaları salınıb, 3 ədəd səyyar kitab şkafları, 350 nəfərlik xeyir-şər evi və 6 ədəd söhbətgah tikilib. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 515 ədəd ağac və kol əkilib. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə 8 ədəd müşahidə kameraları quraşdırılıb.

Qaradağ rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 4 yanvar**

## Təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, yanvarın 16-da "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Sabunçu rayonu, Sülh küçəsi 14/1, 14/2 ünvanında 1000 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti də nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ərazidə idman qurğuları, uşaqlar üçün xüsusi örtüklü əyləncə mərkəzi quraşdırılıb, 4 ədəd söhbətgah və oturacaqlar qoyulub. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 700 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Sabunçu rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on beşinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 16 yanvar**

# Leyla Əliyevanın paytaxta növbəti töhfəsi

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət” layihəsi paytaxt Bakıda uğurla davam edir.

Fevral ayının 18-də "Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küç. 39, 41, 46, 51, 53, 55, 55/57, 57 ünvanlarında 2500 nəfərə yaxın sakinin yaşadığı coxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad olması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınmış, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şərait yaradılmışdır. Gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə 2 ədəd mini futbol meydançası, 2 ədəd şahmat meydançası, idman qurğuları, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi, 14 ədəd söhbətgah quraşdırılmış və oturacaqlar qoyulmuşdur. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılmış, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 800 m2 ərazidə yaşıllıq zolağı salınıb. Sakinlərin təhlükəsizliyinin təmin olunması məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş bu həyət layihə çərçivəsində abadlaşdırılan on altıncı həyətdir.

**Fərizə ƏHMƏDOVA**

**Azərbaycan.**-2019.-19 fevral.- №40.-S.11.

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, martın 4-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Xətai rayonunun Zığ yolu, 9 ünvanında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə mini-futbol, voleybol və basketbol meydançaları, 6 idman qurğusu, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi, o cümlədən 19 oturacaq quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzinin təmin edilməsinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idman məşğələlərinə marağın yaradılmasına nail olmaqdır. Həmçinin ərazidə fəvvarə tikilib, "Şəhidlər kompleksi" bərpa edilib.

Sakinlərin istəkləri nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Sahəsi 13 min kvadratmetr olan həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 5 min kvadratmetrdə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on yeddinci həyətdir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızda abadlaşdırılmağa ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 4 mart**

# Binəqədi rayonunda "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən təmirsiz həyətlərin abadlaşdırılmasına yönəldilən "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, martın 18-də həmin layihə çərçivəsində Binəqədi rayonundakı, S. Məmmədova küçəsi 207, 209 ünvanında 600 sakinin yaşadığı binanın həyəti abadlaşdırılaraq istifadəyə verilib.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt həyətlərinin abadlaşdırılması, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün rahat və ekoloji cəhətdən təmiz yaşam şəraitin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud olanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupların dan olan uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirməsi məqsədilə ərazidə idman qurğuları, uşaqlar üçün oyun meydançası, 3 söhbətgah və oturacaqlar quraşdılıb. Meydançaların salınması gənclərin sağlam həyat tərzi sürməsi, sağlamlıqlarını möhkəmləndirməsi, asudə vaxtlarını səmərəli keçirməsi, eləcə də onların sistemli şəkildə idmanla məşğul olması məqsədi daşıyır.

Sakinlərin maraq və arzuları nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqlara qulluq edilməklə yanaşı, 50 yeni ağac əkilib, yaşıllıq zolağı salınıb.

Bu, Binəqədi rayonunda layihə çərçivəsində abadlaşdırılaraq sakinlərin istifadəsinə verilən 21-ci həyətdir.

Onu da qeyd edək ki, layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar IDEA İctimai Birliyinə abadlaşdırılmağa ehtiyacı olan həyətlər haqqında məlumat vermək xahiş olunur.

**AZƏRTAC**
**2019, 18 mart**

## “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılmış daha iki həyətin açılışı olub

***Martın 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan daha iki həyət sakinlərin istifadəsinə verilib.***

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyətlər Nəsimi rayonu, Rəşid Məmmədov küçəsi və Səbail rayonu, Cəmil Hasilov küçəsində, ümumilikdə 2 min nəfərdən çox sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Layihə çərçivəsində abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman qurğuları, şahmat və uşaqlar üçün oyun meydançaları, söhbətgah və oturacaqlar, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürməsinə, sağlamlıqlarının möhkəmləndirilməsinə, asudə vaxtlarının səmərəli keçirilməsinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma vərdişinin yaranmasına nail olmaqdır.

Sakinlərin istəkləri nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 200 ağac əkilib və 1000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 12 mart**

## Ağgöl Milli Parkına buraxılmış ceyranların sayı təbii yolla artaraq 60-ı keçib

Heydər Əliyev Fondunun, IDEA İctimai Birliyinin və Dünya Vəhşi Təbiəti Mühafizə Fondunun dəstəyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi çərçivəsində Ağgöl Milli Parkının ərazisinə 2010-cu ildən başlayaraq müxtəlif vaxtlarda 21 baş ceyran buraxılıb. Aparılan müşahidələr nəticəsində hazırda bu ərazidə ceyranların sayının 60-dan çox olduğu müəyyənləşdirilib. Monitorinqlər, aparılan tədqiqatlar sübut edir ki, ceyranların bu əraziyə yayılması və uyğunlaşması prosesi uğurla davam edir.

Ağgöl Milli Parkının direktoru Loğman Mehdiyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, ceyranların təhlükəsizliyinin təmin olunması, onların mühafizəsi məqsədilə burada iki yeger evi – gözətçi məntəqəsi fəaliyyət göstərir. Təbliğat və xəbərdarlıq məqsədilə parkın ərazisində Heydər Əliyev Fondu tərəfindən hazırlanmış maarifləndirici və qadağanedici lövhələr qoyulub. Milli parkın yaxınlığındakı yaşayış məntəqələrində əhali arasında vaxtaşırı maarifləndirmə işləri aparılır. Görülən tədbirlər ceyranların sayının artmasına əlverişli şərait yaradır.

Loğman Mehdiyev qeyd edib ki, aprel-may aylarında ceyranların növbəti balalama dövrü başlayacaq.

**Tahir Ağaməmmədov,**
**Ağcabədi**

**AZƏRTAC**
**2019, 25 mart**

## Bakıda IDEA İctimai Birliyinin "Şəhər ekologiyası" layihəsi həyata keçirilir

Bakıda IDEA İctimai Birliyinin şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunması və qaytarılmasına yönəlmiş "Şəhər ekologiyası" layihəsi həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, mayın 9-da layihə çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakının Velopark ərazisində yerləşən yaşıllıq sahəsinə 20 sincab buraxılıb.

Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi fəaliyyət göstərir, şəhər boyu pişiklər üçün xüsusi evciklər qurulur və digər işlər aparılır. "Şəhər ekologiyası" layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi, eləcə də bu növlərin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngliyin yaradılmasından, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsindən ibarətdir.

Keçmişdə Bakı şəhəri mühitində çoxsaylı sincab və tutuquşular məskunlaşmışdır ki, onlar parklarda və yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşmışlar. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb.

**AZƏRTAC**
**2019, 9 may**

## “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Mayın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyətin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 37, 39, 41, 47, 49 və Qara Qarayev prospekti 59 ünvanlarında 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 mini futbol meydançası, 2 şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, 10 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 11 may**

## Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və digər qonaqlar iştirak ediblər.

Vaxtilə ölkəmizdə nəsli kəsilmiş vəhşi öküz - Qafqaz zubru növündən olan 8 baş heyvan mayın 16-da Fransa və Belçika zooparklarından Azərbaycana gətirilib. Onlar üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində xüsusi ərazi yaradılıb. Heyvanlar bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra Şahdağ Milli Parkına buraxılacaq. Əraziyə bu il daha 12 baş zubrun gətirilməsi də nəzərdə tutulur.

Yerli sakinlər və məktəblilər də zubrlara xüsusi maraq göstərərək tədbirə qoşulub, nəsli tükənmək təhlükəsi altında olan növlərin bərpası istiqamətində aparılan işlərlə tanış olub və öz dəstəklərini nümayiş etdiriblər. Eyni zamanda, tədbirə qatılan yerli gənc təbiətsevərlərə zubrların Azərbaycanda tarixi, onların təbiətdə rolu və mühafizəsi haqqında mühazirələr təşkil olunub.

Zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam etdirilir. Vəhşi öküzlər güclü, cüssəli heyvanlardır və qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub.

IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi ilə birgə ölkəmizdə nadir növlər olan Qafqaz bəbiri, ceyran və zubrların populyasiyasının bərpası istiqamətində uğurlu layihələr icra edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq layihənin təşkilatçıları ölkəmizin şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə respublika ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işinə dəstək olmağa çağırırlar.

**AZƏRTAC**
**2019, 22 may**

## “Şəhər ekologiyası” layihəsi uğurla davam edir

Mayın 24-də IDEA İctimai Birliyinin "Şəhər ekologiyası” layihəsi çərçivəsində ADA Universitetinin kampusunda mövcud olan yaşıllıq sahəsinə sincablar buraxılıb. "Şəhər ekologiyası” layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib.

Sincablar üçün əlverişli yaşam şəraitinin olduğu kampus ərazisinə ilkin olaraq 25 sincab buraxılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların şam ağaclarının çoxluq təşkil etdiyi yeni Zooloji Parkın ərazisinə və Dədə Qorqud Parkına keçərək təbii şəkildə çoxalmasıdır.

Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanılması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda fəaliyyəti küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi yaradılıb, şəhərboyu pişiklər üçün xüsusi evciklər qurulur, IDEA quş yuvaları asılır və digər bir sıra işlər aparılır. "Şəhər ekologiyası” layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi, eləcə də bu növlərin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngin yaradılmasından, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsindən ibarətdir.

Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və tutuquşular məskunlaşıb və onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb. Layihə çərçivəsində kampusun ərazisinə buraxılan sincablar şam ağaclarının çoxluq təşkil etdiyi Dədə Qorqud Parkına və yeni Zooloji Parkın ərazisinə də keçərək təbii şəkildə çoxalacaq.

IDEA İctimai Birliyi hər kəsi şəhər mühitində yaşaya bilən fauna növlərimizin sayını bərpa etmək prosesinə dəstək verməyə, heyvanlara qarşı qayğıkeş olmağa, onlara yeni yaşam mühitinə adaptasiya dövründə həssaslıqla yanaşmağa çağırır.

**AZƏRTAC**
**2019, 24 may**

## "Azərbaycanın 7 möcüzəsi" televiziya layihəsinə start verilib

Mayın 28-də İçərişəhərdə IDEA İctimai Birliyi və "Nature and History Production"ın birgə dəstəyi ilə start verilən "Azərbaycanın 7 möcüzəsi" adlı yeni televiziya layihəsinin təqdimat mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda ilk olan "Azərbaycanın 7 möcüzəsi" layihəsinin məqsədi cəmiyyətdə vətənpərvərlik hisslərini artırmaq, milli-mədəni və tarixi irsimizi qorumaq, Azərbaycan tarixinin mübahisəli və təhrif edilmiş faktlarını dövrün tarixi abidələri fonunda öyrənərək araşdırmaq, ölkəmizin ərazisində yerləşən tarixi, mədəni və təbii obyektlərin tanıdılmasına, qorunmasına və bərpa edilməsinə diqqət yönəltməkdir.

Həmçinin "Azərbaycanın 7 möcüzəsi" layihəsi ölkə daxilində və xaricində Azərbaycanın tarixi, mədəni və təbii incilərini tanıtmaqla yerli və xarici turizmin, eləcə də həmin ərazilərdəki infrastrukturun inkişafına təkan verməyi öz qarşısına məqsəd qoyub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, ictimai-siyasi xadimlərin, xarici səfirliklərin nümayəndələrinin, elm adamlarının, tanınmış mədəniyyət və incəsənət ustalarının, eləcə də digər peşə sahiblərinin qonaq olduğu tədbir çox maraqlı anlarla yadda qaldı. Xüsusi olaraq hazırlanan, layihənin mahiyyətini əks etdirən məkanın dekorasiyasında tariximizi əks etdirən atributlar, mənəvi dəyərlərimizi ifadə edən geyimlər xüsusi diqqət çəkdi. Bunlardan əlavə, məkanın interyerində hazırlanan qala maketi və üzərində insan təsvirlərinin əks olunduğu iri qaya daşları qonaqları məkana daxil olarkən tam fərqli hisslərə bürüyüb, keçmişə kökləyib.

Tədbirdə çıxış edən "Nature and History Production"ın rəhbəri Hikmət Nağdəliyev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev layihə haqqında öz fikirlərini bölüşdülər.

Təqdimatın sonunda "www.yeddi.az" saytında "Azərbaycanın 7 möcüzəsi" layihəsinin səsverməsinə start verilib.

Tədbirə dəvət olunan qonaqlar daha sonra qədim musiqi alətlərindən ibarət ansamblın çıxışlarını dinləyiblər.

**İki sahil.** - 2019.- 30 may. - № 97. - S. 11.

# IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Novxanı çimərliyində təmizlik aksiyası

**Çimərlik mövsümünün açılışı ilə əlaqədar, mayın 30-da IDEA İctimai Birliyinin təşkilatçılığı, Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirilib.**

Novxanı çimərliyində təşkil edilən aksiyaya Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və 100 nəfərə yaxın könüllü gənc qoşulub.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Qeyd edək ki, aksiyanın keçirilməsi üçün xüsusən ictimai çimərlik seçilmiş, insanların rahat, təmiz və təhlükəsiz məkanda pulsuz istirahət edə bilməsi üçün ərazidə oturacaqlar və sanitar qovşaq quraşdırılıb, voleybol üçün meydança salınıb, zibil qutuları yerləşdirilib.

"Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 11-ci aksiyadır.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları DJ-lərin səsləndirdiyi musiqi sədaları altında çimərlikdən 2 tona yaxın tullantı toplayıblar. Daha sonra tullantılar çeşidlənərək çimərliklərdə ən çox müşahidə olunan zibillər müəyyən edilib. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika cəlb olunub.

IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir. Çimərlik mövsümünün başlanmasına qədər IDEA İctimai Birliyi tərəfindən Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş çox sayda gəncin cəlb olunduğu daha bir təmizlik aksiyasının keçirilməsi planlaşdırılıb.

IDEA İctimai Birliyi bütün təbiətsevərləri ekoloji problemlərin həlli istiqamətində təşkil edilən aksiyalara biganə yanaşmamağa və ətraf mühitin qorunmasına öz töhfələrini verməyə çağırır!

**Xalq qəzeti.**-2019.-31 may.-№118.-S.6.

## “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı

IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bununla bağlı keçirilən tədbirdə iştirak edib.

Tədbir zamanı uşaqlar üçün müxtəlif əyləncə proqramları təqdim olunub. Həyətdə uşaqlar üçün yeni salınmış oyun meydançası, maraqlı attraksion, sürüşkən və yelləncəklər onların böyük sevincinə səbəb olub. Cizgi film qəhrəmanlarının (maskotlar) və animatorların da qoşulduqları tədbir zamanı uşaqlar sevimli personajları ilə görüşüb, onlarla birlikdə əyləniblər.

Uşaqlar bayramlarını bol əyləncələrlə qeyd etməklə yanaşı, istedad və bacarıqlarını da nümayiş etdirərək mahnı və rəqslər təqdim ediblər.

Qeyd edək ki, yenilənmiş həyət Xətai rayonu, İlqar Zülfüqarov küçəsi, 107, 109, 111, 113 ünvanlarında 2 min nəfərə yaxın sakinin yaşadığı doqquzmərtəbəli dörd binanı əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 mini futbol meydançası, 1 şahmat meydançası, idman qurğuları, 4 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi dördüncü həyətdir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.**-2019.-4 iyun.-№121.-S.9.

# IDEA ilə Ümumdünya Turizm Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Zurab Pololikaşvili ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

İmzalanma mərasimindən sonra Leyla Əliyeva ilə Zurab Pololikaşvili arasında ikitərəfli görüş keçirilib. Görüşdə Leyla Əliyeva ÜTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə IDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Tərəflər Azərbaycanda və regionda birgə layihələrin həyata keçirilməsi və beynəlxalq tədbirlərin təşkili perspektivlərini müzakirə ediblər.

**AZƏRTAC**
**2019, 17 iyun**

# Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

## Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib

İyunun 17-də Xəzər dənizinin ekoloji mühitinin yaxşılaşdırılması üzrə IDEA İctimai Birliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlığı çərçivəsində Neftçalada yerləşən Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov iştirak ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı nərə balıqartırma zavodu 2003-cü ildə istismara verilib. Bu zavod Xəzər regionunda ən iri nərə balıqartırma müəssisəsidir. Burada bölgə, nərə, kələmo və uzunburun kimi nərə cinsli balıq növləri artırılaraq Kür çayının mənsəbinə buraxılır. Zavodun istehsal gücü ildə 15 milyona qədər nərə balıq körpələridir. Ümumi sahəsi 15 hektar olan zavodda 4 nohur, 54 beton hovuz var.

Müəssisə ilə tanışlıqdan sonra Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi oldu.

Mərasimdə iştirak edən BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov jurnalistlərə müsahibəsində dedi: “Hər dəfə Azərbaycana gələndə təəssürat içində oluram. Bu gün mənim üçün daha bir səhifə açılıb. Leyla xanım Əliyeva ekologiya problemi ilə kifayət qədər çoxdan və ciddi məşğul olur. O, aydın başa düşür ki, Yer üzündə ən böyük sərvət insandır. İnsan isə yalnız ekologiyanın normal olduğu yerdə, normal təbii şəraitdə salamat qala bilər. Odur ki, bu işlə məşğul olur. Əlbəttə, bu, Birləşmiş Millətlər Təşkilatında təbiəti mühafizə ilə məşğul olan təşkilatın səfiri kimi məni çox sevindirdi. Bu problemlə getdikcə daha çox məşğul olduğum üçün deyə bilərəm ki, indi bu, ən başlıca məsələdir”.

Qeyd edək ki, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın “Mavi Dəniz Fondu” (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

**AZƏRTAC**
**2019, 17 iyun**

# "Bizim həyət" layihəsi çərçivəsində Binəqədidə abadlaşdırılan daha bir həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində iyulun 2-də növbəti həyətin açılış mərasimi keçirilib. Yenilənmiş həyət Binəqədi rayonu, İ.Həşimov küçəsi, 8 ünvanında 2 min sakinin yaşadığı binaları əhatə edir.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi paytaxtdakı həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə mini futbol meydançası, şahmat meydançası, 4 idman qurğusu, uşaqlar üçün oyun meydançası və 16 oturacaq quraşdırılıb. Həmin meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürməsinə, asudə vaxtlarını səmərəli keçirməsinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdan ibarətdir.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ağac əkilib və 1735 kvadratmetr sahədə yaşıllıq zolağı salınıb.

Binəqədi rayonunda abadlaşdırılaraq sakinlərin istifadəsinə verilən həyət layihə çərçivəsində sayca iyirmi beşincidir.

Layihənin paytaxtın bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar olaraq abadlaşdırılmaya ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələri IDEA İctimai Birliyinə təqdim etmək lazımdır.

**AZƏRTAC**
**2019, 2 iyul**

## IDEA-nın “Bizim həyət” layihəsi çərçivəsində növbəti həyət abadlaşdırılıb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində iyulun 4-də növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nəsimi rayonundakı Hüseyn Seyidzadə küçəsi 20, 22, 24, 26, 28 ünvanında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir. Bu, sakinlərin istifadəsinə verilmiş layihə çərçivəsində abadlaşdırılan sayca iyirmi altıncı həyətdir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması və sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə mini futbol meydançası, 2 şahmat meydançası, 3 söhbətgah, müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş idman qurğuları, uşaqlar üçün oyun meydançası və oturacaqlar quraşdırılıb, ümumilikdə 3 həyəti birləşdirən bir park yaradılıb.

İdman qurğuları və meydançalarının salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürməsi, asudə vaxtlarını səmərəli keçirməsi, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 5 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

“Bizim həyət” layihəsinin paytaxtın bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələri IDEA İctimai Birliyinə təqdim etmək lazımdır.

**AZƏRTAC**
**2019, 4 iyul**

## "Bizim həyət" layihəsi çərçivəsində Bakıda abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində iyulun 8-də Bakıda növbəti həyətin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nəsimi rayonu, Moskva prospekti 46, 48, Cavadxan küçəsi 1 saylı ünvanlarda 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ərazidə 1 mini futbol meydançası, 1 şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, 8 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda müntəzəm idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 80 ağac əkilib və 6 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Nəsimi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi yeddinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 8 iyul**

## Bakıda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Avqustun 6-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində Bakıda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Ümumi sahəsi 1,4 hektar olan həyət Binəqədi rayonu, Abay Kunanbayev küçəsi 3, 3A, 5/13, 5B, 5V, 5A/15 və Süleyman Sani Axundov küçəsi 15/1 ünvanlarında 2650 nəfər sakinin yaşadığı beşmərtəbəli yeddi binanı əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi paytaxt Bakıda həyətlərin ekoloji cəhətdən təmiz saxlanılması və abadlaşdırılması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və uşaqlar üçün 3 oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac, gül kolları əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində paytaxtımızda abadlaşdırılan iyirmi səkkizinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 6 avqust**

# Binəqədi rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, avqustun 15-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Binəqədi rayonu, Naxçıvani küçəsi 24, 24"a", 26, 26"a" ünvanlarında 2300 nəfər sakinin yaşadığı 4 doqquzmərtəbəli və 1 onmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə 1 ədəd minifutbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 8 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 2 500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi doqquzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 15 avqust**

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Sentyabrın 18-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Ümumi sahəsi 12000 kvadratmetr olan həyət Xətai rayonu, Lütfi Zadə 10, M.Rüstəmov 21, Sarayevo 19 ünvanlarında 2500 nəfər sakinin yaşadığı beş 9 mərtəbəli və iki 16 mərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə velosiped yolu, 10 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac, gül kolları əkilib və 4500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti**. - 2019.- 19 sentyabr. - № 206. - S. 2.

## "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 3-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Sabunçu rayonu, Bakixanov qəsəbəsi, 4090/94-cü məhəllə ünvanında 1500 nəfər sakinin yaşadığı dörd binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançası salınıb, velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kol əkilib, 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sabunçu rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuz ikinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Əziz Məmmədov**

**AZƏRTAC**
**2019, 3 oktyabr**

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

**Oktyabrın 10-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Suraxanı rayonu, Hövsan qəsəbəsi, İlqar Əhlimanov küçəsi 7, 8, 9,10, 10A, 10V, 10B ünvanlarında 4 200 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, velosiped yolu çəkilib.

Eyni zamanda, ərazidə 12 söhbətgah və ahıllar evi inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib və 2 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Suraxanı rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuz üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.**-2019.-11 oktyabr.-№225.-S.6.

## "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, noyabrın 6-da "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nizami rayonu, Rüstəm Rüstəmov küçəsi 35, 37, 39 və Qara Qarayev prospekti 63 ünvanlarında 950 nəfər sakinin yaşadığı dörd ədəd binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançası salınıb. Eyni zamanda, ərazidə 8 ədəd söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti**.-2019.-7 noyabr.-№248.-S.6.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi paytaxt Bakı şəhərində uğurla davam edir.

IDEA İctimai Birliyindən Trend-ə verilən məlumata görə, “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib.

Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küç. 39, 41, 46, 51, 53, 55, 55/57, 57 ünvanlarında 2500 nəfərə yaxın sakinin yaşadığı coxmərtəbəli yaşayış binalarını əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınmış, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə 2 ədəd mini futbol meydançası, 2 ədəd şahmat meydançası, idman qurğuları, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi quraşdırılmış, 14 ədəd söhbətgah quraşdırılmış və oturacaqlar qoyulmuşdur. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılmış, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 800 m2 ərazidə yaşıllıq zolağı salınıb. Sakinlərin təhlükəsizliyinin təmin olunması məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on altıncı həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti**.-2019.-13 noyabr.-№251.-S.4.

## IDEA İctimai Birliyi tərəfindən Bakıda tutuquşular məskunlaşdırılır

Noyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakının Atatürk prospektində yerləşən parkda 10 tutuquşu buraxılıb.

AZƏRTAC xəbər verir ki, IDEA-nın "Urban Ecology" ("Şəhər ekologiyası") layihəsi çərçivəsində parkda məskunlaşdırılmış yaxalıqlı tutuquşu (lat. Psittacula krameri) Bakı şəhərinin iqlim şəraitində yaşaya və çoxala bilən tutuquşu növüdür.

"Urban Ecology" layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsini, eləcə də bu növlərin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi fəaliyyət göstərir, şəhərboyu pişiklər üçün xüsusi evciklər qurulur və digər işlər aparılır.

Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngliyin yaradılması, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsidir.

Qeyd edilməlidir ki, keçmişdə Bakı şəhəri mühitində çoxsaylı sincab və tutuquşular məskunlaşıblar. Onlar parklarda və yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıblar. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalıb. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb.

**AZƏRTAC**
**2019, 19 noyabr**

## “Bizim həyət” layihəsi çərçivəsində Nizami rayonunda daha bir həyət abadlaşdırılıb

Dekabrın 16-da IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Nizami rayonu, Məmmədəli Şərifli küçəsi 84, 86, 88, 90, 92 ünvanlarında 1300 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 14 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac və kollar əkilib, 9 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.** - 2019.- 17 dekabr. - № 280. - S. 2.

## Binəqədi rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Dekabrın 24-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil edilib. Bayram tədbirində iştirak edən uşaqlar Şaxta baba, Qar qız, müxtəlif nağıl qəhrəmanları və məşhur personajlarla görüşüb, rəngarəng bəzədilmiş Yeni il küknarı ətrafında onlarla birlikdə əyləniblər. Şənliyin sonunda bütün uşaqlara bayram hədiyyələri təqdim olunub. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş əhval-ruhiyyə yaradıb, balacalara əsl bayram ovqatı bəxş edib və onlara əyləncəli anlar yaşadıb.

Yenilənmiş həyət Binəqədi rayonu, 6-cı mikrorayon, Svetlana Məmmədova küçəsi 201, 203, 203B, İsrafil Həşimov küçəsi 4A ünvanlarında 2200 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 400 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 70 ədəd ağac və kollar əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2019, 24 dekabr**

# IDEA İctimai Birliyi vətəndaşlara müraciət edib

IDEA İctimai Birliyi ağac kəsilməsi, vəhşi heyvanların qanunsuz saxlanması və qaçaqmalçılığı ilə yanaşı, küçə və digər ictimai yerlərdə su sızmalarının aşkar edilməsi halları ilə rastlaşdıqları zaman da vətəndaşları IDEA-nın "1113 - Təbiətin təcili yardımı" qaynar xəttinə məlumat verməyə çağırır.

İctimai Birlikdən AZƏRTAC-a verilən məlumata görə, xüsusi yaradılmış eyniadlı mobil qrup daxil olan şikayətləri yerində araşdıracaq, foto və videomateriallar toplayaraq, müvafiq dövlət qurumları ilə birlikdə təxirəsalınmaz tədbirlər görəcək.

Məlumdur ki, su həyatı təmin edən əvəzolunmaz nemətdir. Amma təəssüf ki, əksər ölkələrdə məişət suyu itkiləri 20-70 faiz arasındadır və bu itkilər suyun küçə və digər ictimai yerlərdə sızması nəticəsində baş verir. Bununla da, əhalisi sürətlə artan dünyada şirin suyun mövcudluğu daha da məhdudlaşa bilər. Su ehtiyatlarından səmərəli istifadə etmək və su itkilərini əhəmiyyətli dərəcədə azaltmaq qarşıda duran önəmli məsələlərdəndir.

Bunu nəzərə alaraq, IDEA İctimai Birliyi bir daha hər kəsi ətraf mühitə qarşı məsuliyyətli olmağa, su israfına yol verməməyə və su təchizatı şəbəkələrində sızma və ya qəzalar ilə bağlı dərhal "1113" qaynar xəttinə məlumat verməyə çağırır!

Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" qaynar xətti və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse--prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən qaynar xəttə daxil olmuş yüzlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.

**Xalq qəzeti.**-2020.-22 yanvar.-№12.-S.11.

## "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət

***Yanvarın 28-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmış növbəti həyət Yasamal rayonu, Parlament prospekti 2B, 4 və 6A ünvanlarında 600 sakinin yaşadığı üç yaşayış binasını əhatə edir.***

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad saxlanılması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, şahmat meydançası, velosiped yolu, uşaq meydançası salınıb. Eyni zamanda, ərazidə 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar, yeni liftlər quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 30 ədəd ağac və kollar əkilib, 500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.-**2020.-29 yanvar.-№18.-S.5.

# “Bizim həyət” layihəsi çərçivəsində Səbail rayonunda daha bir həyət abadlaşdırılıb

**Yanvarın 31-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Səbail rayonu, Badamdar qəsəbəsi, Rafiq İsgəndərov küçəsi 4A və Əziz Nəzərov küçəsi 3, 3A, 5 və 9 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir. “Bizim həyət” layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 160 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 130 ədəd ağac və müxtəlif növ gül kolları əkilib və 600 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

Xalq qəzeti.-2020.-1 fevral.-№21.-S.3.

## “Bizim həyət” layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb

Fevralın 11-də IDEA İctimai Birliyinin təmirə ehtayacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş növbəti həyət Pirallahı rayonu, S.Bağırov küç. 1, 2a, 8 və 16 ünvanlarında 400 nəfər sakinin yaşadığı 4 binanı əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaq meydançası salınıb.

Eyni zamanda, ərazidə 3 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün konteynerlər quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 150 ədəd ağac və kollar əkilib, 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Azərbaycan.-**2020.-12 fevral.-№31.-S.7.

# IDEA təşkilatının "Bizim həyət" layihəsinə Yevlax şəhəri də qoşulub

**Nigar**

***Əsas məqsədi həyət və məhəllələrin ekoloji cəhətdən təmiz və abadlaşdırılması, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması olan və IDEA təşkilatı tərəfindən həyata keçirilən "Bizim həyət" layihəsinə Yevlax şəhəri də qoşulub. Bununla əlaqədar şəhərdəki Heydər Əliyev prospekti 10 ünvanındakı həyətdə əsaslı təmir-yenidənqurma işləri layihəsi hazırlanıb. Təşkilatın köməyi ilə rayonun Malbinəsi kəndində 92 ailənin məskunlaşdığı yeni yaşayış məhəlləsinin sakinləri üçün bir ədəd subartezian quyusu qazılaraq istifadəyə verilib.***

Bu barədə Yevlax rayonunda 2019-cu ilin yekunlarına həsr olunan hesabat yığıncağında məlumat verilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül-çiçək düzüb, rayonun sosial-iqtisadi inkişafını əks etdirən videoslayda baxıblar. Daha çox qarşıda duran vəzifələr, görüləcək işlər, həyata keçiriləcək sosial layihələrin müzakirə edildiyi hesabat yığıncağında Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyevin məruzəsi dinlənilib. Bildirilib ki, 2019-cu ildə Yevlax şəhərində 11 saylı Vergilər Departamentinin inzibati binası istifadəyə verilib, Aran qəsəbəsindəki Mədəniyyət evində və musiqi məktəbində əsaslı təmir və yenidənqurma işləri aparılıb. Yevlax şəhərinin Şadlinski küçəsinin bir hissəsi əsaslı təmir edilib, 7 min kvadratmetr asfalt işləri görülüb. Pişəvəri küçəsinə 3635 kvadratmetr asfalt örtük salınıb, 564 poqonmetr səki daşları düzülüb. Heydər Əliyev, Nizami prospektlərində, dəmir yolu meydanında işıqlandırma sistemi yenidən qurulub, Bakı-Ələt-Gürcüstan avtomobil yolunun şəhərin daxilindən keçən hissəsinin işıqlandırma sistemi bərpa edilib, transformator məntəqəsi quraşdırılıb. 20 Yanvar Abidə Kompleksi əsaslı təmir olunub. Tezliklə 31 Mart Soyqırımı abidəsi də təmir ediləcək. Hazırda Yevlax şəhərində tikinti-quruculuq və abadlıq işləri geniş vüsət alıb. Data Mərkəzinin, 45 mənzilli yaşayış binasının tikintisi aparılır, Yevlax-Zaqatala avtomobil yolunun Yevlax rayonu ərazisindən keçən hissəsi yenidən qurulur. Yevlax şəhər 6 saylı körpələr evi-uşaq bağçası əsaslı təmir olunur, beşmərtəbəli yaşayış binasının dam örtüyü dəyişdirilir, Dədə Qorqud parkı yenidən qurulur. Yığıncaqda qeyd olunub ki, Yevlax şəhəri daha inkişaf edəcək, gözəlləşəcək. Qarşıda duran əsas vəzifənin sakinlərin sosial problemlərinin həllinə yönəldilən tədbirlərin həyata keçirilməsi olduğunu bildirən şəhər icra hakimiyyətinin başçısı deyib: "Araşdırmalar nəticəsində müəyyən edilib ki, Yevlax şəhərində 35 ictimai yaşayış binasının dam örtüyünün əsaslı təmirinə ehtiyacı var. Daha 15 yaşayış binasının dam örtüyü də qəzalı vəziyyətdədir. Bu binalar və onların dam örtükləri mərhələli şəkildə təmir ediləcək. Yevlax şəhərinin daha da abadlaşması və gözəlləşməsi istiqamətində xeyli iş görülməlidir. Şəhərdəki mövcud istirahət parkları yenidən qurulacaq. Məqsədimiz Yevlaxdakı parkların böyük şəhərlər səviyyəsindən də üstün olmasına nail olmaqdır. Şəhərdaxili yollar, küçə və meydanlar da mərhələlərlə günün tələblərinə uyğun təmir ediləcək. Bu il Kamil Sabitov küçəsinin yenidən qurulması nəzərdə tutulur". Məlumat verilib ki, Yevlax şəhəri üçün mühüm əhəmiyyət kəsb edən kanalizasiya xətlərinin çəkilişi və sakinlərin keyfiyyətli içməli su ilə təminatı məqsədilə dövlət başçısının Sərəncamına əsasən 5 milyon manat vəsait ayrılıb və hazırda layihələndirmə işləri həyata keçirilir. Rayonun 3 kənddə qazlaşma işləri aparılır, yaxın günlərdə Bəydili kəndində də bu işlərə başlanacaq və beləliklə, rayondakı 50 yaşayış məntəqəsindən hamısı təbii qazla təmin ediləcək. Əhalinin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün son üç ayda rayonda 3 yeni transformator quraşdırılıb, 406 ədəd elektrik dirəyi yenisi ilə əvəz olunub, yeni elektrik xətləri çəkilib. Bu istiqamətdə, həmçinin şəhərin giriş və çıxış yollarının, meydanların işıqlandırılması bərpa olunacaqdır. Səmədabad-Qaraməmmədli yolunda İncə çayının üzərindəki və Tanrıqulular kəndində Kürək çayın üzərindəki körpülərin tikintisi üçün aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılıb. Yayı isti və quraq keçən Yevlaxda yaşıllıqların artırılmasının xüsusi əhəmiyyətini nəzərə alaraq şəhər ərazisindən keçən magistral avtomobil yollarının və yaşayış binalarının həyətlərində yaşıllıqların artırılması, küçə və meydanlarda çəmənliklərin, güllüklərin salınması nəzərdə tutulub. Artıq payız aylarından bu işlərə başlanılıb və il ərzində davam etdiriləcək. Təhsil sahəsindən bəhs edilərkən bildirilib ki, 2019-2023-cü illəri əhatə edən regionların inkişafı Dövlət Proqramına əsasən rayonda 4 məktəb üçün yeni binaların tikilməsi, 4 məktəbin isə əsaslı təmir olunması nəzərdə tutulub. Artıq Qoyunbinəsi kənd tam orta

məktəbinin tikintisi üçün torpaq sahəsi ayrılıb və yaxın günlərdə tikinti işlərinə başlanacaq. Rayondakı uşaq bağçalarının da əsaslı və cari təmirinə, avadanlıqla təminatına ehtiyac var. Bu il iki uşaq bağçasının təmir olunması nəzərdə tutulur. Diqqətə çatdırılıb ki, 2019-cu ildə Yevlax rayonunda məhsul buraxılışının həcmi 675,5 milyon manat olub. Bu, əvvəlki ilin eyni dövrünə nisbətən 6 milyon manat və yaxud 0,9 faiz çoxdur. Məhsul buraxılışının 13,6 milyon manatını sənaye, 97,7 milyon manatını kənd təsərrüfatı, 28,3 milyon manatını tikinti təşkil edib. Bütün maliyyə mənbələri hesabına kapital qoyuluşunun həcmi 32 milyon 554 min manat olub. Adambaşına 5233,6 manat daxili məhsul istehsal olunub ki, bu da 2018-ci illə müqayisədə 22 manat və yaxud 0,4 faiz çoxdur. Yığıncaqda aqrar sahədən də ətraflı bəhs edilib. Bildirilib ki, Yevlaxda pambıqçılığın, baramaçılığın, taxılçılığın, heyvandarlığın inkişafı üçün əlavə tədbirlərin görülməsi nəzərdə tutulub. Aran qəsəbəsində şəkər zavodunun tikintisi, istixana kompleksinin və sənaye parkının yaradılması üçün torpaq sahələri ayrılıb. Bu obyektlərin fəaliyyətə başlaması kənd təsərrüfatı məhsulların istehsalının daha da artmasına təkan verməklə yanaşı, yeni iş yerlərinin açılmasına səbəb olacaq. Çıxışlarda əhalinin həyat şəraitinin yaxşılaşdırılması, elektrik enerjisi, təbii qaz və su ilə təminatı, aqrar sahənin inkişafı sahəsində görülən işlər təhlil edilib, uğurlarla yanaşı, problemlər də sadalanıb, onların həlli üçün təkliflər irəli sürülüb. Prezident Administrasiyasının məsul əməkdaşı Vəfadar Bağırov yığıncaqda çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişafdan, qazanılan uğurlardan, habelə qarşıda duran vəzifələrdən danışıb. Sonda 2019-cu ildə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif olunan İsrayıl Hüseynova 2-ci dərəcəli "Əmək" ordeni təqdim edilib. "Tərəqqi" medalı ilə təltif edilmiş Qənimət Qaraşova və Telli Kərimxanovaya, eləcə də idman yarışlarında qələbə qazanmış gənclərə hədiyyələr verilib.

**Palitra**. - 2020. - 21 fevral. - № 19. - S. 12.

# Vətəndaşların yerli su sızmaları barədə məlumat verməsi üçün mobil tətbiq istifadəyə veriləcək

Bu gün Kür çayı hövzəsinin bütün əsas tərəfləri üçün "Hydro-Heroes" mobil tətbiqinin ilk virtual təqdimatı keçirilib.

Bu mobil tətbiq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərsu" ASC, IDEA və BMTİP-QEF Kür II Layihəsi tərəfindən hazırlanır.

BMT-nin İnkişaf Proqramının Azərbaycan ofisindən AZƏRTAC-a bildiriblər ki, mobil tətbiq bütün vətəndaşları mobil telefonları vasitəsilə su sızması barədə məlumatları geolokasiya etiketlərindən istifadə edərək bələdiyyələrin su təşkilatlarına və "Azərsu" ASC-yə birbaşa bildirməyə təşviq etmək məqsədi daşıyır.

Mobil tətbiqdə həmçinin təhsil komponenti var – buraya suyun qorunması ilə bağlı məsləhətlər və ev təsərrüfatlarının gənc üzvləri üçün əyləncəli oyunlar daxildir.

Mobil tətbiq "Instagram", "Facebook", "Twitter", "WhatApp" kimi sosial media platformalarında istifadə edilə bilər. İstifadəçilərin Kür çayı haqqında daha çox məlumat əldə etmələri üçün "Kür Boğçası" tədris vasitəsinin genişləndirilmiş reallıq versiyası da təqdim ediləcək.

Mobil tətbiqin tamamlanmış beta versiyasının avqustun sonlarında Azərbaycan, Gürcüstan və digər ölkələrdə ictimaiyyət üçün istifadəyə verilməsi gözlənilir.

Su çatışmazlığı qlobal problemdir. İnsanlar kömək etmək istəyir, amma nə etməli olduqlarını bilmirlər. Şəhərlərdəki su sızmaları qiymətli şirin su ehtiyatlarının böyük ölçüdə tükənməsinə səbəb olur. Su sızmaları haqqında məlumatın daha sürətli şəkildə bildirilməsi və bu problemin ən tez zamanda aradan qaldırılması ilə suya daha çox qənaət edilə bilər. Bu mobil tətbiq hər kəsə hidro-qəhrəman olmağa kömək edəcək.

Ətraflı məlumat üçün link: https://kura-river.org/

**AZƏRTAC**
**2020, 10 iyul**

## Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Sentyabrın 15-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nizami rayonu, Cəmşid Naxçıvanski küçəsində yerləşən, 1500 nəfərə yaxın sakinin yaşadığı 88, 90, 92 saylı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: "Yaşıllıqların şəhər ətrafındakı insanların sosial həyatı və sağlamlığı üçün faydasını nəzər alaraq, İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən Bakının abadlaşdırmaya ehtiyacı olan həyətləri, parkları və meydançaların bərpasına, yaxşılaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi həyata keçirilir. Layihə başlayandan etibarən bizə yüzlərlə vətəndaşdan müraciətlər daxil olub. Bu müraciətlərə ardıcıl olaraq baxılır və onlar qiymətləndirilir. Hazırda pandemiya ilə əlaqədar bəzi yubanmalar, gecikmələr olub. Amma artıq bütün işlər bərpa olunub. Ümidvaram ki, biz yaxın zamanlarda bir çox belə gözəl açılışlar edəcəyik və insanların belə abad yerdə, açıq havada vaxt keçirməsinə şərait yaratmağa öz töhfəmizi verəcəyik".

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud olan insanların da rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 8 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ağac əkilib və 1330 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Azərbaycan.** - 2020.- 16 sentyabr. - № 187. - S. 7.

# Suraxanı rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti məhəllə sakinlərin istifadəsinə verilib

Sentyabrın 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış ünvan sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, üç həyəti birləşdirən məhəllə Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elçin Məmmədov küçəsi 3A, 4, 4A, 5, 5A, 5B, 5V ünvanın-da yerləşir və 3 min nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların genişləndirilməsi, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: "IDEA İctimai Birliyinin "Bizim həyət" layihəsi ətraf mühitin mühafizəsi və insan sağlamlığının qorunması məsələsinə daim önəm verən təşkilatın təsisçi və rəhbəri Leyla Əliyevanın xüsusi diqqət yetirdi-yi bir layihədir. Pandemiyanın davam etdiyi bir dövrdə insanların açıq havada, daha yaxşı məkanlarda vaxt keçirməsi məsələsi daha da böyük əhəmiyyət kəsb edir. Odur ki, karantin rejimi ilə bağlı bir sıra məhdudiyyətlər aradan qaldırıldıqdan dərhal sonra təmir-bərpa işləri davam etdirilib. Hazırda Bakı şəhərinin müxtəlif yerlərində rekonstruksiya işləri davam etdirilir və fəal işlər aparılır".

Abadlaşdırılan növbəti həyətlərdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılma-sı, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətlərin ərazisində 18 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutu-lar quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətlərdəki binaların liftləri yenilənib, işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elekt-romaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətlərin ərazisindəki mövcud yaşıllıqla-rın bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 50 ağac əkilib və 6415 kvadrat-metr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətlərdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, ka-rantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.** - 2020.- 24 sentyabr. - № 194. - S. 11.

## Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Noyabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nizami rayonu, Şirin Mirzəyev küçəsi 58, 58A və Qara Qarayev küçəsi 33, 37 ünvanında 2200 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: "Sağlam mühit sağlam həyat deməkdir. Buna əsaslanaraq IDEA İctimai Birliyi təşkilatın təsisçisi və rəhbəri Leyla Əliyevanın rəhbərliyi altında "Bizim həyət" layihəsini ardıcıl olaraq davam etdirir. Xüsusən xəstəliyin geniş yayıldığı bir vaxtda bu layihəyə xüsusi əhəmiyyət verilir".

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud olan insanların da rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 5 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2020, 24 noyabr**

# Paytaxtın Nəsimi rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Dekabrın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakının Nəsimi rayonu, Seyid Cəfər Pişəvəri küçəsi 10,12,16,18 ünvanında 616 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol, basketbol və şahmat meydançası, uşaqlar üçün oyun meydançası salınıb, velosiped yolu çəkilib. Həyətin ərazisində 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ədəd ağac əkilib və 400 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktik tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2020, 2 dekabr**

# Paytaxtın Yasamal rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Dekabrın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakının Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, 2 ünvanında təxminən iki min sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb, bulaq çəkilib. Həyətin ərazisində 3 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, binalarda yeni liftlər quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ədəd ağac əkilib.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktik tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2020, 8 dekabr**

# IDEA İctimai Birliyi Ermənistan tərəfindən ekoloji terrora məruz qalmış ərazilərin yenidən canlandırılması istiqamətində işlər görəcək

Otuz ilə yaxın davam edən erməni işğalının fəsadlarını əyani görmək hamımızı sarsıtdı. Meşələrin amansız məhvi, suların çirkləndirilməsi, təbii sərvətlərin istismarı və digər cinayətlər onu göstərir ki, ölkəmizə və ümumiyyətlə planetimizə qarşı ekoloji terror törədilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təşkilata Ermənistan tərəfindən ekoloji terrora məruz qalmış ərazilərin yenidən canlandırılması istiqamətində tədbirlər görməyə tapşırıq verib. İlk mərhələdə təşkilat işğaldan azad olunmuş ərazilərdəki təbii sərvətlərin qiymətləndirilməsi istiqamətində tədbirlər görəcək. Növbəti və ən çətin addım isə həmin ərazilərin bərpasıdır. Həmin prosesə beynəlxalq təşkilatların, tərəfdaşlarımızın, o cümlədən gənclərimizin cəlb olunması nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bunu IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov işğaldan azad olunmuş ərazilərdəki ekoloji durum, görülmüş və görüləcək işlərlə bağlı keçirilən brifinqdə deyib.

İcraçı direktor bildirib ki, IDEA İctimai Birliyi, Azərbaycan Gənclər Fondunun təşkilatçılığı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsinə start verilir. Bu xüsusda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bioloji müxtəliflik, geologiya, su ehtiyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə sahələrində aparılacaq işlərdə gənclərin yaxından iştirakı nəzərdə tutulur. Layihənin məqsədi həmin ərazilərə dəymiş ekoloji zərərin dəqiq qiymətləndirilməsi, peşəkar mütəxəssislərlə işləməklə gənc ekoloqların təcrübəsinin artırılması, ekoloji terrora məruz qalmış ərazilərin statistik rəqəmlərinin dünyaya çatdırılması və əldə olunmuş nəticələr əsasında bərpa prosesinə töhfə verilməsidir: "Ümid edirik ki, ölkəmizə vurulmuş ekoloji ziyan qiymətləndirildikdən sonra təsirə məruz qalmış bütün ərazilərin bərpası həyata keçiriləcək. Azərbaycan gəncləri də bu məsələyə mühüm töhfəsini verəcəklər. Hesab edirəm ki, dünənki səfərimiz bu prosesin başlanğıc nöqtəsidir", - deyə S. Şükürov əlavə edib.

**AZƏRTAC**
**2021, 29 yanvar**

# Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Fevralın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

Yenilənmiş həyət paytaxtın Nizami rayonu, Əli Vəliyev küçəsi 7, 7a ün-vanında yerləşir və təxminən üç min sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaq-ların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtla-rının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançası, uşaqlar üçün oyun meydançası salınıb. Həyətin ərazisində 6 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlan-dırma dirəkləri, təhlükəsizlik kamera-ları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 200 ədəd ağac əkilib.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tib-bi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehti-yacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.** - 2021.- 3 fevral. - № 24. - S. 10.

## “Yaşıl Marafon” çərçivəsində Qubadlıda ağacəkmə aksiyası keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Ümumrespublika Yaşıllaşdırma Marafonu” (“Yaşıl Marafon”) çərçivəsində Qubadlı rayonunda ağacəkmə aksiyası keçirilib.

İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, aprelin 13-də rayonun Muğanlı kəndində yaşıllıqların məhv edildiyi ərazidə akasiya, çinar və tut ağacları olmaqla ümumilikdə 750 ağac, eləcə də toxumlar əkilib.

Qeyd edilməlidir ki, işğaldan azad edilmiş ərazilərdə keçirilən aksiyalar zərər görmüş yaşıllıq massivlərinin bərpasına və bu ərazilərin təbiətinin canlandırılmasına töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən layihənin əsas məqsədi yaşıllıq sahələrini artırmaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda, iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirir.

Yaz və payız mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

**AZƏRTAC**
**2021, 14 aprel**

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qızılağac Milli Parkına səfər edib

Aprelin 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qızılağac Milli Parkına səfər edib.

AZƏRTAC xəbər verir ki, milli parkın ərazisi, zəngin fauna və florası ilə tanış olan Leyla Əliyeva daha sonra ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə sahilyanı və dəniz qoruqları daxil olmaqla, xüsusi mühafizə olunan təbiət ərazilərinin gələcək inkişaf perspektivlərini müzakirə edib.

Səfər zamanı Leyla Əliyeva Xəzər dənizinin Kiçik Qızılağac körfəzinə körpə balıqların buraxılması, o cümlədən ölkəmizin yaşıllıq və meşə ərazilərinin artırılmasına dəstəyi nümayiş etdirmək məqsədilə milli parkın ərazisində Eldar şamlarının əkilməsi mərasimində iştirak edib.

Qeyd edək ki, 2018-ci il sentyabrın 26-da yaradılmış Qızılağac Milli Parkı Qızılağac Dövlət Təbiət Qoruğunu və bütöv Qızılağac körfəzini ehtiva edir və Xəzər dənizində ilk mühafizə olunan dəniz ərazisi hesab olunur. Qızılağac Milli Parkına aid su ərazisinin mühafizəsi dünyanın nəsli kəsilmək təhlükəsi ilə üzləşən balıq növlərinin yaşaması üçün zəruridir.

IDEA İctimai Birliyi və “Blue Marine Foundation” təşkilatının birgə təqdimatına əsasən, 2019-cu ilin noyabr ayında həmin milli park dünya sularının xilası üçün ümid yeri (Hope Spot) kimi seçilib. Ümid yerləri “Mission Blue” təşkilatının beynəlxalq mühafizə kampaniyası çərçivəsində bəyan edilən, ekoloji baxımdan unikal olan dəniz əraziləridir. Ümid yerlərinin elan edilməsində əsas məqsəd okeanların qorunması üzrə qlobal hərəkatı dəstəkləmək və daha geniş su ərazilərinin mühafizə edilməsinə nail olmaqdır.

Məlum olduğu kimi, son onilliklər ərzində ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Bununla əlaqədar, Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması, ölkəmizin daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

Bu cür təşəbbüslərdən biri keçən ilin may ayından etibarən IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdiyi “Zəngin hövzələr” layihəsidir. Layihə ölkənin müxtəlif yerlərində yerləşən göl və çaylara məxsus olan balıq növlərinin təbii populyasiyasının artırılması, daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və məsuliyyətli balıq ovunun təşviqi üzrə davamlı və ardıcıl tədbirlərin təşkil edilməsini nəzərdə tutur.

**AZƏRTAC**
**2021, 3 may**

# Suraxanı rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Mayın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, 3 abadlaşdırılan həyətdən ibarət olan yeni məhəllə Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi "V" yaşayış sahəsində yerləşir və 2250 nəfər sakinin yaşadığı 20-28 saylı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətin ərazisində 13 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni liftlər, işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 200 ağac əkilib və 3500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Əziz Məmmədov**

**AZƏRTAC**
**2021, 8 may**

## Nərimanov rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Mayın 20-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nərimanov rayonu, Aşıq Alı küçəsi 5, 7/19, İzzəddin Həsənoğlu küçəsi 21 və Fətəli Xan Xoyski küçəsi 118, 120/23 ünvanında yerləşir və 1100 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətin ərazisində 4 söhbətgah inşa edilib, yeni oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 35 ağac əkilib və 1500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Yeni Azərbaycan.-**2021.-21 may.-№88.-S.6.

# Leyla Əliyeva nərə balıqlarının suya buraxılması mərasimində iştirak edib

Mayın 31-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində Xıllı-Balıq MMC, AzVarvara MMC, "Azerbaijan Fish Farm" MMC balıqartırma zavodlarında yetişdirilmiş 550000 ədəd körpə nərə balığının suya buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

Məlum olduğu kimi, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edək ki, ötən ilin may ayında start verilmiş layihə çərçivəsində indiyədək ümumilikdə 3 milyondan çox müxtəlifnövlü balıq körpələri su hövzələrinə buraxılıb.

"Zəngin hövzələr" layihəsinin icrası müddəti balıqların kürütökmə dövrü ilə əlaqədar 1 may tarixindən elan olunan 4 aylıq moratoriuma təsadüf edir.

**AZƏRTAC**
**2021, 31 may**

## Nərimanov rayonunda növbəti "Bizim həyət" sakinlərin istifadəsinə verilib

Yenilənmiş həyət Nərimanov rayonu, Aşıq Alı küçəsi 5, 7/19, İzzəddin Həsənoğlu küçəsi 21 və Fətəli Xan Xoyski küçəsi 118, 120/23 ünvanında 1100 nəfər sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətin ərazisində 4 ədəd söhbətgah inşa edilib, yeni oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 35 ədəd ağac əkilib və 1500 kv.metr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispanserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti.** - 2021.- 11 iyun. - № 120. - S. 3.

## Paytaxtda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət kı şəhəri, Nərimanov rayonu Fətəli Xan Xoyski prospekti 112, 114, Aşıq Alı küçəsi 3, 4A ünvanlarında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad etməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin forrmalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat şam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətin ərazisində 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binalarda yeni liftlər, işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 30 ədəd ağac əkilib və 3000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin İDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Respublika.-**2021.-23 iyun.-№129.-S.14.

## “Zubrları təbiətimizə qaytaraq!” ekoloji yay düşərgəsi uğurla başa çatıb

İyulun 21-23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Azərbaycanda zubrların reintroduksiyası” proqramının gənclərin maarifləndirilməsi və inkişafı istiqaməti üzrə "Zubrları təbiətimizə qaytaraq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Təhsil Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən düşərgəyə Qəbələ rayonundan 60-a yaxın məktəbli qoşulub.

"Zubrları təbiətimizə qaytaraq!" yay düşərgəsinin əsas məqsədi reintroduksiya olunmuş zubrlar və onların qorunmasının vacibliyi haqqında gənclərin məlumatlandırılması, onların məktəb yaşlarından ətraf mühit sahəsində maarifləndirilməsi, təbiətə qarşı rəğbət və qayğı hissinin formalaşdırılmasıdır.

Düşərgənin ilk günündə məktəblilər zubrların həyat tərzi, ölkəmizdə məskunlaşma tarixi, yayıldığı ərazilər və təbiətdəki rolu, bu nadir canlı növünün təbiətimizə qaytarılması üzrə görülən işlər haqda təqdimatlarda iştirak edib, zubrların populyasiyasının məhvinə səbəb olan amillərlə bağlı təlimlərə, o cümlədən müxtəlif ekoloji müsabiqələrə, biomüxtəlifliklə bağlı əyləncəli bilik yarışmalarına qoşulublar.

Düşərgənin ikinci günündə iştirakçıların Şahdağ Milli Parkına ekskursiyası təşkil olunub. Burada məktəblilər Milli Parkın zəngin bioloji müxtəlifliyi ilə tanış olub, eyni zamanda, reintroduksiya proqramı çərçivəsində Azərbaycana gətirilən zubrları canlı izləmək şansı əldə ediblər. Məktəblilərə ölkəmizə gətirilərək uğurlu adaptasiya dövrü keçmiş zubrlar, layihənin icra mərhələləri və uğurları haqda məlumatlar verilib. Düşərgənin son günü, Nohur gölə infotur təşkil olunub, burada komandalararası ekoloji oyunlar, fauna növlərimizin ayaq izləri əsasında təyin edilməsi üzrə çalışmalar, düzgün sığınacaq yerlərinin təşkili və təbiət ərazilərində təhlükəsizlik qaydaları izah edilib. Sonda iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, Qafqaz zubrlarının Azərbaycan təbiətinə reintroduksiyası ilə bağlı proqram çəçivəsində IDEA İctimai Birliyi öz layihə tərəfdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan Nümayəndəliyi ilə birgə geniş mühafizə və maarifləndirmə tədbirləri keçirir. Layihə çərçivəsində 2019-cu ilin mayında Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə Avropadan 12 baş, 2020-ci ildə isə daha 5 baş zubr gətirilərək təbiətə buraxılıb. Ölkəmizə gətirilən zubrlarda təbii artımın müşahidə edilməsi onların adaptasiya dövrünü uğurla tamamladığını göstərir. Hazırda ölkəmizə gətirilən zubrların sayı 19-a çatıb. Layihənin özünü doğrultduğunu nəzərə alaraq, ölkəmizə yeni fərdlərin gətirilməsi davam edəcək.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə İsmayıllı, Salyan, Neftçala, Qəbələ, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Göygöl, Lerik, Lənkəran rayonlarından ümumilikdə 500-dən çox məktəbli iştirak edib.

**AZƏRTAC**
**2021, 24 iyul**

# Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub

IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət oktyabrın 11-də sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Bakının Xətai rayonu, Məzahir Rüstəmov küçəsi, 9, 11, 13, 17 ünvanında yerləşir və 2300 sakinin yaşadığı məhəlləni əhatə edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib. Leyla Əliyeva həyətdə aparılan abadlıq işləri ilə tanış olub, sakinlərlə söhbət edib, onlarla şəkillər çəkdirib.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları qurulub, futbol, basketbol, şahmat meydançaları və uşaq meydançaları salınıb, velosiped yolu çəkilib. Həyətin ərazisində 13 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, yeni su xətti çəkilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət edilməklə 600 ədəd ağac əkilib.

Məhəllə sakini Namiq Mirzəyev saxladığı göyərçinlər üçün geniş yuvanın tikilməsinə görə minnətdarlıq edərək deyib: "Göyərçinlər çoxdandır ki, bizim həyətdə məskən salıblar. Onların yeri dar idi və havalandırmaları yox idi. Minnətdarıq ki, onlar üçün gözəl şərait yaradıblar. Yerləri geniş, yuvaları rahatdır. Göyərçinlərin sayı 80-dir. Yerin genişliyindən istifadə edərək saylarını artırmağa çalışırıq. Balacalara onlar haqqında məlumat verir, sülh rəmzi olduğunu başa salırıq. Tədbirlərdə sülh rəmzi kimi onları göylərə buraxırıq".

İyirmi ilə yaxındır həmin məhəllədə yaşayan müəllimə Naibə Cəfərova bildirib ki, çox bərbad vəziyyətdə olan həyətin belə abadlaşdırılması, idman meydançalarının, uşaqlar üçün əyləncə yerlərinin quraşdırılması böyüklərlə yanaşı, balacaları da sevindirir: "Aparılan abadlaşdırma işləri zamanı bütün yaş qrupları, hətta sağlamlıq imkanları məhdud olanlar da nəzərə alınıb. Axşamlar ürək rahatlığı ilə həyətə düşür, açıq havada gəzir, söhbətgahda oturub söhbət edə bilirik. Balacalar da onlar üçün quraşdırılan əyləncə yerlərində doyunca əylənirlər. Uşaqlar futbol, şahmat, basketbol oynayırlar. Həmçinin həyətdə ağaclar da əkilib. Bu da həm həyəti daha da gözəlləşdirib, həm də məhəllə sakinlərinin sağlamlığına xidmət edir. Yaradılan şəraitə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm".

Təqaüdçü Xan Şəmsəddinovun sözlərinə görə, 20 ildir həmin məhəllədə yaşasa da, bu illər ərzində həyət heç vaxt belə abad olmayıb. O deyib: "Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində xeyli sayda həyətin təmir olunduğunu və sakinlərin istifadəsinə verildiyini eşitmişdik. Çox sevinirik ki, layihə çərçivəsində abadlaşdırılan həyətlərdən biri də bizim həyət oldu. Ötən il dövlətimizin başçısı Qarabağımızı azad edərək bizə çox böyük bir sevinc bəxş etmişdi. Bu il də həyətimizin abadlaşdırılmasının sevinci bizə qismət oldu. Prezident İlham Əliyev və onun ailə üzvlərinə xalqın sevincinə səbəb olan xeyirxah işlərinə, əhaliyə göstərdikləri diqqət və qayğıya görə minnətdaram".

Qeyd edək ki, "Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmağa ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələr IDEA İctimai Birliyinə təqdim edilə bilər.

**Xalq qəzeti.** - 2021.- 12 oktyabr. - № 219. - S. 12.

## "Bizim həyət"lə abadlaşan küçələr, sevinən sakinlər

### Nəsimi rayonunda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

**Yaqut Ağaşahqızı**

**Təmirsiz həyətlərin abadlaşdırılmasına, sözün əsl mənasında ağ günə çıxarılmasına yönəlmiş "Bizim həyət" layihəsinin sehrindən abadlaşan həyətlərin sayı artır**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən Bakının abadlaşdırılmağa, yenilənməyə ehtiyacı olan həyətlərinin, parklarının, meydançalarının bərpasını nəzərdə tutan "Bizim həyət" layihəsi uğurla həyata keçirilir. Layihənin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının əsasını təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi əsasında aparılan abadlıq-quruculuq işləri çərçivəsində Nəsimi rayonu ərazisində də küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması işləri uğurla davam etdirilir.

Həyata keçirilən silsilə tədbirlər çərçivəsində Bakının Nəsimi rayonu 20 Yanvar küçəsi 7a, 9 və Hüseyn Seyidzadə küçəsi 11 saylı binaların əhatə etdiyi ərazidə abadlıq, quruculuq və yenidənqurma işləri başa çatdırılaraq həyət sakinlərin istifadəsinə verilib. Hazırlanmış layihəyə uyğun olaraq 20 Yanvar küçəsi 7a saylı binanın fasadı, dam örtüyü əsaslı təmir edilib, 4 ədəd giriş qapısı, pilləkən qəfəslərinin 16 ədəd pəncərəsi, yağış suları axıdan borular və navalçalar dəyişdirilib,

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün binanın həyətinə söhbətgah və oturacaqlar qoyulub, müxtəlif növ uşaq oyun elementləri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları quraşdırılıb.

Görülmüş işlər çərçivəsində binaların əhatə etdiyi həyətə 2000 kv.m asfalt örtüyü, 1000 kv.m-ə yaxın qazon, 200 kv.m-dən artıq tamet daşı vurulub, 300 p.m. yeni bardürlər və kiçik tullantıların atılması üçün zibil qutuları qoyulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 50 ədəd müxtəlif növ həmişəyaşıl ağac əkilib və yaşıllıqların suvarılması üçün su xətti çəkilib. Həyətdə yeni işıqlandırma sistemləri qurulub. Rayon ərazisində aparılan abadlıq-quruculuq və yenidənqurma işləri əhalinin böyük razılığı ilə qarşılanır, görülən işlərə görə rayon sakinləri ölkə başçısına dərin minnətdarlıqlarını bildirirlər.

Hazırda rayonun daha bir neçə ünvanındakı həyətlərdə də abadlıq-quruculuq və yenidənqurma işləri aparılır.

Bir vaxtlar baxımsız və təmirsiz vəziyyətdə olan həyətlər indi müasir, təmiz və abad görkəm alıb. Maraqlıdır, bu yenilik, gözoxşayan dəyişiklik haqqında həyətin sakinləri nə düşünür?

**"İki sahil" sakinlərin təəssüratlarını təqdim edir:**

**Məhəmməd Nəsirov** həyətlərinin abadlaşmasında əziyyət çəkən hər kəsə təşəkkür edib. Rayon sakini bildirdi ki, həyətin indiki və əvvəlki görünüşü arasında yerlə göy qədər fərq var: "Əvvəllər bir çox problemlər var idi. Ağaclar bərbad vəziyyətdə idi. Su, yaşıllıq yox idi. İndi artıq bunların hər biri var. Bununla yanaşı, balacalarımız üçün rəngarənq və maraqlı əyləncə zonası yaradılıb. Orada uşaqlarımız oynayıb və əylənirlər. Yaşlı insanlar əyləşmək üçün oturacaq tapmırdı. İndi isə çoxlu ağaclar əkilib, ətrafında da rahat oturacaqlar quraşdırılıb. Sakinlər də təmizkar olmalı, bu gözəlliyi qoruyub saxlamağı bacarmalıdırlar. Rahatlıq, səliqə, gözəlliyi ancaq İcra Hakimiyyətindən gözləmək doğru deyil. İnsanlar da diqqətli olmalıdır. Bu qədər əziyyət çəkilib, bunu qiymətləndirmək lazımdır. İDEA İctimai Birliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Nəsimi Rayon İcra Hakimiyyətinə."

**IDEA İctimai Birliyi bizim həyətimizi diqqətdən kənar qoymadı**

**Şərqiyyə Həsənova**: "Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində xeyli sayda həyətin təmir olunduğunu və sakinlərin istifadəsinə verildiyini eşitmişdik. Çox sevinirik ki, layihə çərçivəsində abadlaşdırılan həyətlərdən biri də bizim həyət oldu. Sağ olsun İDEA İctimai Birliyi, bizim həyətimizi diqqətdən kənar qoymadı. Uşaqların əylənməsi üçün başqa yerə getməyə ehtiyac yoxdur. Nəvələrim burada oynayırlar, əylənirlər. Onlar xoşbəxt olduqca, mən də sevinirəm. Bizə bu sevinci bəxş edən hər kəsə təşəkkür edirəm. Əziyyət çəkən hər bir kəsə öz dərin minnətdarlığımı bildirirəm. Yaradılan şəraitdən çox razıyıq."

**Yaradılan şəraitə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm**

**Nərminə İsmayılova** həyətdə görülən işlərdən ürəkdolusu bəhs etdi: "Mən yeni təmir olunmuş binada yaşayıram. Binanın sakini olan 60 ailə adından təşəkkür edirəm. Əvvəllər binamız da, həyətəmiz də bərbad halda idi. IDEA İctimai Birliyinin təşəbbüsü ilə dərhal müvafiq tədbir görüldü. Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndələri dərhal buranı təmir etməyə başladılar. Təmirdən sonra yaranan real vəziyyət isə çox gözəl və səliqəlidir. Baxdıqca insanın ürəyi açılır. Həyətimiz abadlaşdırılarkən yeni ağaclar da əkilib. Bu, həm həyəti gözəlləşdirib, həm də məhəllə sakinlərinin sağlamlığına xidmət edir. Yaradılan şəraitə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm. Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, eləcə də əziyyət çəkən bütün əməkdaşlara həyətimizin gözəlləşməsində və yeniləşməsində göstərdikləri diqqətə və əməyə görə minnətdarıq."

**Düşünürdüm ki, görəsən bizim həyət nə vaxtsa abadlaşacaqmı?**

**Rasim Təhmurazov:** "Neçə illərdir ki, həyətimiz pis vəziyyətdə idi. Biz də çox əziyyət çəkirdik. Uşaqlarımızın oynamağı, sakinlərimizin istirahəti üçün heç bir şərait yox idi. Başqa ünvanlarda salınan abad həyətləri gördükcə düşünürdüm ki, görəsən bizim həyət nə vaxtsa abadlaşacaqmı? Şükürlər olsun ki, artıq arzum reallaşdı. İndi mən də abad həyətin sakiniyəm. Binamızın təmiri, yenilənməsi üçün əziyyət çəkən hər kəsə təşəkkür edirəm. Onlara cansağlığı arzulayıram. Sağ olsunlar ki, biz sakinləri, eləcə də övladlarımızın qəlbini sevindirib, üzlərini güldürdülər."

**Abadlaşan həyətləri hər kəsdən çox körpələrin balaca qəlbində xoş təəssürat yaradıb**

**Elə bil həyət yox, parkdır**

**Aytac Hüseynzadə** də həmin uşaqlardan biridir: "Həyətdə yaradılan şəraitdən razıyam. Mənim üçün ən maraqlı sürüşkənlər və yelləncəklərdir. Dostlarımla həyətdə oynamaq çox maraqlıdır. Nə yaxşı ki, mənim belə gözəl həyətim var. Yeni həyətimizdə dostlarımla oynayacağam, yelləncəkdə yellənəcəyəm. Çünki əvvəl oyun oynayanda yıxılırdıq, rahat oynaya bilmirdik, həyətimiz gözəl deyildi. İndi isə rahat rolik, velosiped sürə bilərik. Çünki hər yer düz və səliqəlidir. Artıq həyətdə oynamaq, vaxt keçirmək çox rahat və maraqlı olacaq. Elə bil həyət yox, parkdır."

Apardığımız müşahidələr əsasında bu qənaətə gəldik ki, Nəsimi rayonu ərazisində abadlaşan, yenilənən və müasir görkəm alan həyətin sakinləri hazırkı vəziyyətdən çox razıdırlar. Əvvəl bərbad, indi isə abad həyətinin gözəl görkəmini, təmizliyini qoruyub saxlamaq isə bundan sonra sakinlərin üzərinə düşür.

Sağlam mühit, sağlam həyat deməkdir. 4 ildir ki, icra olunan "Bizim həyət" layihəsinin Bakının digər rayonlarında da həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin İDEA İctimai Birliyinə təqdim olunması xahiş olunur.

**İki sahil.-**2021.-10 dekabr.-№226.-S.6.

# Gənc ekoloqlar işğaldan azad olunmuş ərazilərin ekoloji qiymətləndirilməsi üçün Qarabağa səfər ediblər

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı" layihəsi uğurla davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, dekabrın 13-də gənc ekoloqlar Şuşa şəhərinə səfər edib, ərazinin radiasiya fonu və hava keyfiyyəti üzrə ölçmə işlərinin aparılması, eləcə də su və torpaq nümunələrinin götürülməsində iştirak ediblər. Bununla yanaşı, səfər zamanı gənclərin iştirakı ilə "Qarabağı qoru" şüarı altında kütləvi ağacəkmə aksiyası keçirilib.

IDEA İctimai Birliyinin əməkdaşı, layihə rəhbəri Gülsarə Qasımova bildirib ki, ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalı nəticəsində Azərbaycanın təbiətinə ciddi ziyan vurulub: "Ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, meşələrin, təbiət abidələrinin və ümumiyyətlə yeraltı və yerüstü təbii sərvətlərin talan edilməsi nəticəsində regionun ekoloji tarazlığı pozulub. Hazırda işğaldan azad olunmuş ərazilərin, o cümlədən, təbii sərvətlərimizin vəziyyətinin qiymətləndirilməsi və bərpa edilməsi istiqamətində dövlət səviyyəsində mühüm addımlar atılır.

Həmin tədbirlərə gənc ekoloqların cəlb edilməsi məqsədilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən ekoloji qiymətləndirmə layihəsinə start verilib. Layihədə iştirak üçün təbiət elmləri sahəsində təhsili olan və bu sahədə fəaliyyət göstərən 300-dən çox gəncdən müraciətlər daxil olmuşdu. Onlardan 60 nəfər müsahibə əsasında seçilib. Araşdırmalar 6 əsas istiqamət, o cümlədən bioloji müxtəliflik, su ehtiyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə və geologiya üzrə aparılır. Gənc ekoloqlara əvvəlcə təlimlər keçirildi, o cümlədən ANAMA əməkdaşları da onları sahədə işləməklə əlaqədar təhlükəsizlik tədbirlərinə riayət etmək barədə məlumatlandırdılar. Layihə çərçivəsində gənclər Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd, Zəngilan və Ağdam rayonlarına, bu gün isə Şuşa şəhərinə səfər ediblər.

Səfərlər zamanı ərazinin radiasiya fonu və hava keyfiyyəti üzrə ölçmə işləri aparılır, eləcə də su və torpaq nümunələri götürülür. Köndələnçay, Oxçuçay, Xaçınçay, Həkəri, Bərgüşad çayları, bu gün isə Şuşadan su nümunəsi götürülüb. Nəticələr 1989-1993-cü illərin məlumatları ilə müqayisə olunacaq. Qiymətləndirmə nəticəsi tviter kampaniyası vasitəsilə dünya ictimaiyyətinə çatdırılacaq. Tviter kampaniyası "Qarabağı qoru" həştəqi ilə keçiriləcək. Həmçinin dəymiş ziyanın bərpa yolları araşdırılacaq. Bu yaxınlarda layihənin yekun nəticəsinə həsr olunan hesabat tədbirinin də keçirilməsi nəzərdə tutulub. Ümumiyyətlə, layihənin gənc iştirakçıları ekoloji qiymətləndirilmə və monitorinq üzrə bilik və təcrübələrini artırmaq, eyni zamanda, azad olunmuş ərazilərdə bərpa və mühafizə işlərinə töhfə vermək imkanı əldə edəcəklər".

Layihə iştirakçısı Leyla Həsənzadə layihə çərçivəsində əvvəlcə Ağdam rayonuna, bu gün isə Şuşa şəhərinə səfər etdiyini bildirib. Onun sözlərinə görə, həmin ərazilər dağıntılara məruz qalsalar da, öz gözəlliklərini itirməyiblər: "Mən də bir bloger kimi azad edilmiş ərazilərimizi, işğal dövründə vurulan ziyanı paylaşır, məlumatların daha geniş kütləyə çatdırılmasına çalışıram. Səfərlər zamanı "Qarabağı qoru" devizi altında Ağdamda və Şuşada keçirilən ağacəkmə aksiyalarında iştirak etdim. Sevinirəm ki, həmin rayonların ətraf mühitinin bərpasına az da olsa, töhfə vermiş oldum. İnanıram ki, görülən tədbirlər nəticəsində əzəli və əbədi torpaqlarımızın əvvəlki əzəməti geri qayıdacaq".

Layihənin digər iştirakçısı Pərvanə Babayeva işğaldan azad edilmiş ərazilərimizə yeddinci dəfə səfər etdiyini, hər dəfə müxtəlif rayonlarda olduğunu diqqətə çatdırıb: "Doğrudur, qarşılaşdığımız mənzərə, 30 il ərzində törədilən ekosid izləri bizi məyus etdi. Lakin torpaqlarımız düşmən tapdağından xilas edilib və növbə həmin ərazilərin bərpasındadır. Azad edilən ərazilərdə müxtəlif istiqamətlərdə quruculuq işləri aparılır. Ümid edirik ki, görülən işlər nəticəsində torpaqlarımız yenidən cənnətə çevriləcək. Biz gənclərə də həm dəymiş ziyanın qiymətləndirilməsində, həm də bərpa işlərində imkan yaradıldığı üçün təşkilatçılara minnətdarıq".

**Xalq qəzeti**. - 2021. – 14 dekabr. - № 271. - S. 10.

## “Bizim həyət”: Təbiətə verilən “yaşıl nəfəs”

## Paytaxtın Nizami rayonunda növbəti abad həyət istifadəyə verildi

**Nilufər Mustafaqızı**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən start götürərək bu günə kimi davam etdirilən “Bizim həyət – sağlam həyat” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

Əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması olan “Bizim həyət” layihəsinin növbəti dayanacağı Bakının Nizami rayonu olub. Yenilənmiş həyət 8-ci km, Naxçıvanski küçəsi 78, 80, 86, 94, 94A, 94B ünvanında 1500 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə futbol və basketbol meydançası, müxtəlif idman qurğuları, velosiped yolu, şahmat meydançası, uşaqlar üçün oyun meydançaları salınıb. Həyətin ərazisində 7 ədəd söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları, pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, liftlər yenilənib, təhlükəsizlik kameraları quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 350 ədəd ağac çoxsaylı kol və güllər əkilərək 1500 kv.metr ərazidə yaşıllıq zolağı salınıb.

Əvvəlki baxımsız həyətlərinin yerini alan abad və gözoxşayan yeni həyətin sakinləri də məmnunluqlarını “İki sahil” ilə bölüşdülər.

**Qorxmaz Hüseynov** yaşadığı həyət və binanın gözoxşayan mənzərəsinə, səliqəsinə görə IDEA İctimai Birliyinə və Nizami rayon İcra Hakimiyyətinə təşəkkürlərini bildirib. “Deyəcək əlavə heç bir söz yoxdur. Hər şey göz önündədir. Səliqə, rahatlıq, təmizlik, sakitlik. İnsanların rahat istirahət etmələri üçün hər bir şərait yaradılıb. Əvvəlki baxımsız həyətdən əsəsr-əlamət qalmayıb. Salınan yaşıllıqlar, uşaqlar üçün yaradılan münbit şərait sadəcə, möhtəşəmdir.”

**Adil Məmmədov** bildirib ki, əvvəllər istirahət, gəzişmək üçün əgər başqa yerlərə üz tuturduqsa artıq rahatlıqla öz həyətimizdə vaxtımızı keçirə bilirik. “Bakının bir çox həyətlərində həyata keçirilən “Bizim həyət” layihəsi haqqında eşidəndə düşünürdüm ki, bu möhtəşəm layihə mütləq bizim də yaşadığımız yerdə reallaşdırılmalıdır. Çünki nəinki həyətimiz, binalarımız da yaxşı vəziyyətdə deyildi. Sovet dönəmindən qalma liftlər, fasadı köhnəlmiş binalar, yağış yağanda yaranan gölməçələr bir sakin kimi məni və qonşularımızın hər birini narahat edirdi. Ancaq indi mənzərə tam başqadır. İnsanın əhval-ruhiyyəsi belə dərhal dəyişir. Yaradılan bu gözəl şəraitə görə IDEA İctimai Birliyinə, xüsusilə Leyla Əliyevaya dərin təşəkkürümü bildirirəm.”

Həyətin 50 illik sakini olan **Gülbadam Mahmudova** xüsusilə yaradılan təhlükəsizlik sistemindən bəhs edərək bildirdi ki, artıq uşaqlarımızdan nigaran qalmırıq. “ Həyətdə bir çox yerlərdə təhlükəsizlik kameraları yerləşdirilib və onlar bütün gün ərzində işləyirlər. Maşınların saxlanması üçün ayrıca ərazi salınıb, futbol meydançası qurulub, uşaqların əylənməsi üçün rəngarəng sürüşkənlər, yelləncəklər bərkidilib həyətə. Ahılların asudə vaxtlarını çıxıb həyətda keçirmələri üçün yeni və təmiz oturacaqlar yerləşdirilib. Biz bundan artıq nə istəyə bilərdik? Yaşıllıq, təmizlik insanların ruhunu oxşayır. Dövlət öz üzərinə düşəni edir. Bundan sonası isə biz sakinlərin öhdəliyindədir. Yaradılan bu yüksək şəraiti yaxşı qiymətləndirməli, onu qorumalıyıq.”

Abadlaşdırılan həyətdən ən böyük məmnunluğu isə təbii ki, həyətin azyaşlı sakinləri duyurlar.

**Cavid Mehdiyev:** “Əvvəllər yağışlı havalarda burada dərin gölməçələr yaranırdı. Yer düz deyildi. Həyətə rahat düşüb gəzə və oynaya bilmirdik. İndi isə eve getmək istəmirik. Yelləncəklərdə yellənmək, sürüşgənlərdən sürüşmək, dostlarımla futbol oynamaq ən sevdiyim məşğuliyyətimdir. Həyətimiz hətta bir çox parklardan belə gözəl olub.”

Artıq futbol oyanamaq üçün başqa həyətə getməyəcəyinə görə sevindiyini bildirən **Anar Məmmədov** yeni futbol meydançasını çox bəyəndiyini dilə gətirdi. “ Burada həm də şahmat sahəsi də qurulub. Mən şahmatı sevirəm. Dostlarımla ən çox vaxt keçirdiyim yerlərdən biri məhz buradır. Həyətimiz, binalarımız çox gözəldir. Bizə bu şəraiti yaratdıqlarına görə hər kəsə çox təşəkkür edirəm.”

**İbrahim Mahmudzadə** hər gün anası ilə həyətə oyun oynamağa tələsərək qaçdığını deyib. “ Yeni həyətimizə ən çox mən sevinirəm. Bura çox gözəldir. Yeni oyun meydançamız, idman sahəmiz həddən artıq sevindirir məni. Topla oynamağa artıq geniş sahəmiz var. Biz artıq başqa parklara və həyətlərə getmirik.”

Onu da qeyd edək ki, abadlaşdırılmaya ehtiyacı olan həyətlərin sakinləri bu barədə məlumat və tövsiyyələrini IDEA İctimai Birliyinə təqdim edə bilərlər.”

**İki sahil.-**2021.-15 dekabr.-№229.-S.7.

## Nəsimi rayonunda növbəti abad həyət sakinlərin istifadəsinə verilib

Bakı şəhərində aparılan abadlıq-quruculuq işləri çərçivəsində Nəsimi rayonu ərazisində də küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması işləri uğurla davam etdirilir.

Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, həyata keçirilən silsilə tədbirlər çərçivəsində Hüseyn Seyidzadə küçəsindəki 11, 13 və 20 Yanvar küçəsindəki 15 saylı binaların əhatə etdiyi ərazidə abadlıq, quruculuq və yenidənqurma işləri başa çatdırılaraq həyət sakinlərin istifadəsinə verilib.

Hazırlanmış layihəyə uyğun olaraq Hüseyn Seyidzadə küçəsində 11 saylı binanın fasadı, dam örtüyü əsaslı təmir edilib, 4 ədəd giriş qapısı, pilləkən qəfəslərinin pəncərələri, yağış suları axıdan borular və navalçalar dəyişdirilib,

Görülən işlər çərçivəsində binaların əhatə etdiyi həyətə 2500 kvadratmetr asfalt örtüyü, 1000 kvadratmetr qazon, 300 kvadratmetr tamet daşı vurulub, 400 paqonmetr yeni bardürlər və kiçik tullantıların atılması üçün 2 ədəd yeni zibil qutusu qoyulub.

Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün binanın həyətinə söhbətgah və oturacaqlar qoyulub, müxtəlif növ uşaq oyun elementləri və idman qurğuları quraşdırılıb. Həyətdə yeni işıqlandırma sistemi qurulub və müasir işıq dirəkləri quraşdırılıb.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 50 ədəd müxtəlif növ həmişəyaşıl ağac əkilib və yaşıllıqların suvarılması üçün su xətti çəkilib.

Rayon ərazisində aparılan abadlıq-quruculuq və yenidənqurma işləri əhalinin böyük razılığı ilə qarşılanır, görülən işlərə görə rayon sakinləri ölkə başçısına dərin minnətdarlıqlarını bildirirlər.

Hazırda rayonun daha bir neçə ünvanında abadlıq-quruculuq və yenidənqurma işləri aparılır.

**Xalq qəzeti**. - 2021.- 17 dekabr. - № 274. - S. 7.

## "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib

Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmə aksiyasında iştirak edib

Dekabrın 28-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil edilib. Leyla Əliyeva uşaqlarla birgə mu-siqi sədaları altında yolka ətrafında dövrə vurub, balacalara bayram hədiyyələri təqdim edib, onlarla şəkil çəkdirib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhval-ruhiyyəsi yaradıb, sevinc dolu anlar bəxş edib.

Yenilənmiş həyət Nizami rayonu, Qara Qarayev prospekti 12, 14, 16, 18, Özbəkistan küçəsi 8, 6, Azər Manafov kücəsi 3, 5, Kamil Balakişiyev küçəsi 8a, 11, 15 ünvanlarında 1400 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol və basketbol, şahmat meydançaları, ten-nis masası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. İsti günlərdə uşaqla-rın əylənməsi üçün fəvvarə tikilib, 300 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 11 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuva-ları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 450 ədəd müxtəlif cinsli ağac və kol əkilib, 4 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kame-raları quraşdırılıb.

Sakinlər Səkinə Məmmədova və Zem-fira Mehdiyeva həyətlərinin tamamilə dəyişdiyini, bütün yaş qruplarının istirahəti üçün şərait yaradıldığını bildiriblər. "Yeni ilə abad həyətlə keçəcəyimiz üçün sevincliyik. Yenilənmiş həyət sakinlər üçün əsl bay-ram hədiyyəsi, Leyla Əliyevanın iştirakı isə ikiqat sevinc oldu. Prezident İlham Əliyev və onun ailə üzvləri daim xalqın yanında olur, vətəndaşların qayğıları ilə maraqlanır, onlara çatdırılan problemləri həll edirlər. Ölkə başçı-sı və ailə üzvlərinə xeyirxah missiyaları uğur-la yerinə yetirdiklərinə görə minnətdarlığımızı bildirir, qarşıdan gələn bayramlarını təbrik edirik", - deyə sakinlər qeyd ediblər.

Qeyd edək ki, "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Xalq qəzeti**. - 2021.- 29 dekabr. - № 284. - S. 6.

## Qarabağın ekoloji qiymətləndirilməsi layihəsinin yekun tədbiri keçirilib

Martın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı” layihəsinin yekunlarına həsr edilmiş toplantı keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzində baş tutan tədbirdə layihənin gənc iştirakçıları ilə yanaşı, IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) təmsilçiləri, eləcə də media nümayəndələri iştirak ediblər.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Ermənistan tərəfindən 30 illik işğalı nəticəsində Azərbaycanın təbiətinə ciddi ziyan vurulub. Ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, meşələrin, təbiət abidələrinin və ümumiyyətlə yeraltı və yerüstü sərvətlərin talan edilməsi nəticəsində regionun ekoloji tarazlığı pozulub.

Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərin, o cümlədən təbii sərvətlərimizin vəziyyətinin qiymətləndirilməsi və bərpa edilməsi istiqamətində dövlət səviyyəsində mühüm addımlar atılmaqdadır. Həmin tədbirlərə gənc ekoloqların cəlb edilməsi məqsədilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı” birgə layihəsinə start verilib. Layihədə iştirak üçün təbiət elmləri sahəsində təhsili olan və bu sahədə fəaliyyət göstərən 300-dən çox gəncdən müraciət daxil olub, onlardan 60 nəfər müsahibə əsasında seçilib. İştirakçılar 6 istiqamət, o cümlədən bioloji müxtəliflik, geologiya, su ehtiyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə üzrə qruplara bölünüb. Ərazilərdə səfərlərdən öncə müvafiq istiqamətlər üzrə nəzəri mühazirələr təşkil edilib. Həmçinin keçmiş münaqişə zonasında çalışmağın potensial təhlükələrini nəzərə alaraq sağlamlıq və təhlükəsizlik təlimləri keçirilib. Növbəti mərhələdə gənc ekoloqların Cəbrayıl, Füzuli, Qubadlı, Xocavənd, Zəngilan, Ağdam və Şuşa daxil olmaqla işğaldan azad edilmiş ərazilərə çoxsaylı səfərləri təşkil edilib. Səfərlər zamanı onlar həmin ərazilərdə aparılan ekoloji qiymətləndirilmədə, o cümlədən xüsusi cihaz və qurğularla havada olan radiasiya fonu, suyun keyfiyyəti, torpağın analizi və s. proseslərdə iştirak edib, işğal nəticəsində törədilən ekosidi əyani şəkildə görüblər.

S.Şükürovun sözlərinə görə, “Qarabağı qoru” şüarı altında həyata keçirilən layihənin gənc iştirakçıları ekoloji qiymətləndirilmə və monitorinq üzrə bilik və təcrübələrini artırmaq, eyni zamanda, azad olunmuş ərazilərdə bərpa və mühafizə işlərinə töhfə vermək imkanı əldə ediblər. Aparılmış müşahidə və təhlillər əsasında əldə edilən məlumatların geniş maarifləndirmə və təbliğat işlərində istifadə olunması nəzərdə tutulur.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov gənclər siyasətinin dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsi olduğunu, Azərbaycan gəncliyinin ictimai həyatın bütün sahələrində kifayət qədər fəal iştirak etdiyini diqqətə çatdırıb. Bildirilib ki, gənclər ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Ölkə rəhbəri özünün çıxışlarında mütəmadi olaraq gənclərin ictimai-siyasi və humanitar proseslərdə göstərdiyi səyləri nəzərə alaraq gəncləri novator, yeniliyə can atan və vətənpərvər insanlar kimi təqdim edir.

“Hər bir sahədə olduğu kimi ətraf mühitin mühafizəsində də gənclərin dəstəyinə böyük ehtiyac var. Mövcud ekoloji problemlərin aradan qaldırılmasında, ekoloji şüurun inkişaf etdirilməsində sizin səyləriniz, təşəbbüskarlığınız böyük rol oynayır. “Qarabağı qoru” şüarı altında keçirilən layihənin iştirakçıları olaraq gənclərin bir qismi işğaldan azad edilmiş ərazilərə səfər etdilər. Ermənistanın Azərbaycanın ətraf mühitinə, bioloji müxtəlifliyinə, meşələrinə, yeraltı və yerüstü təbii ehtiyatlarına vurduğu ciddi ziyana şahid oldular. Kəsilmiş ağacları, məhv olmuş yaşıllıq ərazilərini gördülər, su, hava, torpaq nümunələri üzərində müşahidələr apardılar, dəyən ekoloji ziyanların hesablama qaydaları ilə tanış oldular. Hazırda həmin ərazilərdə bərpa prosesi gedir. Bu sahədə ixtisaslı kadrların yetişməsi, gənclərin görüləcək işlərdə yaxından iştirakı çox təqdirəlayiqdir. Gənc ekoloqlar kimi belə layihələrdə bilik və bacarıqlarınızı, təcrübənizi artırıb ekoloji tarazlığın qorunmasında səy göstərməniz bizim işimizə böyük töhfədir”, - deyə V.Kərimov bildirib.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov müharibə bitdikdən sonra gənclərdən həmin ərazilərin dirçəldilməsi prosesində iştirakla bağlı çoxlu müraciətlər daxil olduğunu diqqətə

çatdırıb. Onun sözlərinə görə, gənclər hətta könüllü olaraq fiziki işlərdə belə çalışmağa, həmin ərazilərin bərpasında dövlətin atdığı addımlara dəstək olmaq niyyətlərini ifadə edirlər. Qeyd edilib ki, azad edilmiş ərazilərdə törədilmiş ekosidin və onun miqyasının müəyyən edilməsi ilə bağlı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihənin xüsusi özəlliyi ondan ibarətdir ki, gənclər ilk dəfə elm könüllüsü kimi araşdırmalara başladılar. Kifayət qədər uğurla həyata keçirilən layihə gələcəkdə gənclərin öz savadları, dünya görüşləri və təcrübələrindən istifadə edərək bu cür araşdırmaları fərqli sahələrdə də həyata keçirə bilmələrinə bir töhfədir.

"Gənclər Fondu olaraq dövlət başçısının göstərişi və tapşırıqlarına uyğun olaraq məqsədimiz gənclərin vətənpərvər, sağlam və savadlı yetişməsinə dəstək verməkdir. Eyni zamanda, Azərbaycan gəncliyinin yüksək potensialından istifadə edərək dövlətimizin fərqli sahələrdə həyata keçirdiyi siyasətə də gənclərimizin töhfə verməsinə çalışırıq. Bu layihə də gəncliyin dövlətə dəstəyinin bariz nümunələrindən biridir", - deyə icraçı direktor qeyd edib.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin maarifləndirmə şöbəsinin rəisi Ramil Əzizovun sözlərinə görə, Vətən müharibəsindən sonrakı dövr ərzində azad edilmiş ərazilərdə ANAMA tərəfindən aparılan əməliyyatlar nəticəsində 75 milyon kvadratmetrdən çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Otuz minə yaxın müxtəlif markalı mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Onların böyük əksəriyyəti piyadalar əleyhinə minalardır. Əməliyyatlar zamanı, həmçinin improvizə olunmuş, əllə düzəldilmiş, xüsusi formaya salınmış partlayıcı qurğular, kustar üsulla hazırlanmış digər sursatlar da aşkarlanıb.

O, layihə çərçivəsində gənclərin ANAMA-nın mütəxəssisləri tərəfindən təhlükəli ərazilərdə davranış qaydaları ilə bağlı məlumatlandırıldığını də diqqətə çatdırıb.

Tədbir zamanı IDEA İctimai Birliyinin əməkdaşı, layihə rəhbəri Gülsarə Qasımova ekoloji qiymətləndirmənin yekun nəticələrinə dair hesabatı təqdim edib. Hesabatda Qarabağın işğaldan əvvəlki vəziyyətinə nisbətən hazırkı ekoloji durumuna dair əldə edilmiş məlumatlar əks olunub. Həmçinin toplantıda layihə çərçivəsində görülmüş işlərə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Daha sonra gənclərə uğurla həyata keçirilən layihədə iştirak üçün sertifikatlar, eləcə də Qarabağın ekoloji qiymətləndirilməsi prosesinə töhfələrinə görə təşəkkürnamə və xatirə hədiyyələri təqdim edilib, ən maraqlı paylaşım qalibi mükafatlandırılıb.

**Xalq qəzeti.** - 2022.- 5 mart. - № 50. - S. 6.

**Xətai rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət i stifadəyə verilib**

Aprelin 12-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, həmçinin tədbir zamanı keçirilmiş ağacəkmə aksiyasında iştirak edib.

Yenilənmiş həyət Xətai rayonu, Rahib Məmmədov küçəsi ev 24, 26 və Aşıq Ələsgər küçəsi 2 ünvanlarında 1300 nəfər sakinin yaşadığı üç çoxmərtəbəli yaşayış binasını əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qruplarından olan şəxslərin açıq havada istirahəti üçün əlverişli şərait yaradılıb, o cümlədən çoxsaylı söhbətgah və oturacaqlar, tullantı qutuları quraşdırılıb. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol, basketbol, şahmat və uşaq əyləncə meydançaları, müxtəlif idman qurğuları salınıb, velosiped yolu çəkilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, qaz, su və istilik xətləri yenidən qurulub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 500-ə yaxın müxtəlif ağaclar və kollar əkilib, 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Layihə çərçivəsində çoxmənzilli yaşayış binalarının həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2022, 12 aprel**

**“Yaşıl Marafon 2022” ağacəkmə kampaniyasına start verilib**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Ümumrespublika Yaşıllaşdırma Marafonu” (“Yaşıl Marafon”) çərçivəsində ölkə üzrə növbəti kütləvi ağacəkmə kampaniyasına başlanılıb.

AZƏRTAC xəbər verir ki, aprelin 2-də Müşfiqabad qəsəbəsində “Yaşıl Marafon 2022” kampaniyası çərçivəsində Bakıda ilin ilk ağacəkmə aksiyası keçirilib. Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə cəlb edilmiş 100-dən artıq könüllünün iştirakı ilə keçirilən aksiya zamanı ərazinin torpaq-iqlim şəraitinə uyğun 2000 ədəd müxtəlif cinsli ağac əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən kampaniya zamanı ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümləri müddətində kütləvi ağacəkmə aksiyalarının keçirilməsi, yaşıllıq sahələrinin artırılması nəzərdə tutulub.

Qeyd edək ki, builki “Yaşıl Marafon” çərçivəsində Azərbaycanda, xüsusən də Abşeron yarımadasında yaşıl dəhlizlərin yaradılması, mürəkkəb relyefli, sərt yamaclı ərazilərdə ağacların əkilməsi planlaşdırılır ki, bu xüsusda yamaclarda terraslar hazırlanacaq, ağacların əhatəsi təbii sutoplayıcı formaya salınacaq və yağış sularının ağacların suvarılmasına yönəldilməsi mümkün olacaq. Bununla, torpaq eroziyasının qarşısı alınacaq, torpağın hava, su keçiriciliyi və münbitliyi artacaq, nəticədə daha yüksək bitiş faizi əldə ediləcək, eləcə də həmin sahələrdə suvarma suyuna qənaət edilmiş olacaq.

Layihənin əsas məqsədi yaşıllıq sahələrinin azalması fonunda yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirilməyə töhfə verməkdən ibarətdir.

Kütləvi ağacəkmələr, eyni zamanda, iqlim dəyişikliyinə səbəb olan istixana qazı tullantılarının azaldılmasına nail olmaqla bağlı qlobal fəaliyyətə dəstək xarakteri daşıyır.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti Planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

**AZƏRTAC**
**2022, 2 aprel**

**“Yaşıl Marafon 2022” ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya keçirilib**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Ümumrespublika Yaşıllaşdırma Marafonu” (“Yaşıl Marafon”) çərçivəsində ölkə üzrə növbəti ağacəkmə aksiyası aprelin 23-də Müşfiqabad qəsəbəsində keçirilib.

AZƏRTAC bildirir ki, IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə keçirilən genişmiqyaslı ağacəkmə aksiyasına ETSN yanında İctimai Şuranın nümayəndələri, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Diplomatik Akademiyası, Bakı Modern Təhsil Kompleksi və Sumqayıt şəhər 12 nömrəli tam orta məktəbin müəllim, tələbə və şagirdləri qoşulublar.

Beynəlxalq Yer Günü ilə əlaqədar keçirilən aksiya zamanı 2 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 1000-dən çox Eldar şamı və zeytun ağacı əkilib.

Qeyd edək ki, ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

**AZƏRTAC**
**2022, 23 aprel**

## İqlim dəyişikliyi ilə bağlı gənclər konfransı keçirilib

**Göyçək Mahmudlu**

Mayın 4-də IDEA İctimai Birliyi, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycan Gənclər İqlim Konfransı keçirilib. Yer Günü 2022-yə həsr olunan tədbirin keçirilməsində əsas məqsəd qlobal səviyyədə iqlim böhranı ilə mübarizə yolları haqqında gənclərin məlumatlılığını artırmaq və bu məsələdə onların fəallığını artırmaqdan ibarətdir.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Aleks Haykens çıxış ediblər.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp BMT-nin İqlim Dəyişikliyi Konfransının (COP26) nəticələri və növbəti addımlar mövzusunda məruzə edib.

Tədbir zamanı diplomatik korpusun nümayəndələri, ekspertlər və gənc liderlər Böyük Britaniyanın Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransının (COP26) nəticələrini nəzərdən keçirib, iqlim böhranı ilə mübarizə yollarını müzakirə ediblər. Bildirilib ki, 2021-ci ildə keçirilmiş COP26 İqlim Konfransında dünya ictimaiyyəti tərəfindən istixana emissiyalarının azaldılması və qlobal istiləşmə ilə mübarizənin maliyyələşdirilməsi kimi mühüm məsələlər üzrə bir sıra öhdəliklər götürülüb. Tədbirin ev sahibi kimi Böyük Britaniya bir sıra ambisiyalı iqlim öhdəlikləri qəbul etdiyini elan edib və dünya ölkələrinin iqlim dəyişmələri ilə mübarizədə səylərini birləşdirmək üçün bir neçə qlobal iqlim təşəbbüslərini irəli sürüb.

Konfrans "Azərbaycan iqlim dəyişikliyi ilə necə mübarizə aparır?" panel sessiyası, "Gənclik İqlim fəaliyyətini idarə edir" mövzusunda təqdimatla davam edib. Azərbaycanda iqlim dəyişikliyi ilə mübarizə səyləri, qlobal istiləşmə probleminin həllində gənclərin rolu və liderlik perspektivlərinə dair təqdimatlar edilib və fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, hər il aprelin 22-də ətraf mühitin mühafizəsinə dəstək nümayiş etdirmək məqsədilə təşkil edilən Yer Günü 2022-ci ildə "Planetimizə investisiya edək" şüarı altında keçirilib.

**AZƏRTAC**
**2022, 4 may**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Cenevrədə "Mənim dənizlərim, mənim okeanlarım" sərgisinin açılışında iştirak edib

***BMT-nin Cenevrə bölməsinin baş direktoru ilə görüş olub***

**Elgün Niftəli,**
AZƏRTAC-ın xüsusi müxbiri

Heydər Əliyev Fondunun və IDEA (Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü, Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə şəhərindəki bölməsi və Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsi yanında daimi nümayəndəliyinin dəstəyi ilə təşkil edilən "Mənim dənizlərim, mənim okeanlarım" (My Seas, My Oceans) sərgisinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Cenevrədə akkreditə olunmuş diplomatik korpusun və ictimai təşkilatların nümayəndələri, soydaşlarımız iştirak ediblər.

BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya açılış nitqində bildirib ki, iyun ayı ənənəvi olaraq BMT-nin okeanlar və su hövzələrinin qorunmasına həsr olunmuş konfrans və digər tədbirlərin keçirildiyi dövrdür. Həmin ərəfədə okeanlara və dənizlərdəki ekoloji vəziyyətə incəsənətin dili ilə diqqət yönəldən sərginin təşkili xüsusi əhəmiyyət daşıyır. Dünyanın 70 faizindən çox ərazisini tutan su ehtiyatları, dəniz və okeanların ekoloji sistemi getdikcə daha çox mənfi təsirlərə məruz qalır.

O, Leyla Əliyevaya və sərgidə öz əsərləri ilə iştirak edən rəssamlara, eləcə də sərginin kuratorlarına bu cür mühüm mövzunu incəsənət vasitəsilə ictimailəşdirdiklərinə görə minnətdarlıq edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva çıxışında qonaqları "Mənim dənizlərim, mənim okeanlarım" sərgisində salamlamaqdan məmnunluğunu ifadə edib. O bildirib ki, bu sərgi incəsənət vasitəsilə diqqəti bəzi qlobal məsələlərə yönəltmək üçün fürsətdir. Çünki bədii yaradıcılıq insanların qəlbinə toxunmaq və ona səslənmək üçün ən yaxşı yollardan biridir: "IDEA-da biz ətraf mühitin qorunmasının vacibliyi mesajını çatdırmaq üçün həmişə incəsənət və bədii yaradıcılıqdan bəhrələnirik. Təşkilatımız 2011-ci ildə təbiətimizi və biomüxtəlifliyimizi qorumaq missiyası ilə yaradılmışdır. Biz insanları təhsilə, incəsənətə, musiqiyə, maarifləndirməyə və ən əsası təbiətdə daha çox zaman keçirməyə təşviq etmək istəyirik".

Qeyd edilib ki, IDEA, həmçinin çirklənmə ilə mübarizəyə, heyvanların və dənizlərdə həssas ekosistemin qorunmasına diqqət yetirir. Çünki su bəşəriyyətin varlığı üçün vacibdir, su həyatdır. Son 50 ildə dəniz canlılarının 50 faizinin məhv olduğunu etiraf etmək çox çətindir. Bəşəriyyət çaylara, dənizlərə və okeanlara ciddi zərbə vurub: "Mən deyərdim ki, insanlar və təbiət bir-biri ilə sıx bağlıdır. Təbiəti incitsək, bununla biz, ilk növbədə, özümüzə zərər vermiş olarıq. Lakin mən həqiqətən inanıram ki, yoxa çıxan parçaları müsbət düşüncə ilə geri qaytara bilərik. Düşünürəm ki, insanlar nə qədər xoşbəxt olsalar, təbiətə daha çox qayğı göstərərlər. Bizi, ilk növbədə, xoşbəxt edən elə təbiətin özüdür", - deyə Leyla Əliyeva bildirib.

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri sərginin təşkilində iştirak edən tərəfdaşlara, kuratorlara və əsərləri sərgilənən rəssamlara minnətdarlığını bildirib.

BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa Ofisinin direktoru Bruno Pozzi uzun illərdən bəri IDEA-nın tərəfdaşı qismində təmsil etdiyi təşkilat adından bu sərgiyə qatılmasından məmnunluğunu ifadə edib. Qeyd olunub ki, sərgi diqqəti dünyada hamını məşğul etməli olan problemə yönəldir. Su mavi planetimizdə ən vacib resurs və həyat mənbəyidir. Planetimiz su olmadan mövcud ola bilməyəcəyinə görə, suyun, su hövzələrinin və oradakı canlı aləmin qorunmasına yönəlmiş təşəbbüslər bütün mümkün imkanlar vasitəsilə dəstəklənməlidir. İqlim dəyişikliklərinin baş verdiyi müasir dövrdə qlobal çağırışlar sırasında yer alan su resurslarının mühafizəsi prioritet təşkil etməlidir.

Azərbaycanın BMT-nin Cenevrə bölməsindəki daimi nümayəndəsi Qalib İsrafilov sərginin təşkilinə görə BMT-nin Cenevrə bölməsinə və IDEA İctimai Birliyinə minnətdarlığını bildirib. O vurğulayıb ki, bu sərgi Azərbaycanın gənc incəsənət xadimlərinin dünyanı düşündürən qlobal çağırışa sənət vasitəsilə bədii ifadələrini əks etdirir.

Çıxışlardan sonra Cenevrədə fəaliyyət göstərən "İrs" uşaq rəqs ansamblı Azərbaycan xalq mahnılarından ibarət bədii proqramla çıxış edib. Sonra sərgiyə ictimai baxış olub.

Qeyd edək ki, Cenevrədəki Millətlər Sarayında (Palace of Nations) iyunun 30-dək davam edəcək sərgidə Azərbaycanın doqquz müasir rəssamının əsərləri təqdim olunur. Gələcək nəsillər üçün su ehtiyatlarının qorunmasının vacibliyi ekspozisiyadakı əsərlər vasitəsilə vurğulanır, eyni zamanda, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağın ən yaxşı yolunun yaradıcılıqdan keçdiyi xatırladılır.

Gələcək nəsillərə daha yaxşı planet əmanət etdiyimizə əmin olmaq üçün hökumətlərin, özəl sektorun və vətəndaş cəmiyyətinin tərəfdaşlığı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində böyük əhəmiyyət kəsb edir.

Ətraf mühitin mühafizəsində və dayanıqlı inkişafın təmin edilməsində dünyanın üzləşdiyi problemlərin vacibliyini çatdırmaq üçün şübhəsiz ki, incəsənət ən təsirli vasitələrdən biridir. Bu cür çağırışlar arasında iqlim dəyişikliyi, çirklənmə, həddindən artıq balıq ovu və nəslinin kəsilməsi kimi məsələlər daxil olmaqla, ekoloji maarifləndirmə imkanlarının təşviq edilməsi var.

Cavid İlham, Diana Əliyeva, Elşən Karaca, Erkin Ələkbərli, Günel Ravilova, Leyla Əliyeva, Mirəli Seyidov, Nəzrin Xələfova və Nəzrin Məmmədova sərgidə öz əsərlərindəki mesajları bu kimi problemlərə yönəltməklə, insanların mövzu barədə daha geniş təsəvvürə malik olmalarını təmin edir və ekoloji fəaliyyət üçün ictimai dəstək toplayır, bununla da qlobal məqsədlərə töhfə verilir.

**x x x**

İsveçrənin Cenevrə şəhərində səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iyunun 14-də BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya ilə görüşüb.

T.Valovaya BMT-nin Cenevrə bölməsində Azərbaycan rəssamlarının əsərlərindən ibarət "Mənim dənizlərim, mənim okeanlarım" sərgisinin təşkilinə görə məmnunluğunu ifadə edib. O bildirib ki, sərginin BMT-nin okeanlara və su hövzələrinə dair sammitinin keçiriləcəyi iyun ayına təsadüf etməsi bu qlobal mövzunun incəsənət vasitəsilə təbliğinə töhfə verəcək. T.Valovaya sərgidə təqdim olunan əsərlərin mahiyyətinin vacibliyi, xüsusilə su mövzusunun aktuallığı və qlobal səviyyədə əhəmiyyətini vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva sərginin təşkilinə göstərdiyi şəxsi diqqətə və onun açılışında iştiraka görə T.Valovayaya minnətdarlığını ifadə edib.

Görüşdə BMT ilə Heydər Əliyev Fondu və IDEA arasında əməkdaşlıq imkanlarının araşdırılmasının əhəmiyyəti vurğulanıb və yaxın gələcəkdə təmasların artırılmasının vacibliyi qeyd edilib. Həmçinin Dayanıqlı İnkişaf Məqsədləri, gənclər, gender bərabərliyi, ətraf mühitin mühafizəsi və digər məsələlərlə bağlı layihələrə, eləcə də BMT-nin Cenevrə bölməsində müxtəlif səpkili tədbirlərə IDEA-nın əməkdaş və ekspertləri ilə qatılması barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, qadınların hüquqlarının qorunması və onların cəmiyyətdə rolunun gücləndirilməsi kimi mühüm mövzunun aktuallığı nəzərə alınaraq, bu sahədə əməkdaşlıq barədə söhbət aparılıb.

Söhbət zamanı T.Valovayanın Azərbaycana baş tutacaq səfərinə və Bakıda keçirəcəyi görüşlərə də toxunulub.

**x x x**

Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin Cenevrə bölməsinin iqamətgahında yerləşən "Azərbaycan otağı"nın rekonstruksiyası ilə bağlı təqdimatla tanış olub.

Bildirilib ki, BMT-nin Cenevrə bölməsində 20-dən artıq ölkəyə həsr olunmuş otaq və zallar mövcuddur. 2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmuş və milli xalçalarla, Azərbaycan rəssamlarının və tətbiqi sənət ustalarının əsərləri ilə bəzədilmiş "Azərbaycan otağı" mühüm iclasların və regional mövzularda toplantıların keçirilməsi üçün istifadə edilir. Otağın müasir texnoloji standartlara cavab verməsini təmin etmək üçün yeni layihəyə start verilib. Almaniyanın "Luther Design" şirkəti otağın yerləşdiyi tarixi binanın konsepsiyasını qorumaqla, Azərbaycan mədəniyyəti, incəsənəti, sənətkarlıq və milli musiqisinin təqdim olunduğu layihə ilə çıxış edib.

"Azərbaycan otağı"nın rekonstruksiya işlərinə bu ilin sonunda start veriləcək.

**x x x**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin Cenevrə bölməsində Millətlər Sarayının qarşısında yerləşən Ariana parkında Azərbaycan dövlətinin hədiyyəsi olan "Düşüncələr və arzular" adlı heykəltaraşlıq abidəsini ziyarət edib.

Məlumat verilib ki, 1929-1938-ci illərdə inşa olunmuş Millətlər Sarayı dünyanın ən böyük ictimai binalarından biridir və onun yerləşdiyi 46 hektar sahəyə malik Ariana parkı Cenevrənin ən böyük parkları sırasındadır. Millətlər Sarayının binasında və Ariana parkında 2000-dən çox incəsənət, rəsm və heykəltaraşlıq əsəri nümayiş olunur. Bu zəngin kolleksiya BMT-nin əsas dəyərləri olan sülh, bərabərlik, inkişaf, tərəqqi, azadlıq, insan hüquqları, ətraf mühit kimi mövzuları əhatə edir.

Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 25-ci ildönümü münasibətilə hədiyyə edilmiş abidənin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayevdir.

**x x x**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin Cenevrə bölməsinin kitabxanasına Azərbaycan haqqında kitablar hədiyyə edib.

Kitabxananın müdiri Françesko Pisano kitabxananın fondunu zənginləşdirən nəşrlərə görə minnətdarlıq edib və kitabxananın tarixi barədə məlumat verib.

Bildirilib ki, kitabxananın fondunda bir çox mühüm sənədlər, eləcə Paris sülh konfransına aid arxiv sənədləri saxlanılır. Həmin arxiv Azərbaycan üçün misilsiz əhəmiyyətə malikdir. Çünki burada Azərbaycan Xalq Cümhuriyyətinə aid bir çox tarixi sənədlərin əslləri qorunur. Bu sənədlər sırasında Paris sülh danışıqlarında iştirak edən Azərbaycan nümayəndə heyətinin hazırladığı məktub və müraciətlər, xəritə və digər mühüm tarixi sənədlər mövcuddur. 2016-cı ildə həmin materiallar rəqəmsal formata keçirilib və onlayn kataloqa daxil edilib.

F.Pisano gələcəkdə kitabxana fondunun Azərbaycan haqqında daha çox kitabla genişlənəcəyinə ümidvar olduğunu bildirib.

***Cenevrə***

**Xalq qəzeti**. - 2022.- 15 iyun. - № 125. - S. 11.

## "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyət istifadəyə verilib

**İyulun 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.**

Yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 10a, 12, 14, 16 ünvanlarında 1000 nəfərdən çox sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 9 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, elektrik sistemi, qaz, su və istilik xəttləri yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 230 ədəd müxtəlif cinsli ağaclar və minlərlə kollar əkilib, 4000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında adi daşsarmaşığı və digər sarmaşan birkilər əkməklə "yaşıl səddlər" (green barriers) yaradılıb.

Qeyd edilməlidir ki, hava çirkləndirilməsinin azaldılmasında vacib rol oynayan yaşıllıqların ekoloji faydası ilə yanaşı ictimai sağlamlığın qorunması baxımdan da əhəmiyyətini nəzərə alaraq, IDEA şəhər yerlərində, xüsusən həyətlər, istirahət zonaları və təhsil müəssisələrindəki ağacəkmə aksiyaları çərçivəsində "yaşıl səddlərin" yaradılması təşəbbüsünə başlayıb. Yaşıl səddlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə səddlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarlar, söhbətgahlar və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı, həmişəyaşıl ağaclarla və digər bitkilərlə yanaşı hava çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək.

"Bizim Həyət" layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Respublika.** - 2022.- 6 iyul. - № 141. - S. 8.

**“Bizim həyət” layihəsi çərçivəsində Sabunçu rayonunda növbəti həyət abadlaşdırılıb**

Avqustun 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Şamil Kamilov küçəsi 5, 7, 9 və 11 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib elektrik sistemi, qaz, su və istilik xətləri yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 280 ədəd müxtəlifcinsli ağac və minlərlə kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə “yaşıl sədlər” (green barriers) yaradılıb.

Yaşıl sədlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə sədlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarlar, söhbətgahlar və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı, həmişəyaşıl ağaclarla və digər bitkilərlə yanaşı hava çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək.

Vətən müharibəsinin 19 yaşlı şəhidi Əkbər Hüseynovun anası Tahirə Hüseynova həyətlərinin abadlaşdırılmasına görə, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdarlığını bildirib: “Həyətin vəziyyəti heç ürəkaçan deyildi. Nə uşaqlar, nə də böyüklər üçün istənilən şərait yox idi. Hazırkı vəziyyət çox ürəyimizcədir. Uşaqlar üçün yaradılan şəraiti isə xüsusilə bəyəndim. Sağlam şəraitdə böyüyən uşaqlar gələcəkdə Vətənin keşiyində dayanacaq, müxtəlif sahələrdə xalqa xidmət edəcəklər. Odur ki, belə faydalı və xeyirli layihənin həyata keçirilməsinə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm”.

Qeyd edək ki, “Bizim həyət” layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

“Bizim həyət” layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

**Aytac Haqverdiyeva**

**AZƏRTAC**
**2022, 5 avqust**

## Bakıda “Bizim həyət” layihəsi çərçivəsində yeni həyət istifadəyə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət oktyabrın 4-də sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Xətai rayonu, General Şıxlinski küçəsi 57 və 59 ünvanlarında 1200 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri, onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 6 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 525 ədəd müxtəlif növ ağac və minlərlə kol əkilib, 4200 kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə “yaşıl sədlər” (green barriers) yaradılıb. Bu sədlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə sədlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarların, söhbətgahların və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı həmişəyaşıl ağaclarla və digər bitkilərlə birlikdə havanın çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək.

“Bizim həyət” layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Azərbaycan.** - 2022.- 5 oktyabr. - № 216. - S. 9.

## “Bizim həyət” layihəsinin növbəti ünvanı…

### IDEA-nın təşəbbüsü ilə Nərimanov rayonunda 700 sakinin yaşadığı həyət yenilənib

**Yaqut Ağaşahqızı**

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsinə uyğun olaraq aparılan abadlıq-quruculuq işləri çərçivəsində Nərimanov rayonu ərazisində küçə və parkların, məhəllə və binaların abadlaşdırılması, həyətlərin yenidən qurulması, yeni infrastrukturların yaradılması, yaşıllıqların salınması uğurla davam etdirilir.**

Oktyabrın 25-də “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. Nərimanov rayonu, Fətəli Xan Xoyski küçəsi 111, 111a, Əhməd Rəcəbli küçəsi 11 və 13 ünvanlarında 700 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən və bir vaxtlar təmirsiz, baxımsız vəziyyətdə olan bu həyət indi müasir, təmiz, abad və rahat görkəm alıb.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbolstadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri,müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib,elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 210 ədəd müxtəlif cinsli ağaclar və minlərlə kollar əkilib, 1500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yaşıl sədlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə sədlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarlar, söhbətgahlar və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı, həmişəyaşıl ağaclarla və digər bitkilərlə yanaşı, havanın çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək.

***Bəs, bu yenilik, gözoxşayan dəyişiklik haqqında sakinlər nə düşünür?***
***“İki sahil” sakinlərin təəssüratlarını təqdim edir.***

#### Elə bil başqa aləmə düşmüşük

Artıq 53 ildir bu binanın sakini olan **Tamilla Əhmədova** bildirdi ki, həm uşaqların, həm gənclərin, həm də yaşlıların istirahəti üçün həyətimizdə çox gözəl şərait yaradılıb: “Əvvəlki vəziyyətlə indikini müqayisə etdikdə elə bil başqa aləmə düşmüşük. Rayonumuzda görülən belə genişmiqyaslı abadlıq işlərinə, xüsusilə də çoxmənzilli binaların həyətlərinin təmir olunmasına görə ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdaram. Qonşularıma tövsiyəm odur ki, məhəlləmizin abadlaşması üçün çəkilən əziyyəti itirməyək. Gəlin, hamımız həyətimizin gözəlliyini qoruyaq. “

#### Həkim kimi demək istəyirəm ki, burada sakinlərin sağlamlığı üçün də bütün zəruri işlər görülüb

50 ildən çoxdur ki, bu binanın sakini olan **Vəli Xəlilov** həyətlərinin abadlaşmasına görə çox sevinclidir: “Əvvəl həyətimiz bərbad vəziyyətdə idi. Məhəlləmizdə müasir standartlara uyğun rahat və gözəl şərait yaradılıb. Yaradılan belə gözəl şəraitə, abadlığa, təmizliyə baxıb sevinirik. Yeni həyətimizdə uşaqlar üçün rəngarəng və maraqlı əyləncə zonası yaradılıb. Uşaqlarımız əylənir, yaşlılarımız isə dincəlir.

Həkim kimi demək istəyirəm ki, burada sakinlərin sağlamlığı üçün də bütün zəruri işlər görülüb. Abadlaşan həyətimizdə çoxlu yeni ağaclar əkilib, yaşıllıqlar salınıb. Sakinlərimiz adından həyətimizin gözəlləşməsində və yeniləşməsində zəhməti olan hər kəsə təşəkkür edirəm.

Sakin **Nazilə Hüseynovanın** sözlərinə görə, əvvəl binamızın həyəti bərbad vəziyyətdə idi: "Uşaqlarımızın oynamağı, yaşlılarımızın istirahəti üçün heç bir şərait yox idi. Həyətimizin hazırkı görkəmindən çox razıyam, burada çox gözəl işlər görülüb. Ən böyük dua "Allah razı olsun" kəlməsidir. Məhəlləmizin abadlaşmasında əməyi keçən hər kəsdən də Allah razı olsun, təşəkkür edirik. Bizim də borcumuzdur ki, həmrəy olub həyətimizdə yaradılan bu gözəl şəraiti qoruyaq.

**Həyətimiz abadlaşarkən təkcə böyüklər yox, uşaqlar da nəzərə alınıb**

Binanın yeni sakinlərindən olan **Almaz Eyvazova** vurğuladı ki, biz bir il öncə buraya köçəndə həyət çox bərbad halda idi. Ağaclar hamısı qurumuşdu. Məhəllədə gəzmək, dincəlmək üçün şərait yox idi. Artıq həyətimiz o qədər gözəl, təmiz və abaddır ki, uşaqlarımız asudə vaxtlarını ancaq burada keçirirlər, evə gəlmək istəmirlər: "Həyətimiz abadlaşarkən təkcə böyüklər yox, uşaqlar da nəzərə alınıb. Burada övladlarımız üçün oyun zonaları yaradılıb. Çox sevinirik ki, "Bizim həyət" layihəsinin növbəti ünvanı bizim məhəlləmiz oldu. Belə gözəl şəraitin yaradılması üçün zəhmət çəkən hər kəsə minnətdaram. Sakinlərimiz bu gözəlliyi qorusunlar, səliqəli olsunlar. Yaşıllığa zərər verməsinlər, əksinə qulluq etsinlər."

Apardığımız müşahidələr əsasında bu qənaətə gəldik ki, Nərimanov rayonu ərazisində abadlaşan və müasir görkəm alan həyətin sakinləri hazırkı vəziyyəti böyük razılıqla qarşılayırlar. Rayon sakinləri görülən işlərə görə ölkə başçısına, Nərimanov Rayon İcra Hakimiyyətinə öz dərin minnətdarlıqlarını bildirirlər.

"Bizim həyət" layihəsinə əsasən yenilənən həyətlərin abad və gözəl görkəmini, təmizliyini qoruyub saxlamaq isə bundan sonra sakinlərin başlıca vəzifəsi olmalıdır.

**İki sahil.**-2022.-26 oktyabr.-№196.-S.6.

## IDEA İctimai Birliyi "Sevincini bölüş" kampaniyasına başlayır

IDEA İctimai Birliyi tərəfindən Bakıda istifadəsiz oyuncaqların ianə verilməsi üzrə "Sevincini bölüş" xeyriyyə kampaniyasına start verilir. Kampaniya çərçivəsində şəhərin müxtəlif yerlərində xüsusi ianə qutuları yerləşdiriləcək, onlara toplanan oyuncaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlara təqdim ediləcək.

AZƏRTAC xəbər verir ki, oyuncaq ianələrinin qəbulu üçün ilk belə qutu bu gün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Gənclik Mall ticarət mərkəzində istifadəyə verilib.

Sözügedən qutulara insanlar övladlarının artıq istifadə etmədikləri və paylaşmaq istədikləri oyuncaqları yerləşdirə bilər. Bu cür xeyriyyə məqsədli təkrar istifadə qutularının yaxın vaxtlarda Bakının digər münasib yerlərində də quraşdırılması planlaşdırılır. İanə qutularına toplanan oyuncaqlar mütəmadi olaraq müxtəlif xeyriyyə təşkilatları və paylanma məntəqələri vasitəsilə uşaqlara paylanacaq.

Məlum olduğu kimi, tullantıların azaldılması, təkrar istifadəsi və təkrar emalına xüsusi önəm verən IDEA İctimai Birliyi tərəfindən bu istiqamətdə genişmiqyaslı təbliğat və təşviqat tədbirləri, kağız və plastik tullantılarının, işlənmiş batareyaların toplanaraq təkrar emala göndərilməsi, eləcə də geyim əşyalarının toplanaraq təkrar istifadəyə göndərilməsi üzrə layihələr həyata keçirilir.

Digər məhsullar kimi, yüksək tələbata malik olan oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu, həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərər ilə bağlıdır.

Bu xüsusda, IDEA İctimai Birliyi səhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır. İanə edilən oyuncaqların qutulara atmaqdan öncə təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir.

**Azərbaycan**. - 2022.- 2 noyabr. - № 240. - S. 1,7.

# İDEA “Yaşıl marafon”a start verdi

**Noyabrın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakıda “Ümumrespublika yaşıllaşdırma marafonu”nun (“Yaşıl marafon”) payız mövsümü üzrə ilk ağacəkmə aksiyası keçirilib.**

İlk gündə gənc könüllülərin iştirakı ilə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 300 ədəd zeytun və şam ağacları əkilib. Aksiyaya, Azərbaycanda səfərdə olan vəhşi təbiətin mühafizəsi üzrə İsveçrədə fəaliyyət göstərən “Bioparc Geneve” təşkilatının nümayəndələri də qoşulublar. IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Yaşıl marafon” kampaniyası çərçivəsində ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümlərində kütləvi ağacəkmə aksiyaları təşkil olunur.

Xatırladaq ki, ötən il “Yaşıl marafon” çərçivəsində ölkə üzrə 1 milyon ağac əkilmişdi. Bu il isə daha çox ting əkilməsi, digər irimiqyaslı yaşıllaşdırma işlərinin aparılması nəzərdə tutulur. Bu ildən layihə çərçivəsində yaşıl dəhlizlərin yaradılmasına, mürəkkəb relyefli, sərt yamaclı ərazilərdə ağaclıqların salınması ilə terras tipli əkinlərin həyata keçirilməsinə başlanılıb.

Layihənin əsas məqsədi yaşıllıq sahələrinin artırılması ilə yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunmasında maarifləndirilmə işinə töhfə verməkdən ibarətdir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 27-ci konfransı ərəfəsində təşkil olunan kütləvi ağacəkmələr, eyni zamanda, iqlim dəyişikliyinə səbəb olan istixana qazı tullantılarının azaldılması ilə bağlı qlobal fəaliyyətlərə dəstək xarakteri daşıyır.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

**Xalq qəzeti**. - 2022.- 3 noyabr. - № 241. - S. 9.

# "Yanğından yaşıllığa" kampaniyası çərçivəsində yanğına məruz qalmış meşə fondu torpaqlarında meşəbərpa tədbirləri davam edir

**IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə həyata keçirilən "Yanğından yaşıllığa" kampaniyası çərçivəsində ölkə ərazisinin yanğına məruz qalmış meşə fondu torpaqlarında meşəbərpa tədbirləri davam edir.**

İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, payız ağac əkini mövsümündə Şabran, Siyəzən, Quba, Xaçmaz, Qəbələ, Oğuz, Zaqatala rayonlarının yanğına məruz qalmış meşə fondu ərazilərində meşəbərpa tədbirlərinin həyata keçirilməsi məqsədilə hazırlanan xüsusi proqram çərçivəsində yanğınlardan zərər görmüş sahələr təmizlənərək əkinə hazır vəziyyətə gətirilir.

Bu gün Quba rayonunun yanğına məruz qalmış meşə fondu sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmilərinin, Quba Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşlarının, IDEA İctimai Birliyi və ETSN könüllülərinin iştirakı ilə 3 hektar ərazidə 350 kiloqram toxum səpilib.

IDEA İctimai Birliyi və ETSN-in birgə təşkilatçılığı ilə həyata keçirilən kampaniya zamanı meşə fondu torpaqlarının yanğına məruz qalmış ərazilərində hər bölgənin torpaq-iqlim şəraitinə uyğun, meşə təsərrüfatlarının tinglik sahələrində yetişdirilmiş palıd, fıstıq, vələs, ağcaqayın, qarağac, çinar, cökə, göyrüş, akasiya kimi müxtəlif cinsli ağacların əkilməsi, toxumların səpilməsi nəzərdə tutulub.

Təəssüf ki, yay mövsümündə isti və quraq hava şəraiti, əsasən də insan faktoru, ehtiyatsız davranışlar nəticəsində ölkənin müxtəlif bölgələrində meşə yanğınları baş verib və hektarlarla meşə fondu sahəsi yanğından zərər görüb.

Son illər iqlim dəyişmələri fonunda qlobal istiləşmə səbəbindən planetdə meşə yanğınları artır, ilbəil miqyası genişlənir. Bu şəraitdə insanların odla ehtiyatsız davranışı, yaşıllıqlara olan etinasızlığı daha çox ərazilərin yanğına məruz qalmasına, daha böyük fəsadların, o cümlədən ağacların məhvinə, ətraf mühitin və biomüxtəlifliyin, kənd təsərrüfatı sahələrinin ciddi zərər görməsinə səbəb olur.

Bu səbəbdən torpaq sahibləri, fermerlər, turistlər və bütün vətəndaşlar yanğın təhlükəsizliyi qaydalarına əməl etməli, yanğınlara şərait yaradan hallara yol verməməlidir.

Meşə ilə örtülü sahələr Azərbaycan ərazisinin 11,8 faizini təşkil edir. Meşələr bizi təmiz hava və sağlam məkanlarla təmin edir. Onlar suyu təmizləyir, torpaqlarımızı eroziya, daşqın və digər təhlükələrdən qoruyur, yerli və qlobal iqlim şəraitini tənzimləyir, planetimizin flora və faunasının 80 faizinə ev sahibliyi edir, yanacaq istifadəsindən əmələ gələn karbon qazının 1/3-ni udmaqla, iqlim dəyişikliyi ilə mübarizədə bizə kömək edir. Meşə ehtiyatları ölkəmizin, xüsusən regionların iqtisadi inkişafına və ümumiyyətlə insanların dolanışığına böyük töhfə verir.

Bütün bunları nəzərə alaraq, meşələrin bərpası və genişləndirilməsi üzrə həyata keçirilən tədbirlər bir çox Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusən də Məqsəd 3 (Səhiyyə və rifah), Məqsəd 13 (İqlim dəyişikliyi), Məqsəd 15 (Torpaq ekosisteminin mühafizəsi) və digər məqsədlərə nail olunmasına xidmət edir.

"Yanğından yaşıllığa" kampaniyasının təşkilatçıları hamını əvəzedilməz həyat mənbəyi olan meşələrimizi qorumağa, ölkəmizin və planetimizin dayanıqlı gələcəyini təmin etməyə dəstək olmağa çağırır.

**Xalq qəzeti.** - 2022.- 5 noyabr. - № 243. - S. 9.

## Azərbaycanda nəcib maralların reintroduksiyası həyata keçirilir

**Noyabrın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Şahdağ Milli Parkının İsmayıllı bölməsində nəcib maralların reintroduksiyası layihəsi çərçivəsində ilk maralların buraxılması mərasimi keçirilib.**

IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən reintroduksiya layihəsi nəcib maralların ilkin olaraq Şahdağ Milli Parkında xüsusi ayrılan yerdə adaptasiya dövrü keçməsini, daha sonra isə ölkənin müxtəlif bölgələrində maralın tarixən məskunlaşdığı yerlərdə təbiətə buraxılmasını nəzərdə tutur. Buraxılan ilk marallar Bakı Zooloji Parkı tərəfindən Azərbaycanın nadir və nəsli kəsilməkdə olan fauna növlərinin çoxaldılması üzrə IDEA İctimai Birliyi ilə əməkdaşlığı çərçivəsində təqdim edilib.

Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilən maral keçmiş dövrlərdə Böyük və Kiçik Qafqazın, eyni zamanda, Talış dağlarının, Kür və Araz çaylarının tuqay meşələrində yaşayıb. Talış meşələrində sonuncu maral 100 il əvvəl, 1922-ci ildə vurulub. Hazırda nəcib maralların yaşama qabiliyyətli populyasiyalarına yalnız Böyük Qafqazda rast gəlinir. Bu dəyərli növün meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, onun populyasiyasının bərpa edilməsi təbiətimiz üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Son vaxtlar nəsli kəsilməkdə olan fauna növlərinin populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə ölkəmizin müxtəlif yerlərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində reintroduksiya layihələri həyata keçirilir. Belə ki, 2022-2023-cü illər ərzində nadir fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, eləcə də, balıq və yırtıcı quş növlərinin öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Ümumiyyətlə, dövlət səviyyəsində Azərbaycanda reintroduksiya layihələrinə geniş diqqət ayrılır. Bu xüsusda, cari ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Cəbrayıl rayonu ərazisinə ceyranların buraxılması mərasimini qeyd etmək olar.

Eyni zamanda qeyd edilməlidir ki, 2019-cu ildən etibarən Qafqazda nəsli kəsilmiş zubrun təbiətə qaytarılması üzrə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan Nümayəndəliyi tərəfindən həyata keçirilən “Zubrların Azərbaycana reintroduksiyası” proqramı çərçivəsində Azərbaycana Avropanın müxtəlif yerlərindən zubrlar gətirilir. Həmin heyvanlar uğurla adaptasiya dövrünü keçir və aralarında təbii artım müşahidə edilir, iqlimləşmə müddətindən sonra isə onlar xüsusi adaptasiya zonasından vəhşi təbiətə buraxılır. Noyabrın 23-də daha 9 baş zubrun Azərbaycana gətirilməsi planlaşdırılır.

Nəcib marallar və digər qiymətli növlərin Azərbaycanda biomüxtəlifliyin daha da zənginləşdirilməsində rolunu nəzərə alaraq, layihənin təşkilatçıları ölkə ictimaiyyətini maralların sayının bərpa edilməsi, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işində dəstək olmağa çağırır.

**Xalq qəzeti.** - 2022.- 12 noyabr. - № 246. - S. 9.

## Leyla Əliyevanın təşəbbüsü ilə...

**Əsmər Qardaşxanova**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən daha bir həyət dünən sakinlərin istifadəsinə verilib.

Yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi, 120/116 və Qara Qarayev prospekti, 118 və 120 ünvanlarında 650 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 7 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 260 ədəd müxtəlif növ ağaclar və 15000-nə qədər kollar əkilib, 2400 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" yaradılıb.

**Azərbaycan.** - 2022.- 24 noyabr. - № 256. - S. 8.

## Bakıda ağacların qeydiyyatı və nömrələnməsi həyata keçirilir

### Leyla Əliyevanın iştirakı ilə layihə üzrə ilk ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihəyə start verilib.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin birgə əməkdaşlığı ilə həyata keçiriləcək layihənin əsas məqsədi yaşıllıqların mühafizəsinin təmin edilməsi, o cümlədən onlara müdaxilə hallarının azaldılması, dəqiq inventarın müəyyən edilməsi və məlumatların dürüstləşdirilməsi, reyestrin formalaşdırılması və aparılması, ictimai nəzarətin gücləndirilməsindən ibarətdir.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanın iştirakı ilə Bakının Nərimanov rayonunda yerləşən Atatürk parkında layihə üzrə ilk ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub.

Qeydiyyat işləri şəhərin inzibati ərazisində, o cümlədən park, yol kənarı və həyətyanı məhəllələrdə yerləşən bütün yaşıllıqlara şamil ediləcək. Proses əvvəlcədən təşkil edilmiş qruplar tərəfindən, hər bir ağacın üzərində xüsusi hazırlanmış nömrə etiketləri vurmaqla və həmin ağac barədə dürüst məlumatların elektron bazada yığılması ilə həyata keçiriləcək. Qeydiyyatın aparılması üçün ilkin ərazi olaraq Nərimanov rayonu seçilib.

Layihənin hazırlanması zamanı ABŞ, İngiltərə, Almaniya və Avstriya kimi ölkələrin bəzi yerli inzibati idarəetmə vahidlərinin təcrübəsi öyrənilib, oxşar metodikadan istifadə edilib.

Ağacların qeydiyyatı üçün xüsusi tətbiqdən istifadə edilir ki, həmin tətbiqlə çəkilən şəklin üzərinə ərazinin GPS koordinatları, saat və tarixi, həmçinin digər zəruri identifikasiyaedici məlumatları avtomatik olaraq əlavə olunur. Ağacların növü, ölçüləri, yaşı, vəziyyəti və s. məlumatlar yaşıllıqların uçot vərəqəsinə qeyd olunaraq mərkəzləşdirilmiş vahid sistemə daxil edilir.

Nömrələnmə ağaclara tam zərərsiz olan üsulla aparılır. Ağacın gövdəsinə vurulan etiketlər davamlı materialdan hazırlanır və üzərində ağacın nömrəsi və ağacın fərdi profilinə keçid üçün QR-kod əks olunur.

Qeydiyyata alınmış yaşıllıqlar haqqında məlumatların daxil edilməsi və ictimaiyyətə təqdim olunması üçün xüsusi veb-sayt yaradılır. Həmin veb-saytda ağaclar xəritə üzərində nümayiş etdiriləcək, onların hər birinin şəkli və bütün məlumatları əks olunacaq.

Məlum olduğu kimi, ağaclar iqlim dəyişikliyinə əks-təsir göstərir, biomüxtəlifliyin qorunmasına şərait yaradır, bizə təmiz hava verir və həyatımızı təmin edir. Hesablamalara görə, hər il insanlar tərəfindən kənd təsərrüfatı və digər məqsədlər üçün təxminən 15 milyard ağac kəsilir. Təəssüf ki, ölkəmizdə də yaşıllıqların qanunsuz məhv edilməsi halları baş verir ki, problemin tam və birdəfəlik həlli üçün ardıcıl və daha ciddi mühafizə və nəzarət tədbirlərinin keçirilməsi zəruridir.

Qeyd edilməlidir ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə səyləri ilə ölkədə yaşıllıqların qorunması istiqamətində ardıcıl tədbirlər, o cümlədən ağacların qanunsuz kəsilməsi və məhv edilməsinin qarşısını almaq məqsədilə “Ağacların kəsilməsinə yox!” proqramı, yaşıllıqların bərpası və genişləndirilməsi istiqamətində “Yaşıl Marafon”, “Yanğından Yaşıllığa” və digər layihələr həyata keçirilir.

Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihənin tərəfdaşları hər kəsi yaşıllıqların mühafizəsi və artırılmasına dəstək olmağa, təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

**Azərbaycan.** - 2022.- 31 dekabr. - № 288. - S. 26.

## Leyla Əliyevanın iştirakı ilə növbəti “Bizim həyət”in açılışı olub

**IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət martın 6-da sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında və tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Yenilənmiş həyət Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli, “Q” massivi, Süleyman Əhmədov küçəsində 1200 sakinin yaşadığı 21, 22, 23, 24, 25, 26, 27 nömrəli çoxmərtəbəli binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 7 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 1300 ədəd müxtəlif cinsli ağaclar əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsini səmərəli şəkildə azalda bilən minlərlə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə “yaşıl sədlər” yaradılıb.

Sözügedən layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**Azərbaycan.** - 2023.- 7 mart. - № 51. - S. 7.

**Paytaxtın Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində yeni həyət istifadəyə verildi**

Mayın 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən daha bir həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Məmmədəli Şərifli küçəsi, 84B və 84V ünvanlarında 600 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 5 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 1300 ədəd müxtəlif cinsli ağaclar, 4500 kol əkilib, 4000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında 2000 ədəd daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə hava çirklənməsinə qarşı "yaşıl səddlər" (green barriers) yaradılıb.

Həyətin sakini, Əməkdar müəllim Gülzar Kələntərli həyətin abadlaşmadan öncə baxımsız vəziyyətdə olduğunu deyib. "İndi isə həyətimizdə istirahətimiz üçün, vaxtımızı səmərəli keçirməyimiz üçün hər cür şərait yaradılıb. Buna görə həyətimizin bütün sakinləri adından Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdarlığımı bildirirəm", - deyə G.Kələntərli qeyd edib.

Həyətin digər sakini Sima Yusifova baxımsız bir həyətin əsl cənnət guşəsinə çevrildiyini deyib: "Bu gün sevincimizin həddi hüdudu yoxdur. Məhəlləmizin cənnət guşəsinə çevirdiklərinə görə əməyi keçən hər kəsə təşəkkür edirəm".

"Bizim Həyət" layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

**AZƏRTAC**
**2023, 23 may**

## Leyla Əliyevanın iştirakı ilə növbəti "Bizim həyət"in açılışı olub

**Oktyabrın 20-də IDEA İctimai Birliyinin təşəbbüsü ilə təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş növbəti həyət Binəqədi rayonu, Həmzə Babaşov küçəsi 12, 13, 14, 15, 16, 17, 19, 20, 21 ünvanında 3000 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmizlənməsi və abadlaşdırılması, şəhər ekologiyası üçün xüsusi əhəmiyyət kəsb edən yaşıllıq sahələrinin bərpası, sağlam həyat tərzinin təbliği, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin təmin edilməsidir.

Abadlaşdırılan növbəti həyətdə fiziki məhdudiyyətli və sağlamlıq imkanları zəif olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların əyləncəli vaxt keçirməsi üçün şərait yaradılıb, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 350 ədəd müxtəlif cinsli ağac və 3 min 750 ədəd kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən 3 min 50 ədəd adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

**Azərbaycan.** - 2023.- 21 oktyabr. - № 230. - S. 7.

## "IDEA" paytaxtın Sabunçu rayonunda yeni abad həyətin açılışını edib

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində aprelin 5-də Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində növbəti abad həyət sakinlərin istifadəsinə verilib.

Yenilənmiş həyət Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Sülh küçəsi, 4090/94-cü məhəllə, ev 3, ev 1/1, ev 2/7 ünvanlarında 820 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

AZƏRTAC xəbər verir ki, abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 219 ədəd müxtəlif növ ağaclar, 5500 ədəd kol və 2000 ədəd mövsümü güllər əkilib, 2050 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və hava çirklənməsini effektiv şəkildə azalda bilən 1200 ədəd adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" (green barriers) yaradılıb.

Xatırladaq ki, "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

2017-ci ildən etibarən icra olunan "Bizim Həyət" layihəsi çərçivəsində bu günədək 151 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

"IDEA" İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi "IDEA" İctimai Birliyinin qaynar xətti 1113 və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

**AZƏRTAC**
**2024, 5 aprel**

## Növbəti mərhələ Qəbələdə keçiriləcək

## IDEA İctimai Birliyi "Gənc arıçı" layihəsinə yenidən start verir

**Günel Abbas**

Gənclərin bütün peşələrdə özlərini ifadə etmələri üçün zəruri məkanların yaradılması çox vacibdir. Gənclər elm, mədəniyyət, ədəbiyyat və istehsal sahələrindən əlavə biznes və sahibkarlıqda da öz fəaliyyətlərini göstərə bilərlər. Görünən odur ki, dövlət gənclərin inkişafının qayğısına qalır. Gənclərin həm siyasətdə, həm də iqtisadiyyatın inkişafında rolunun artması üçün müvafiq tədbirlər görülür. Aydındır ki, bir ölkənin güclü iqtisadiyyata sahib olması üçün kommersiya təşkilatları müvafiq şəkildə inkişaf etməlidir.

Gənclərin də fikrincə, onlar iqtisadiyyatda daha uğurla təmsil oluna bilirlər. İqtisadçılar deyir ki, azad tənzimlənən iqtisadiyyatın əsasını özəl mülkiyyət təşkil etdiyindən, hər bir dövlət adıçəkilən sahənin inkişafını diqqət mərkəzində saxlayır və onun təşəkkül tapması üçün lazım olan dəstəyi verməyə çalışır.

Bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni, özəl sahibkarlığı əhatə edən sahələrdə fəal iştirak edir. Gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır. Artıq respublikamızda fəaliyyət göstərən gənclər təşkilatları, ictimai birliklər ölkəmizdə vətəndaş cəmiyyətinin qurulmasına, özəl sahibkarlığın inkişafına töhfələrini verir. Ölkədə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır.

Son vaxtlar Azərbaycan dövləti gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir. Gənc nəslin fiziki, sosial və mənəvi inkişafını təmin edən fəaliyyət sahələrinin istiqamətləndirilməsi, gənclərin dünya dəyərlərinə yiyələnməsi, onların geniş imkanlara malik olan iş adamlarına çevrilməsi və digər bir sıra mühüm məsələlər qarşıda duran əsas vəzifələrdəndir.

Yeri gəlmişkən, "Yaşıl dünya naminə həmrəylik ili" və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2021-ci ildən etibarən həyata keçirilən "Gənc arıçı" layihəsinin icrasına bu il Qəbələ rayonunda başlanılacaq.

Layihə gənclər və gənc ailələr üçün arıçılıq təsərrüfatının yaradılması və düzgün inkişaf etdirilməsinə istiqamətlənib. Layihə çərçivəsində nəzəri və praktiki təlimlərə cəlb olunması nəzərdə tutulan 20 gənc ailə bir aylıq kurs müddətini tamamladıqdan sonra arıçılıq təsərrüfatı üçün lazım olan arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər lazımi ləvazimatlarla tam təchiz olunacaq və gənc arıçılara istehsalat prosesini effektiv icra etmələri üçün lazımi şərait yaradılacaq.

IDEA İctimai Birliyi, Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və "ABAD" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə həyata keçirilən layihənin məqsədi biomüxtəlifliyin qoruyucusu olan arıların Azərbaycanda arealını artırmaq, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi Azərbaycanın bölgələrində yayılmasını təşviq etmək, təbii bal istehsalının təmin olunmasına dəstək vermək, gənc ailələrin maddi rifahının yaxşılaşdırılmasına töhfə vermək və gənclərin məşğulluğunu təmin etməkdir.

Gənc ekosahibkarlar iki il ərzində təbii artım vasitəsilə pətək saylarının çoxaldılması üçün mütəmadi olaraq təsərrüfatları mütəxəssislər tərəfindən monitorinq olunacaq və onlara lazımi məsləhətlər veriləcəkdir. Bazar iqtisadiyyatı şəraitində rəqabətə davamlı bal istehsalı mərhələsinə çatdıqda yeni arıçılara öz məhsullarını sərgiləməklə geniş müştəri bazasına çıxış əldə etməyə və satışın səmərəli təşkilinə köməklik göstərilməsi planlaşdırılıb.

Məlumdur ki, arı və digər tozlandırıcılar biomüxtəlifliyin mühafizəsində vacib rol oynayır və arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan ən təhlükəsiz, eyni zamanda faydalı növü hesab edilir. Bunu nəzərə alan IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə arıçılığa dəstək məqsədilə ölkədə nektar verən ağacların əkilməsi üzrə kütləvi ağacəkmə aksiyaları keçirir və ekosistemdə vacib rol oynayan arıların qorunmasında hər birimizi aktiv iştirak etməyə çağırır.

Layihədə iştirak etmək istəyən gənclərin 10 aprel 2024-cü il tarixinədək müraciətlərini IDEA İctimai Birliyininin qaynar xətti 1113 və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərmələri və yaxud Qəbələ Rayon Məşğulluq Mərkəzinə yaxınlaşaraq qeydiyyatdan keçməsi xahiş olunur.

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır

**Yeni Azərbaycan.-**2024.-10 aprel.-№63.-S.5.

**“Bizim həyət”: Baxdıqca insanın ürəyi açılır**

**Layihə çərçivəsində 152 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib**

**Cavid Əkbər**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi paytaxt Bakı şəhərində uğurla davam edir.

“Bizim həyət” layihəsi çərçivəsində həyətlərin abadlaşdırılması layihəsinə vətəndaşların marağı hədsizdir. Bunun üçün hansı prosedurdan keçmək vətəndaşları maraqlandıran vacib məsələlərdən biridir. Təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsinə qoşulmaq üçün vətəndaşlar “IDEA” İctimai Birliyinin qaynar xətti “1113”ə müraciət etməlidir. Yaxud öz həyətlərinin fotoşəkillərini, o cümlədən həyətin dəqiq ünvanını və öz ad, soyad və əlaqə nömrələrini əlavə etməklə info@ideacampaign.org emailinə göndərməlidirlər. Bu zaman müraciət məsul departament nümayəndələri tərəfindən dərhal siyahıya əlavə olunacaqdır. Prosedur olduqca sadə və şəffafdır. Belə ki, həyət baxımsız və abadlaşdırılmağa ehtiyacı olan həyətdirsə, yuxarıdakı qaydada müraciət etməkdən əlavə heç bir addıma ehtiyac yoxdur.

2017-ci ilin sonunda start verilən layihəyə həmin vaxtdan etibarən davamlı olaraq müraciətlər daxil olur. Bu müraciətlərə isə növbə prinsipi əsasında və mütləq şəkildə baxılır. Müraciətlərin yüzlərlə olmasını nəzərə alaraq müraciətçilərin müəyyən vaxt gözləmələri tələb edilir. Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində bütün həyətlərin açılış mərasimləri zamanı orada sakinlər və IDEA könüllülərinin köməyi ilə çoxsaylı ağac və kollar əkilir. Layihə çərçivəsində şəhərin bütün digər abadlaşdırılmaya ehtiyacı olan həyətlərinin yaxşılaşdırılması nəzərdə tutulur. Həyətlərin abadlaşdırılaraq təhvil verilməsi nə qədər vacibdirsə, onların məhz həyət sakinləri tərəfindən qorunması, salınan yaşıllıqlara diqqət və qayğının göstərilməsi, əkilən ağac və kolların mütəmadi olaraq suvarılması, həyətin təmiz saxlanmasına riayət olunması da bir o qədər vacibdir. Buna görə də, bütün “Bizim həyət” sakinləri yaradılan şəraitə qayğıkeş münasibət göstərərək səmərəli istifadə etməyə çağırılır.

“İki sahil”in sorğusuna cavab olaraq Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, “Bizim həyət” layihəsi çərçivəsində bu günədək 152 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib. “Bizim həyət” layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan bütün həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb. Eyni zamanda, həyətyanı sahələrdə söhbətgah, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb.

Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

**İki sahil.-**2024.-31 may.-№96.-S.5.

# IDEA "Sevincini bölüş" kampaniyası çərçivəsində uşaqlar üçün növbəti aksiya keçirib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Sevincini bölüş" kampaniyası çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün növbəti aksiya keçirilib.

IDEA-nın təşəbbüsü ilə şəhərin müxtəlif yerlərində qoyulmuş oyuncaq ianə qutularından toplanan istifadəyə yararlı oyuncaqlar həssas qruplardan olan uşaqlara mütəmadi olaraq təqdim edilir.

"1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibəti ilə təşkil olunan aksiya çərçivəsində sözügedən qutulara toplanılan oyuncaqlardan ibarət hazırlanan 61 ədəd hədiyyə qutuları "Ümid yeri" uşaq sığınacağının azyaşlı sakinlərinə paylanılıb.

IDEA İctimai Birliyi xüsusi qayğıya ehtiyacı olan uşaqların sevincinə səbəb olan, onlara təbəssüm bəxş edən, bayram ab-havası yaradan bu təşəbbüsə dəstək verən və kampaniyanın uğurla həyata keçməsində fəal olan hər bir iştirakçıya minnətdarlığını bildirir. Məlum olduğu kimi, IDEA İctimai Birliyi tullantıların azaldılması, təkrar istifadəsi və təkrar emalına xüsusi önəm verir, bu istiqamətdə geniş miqyaslı təbliğat və təşviqat tədbirləri, kağız və plastik tullantıların, işlənmiş batareyaların toplanaraq təkrar emala göndərilməsi, eləcə də geyim əşyalarının toplanaraq təkrar istifadəyə göndərilməsi üzrə sosial layihələr həyata keçirir.

Digər məhsullar kimi, yüksək tələbata malik olan oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu, həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərər ilə bağlıdır.

Bu xüsusda, IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır. İanə edilən oyuncaqların qutulara atmaqdan öncə təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir.

Qeyd edək ki, "Sevincini bölüş" oyuncaq ianə qutuları paytaxt ərazisindəki "Dəniz" Mall, "Gənclik" Mall, "28 Mall", "Zefir" Mall ticarət mərkəzlərində yerləşir.

**Azərbaycan.** - 2024.- 2 iyun. - № 115. - S. 5.